# KOMANDİR

roman

Şərif Ağayar

Redaktor: İlham Tumas

Əfsanəvi kəşfiyyatçı, Aprel şəhidi, polkovnik-leytenant Raquf Orucova həsr olunmuş “Komandir” romanı real faktlar əsasında qələmə alınıb. Əsərdə R.Orucovun həyatının və 25 illik mübarizəsinin bir qismi öz əksini tapıb. Üslubuna və quruluşuna görə ənənəvi olmayan romanın maraqla qarşılanacağına inanırıq.

Kitabın çapında göstərdiyi dəstəyə görə “Veysəloğlu” Şirkətlər Qrupuna təşəkkürümüzü bildiririk

*Musa yaxınlıqdakı dağda ağ işıq gördü*

# BİRİNCİ HİSSƏ

Anamın itkin düşdüyünü eşidəndə səngərin yüz addımlığındakı uçurumun kənarından başımı çıxarıb bizi dayanmadan atəşə tutan düşmənin hərəkət istiqamətini izləyirdim. Xəbəri gətirən əsgəri tanımadım. Görünür, təzələrdən idi. Ön xəttə yeni gəldiyi hər hərəkətindən bəlli olurdu. Sürünə-sürünə yaxınlaşanda xeyrə gəlmədiyini anladım. Ağzını qulağıma yaxınlaşdırdı:

"Cinlini alıblar!"

Düşmənə görünməsindən qorxub başını aşağı basdım, mənə qısılıb sözlərinin qalanını asta səslə sanki torpağın qulağına pıçıldadı:

"Hamı Çulluya qaçıb, ananla qardaşın yoxdur!"

Başımdan küt ağrı tutdu, nəfəsim tıncıxdı, ayağa qalxıb qışqırmaq istədim, bacarmadım.

Düşmən bütün istiqamətlərdən üstümüzə gəlirdi. Cəbhə boyu qanlı döyüşlər getdiyi vaxt hər cür xəbərə hazır idim, buna yox. Axı anam kənddə deyildi. Təhlükədən uzaq olsun deyə onu Qənbərlidə qohum evinə qoymuşduq. Döyüş gedən yerdə nə işi vardı? Qohumlar hardaydı? Bəlkə, Qənbərlini də dağıtmışdılar?

Ətrafdakı daşları sərçə civiltisiylə yalayıb keçən güllələrə məhəl qoymadan ayağa qalxıb piyada bölüyünün qərar tutduğu səngərə qaçdım. Əsgərin söylədiklərini burda da təsdiq etdilər: Düşmən Cinliyə qəfil hücuma keçib, kənddəkilər Qənbərliyə qaçıb, anamla kiçik qardaşım Zabil yoxdur!

Bölüyün "Niva"sına minib Çulluya yola düşdüm. Bədənimin bütün əzaları sızıldayırdı. İçimdə mərmi partlamışdı elə bil. Ayağımdakı qəlpələrin giziltisi artmışdı.

Zabil evimizin balacasıydı. Civə kimi qaynayan şirin, diribaş uşağıydı. Ona qoşulanda mən də nadinclik

edirdim. Atam bəzən soyuğa-sazağa baxmadan bizi bayıra qovurdu. Qaçırdıq zirzəmiyə. Di gəl, orda da dinc dayanmırdıq. Gah küncə yığılan yeşikləri qurdalayır, gah pəncərəyə dırmaşır, gah qış üçün tədarük görülən banka bağlamalarını aşırırdıq. Atamın zabitəli səsi bizi zirzəmidə də haqlayır, ordan da perik salırdı. Tövlənin çardağına, ot bağlarının arasına - atamın səsi gəlib çatmayan yerə qaçırdıq. Anam haraylayırdı bizi, "soyuqlayacaqsınız" deyirdi. Onu eşitmirdik. Atamın üstünə qayıdırdı. Bizi evə çağırması üçün ona yalvarırdı.

Biz öz kefimizdəydik! Atamın hirslənməyinə də, anamın hay-harayına da, soyuqdan titrətməyimizə də gülür, nəyi var əylənirdik. Üşüməyək deyə tövlənin çardağındakı ot bağlarından evcik düzəldib altına soxulurduq. Zabil qucağıma girib pişik kimi büzüşürdü.

Ona bir şey olmasın.

Anam hardadırsa, gəlib çıxar. Zabil balacadır. Bəlkə, heç Qənbərlinin yolunu tanımır. Axı atam, qardaşım, kəndin döyüşçüləri onu necə qoyub gəliblər?!

Bircə maşın tez çatsaydı, qohumları Çulluda sağ-salamat görsəydim! Qalardı kəndimizi saxlamaq. Biz bunu bacarardıq! Lazım olsa, Abdal tərəfdə vuruşan batalyonumuzdan kömək istəyərdik.

Atam cəbhənin kənddəki dayaq dəstəsinə rəhbərlik edirdi. Lap əvvəldən hər cür silahı vardı; beşatılan, tapança, cürbəcür ov tüfəngləri. Döyüşlər başlayanda hardansa on-on beş avtomat da tapıb gətirmişdi. Onun başı əldə olsa kəndimiz, ailəmiz pərən-pərən düşməzdi. Bəs dayaq dəstəsi hardaydı? Onlar dura-dura niyə qadınlar, uşaqlar təhlükədə qalmışdı?

Yəqin, Cinliyə hücum olacağını gözləmirlərmiş. Mən özüm də gözləmirdim. İki il əvvəl başımızın üstündəki

Fərrux dağını da, dağın dibindəki Fərrux kəndini də almışdıq. Cinli təhlükədə deyildi. Düşmən mərmisi də tutmurdu kəndi.

Fərruxda ağır döyüşlər getmişdi, ayağımdan yaralanmışdım.

Maşın yubanırdı. Sürücünü tələsdirdim. Şirin ləhcəsiylə "Çatırıq, qaqa!" deyəndə canımdakı qəzəbli narahatlıq həzin bir kövrəkliyin içində əridi. Fərrux dağına, Yeddixırmana tərəf boylandım. Hər yan qaranlığa gömülsə də mən oraları görürdüm. O yerlərdən ötrü canımdan-qanımdan keçmişdim. Vaxtıyla quzu otarıb, bənövşə dərdiyim torpağa güllələrim sancılmış, qanım tökülmüşdü.

Yadımdadır, mən hələ orta məktəbdə oxuyanda atımızı örüşdə vurmuşdular, balası yanında qalmışdı. O vaxt müharibə başlamasa da, gediş-gəliş kəsilmişdi. Bizimkilər Fərruxa, ermənilər bizim kəndə rus əsgərlərinin müşayiəti ilə gedirdilər.

Atımız Fərrux dağının ayağında yıxılıb qalmışdı. Ora yaxınlaşmaq qorxuluydu. Bir yandan da Zabil dayçadan ötrü zülüm-zülüm ağlayırdı. Atam nə qədər sakitləşdirməyə çalışsa da, başına heç nə girmirdi. Axırda hövsələsi tükəndi, ona acıqlandı, Zabil daha bərkdən ağlaya-ağlaya həyətin bir küncünə çəkildi. Onun belə çarəsiz ağlaması məni qəhərləndirdi, yaxınlaşıb gözünün yaşını sildim, saçlarından öpdüm, dedim, narahat olma, gecə düşsün, gedib dayçanı gətirəcəm. Zabil kiriyib gülümsündü.

Gecə atamın beşatılanını götürüb getdim. Qorxmurdum, lakin ehtiyatı da əldən vermirdim. Ata görə gecə kiminsə gələcəyini təxmin edib pusqu qurardılar. Ətrafda xeyli müşahidə apardım. Bura bizim qo-

ruq sahəmiz olduğu üçün yaxşı tanıyırdım. Kim harda gizlənə, atın yanına yaxınlaşan adamı necə vura, necə tuta bilər, mənə aydın idi.

Qaranlığın dibinə yata-yata tünd-maviyə çalan üfüqü yoxlayır, yiyəsizliyə əmin olanda sürünürdüm. Bir müddət gedir, dayanıb bir də baxırdım.

Çəmənliyə uzanıb inildəyən atımız yorğun-yorğun nəfəs aldıqca qarnı dağ kimi qalxıb-enirdi. Balası onun başına dolanır, ayağa qalxması üçün burnuyla yavaşca itələyir, heç nə çıxmayanda boynunu uzadıb qan sızan yarasını qoxlayırdı. Arada balaca qulaqlarını şəkləyib kənddən gələn yola baxaraq hüznlə kişnəyirdi. Anası uzun boynunu yerdən ağır-ağır qaldırır, o da kişnəyib balasına hay vermək istəyir, lakin səsini çıxarmağa gücü çatmır, boğazında qaynadıb udurdu. Başqa vaxt yal-yalmanına toxuna bilmədiyim ürkəyən dayça onları xilas etməyə gəldiyimi anlayıb qarşımda dimdik dayandı. Təzə-təzə tellənən yalmanını oxşadım, yumşaq burnunu sevgiylə sıxdım. Əlimdəki ipi boynuna keçirib, nə qədər çəkdimsə, anasından aralanmadı. O zaman mən həyatımın ilk qəddar addımını atdım; ağrılar içində qıvrılan, başını heysiz-heysiz qaldırıb təzədən otların üstünə uzadan atın alnının ortasına bir güllə vurdum. Atın sinəsindən qopan inilti boğazına tıxanıb qaldı, dayça dik atıldı, həyəcanla kişnəyib güllə səsini batırmağa çalışdı. Güllənin səsi dayçanın səsinə qarışıb Fərruxun yaxasında əks-səda verdi.

Anası ölən kimi dayça quzuya döndü, onu yedəkləyib, sürətlə aralandım.

Bu əhvalatın üstündən iki-üç gün keçmiş Fərrux meşəsində təsadüfən Vartan adlı yaşlı bir erməniylə rastlaşdım. Ulaqla odun gətirirdi. O, bizim kənddə çox ol-

muşdu. Hamı ona Vartan kirvə deyirdi. Usta idi. Evlərin tavan-döşəməsini vurur, qapı-pəncərəsini düzəldirdi. Biz oyuncaq silah hazırlamaq üçün ondan taxta qırıqları alırdıq. Atamı yaxşı tanıyırdı.

Vartana dedim, bilərsən, bizim atımızı kim güllələdi? Gözlərini qıyıb üzümə diqqətlə baxdı, məni tanıyanda həyəcanlandı:

"Vay, Çaxangircan, sən burda nə edirsan?"

Atamın adı Cahangir olduğuna görə o, hamımıza belə müraciət edirdi.

"Ara, ela ki, sani gorallar, vurallar!"

Acıqlandım:

"Öz meşəmizə gəlməyim?"

"Ela demadım. Kandda saqqallı var."

"Atımızı onlar vurdu?"

"Başqa kim vuracax?"

"Vuran adamın adını bilirsən?"

"Bilmiram."

"Öyrənib mənə deyərsən?"

"Man bu işlərə qarışmıram. Allahı sevarsan, qoy yoluma gedım."

"Yox, Vartan kirvə, getməyəcəksən, səni Cinliyə aparacam, Cahangir kişiyə deyərsən dərdini."

Gəlmək istəmədi. Beşatılanı ayağa verib qaldıranda qorxdu:

"Bəs ulaq na olacax?"

"Kəndə ötür, özü qapıya gedər, yükünü açarlar."

Vartanı qabağıma salıb Cinliyə gətirdim, atamı görəndə ağladı, dedi, aramıza bu nifaqı salanın Allah evini yıxsın, gül kimi mehriban dolanırdıq.

"Yıxsın, ay Vartan, yıxsın!" - atam da narazı-narazı dilləndi və kənd adamlarının etirazına baxmayaraq, onu azad eləyib Fərruxa yola saldı.

Az keçməmiş, rus hərbçiləri töküldü kəndə. Dedilər, Fərruxdan adam gətirmisiniz. Atam dedi, ermənilərin fitnəsinə uymayın, buyurun, bu kənd, bu siz, evləri bir-bir axtarın, əgər erməninin özünü yox e, bir “dıqı”sını tapsanız, hökumətə cavab verməyə hazırıq.

“Sizdə silahlar var, təhvil verməlisiniz!” - rus əsgəri tərcüməçinin köməyi ilə atama xəbərdarlıq elədi.

“Kənddə cəmi beş-on ov tüfəngdir, hamısının sənədi var, arxayın bir vaxtda komandirinizin yanına gətirərəm” - atam təmkinini pozmadan söylədi.

Vartanın sorğusuz-sualsız azad edilməsi qüruruma toxunmuşdu. Üstəlik atam Fərrux meşəsinə getdiyimə görə məni möhkəm danladı. Oralar, doğrudan da, təhlükəli idi. Ancaq mən yenə getdim. Kəndin ayağındakı evlərin çəpərlərinə, odun yığınlarına, ot tayalarına od vurdum. Səhər rus hərbçiləri yenə gəldi. Bu dəfə məktəbimizin direktoru qabağa çıxıb onlara cavab verdi. Dedi, çəpərləri və ot tayalarını yandıran Fərruxdakı saqqallılardır. Məqsədləri iki qonşu kənd arasına nifaq salmaqdır. Siz cinayətkarı, qulduru orda qoyub, bizim üstümüzə gəlirsiniz. And da içdi. Çəpərləri atımıza görə mənim yandırdığımı heç kim bilmirdi. Bircə atam şübhələnmişdi. Ona görə, beşatılanı əlimdən aldı, əsgərliyə gedənəcən qaytarmadı. Vaysına-vaysına dediyi sözlər hələ də qulağımdadı:

“Qorxduğum başıma gəldi!”

“Nə olub ki?” - soruşdum.

“Sən toçnı dədəm Cavada oxşadın. O da belə dəcəlxəta olub! Heç kimin ağlına gəlməyən işlər eləyib.”

Atam mənə atası Cavaddan çox danışmışdı. Böyük vətən müharibəsində kəşfiyyatçıymış. Bədənində çoxlu qəlpə varmış. Bir neçəsini əməliyyatla çıxarıblar, biri

ürəyinə lap yaxın olduğundan toxuna bilməyiblər. Sol qabırğasının ucunu isə mərmi aparıbmış.

Babamın orden-medalları evdə dururdu. Hərdən köhnə çamadanı eşələyib çıxarır, yaxamdan asıb güzgünün qarşısında şəstlə dayanırdım.

Ömrümdə atamın üstünə yalnız bircə dəfə inadla getmişəm; hərbi səhra paltarına görə! Kənd könüllülərinə hardansa beş-altı dəst vermişdilər, ağlayıb birindən yapışdım. Anam sözümü dedi: "Uşaq candan olur, incitmə." Atam səsini çıxarmadı, birini götürüb geyindim. Əynimə yekə idi. Şalvarın ayaqlarını kəsdirdim, yanından aldırdım, pencəyi də birtəhər balacalaşdırdım. Hərbi formanı geyinəndə özümü yenilməz hiss edirdim. Əlimdə avtomat da olsaydı...

Kəndimizin işğal olunması və anamla Zabilin itkin düşməsi xəbərini aldığım dar macalda bu əhvalatları belə təfərrüatı ilə xatırlamağım özümə qəribə gəldi. Deyəsən, həyatım alt-üst olmuşdu və mən yavaş-yavaş bunun fərqinə varmağa başlamışdım.

***Zabil***

İtib-eləməmişdim. Ortancıl qardaşımla kənddəydik. Anam da Qənbərlidən Cinliyə gəlmişdi. Biz kənddə qalıb həm həyət-bacaya göz olur, həm də heyvan saxlayırdıq. Kənddə yalnız kişilər qalmışdı. Hamı ailəsindəki arvad-uşağı Qənbərliyə, ya da Çulluya aparmışdı. Anam da Qənbərlidə əmimgildə qalırdı. Ara sakitləşəndə gəlib evə baş çəkir, yır-yığış edir, yemək hazırlayır, bostan belləyir, inək sağır, həyətdəki meyvələrdən mürəbbə bişirir, axşam düşəndə geri qayıdırdı.

Gün əyilmişdi. Atam kənddə deyildi. Heyvanları örüşdən mən gətirəcəkdim. Qardaşım anamı kəndin ayağından Qənbərliyə ötürüb geri qayıtmalı, mal-qaranı yerbəyer etməliydi. Uzaqdan atışma səsi gəlirdi. Biz bu səslərə öyrəşmişdik. Xoşbəxtlikdən Fərrux dağı kəndimizi mərmidən qoruyurdu. Fərrux sıx meşələrə bürünmüş yamyaşıl bir dağ idi. Böyük qardaşım bu dağ uğrunda gedən döyüşlərdə iştirak eləmişdi. Əgər o və dostları olmasaydı, Cinlini çoxdan alardılar.

Deyilənə görə, böyük qardaşıma güllə dəymirdi. Səngərdən çıxıb düşmənin üstünə yeriyir, düşmən nə qədər atəş açır, onu vura bilmir, axırda silahını qoyub qaçmağa məcbur olurdu. Fərrux dağını da düşməndən beləcə almışdı. Gözünü qırpmadan... Düz üstlərinə gedə-gedə...

O, indi Abdal tərəfdə vuruşurdu. Anam onun üçün dua edir, bəzən gizli-gizli ağlayırdı. Axırıncı gün atışma səslərini eşidəndə də çoxlu dua etdi, əllərini göyə açıb Allaha yalvardı. Anam dua edəndə üzünü Yeddixırman dağına tuturdu. Yeddixırman qiblə tərəfdəydi.

Qardaşım anamı kəndin ayağından Qənbərliyə tərəf

keçirib geri qayıtmamış həyətimizə yad adamların doluşduğunu gördüm. Evimizi zəncirvari mühasirəyə alan qara paltarlıları əvvəl öz əsgərlərimiz sandım. Uşaq idim. On bir yaşım vardı. Yaxşı ki, onlara tərəf çıxmamışam. Hava qaraldığından məni görmədilər. Qaçıb bağımızdakı ağacların arxasında gizləndim. Asta addımlarla lap yaxınımdan keçdilər. Avtomatları evimizin qapısına, pəncərəsinə, tövləmizin dəhlizinə tuşlamışdılar. Birdən od yağdırmağa başladılar. Mən silahın bu qədər güclü səs çıxardığını ilk dəfə görürdüm. İçim şüşə qab kimi çiləkləndi, qulaqlarım uğuldadı. Həyətimiz alovların içində görünmürdü. Səsdən evimizin pəncərələri titrəyir, güllə dəyən yerlərdən suvaq qopub tökülürdü. Qorxsam da, özümü itirmədim, ağacların arasından üzümlüyə keçib var gücümlə Xaçın çayına tərəf götürüldüm.

Tənəklərin arasıyla qaçırdım. Bir-iki dəfə ayağım ilişdi, yıxıldım. Buna heç yıxılmaq da demək olmazdı. Uçdum. Əl-ayağımın cızılmasına məhəl qoymadan tez ayağa qalxıb təzədən qaçmağa başladım. Qorxudan ağlaya bilmirdim. Dilim-dodağım qurumuşdu. Birdən arxadan addım səsləri eşitdim. Daha bərk qaçmağa başladım. Mən möhkəm qaçdıqca addım səsləri də artırdı: "Tap-tup! Tap-tup". O səslərin mənə çatmaması üçün sürətimi getdikcə artırırdım.

Özümü sahildəki xəndəkdən çaya atanda "tap-tup"ların sinəmin altından gəldiyini anladım. Ürəyim heç vaxt belə bərkdən döyünməmişdi. Döş qəfəsimdə davul çalırdılar.

Suyun soyuqluğu məni ayıltdı, ölümdən xilas olduğumu anlayıb toxtadım. Az keçməmiş başqa bir təhlükəylə üzləşdim: çay məni aparırdı! Əl atıb nədənsə tutmağa çalışırdım və hər dəfə əlim boşa çıxırdı. Suyun axarıyla

gedə-gedə bir-neçə dəfə çabaladım, ayağım yerə dəydi, başımı qaldırıb üz-gözümün suyunu sildim, dərindən nəfəs alar-almaz təzədən suya batdım. Çayın axarı məni aparıb nisbətən dayaz yerə çıxaranda hər iki ayağımı yerə dirəyib ayaq üstdə durmağa çalışdım. Alınmadı. Bu dəfə özümü axara buraxdım və ayağım yerə dəydikcə təkanla qarşı sahilə tərəf atılmağa başladım. Beş-altı həmlədən sonra su sinəmdən aşağı endi, ayağa durub bir az nəfəsimi dərdim və o taya çıxdım. Ürəyimin gup-pultusu səngiməmişdi.

Çayın bu sahili mənə yad gəlirdi. Hara gedəcəyimi bilmirdim. Qeyri-ixtiyari kəndimiz tərəfə baxdım, ev-lərə iki-bir, üç-bir od vurmuşdular. Yəqin, qardaşımı da öldürüb alovların içinə atmışdılar. Nə yaxşı anam tez çıxmışdı, yoxsa onu da vurardılar.

Xaçının sahilində in-cin gözə dəymirdi. Yiyəsizlik də bir yandan qorxudurdu məni. Qaranlığın sirli va-himəsinə baxa-baxa "Ay ana!" deyib pıçıldadım və çay aşağı ayağım tutduqca qaçdım.

Xaçının sağ sahilində yerləşən Qənbərli kəndini tanı-yırdım, ancaq ora getməyə ürək eləmədim. Su anbarının yanından rayon mərkəzinə gedən yola tərəf irəlilədim. Mal-heyvanını qovalayan bir dəstə adamla rastlaş-dım. Onlara Cinlidən Cahangir kişinin oğlu olduğumu, ermənilərdən qaçdığımı söylədim. Səsim özümə qəribə gəldi. Deyəsən, öz səsimi eşitmirdim. Adamların da ağzı yalandan açılıb-yumulur, səsləri çıxmırdı. Onlar mənim çaşdığımı görüb əl işarəsi ilə Çullunu göstərdilər. Mən oraları təxminən tanıyırdım və qohumların Çulluya get-diyini bilirdim.

Uzaqdan işıqları görünən Çullu təhlükəsiz yerdəydi. İti addımlarla işıqlara tərəf getdim. Yol qurtarmaq bil-

mirdi. Qaranəfəs olmuşdum. Çulluya getmək üçün anbarın altındakı körpüdən keçib yuxarı qalxmalıydım.

Kəndin girəcəyində qohumların doğma səsini, hay-harayını eşidəndə sevindiyimdən ağladım və qışqıra-qışqıra onların üstünə qaçdım.

## *Komandir*

Zabili görəndə ürəyim yerinə gəldi. İnşallah, anam da gəlib çıxardı. Hələ kənd tərəfdə qaraltılar görünürdü. Düzdür, bunların çoxu döyüşçülər idi, amma arada kənd adamları da gözə dəyirdi.

Zabil suya-palçığa batıb tanınmaz hala düşmüşdü. Üstəlik ağlayırdı. O, dəhşətli hadisə görüb qorxmuş lal adama bənzəyirdi. Nəsə demək istəyirdi, bacarmırdı. Ağzını bir neçə dəfə açıb-yummaqla kifayətləndi və islanıb alnına yapışmış saçlarını qarışdırdı. Qohumlarsa təkidlə ondan anamı soruşurdular. Dedim, dəyməyin, bir az toxtasın, danışacaq.

Mən deyən oldu, Zabil danışdı, ancaq elə sözlər dedi, hamımız çaşıb qaldıq:

"Siz niyə ağzınızı yalandan açıb-yumursunuz? Səsiniz batıb?"

Mən onun bədəninə baxdım, yara-filan yox idi. Kontuziya alana da oxşamırdı. Güllə səsindən qulaqları batmışdı. Bir azdan hər şeyi təfərrüatı ilə danışdı. Onu qucaqlayıb nəm saçlarını qoxladım.

Yaxın-uzaqdakı hospitallara, xəstəxanalara xəbər saldıq, döyüşçülərdən soruşduq, anamdan xəbər çıxmadı. Necə ola bilərdi, bu qədər adamın içində onu heç kim görməsin? Axı kənddən çıxmışdı. Orda qalsaydı, ya əsir düşdüyünü, ya da öldüyünü düşünərdik.

Gecədən keçməsinə baxmayaraq, hələ də kənd tərəfdən gələnlər vardı. Düşmənin qəfil hücumu insanları bir-birindən ayrı salmışdı. Anamın da ya kiməsə qoşulub, ya da təkbaşına gəlib Çulluya çıxacağına ümid edirdik. Çullu ilə Qənbərlinin arası çox deyildi. Qənbərli bizdə olsa da, döyüşçülər heç kimin irəli getməsinə im-

kan vermirdilər. Təhlükəli idi. Mən gəlincə qardaşımla döyüşçülər arasında mübahisə düşmüşdü. Qardaşımda pulemyot vardı və o, anamın Cinli ilə Qənbərli arasında qaldığını düşünərək, irəli getmək, ona kömək etmək istəyirdi.

Döyüşçülər:

"Niyə anlamaq istəmirsən, oralarda heç kim yoxdur. Sən gözgörəsi ölümə gedirsən!"

Qardaşım:

"Mən necə başıpapaqlıyam ki, anamı düşmən gülləsinin altında qoyub burda rahat oturmuşam?!"

Döyüşçülər:

"Ananı göstər, gedib birlikdə xilas edək. Heç kim yoxdur orda."

Qardaşım:

"Mən gedirəm!"

Pulemyotu sinəsinə qaldırıb irəli atılır, bu vaxt batalyonun komandiri gəlir:

"Pulemyotu təhvil ver, hara gedirsən, get."

Qardaşım:

"Bu nə deməkdir? Məni düşmənin üstünə silahsız göndərirsiniz?"

Batalyon komandiri:

"Biz göndərmirik, özün gedirsən! Bilirsən pulemyot bizim üçün nə deməkdir? Biz o silahla Qənbərlini qoruya bilərik. Özünə hayıfın gəlmir, pulemyota gəlsin!"

Qardaşım silahı ayağa verir:

"Allaha and olsun, mənə yaxınlaşan olsa, qarnını gülləylə dolduracam!"

Və yenə irəli atılır. Bu vaxt mənim gəldiyimi xəbər verirlər, sakitləşir. Mən evin böyüyüyəm. Bizdə böyüyün yanında hamı kiriyir. Böyük haqsız olsa belə.

Qardaşım mənim qərarımı gözləsə də, pulemyotu yerə qoymamışdı. Yəqin, döyüşçülərin silahı ondan alacağından ehtiyat edirdi. Bunu özünə sığışdırmazdı.

Könüllülər əsgərlərlə çiyin-çiyinə vuruşurdular deyə, heç kim-heç kimin xətrinə dəymirdi. Həm də Cinli tərəfdəki batalyonun uşaqları hamını yaxşı tanıyır, qardaşımın anamıza görə çılğınlıq etməsinə səbrlə dözürdülər.

Qardaşımdan fərqli olaraq, mən soyuqqanlı idim və nə edəcəyimi bilirdim. Çünki anamın yerini kəndə ayaq basan kimi öyrənmişdim.

Qardaşım anamı ötürüb qayıdanda Cinliyə hücum olduğunu görüb və örüşdə zənn etdiyi Zabilin dalınca qaçıb. Zabili orda görməyincə Xaçın çayının sahilinə enib, sahil boyu düşməndən gizlənə-gizlənə Qənbərliyə gəlib. Əslində, o, anamdan yox, Zabildən narahat imiş. Anamı kimdənsə soruşmaq ağlına da gəlmirmiş. Handan-hana yadına düşüb ki, bəs Qənbərli camaatı da təhlükədədir, hamı arvad-uşağı Çulluya göndərir. Onda əmimgilə qaçıb, anamın gəlib çıxmadığını öyrənib və yubanmadan hər yana xəbər salıb.

Təxminimə görə, Zabil Xaçına ondan tez çatıb. Qənbərli yolunun təhlükəli olduğunu düşündüyü üçün çayı keçib, üzüaşağı xeyli gedib, Xaçınçay anbarının altından Çulluya qalxıb.

Zabil onun həyətdə olduğunu bilə-bilə geri gəlməyən qardaşımıza baxıb titrək səslə soruşdu: "Məni niyə qoyub qaçdın?" Qardaşım vəziyyəti izah etmək istədi, yadına düşəndə ki, Zabilin qulaqları hələ açılmayıb, dizlərini yerə atdı, onu bağrına basıb inildədi.

Zabili Çullu kəndində qoyub Qənbərliyə getdik. Düşmən çox güclü həmlələr edirdi, bizimsə müqavimət göstərməyə silahımız, texnikamız çatmırdı.

Biz Qənbərlinin Cinliyə tərəf çıxacağına toplaşıb alovlanan evlərə baxırdıq. Yana-yana uçuşub gecənin bağrını dələn güllələr, partlayanda ətrafa işıq saçan mərmilər hər dəfə bir doğma mənzərəni göstərib tez də qaranlığa təslim edirdi. Həyatımın bir parçası bombardman altında qalmışdı. Uşaqlığım, anamın qışa bağladığı bankalar, atamın hökmlü səsi, dayçamızın Fərruxda əks-səda verən kişnərtisi, boynu xınalı inəklərimiz... Saymaqla bitərdimi? Uşaqlığımın ötüb-keçdiyi yerlər düşmən mərmiləri altında inildəyə-inildəyə can verir, mənsə əlacsız-əlacsız tamaşa edirdim.

Anam da orda qalmışdı, sonuncu atəşin işıqlandırdığı o düzənlikdə.

*Sevinc*

Onunla heç vaxt anası haqqında danışmağa ürək eləmirdim. Ana kəlməsi işlənəndə dəyişib başqa adam olurdu. Susurdu. Qüssələnirdi. Tək qalmaq istəyirdi. Anası yalnız ona aid olan sehrli bir nəğməydi. Bölüşmürdü bu nəğməni. Sehrini itirəcəyindən qorxurdu.

Briqada komandirliyindən çıxarıldığı gün dedim, ərizəni yaz, orduyla vidalaş, sənin dəyərini bilən yoxdur. Həm də yaşlanırıq artıq, uşaqlarımız böyüyür. Sən bu vətənin borcunu artıqlaması ilə vermisən.

İyirmi beş il heç kimə zarafat gəlməsin. İyirmi beş il! İnsan bezməzmi, yorulmazmı, usanmazmı?! Bu necə sevgi idi? Başqasının anası yox idimi? Başqasının anası şəhid olmamışdımı? Başqasının qəbri düşmən tapdağında qalmamışdımı?

İyirmi beş ilin on yeddi ilini bir yerdə yaşadıq və bu on yeddi ildə bir dəfə də olsun onun istəyinin əleyhinə getmədim. Amma bu xına o xınadan deyildi. Dirəşmişdim. Mənim hardasa haqlı olduğumu bilirdi, ona görə dinmirdi. Almaz kimi sərt baxışlarının bir balaca yumşaldığını görüb, ürəkləndim, əllərindən tutdum, düz gözlərinin içinə baxdım, başını aşağı saldı, üzünü görmək üçün mən də əyildim və ona yalvardım:

“Xahiş edirəm, bizi də nəzərə al. Məni, balalarını... On yeddi ildir səni gözləyirəm. Gözüm yolda, qulağım səsdə qalıb. Balaların efirdən oxunan şəhid siyahılarını ürəkləri əsə-əsə dinləyirlər. Hər dəfə adını eşitməyəndə Allaha necə dua edirlər - bir görəsən. Vətənə iyirmi beş il qulluq elədin, bizə də bir az vaxt ayır. Heç nəyini istəmirik, quru nəfəsin olsun evimizdə, bizim də ocağımız isinsin, divarlar üstümüzə gəlməsin.”

Gözlərimdən yaş süzüldü, özümü ələ alıb kiriyə bilmirdim, cümlələrimin qalanını hıçqıra-hıçqıra dedim:

“Xahiş edirəm səndən...”

Necə ah çəkdisə, dedim, ürəyi ağzından uçub gedəcək. Qalxıb pəncərəyə yanaşdı. Əllərini arxasında tutub uzaqlara baxdı. Bu on yeddi ildə ilk dəfə onun səsində bu qədər ağrı hiss edirdim:

“Bəs anam?!”

Əllərim boşaldı, dilim tutuldu, gözlərim qurudu. Ona dediyim sözlərdən utandım. Arxadan yanaşıb qollarımı boynuna saldım, saçlarını qoxladım. Bu dəfə səssiz, içimdə ağlayırdım və onun kürəyini peşmançılıq göz yaşlarım isladırdı. Əlimi sinəsinin üstündə tutub sıxdı, “Sən güclü qadınsan, belə eləmə. Sən güclü olmasan, mən səngərdə ürəklə dayana bilmərəm!” - söylədi. Və bu sözləri elə ürəkdən, elə səmimiyyətlə söylədi ki, astadan bircə kəlmə “Bağışla” deyib otaqdan qaçdım.

Axı mən niyə belə etdim? Qohum-qonşunun haylı-küylü ailə həyatımı, əri ilə qol-qola bulvara, kinoya, toylara, restoranlara gedən qadınların səadətimi, uşaqlarımın ata ehtiyacımı aldatdı məni? Vətəninəmi qısqanırdım onu, anasınamı vermək istəmirdim? Bəlkə, bizi biryolluq tərk edib anasının yanına gedəcəyindən qorxurdum? Elə bil bir az əvvəl Xındırıstanda ona söz verən qadın mən deyildim.

Komandir olduğu hərbi hissə kəndin yaxınlığındaydı. Zabit ailələri bir istiqamətdə ev kirayələyib yaşayırdı. Hamımız qonşu idik. Anasının şəhidliyinin onuncu ilində yaxın bildiyim qadınlardan çağırdım, köməkləşib halva çaldıq, qonşulara payladıq. Həmin gün həm də Cinli kəndinin işğal günüydü. İyunun 12-si...

Maşınının səsi gəldi. İçəri keçdi. Yorğun idi. Divanda uzanar-uzanmaz gözü stolun üstündəki halva boşqablarına sataşdı:

"Bu nədir?" - maraqla soruşdu.

"Ananın ölüm günüdür..." - dedim çəkinə-çəkinə.

Divanda qalxıb oturdu, alnını əllərinin arasına alıb hönkürə-hönkürə ağladı. Onda da qaçıb otaqdan çıxdım. Onun nəinki ağlamağına, kədərlənməyinə də dözə bilmirdim. Az keçməmiş məni səslədi, saçlarımı sığallayıb göy üzü kimi aydın gözlərini sevgiylə üzümə dikdi:

"Yaxşı ki, anamı unutmursan. Bu, məni xoşbəxt edir. Həmişə belə ol. Yaxşı?"

"Yaxşı" deyib gülümsədim, yanağından öpdüm və onu ən böyük səadətim kimi qucaqladım.

***Komandir***

Kənddəki həyətimizdə güllələdiyim qara pişik yenə yuxuma girmişdi. Qulağından və ağzından qan axa-axa çığırırdı. Ömrümün lənəti idi bu pişik! Hər dəfə yuxuda görəndə başıma ağır bir hadisə gəlirdi. Bir dəfə ayağımdan yaralandım, bir dəfə qılçalarıma qəlpə doldu. Onda Özbəkistandan təzə gəlmişdim. Sovet hərbi hissəsini icazəsiz tərk etdiyimə görə başımı sığallamayacaqdılar. Amma mən heç kimdən yox, atamdan çəkinirdim. Ona nə deyəcəkdim? Vətən, torpaq nağılları qulağına girməzdi. İcazəsiz gəldiyimə görə hərbi tribunaldan əvvəl özü cəzalandırardı məni. Aranzəmin döyüşlərində yaralananda da bunu atamın qorxusundan hamıdan gizlətmişdim. Atam bilsə, yaxamdan tutub soruşacaqdı: "Aranzəmində nə gəzirdin?" Axı o, məni öz ayağıyla batalyona gətirib, piser qoydurmuşdu. İşim-gücüm yazı yazmaq olacaqdı.

Kişinin məntiqinə baxın!

Özbəkistandan Ağdama yazı yazmağa gəlmişdim!

Yazı yazacaqdımsa, elə Özbəkistanda oturub yazardım də. Müharibə yox, döyüş yox. Hətta atama bir şeir də həsr edərdim.

Cahangir kişinin qorxusundan yaralarım sağalanacan kəndə getmədim. Anamın da narahat olmasını istəmirdim. Mənə çox bağlıydı. Hər dəfə evə gedəndə "Sənə gələn mənə gəlsin" deyib, başıma dolanmaq istəyirdi, qolundan tutub saxlayırdım, "Allaha ağır gedər, belə eləmə" deyirdim. Məni qucaqlayıb qoxlayır, içini titrədərək ağlayırdı. Onun sevgisindən qorxurdum. Yaralandığımı görsə, kiridə bilməzdim.

Yekə kişi oldum, atamın səsi gələndə yenə içimdən üşütmə keçdi. Gözümüzün odunu uşaqlıqdan almışdı. Mən atamın sərtliyinin faydasını sonralar, müharibənin ən çətin anlarında hiss elədim və bu dünyada atamdan artıq heç kimdən və heç nədən qorxmadım.

Futbol oynayıb yorulmuşdum. Zabili qapıya keşikçi qoyub yatdım. Dedim, dədəm gələndə xəbər elə, məni yatdığım yerdə tutmasın. Yatan uşaq gözünün düşməniydi. Az qala silahını çəkib vuracaqdı. Yuxunun ən şirin yerində Zabil qışqırdı: "Cahangir gəlir!"

Atamın əsl adı İbrahimdir, lakin hamı onu Cahangir kimi tanıyır. Məncə, ikinci adı daha dəqiqdir. O, İbrahim peyğəmbər kimi oğlunu qurban verməz, amma istənilən cahangir kimi dünyanı tutmağa iddialıdır. İmkanı ola, küllü-aləmi qarşısında baş əydirər.

Cahangir çox zəhmli kişiydi. Bir ayağının axsaması onu lap qorxulu göstərir, Teymurləngə oxşadırdı. Ondan bütün kənd, hətta Fərruxun erməniləri də çəkinirdi. Səsi yüksələndə hamı gizlənməyə yer axtarırdı. Ancaq həm də çox istəyirdilər onu. Camaatın xeyir-şərinə yarayır, kasıb-kusuba əl tutur, mübahisə düşəndə ədalətli qərarlar verirdi. Kəndin toy-yas məclisləri üçün öz cibinin puluyla böyük mağar və samovar almışdı. Məni əsgərliyə yola salanda həmin o mağarı qurub bir məclis düzəltdi ki, gəl görəsən. Heç kimdən pul-para, hədiyyə-filan da qəbul eləmədi.

Zabil qışqırıb məni yuxudan oyadanda nə "ata" dedi, nə "dədə", "Cahangir" dedi və onun belə deməyi məni daha da qorxutdu. Sanki atam bir anlıq atalıqdan çıxıb, əsl cahangirə çevriləcək, əlində qılınc axsaya-axsaya yanıma gələcək, dərs oxumaq və iş görmək əvəzinə yan düşüb yatdığıma görə boynumu vuracaqdı. Yuxudan

ayılıb necə tullandımsa, ev cəhənnəm, həyətdə də dayanmadım, kəndin içinə doğru qaçdım. Sən demə, gələn atam deyilmiş. Zabil uzaqdan maşın səsi eşidib, atam olduğunu zənn edib.

Cahangir kişi kəndin xeyir-şərinə aldığı mağarla, samovarla təntənəli məclis düzəldib, Özbəkistana yola saldığı oğlunu bir il tamam olmamış kənddəki həyətində görəndə gözləri alacalandı. Necə heyrətləndisə, hirslənmək yadına düşmədi. Fürsətdən istifadə edib vəziyyəti ona başa saldım. Dədəmdən çıxmayan iş, heç bir etiraz etmədən fikrə getdi, çənəsini xeyli ovuşdurub dedi:

"Səni qaçaq kimi qələmə verərlər, gəl hərbi komissarlığa gedək."

Getdik. Əsgərlikdən qaçmadığımı, burda müharibə başladığı üçün geri qayıtdığımı bildirdim. Məni qeydiyyata alıb Allahverdi Bağırovun özünümüdafiə batalyonuna yazdılar. Məndən olsa, Şirin Mirzəyevin batalyonuna gedərdim. Onun haqqında çox eşitmişdim. Bir peşəkar kimi Şirin Mirzəyevdən hərbin sirlərini öyrənmək istəyirdim. Alınmadı. Atam Allahverdi Bağırovla yaxın olduğu üçün məni onun yanına apardı və qərargahda piser qoydurub dönə-dönə tapşırdı ki, öz işimlə məşğul olum. Yəni döyüşə-filana getməyim.

Amma döyüş başlayanda qərargahda heç kim qalmırdı. Hamı səngərə gedirdi. Mən də təcili yardım maşınına atılıb vuruşan əsgərlərin yanına qaçırdım. Silah çatışmırdı. Biz növbəylə döyüşməli olurduq.

Təcili yardım maşınını sürən Piriyev boydan balaca, arıq və cılız olduğu üçün onu səngərə buraxmırdılar. Maşının yanında var-gəl edib balaca əllərini ölçə-ölçə deyinirdi. Hərdən zarafatlaşırdım:

“Piriyev, hava qarışanda hündür yerlərə çıxma, külək səni atar erməni tərəfə, biabır olarıq.”

Qımışırdı, dalınca ciddiləşirdi:

“Görmürsən bunları? A kişi, güllə atmaq üçün pəhləvan olmaq lazım deyil eee... O qədər cəmdəklər görmüşəm, heç avtomatı saxlaya bilmirlər. Gəlin yoxlayın, ata bilmirəmsə, qoymayın səngərə!”

Qalın qaşlarını qaldırıb barmağını irəli uzadır, gözünü qıyırdı:

“Koppoğludu yalan deyən, spiçkanı vuraram!”

Silah səsləri ara verən kimi yenə zarafata keçirdim:

“Otuz iki kilosan, qaqa, sənin kimilərini ruslar arxa cəbhəyə də qoymurlar. Səni uzağı əsgərlərə siqaret almağa göndərərlər. Yaxşı qaça bilirsən?”

Piriyevin yarısı yerin altındaydı:

“Siz “esenqe” uşaqları bilməzsiniz, biz qaçmağa öyrəşməmişik. Güllə mənə yalnız sinəmdən dəyə bilər! Yekəliklə deyil!” - hirslənirdi - “Bir də belə danışsan, səni səngərə gətirməyəcəm!”

Söz verirdi, amma yenə gətirirdi.

Bəzən zarafatlarıma tez cırnayırdı və başını bulayırdı:

“Əh! Sən də onların tayısan!”

Çox vaxt qarşı tərəfdən gələn güllə səsləri söhbətimizi yarımçıq kəsirdi. Dəfələrlə olmuşdu, lap dalaşmaq həddinə gələndə atışma başlamışdı, Piriyev özünü məndən qabağa atmışdı.

Aranzəminə hücum planı səngərdə durub kiminsə silahı ilə atışmaq deyildi. Burda zarafata da vaxt qalmırdı. Artıq özümün silahım vardı və qanuni hərbi əməliyyata gedirdim.

Qara pişik onda girdi yuxuma və yaralandım.

Fərrux dağı uğrunda gedən döyüşdə yaralananda o

pişiyin çığırtısını eşitdim. Tüklərim biz-biz oldu. Elə bil qəlpələr pişiyin çığırtısından çıxıb ayağıma sancıldı. Əslində, yaralanmazdım, güllənin dolu kimi yağdığı vaxt yanımdakı əsgərin qəfil ayağa durduğunu gördüm. Yəqin, özünü itirmişdi, yoxsa ağlı başında olan belə hərəkət eləməzdi. Mən atılıb onu yerə yıxanda yanımıza mərmi düşdü və pişiyin çığırtısı eşidildi. O səsin varlığına o qədər inandım ki, yaralı-yaralı ölümdən qurtardığım əsgərdən pişik səsi eşidib-eşitmədiyini soruşdum. Əsgər nə dediyimi anlamadı.

Qəlpələr indi də ayağımdadır. Havalar soyuyan kimi sızıldayır və Fərrux döyüşü ilə bağlı xatirələrimi diri saxlayır.

Yuxularımın kabusuna çevrilən qara pişiyi cücə oğurluğuna gələndə vurmuşdum. Görmüşük pişik cücəni gizlin oğurlayar, bu, o qədər harınlamışdı ki, arvad-uşağın gözü baxa-baxa evlərə, hinlərə cumurdu.

Evdə uzanmışdım, qəfil qışqırıq düşdü. Çölə çıxanda pişiyin hasarın üstündən həyətə şığıdığını gördüm. Çox cəld idi. Onu daşla, ağacla vurmaq olmur, itlər dalınca düşüb tuta bilmirdi. Hay-küyü də vecinə almırdı. Evə qaçıb, atamın tüfəngini divardan aldım və bayıra çıxdım. Pişik hində işini bitirib iri bir cücə ağzında geri qayıdırdı. Mən nişan alanda hasara sıçradı, güllәni bir az irəlisindən atdım, cücəni göydə buraxıb çığırdı və tappıltıyla hasarın dibindəki şax-şəvəlin arasına düşdü. Arvadlardan hansısa çığırtıdan qorxub "Allah, sən saxla!" dedi. Zabil özünü hasarın dibinə yetirəndə qışqırdım:

"Yaralı olar, sənə ağız atar!"

Vecinə almadı. Quyruğundan tutub ortalığa sürüdü. Qırmalar baş və boyun hissəsindən dəymişdi. Ölüsü də zəhmli idi. Ən böyük ev pişiyinin ikisi boyda olardı. Elə

bil qorxulu nağıllardan çıxmışdı. Adətən kənd adamları pişikləri tanıyır, hardan gəldiyini, kimin evində böyüdüyünü bilirlər. Bu pişiyin yeri-yurdu heç kimə bəlli deyildi.

Zabil bizdən xəbərsiz pişiyin üstünə neft töküb yandırdı. Qapqara tüstü göyə millənib bir anlıq pişik şəklinə düşdü. O, yanıb yox olmadı, tüstüyə çevrilib qaranlıq dünyalara çəkildi və nə vaxtsa qisasını almaq üçün geri qayıdacaqdı.

Budur, qayıtmışdı və bu dəfə yaralanmamışdım, anamla birlikdə şəhid olmuşdum. Uşaqlığımın işıqlı dünyası sönüb getmişdi. Müharibə ilk dəfə bütün ağırlığıyla çatmışdı mənə. İndi vətən sözündən sızıltı eşidirdim və bu səs ayaqlarımdakı qəlpələrin sızıltısına qarışıb hüznlü nəğməyə çevrilirdi. Mən bu nəğməni bütün bədənimlə dinləyirdim. Bəzən sızıltılar artır, həzinlik itir, içimdə dəhşətli bir intiqam marşı çalınırdı. Qara pişiyin çığırtısı bir yandan məni vahimələndirsə də, o biri yandan qisas hissimi gücləndirirdi.

Anama görə Allahdan incimişdim; o, bu aqibətə layiq deyildi.

## *Əsgər Qasımov*

Hərbi anddan sonra xidmətə yenicə başlamışdım, dedilər, batalyon komandiri mayor Orucov səni çağırır. Getdim. O, hərbi hissənin həyətindəki çardaqda oturmuşdu. Yanına qalxdım, hərbi salam verdim. Gözlərinə baxanda içimdən üşütmə keçdi. O gözlərin dərinliyində həm adamın canına üşütmə salan zabitə vardı, həm də arxayınlıq verən canıyananlıq. Bəzənsə bu gözlərdə nisgil kölgələnirdi. Baxışlarının belə rəngarəng mənalar verməsinin sirrini anındaca açdım; istəyəndə humanist, istəyəndə zəhmli baxa bilir. Baxışları kiriyəni ağlatmaq, ağlayanı kiritmək gücündəydi. Sonralar bu möcüzənin canlı şahidi oldum! İki əsgər dalaşmış, biri o birini möhkəm döymüşdü. Döyülən əsgər zülüm-zülüm ağlayırdı. Yanına çağırdı onu. Üzünə necə şəfqətlə baxdısa, əsgər göz yaşlarını silib gülümsündü. Dalınca onu döyən əsgər gəldi otağına. Baxışlar tərs üzünə çevrildi. Əsgər nə edəcəyini bilmədi. Gah otağın küncünə baxdı, gah öz əllərinə, gah mənim sifətimə və arada da Orucovun ox kimi ona sancılan masmavi gözlərinə! O, susurdu, ancaq baxışlarındakı sərtlik azalmırdı. Bir kəlmə danışmaması əsgəri daha da həyəcanlandırırdı. Və əsgərin əlləri əsdi, dodaqları səyridi, nəfəsi tıncıxdı, hönkürüb ağlamaqdan özünü saxlaya bilmədi.

Bəli, Orucov istəyəndə qəddar, istəyəndə xeyirxah baxışlarla baxa bilirdi, lakin gözlərindəki nisgili gizləməyi bacarmırdı. O nisgil ondan icazəsiz hopmuşdu baxışlarına.

Canıma üşütmə salan həm də mənimlə danışa-danışa mənə yox, başımın üstündən uzaqlara, bəlkə də heç görünməyən dünyalara baxmasıydı. Arada çevrilib onun

baxdığı istiqamətə baxmaq istədim, çəkindim. Səsində də eynən baxışları kimi həm amiranəlik, həm həlimlik, həm hüzn vardı: “Azad. Əyləş.”

Əyləşdim.

“Şəxsi işinə baxdım, dedim, görüşüb söhbətləşək.” - baxışlarında yalnız canıyananlıq vardı. Mənə elə gəldi, doğma atamla söhbət edirəm. Ürəkləndim:

“Çox sağ olun! Təşəkkür edirəm.”

“Milli Təhlükəsizlik Nazirliyinin təlim-tədris mərkəzində işləmisən. Oxumaqla-yazmaqla aran yaxşıdır.”

“Elədir, cənab mayor.”

“Ön xəttə də öz arzunla gəlmisən.”

“Bəli, elədir. Zamanında hərbi məktəbə də getmək istədim, alınmadı. Dedim, heç olmasa, vətənə borcumu verim.”

“Niyə hərbi məktəb? Səni bura çəkən nə idi?”

“20 Yanvar hadisələrində yaxın qohumlarımı qətlə yetirmişdilər. Onda mənim 8 yaşım vardı. Günahsız insanlara atılan o silahların səsi indi də qulağımdadır.”

Fikrə getdi. Gözləri daha çox kölgələndi. Heç nə deməyib qarşısındakı qovluğa baxdı. Mən də başımı aşağı saldım. Bəlkə də dediklərim yersiz idi, ancaq Allah şahiddir ki, səmimi danışırdım.

“Elədirsə, hərbi xidmətə niyə gecikmisən? Yaşın çoxdur”, - səsini yenidən eşitdim.

“Ailəmizdə xəstə vardı, mən onun müalicəsi üçün işləməli idim. Evin tək oğlu olduğuma görə bir az möhlət verdilər.”

“Kim idi xəstə?”

“Atam.”

“Ona nə olub?”

“Şəkər xəstəsidir. Ayaqlarında qanqrena var.”

“Allah şəfa versin.”
“Çox sağ olun.”
“İndi evdə işləyən yoxdur?”
“Anam işləyir. Tibb bacısıdır.”
“Eviniz var?”
“Var.”
“Sevdiyin necə, var?”

Burda tutuldum, istər-istəməz güldüm. O da ağzının bir yanı ilə gülümsündü.

“İnanmayacaqsınız, amma heç vaxt qız sevməmişəm.”
“Niyə?”
“Ön xəttə gələcəkdim, kiminsə gözünü yolda qoymaq istəmədim.”

“Hmm” eləyib başını tərpətdi. Sənədləri bir az da gözdən keçirib yığışdırdı, əllərini cütləyib qovluğun üstünə qoydu:

“De görüm, mənim fərdi əsgərim olarsan?”

“Olaram!” - sual gözlənilməz idi, səbəbini bilmədən anındaca razılığımı verdim və heç vaxt bu qərarıma görə peşman olmadım.

Doğrudan da, ön cəbhəyə öz arzumla gəlmişdim. İçimdə çoxlarına gülməli görünən bir vətənpərvərlik vardı. Hərbi komissarlıqda işləyən qohumumuz sənədlərimi yazanda bu istəyimdə israrlı olduğumu görüb anama zəng vurmuşdu, demişdi, oğlunuzun ön cəbhəyə gedəcəyindən xəbəriniz var? Anam cavab vermişdi ki, biz onu yolundan döndərə bilmədik, nə deyirsə, elə də edin.

Hava soyuyan kimi komandir ayağındakı qəlpələrdən şikayətlənirdi, deyirdi, aram-aram sızıldayır. Bir gecə özümdə cəsarət tapıb soruşdum:

“Harda yaralanmısınız?”

Cavab vermədi. Otağın işığını söndürüb uzanmışdı.

O, həmişə belə edirdi. Qaranlıqda uzanıb televizora baxırdı. Mənsə onun istirahətinə mane olmamaq üçün mətbəxdə otururdum.

Çox keçmədən batalyondakı köhnə əsgərlərdən komandirin ayağındakı qəlpələrin tarixçəsini öyrəndim, qaranlıqda oturmağının sirrini açmağıma hələ çox vardı.

Kəndlərinin alınması, anasının və dayısının şəhid olması, Fərrux dağındakı döyüşlərdə yaralanması mənim üçün yeni xəbər idi. Əhvalatın ən həyəcanlı və kədərli məqamı anasının atəş nöqtəsində qalan meyitini çıxartmasıydı.

***Komandir***

Anamın yerini gənc bir əsgərdən öyrəndim. Biz Qənbərlinin çıxacağında durub Cinli tərəfdən gələnləri bir-bir sorğu-suala tuturduq. BMP-nin üstündə oturan gənc əsgər gözlərini məndən yayındırdı. O, nəsə gizləyir, qəlbindəkini baxışlarından oxuyacağımdan qorxurdu. Əsgərə çox baxıb ürkütmək istəmədim.

Düşmən artıq Qənbərlini atəşə tutmuşdu və hərbçilərdən başqa hər kəs kəndi tərk edirdi.

Baxışlarını məndən yayındıran əsgəri danışdırmalıydım. Amma necə?

Hamının atəşdən gizlənib Cinlidə baş verənləri təlaş içində izlədiyi vaxt BMP-nin aşağısında mövqe tutmuş əsgərə yanaşdım, ağzını bərk-bərk tutub özümlə birlikdə üzüaşağı yomaladım. Yoldaşlarından xeyli aralayandan sonra ağzımı qulağına yaxınlaşdırıb dedim:

"Anam hardadır?"

Əsgərin isti nəfəsi ovcumda vurnuxdu, əlimi çəkdim, tövşüyərək dilləndi:

"Cinlidən gələn yolda qalıb. Yanına mərmi düşüb." - bir az da tövşüyüb əlavə etdi - "Ermənilər görməsin deyə üzümlüyə sürüdüm."

"Niyə gətirmədin?!" - qışqırdım.

"Mümkün deyildi" - udqunub susdu.

"Niyə demirdin?!"

"Utandım" - göz qapaqları aşağı endi. Bığ yeri yenicə tərləyən bu əsgərin vur-tut on doqquz-iyirmi yaşı vardı. Allah bilir hardan gəlmişdi və buraları heç əməlli-başlı tanımırdı. Mənsə onunla yüz ilin döyüşçüsü kimi davranırdım.

Əsgərin boynunun arxasından tutub alnını alnıma sıx-

dım. Bu, əsgər dilində səni incitməyə məcbur olduğum üçün məni bağışla demək idi.

İkimiz də qənşərə çıxdıq, əsgər barmağını anam olan yerə uzadıb yorğun-yorğun BMP-nin yanına qalxdı, mənsə Xaçın çayına tərəf yüyürdüm.

Xaçını qırçınlı ləpələrindən, pıçıltını xatırladan incə səsindən tanıyırdım. Xaçın da məni tanıyırdı. Görəndə düşmən eşitməsin deyə səsini içinə qısdı. O həm də hıçqırırdı. Çay yoxuşa mənə doğma olan ağacların arası ilə irəliləyirdim. Hər yerə gecənin vahiməsi çökmüşdü. İndicə zülmətin bağrından bir çığırtı, bir gurultu qopacaq, aləm qarışacaqdı. Ətrafdakı sakitliyin bətnində təşviş gizlənmişdi.

Qəfil söyüd ağacından kiminsə asıldığını gördüm və bir anlıq çaşdım. Meyit gördüyümə yox, meyiti görüb tük qədər ürpənmədiyimə görə. Bu vaxtacan qanlı döyüşlərdə olmuşdum, yaxın dostlarım, cəbhə yoldaşlarım qollarımın arasında can vermişdi, dəfələrlə ölümün üstünə yerimişdim, lakin həmişə içimin dərinliyində balaca da olsa ölüm xofu hiss etmişdim. Kitabların yazdığına görə, bu hiss ən cəsur adamlarda da axıracan itmir. Cəsurluq qorxu hissinin olmaması yox, insan iradəsinə tabe edilməsidir. İndi mən o zəif işartını da itirmişdim. Ona görə gecənin bir aləmi qəfil qarşıma çıxan əsgər meyitinə inanılmaz soyuqqanlılıqla baxırdım.

Əsgərin gözləri açıq idi. O, asıldığı ipdə astaca yellənirdi. Demək, düşmən uzaqda deyildi. Bəlkə də ətrafda pusqu qurub məni tutmaq istəyirdi. Ancaq Xaçının ahəstə hıçqırtısı buralarda kimsənin olmadığını xəbər verirdi.

Əsgəri ipdən endirib, gözlərini sığadım. Bədəni isti idi. Bəlkə bir az tez gəlsəm, xilas edə bilərdim. Onu kolların arasında gizləyib, üstünü şax-şəvəllə örtdüm.

Ayrılanda hərbi salam verdim və dedim: “Əsgər, söz verirəm, sənin üçün bura bir də qayıdacam!”

Söyüdlükdən çıxıb üzümlüyə girəndə məni görə bilərdilər. Ümidim yalnız qaranlığaydı. Hava ağarmamış anamı götürməliydim.

Anam əsgərin göstərdiyi yerdə əllərini sinəsinə qoyub uzanmışdı. Elə bil yatmışdı. Çağırsam, başını qaldıracaq, həmişəki doğma səslə cavab verəcəkdi. Sürünə-sürünə ona yaxınlaşdım, əvvəlcə soyumuş alnından, sonra qabarlı-tilişkəli əllərindən öpdüm. Dodağımı barmaqlarının ucunda gəzdirəndə tikan yerlərini aydınca hiss elədim. Onu bağrıma basıb burnumu qoltuğuna sıxdım, doğma qoxusunu ciyərlərimə çəkdim. Bədəni hərarətini itirsə də, uşaqlıqdan yaddaşıma yazılan qoxunu son qənimət kimi qoruyub saxlamışdı və indi mənə əmanət edirdi.

Başımı qaldıranda anamın üzü gümüşü işığa qərq olmuşdu. İşıq onun üzünə Yeddixırman dağından düşürdü. Dağ başdan-başa nura boyanıb dalğalanırdı. Əvvəl elə bildim, oraları yandırırlar, ancaq bu, alov rəngi deyildi. İşığın bir ucu dağın zirvəsindən yuxarı millənir, göyün ənginliklərində əriyib qaranlığa qarışırdı.

Göyün dərinliyindən Yeddixırmana, Yeddixırmandan anamın üzünə düşən işığa baxdıqca baxırdım. Gözlərimi nə anamdan ayıra bilirdim, nə Yeddixırmandan, nə də göyün dərinliyindən. Baxışlarımı anamdan ayıranda Yeddixırmana dikilirdi, Yeddixırmandan ayıranda göyün işıq gələn dərinliyinə. Dünyada anamdan, Yeddixırmandan və göy üzünün işıq gələn sirli dərinliyindən başqa heç nə yox idi. Anam o işığa qoşulub getmişdi və indi məni də qanadlarına alıb öz dünyasına aparırdı. Ayrılmaq istəmirdim o dünyadan!

Uzaqdan uğultu gəldi. Yanımıza mərmi düşdü. Partlayış səsi gecənin qaranlığını silkələdi. Anama qısıldım. Partlayışın dalğası bizi aşağı atdısa da, heç birimizə xətər dəymədi.

Bizi mərminin qəlpələrindən gümüşü işıq qorumuşdu.

Xaçının üstündən üfüqə baxdım - hava ağarırdı.

Anamı qollarımın üstünə alıb üfüqdəki ağartıya doğru getdim. Mən gedib-gedib anamla birlikdə havalanacaq, üfüqə çatıb gümüşü işığa çevriləcəkdim. Mən gedirdim, hava ağarırdı. Hava ağarırdı, mən gedirdim. Qaranlıq əridikcə anamın üzündəki işıq da əriyirdi. Gün çıxanda tamam qeybə çəkildi. Məni ağlamaq tutdu. Ağlaya-ağlaya bu sözləri dedim:

"Ana, üzünün işığına and olsun, bizə bu zülmü yaşadanlara diz çökdürməyincə silahı yerə qoymayacam!"

Qənbərliyə çatanda gün çıxmışdı. Düşmən susurdu. Evlərdən korun-korun tüstü qalxmasa, buralarda müharibə getdiyinə inanmaq olmazdı. Havadakı səssiz uğultu növbəti və daha güclü həmlədən xəbər verirdi.

Anamı hərbi maşına qoyub Çulluda yolumuzu gözləyən qohumların yanına tələsdik. Arada imkan tapıb Cinliyə bir də baxdım. Hər tərəf yanırdı. Düşmən örüşdəki mal-qaranı kəndin ayağına tökmüşdü ki, tamahlanıb gələn olsun; ya öldürsünlər, ya da əsir alıb pula-paraya dəyişsinlər.

Anamı götürdüyüm kolluqda gümüşü işığı axtardım. Yox idi. Yeddixırman laqeyd-laqeyd göyə millənirdi. Elə bil gecə nura bələnib dalğalanan dağ deyildi. Günəş tənbəl-tənbəl yüksəlirdi. Təbiət soyuqqanlılığını itirməmişdi. Bircə Xaçının səsində həyəcan vardı. O, başımıza gələnləri danışa-danışa özünü sağa-sola çırpır, Kolanı dərəsi boyu gileylənə-gileylənə axıb gedirdi.

Doğma kəndimizi son dəfə görsəm də, özümü buna

inandırmaq istəmədim. Yanan evlərə çox baxmadım ki, xəyalımda belə qalmasın. Mən kəndimizin həyətlərdə al-əlvan paltarlar sərilən vaxtını yadda saxlamaq istəyirdim; Yeddixırmanın ətəyindəki laləlik dəniz kimi dalğalanır, qoyun-quzu Fərruxun yaxasına dağılır, diribaş kişilərin hay-harayı küçələri bürüyür, hardasa uzaqda it hürür, xoruz banlayır, az sonra uşaqların xoşbəxt çığırtısı eşidilir...

Düşmən mərmiləri Çullunu tutmurdu. Kənd dağın bu biri üzünə sığınmışdı. Sanki nə vaxtsa müharibə olacağını duyub daldaya çəkilmişdi. Qənbərli boşalırdı, döyüşçülər növbəti hücumu dəf etmək üçün planlar qururdu, bizsə anamla vidalaşırdıq.

Onu Çullu qəbiristanlığında dəfn elədik. Üstünə torpaq atılan vaxt məzarın küncündəki məchul qaranlıqda əl boyda gümüşü işıq peyda oldu. Mən o işığın anamla birlikdə əbədi olaraq torpaq altında qalacağından qorxub qışqırdım:

“Dayanın!”

Hamı çevrilib mənə baxdı. Heç kimi vecimə almadan məzara əyildim və pıçıldadım:

“Məni qoyub getmə.”

Bu sözdən sonra işıq əriyib havaya qarışdı, başımı qaldırıb baxanda onu Yeddixırman dağının gədiyində gördüm.

Anamın yeddisini verməmiş Çullu da işğal olundu. Qəbrinə başdaşı qoya bilmədik. Buna çox təəssüflənsəm də, sonralar düşündüm ki, belə yaxşıdır. Bəlkə başdaşı olsa, məzarını dağıdardılar.

Anamın məzarını heç vaxt dağıtmadılar. Nədən bilirəm? Bu barədə sonra danışacam.

## *Zabil*

Anamın Çulluya gətirildiyini eşidən kimi yerimdən qalxdım, əynimi geyinib, bayıra qaçdım. Həyətdə heç kim yox idi. Məni axşamdan qohumlardan birinin evinə gətirib çimizdirmiş, yemək-içmək verib yatızdırmışdılar. Gecədən yorğun düşdüyüm üçün gün qalxanacan yatmışdım. Yuxudan oyananda evin küncündə yaşlı bir qadının öz-özünə danışdığını gördüm. Ondan atamı-qardaşımı soruşdum. Dedi, ananı gətirirlər, hamı kəndin girəcəyinə toplaşıb.

Qənbərlidən gələn yolun üstünə bir dəstə qadın yığışmışdı. Kişilər irəli, uzaqdan gələn hərbi maşına tərəf gedirdilər. Yaxınlaşanda qadınların qışqırığını eşitdim. Elə bildim, anamın gəlməsinə sevinirlər. Mən də onu görməyə tələsdim. Qadınların yanına çatanda onların sevindiyini yox, ağladığını gördüm.

Çulludan gedən kişilərlə qarşılaşanda maşın bir anlıq dayandı, sonra asta-asta yoluna davam etdi. Kişilər geri dönüb maşının yanıyla ağır-ağır addımlayırdılar. Onların hərəkətində hüznün ağırlığı vardı.

Maşın yaxınlaşdıqca arvadlar qışqırığı kəsib həzin-həzin ağladılar. Mən gah yaylığının ucunu ağzına tutub ağlayan arvadlara, gah da ağır-ağır bizə yaxınlaşan kişilərə baxırdım. Qohum-əqrəbamızı son dəfə bir yerdə görürdüm və onlar uşaq yaddaşıma ağlaya-ağlaya yazılırdılar.

Qadınlardan biri mənə yanaşıb üzümdən öpdü, saçlarımı sığalladı, dedi, anan şəhid oldu, bizi qoyub Tanrının yanına getdi, ona halallıq ver.

Mən şəhid kəlməsini ilk dəfə orda eşitdim.

Maşın bizim yanımıza çatıb dayananda, arvadların

səsi təkrar yüksəldi. Bayaqkından da bərk qışqırıb dizlərinə çırpdılar. Qorxdum. Gözüm qardaşımı axtardı. Onun sifəti elə kədərli idi ki, hərbi formada olmasa, tanımayacaqdım. Yanına getməyə cəsarət eləmədim.

Qardaşımın necə əlacsız olduğunu ilk dəfə onda gördüm və içimi dəhşətli bir ümidsizlik bürüdü. O, maşının qabaq hissəsinə keçib buferin tinində oturdu. Yorğun və üzgün olanda həmişə belə edirdi. Hardasa oturub başını əllərinin içinə alırdı. Bir də atamdan küsəndə evdən aralanır, bir yer tapıb eynən bu cür otururdu. Saatlarla. Nə qədər gedib yalvarsam da, qayıtmırdı. Heç üzümə də baxmırdı. Bəzənsə acıqlanırdı. Bircə anam gedəndə yumşalırdı. Anam da həmişə gec gedirdi yanına. Yəqin, yumşalacağı anı gözləyirdi. O, anama qoşulub gələndə küskünlüyündən əsər-əlamət qalmırdı.

Qardaşım bəs indi kimdən küsmüşdü? Anam bizi qoyub Tanrının yanına getmişdisə, onu qapıldığı fikir dünyasından kim ayıracaqdı? Bəlkə, anama halallıq versəm, bu dözülməz kədər aradan qalxardı? Görəsən, halallıq nə olan şeydir?

Maşını arvadların əlindən güc-bəlayla alıb qaldığımız evin həyətinə sürdülər və anamın dəfn mərasimi başladı. Atam da gəlib çıxmışdı. Onun üzündə elə bir sarsıntı vardı ki, deyirdim, ürəyi partlayacaq. Rəngi qapqara qaralmışdı.

O gündən atamın eyni heç vaxt açılmadı.

Qardaşımın mavi gözlərindəki sevinc biryolluq yoxa çıxdı.

Mənsə balaca idim, başımıza gələn faciəni tam dərk etmirdim deyə içimdəki sevinclərin bir azını salamat saxlaya bilmişdim. Anamın çiyinlərə qaldırılıb Çullu qəbiristanlığına aparılmasını da, torpağa tapşırılması-

nı da, qəbrinin üstünə su tökülməsini də sirli ayin kimi izləyirdim. Hər şey mənə yuxu kimi gəlirdi.

Anam torpağa basdırılanda qardaşım yumruqlarını sıxıb şax dayanmışdı, gözlərində indiyədək görmədiyim qəzəb vardı. Birdən “Dayanın!” deyib qışqırdı, məzara endi, anama nəsə dedi və çıxdı. Onun nə dediyini dəli bir maraqla bilmək istəyirdim, lakin soruşmağa heç vaxt cəsarətim çatmadı.

Anamın üçünü Çulluda, yeddisini Ağdamda, qırxını Boyat kəndində, ilini Sumqayıtda verdik. Yeddisinəcən Çullu, qırxınacan Ağdam işğal olundu. Anam bizdən həm zamanca, həm məkanca uzaqlaşırdı. Vətənin yası hər dəfə anamın yasına qarışırdı. Tale ana ilə vətəni yenə qoşalaşdırırdı. Həmişə qoşalaşdırdığı kimi. Biz anayla vətənə bir yerdə ağlayırdıq.

## *Komandir*

Uşaqlıqdan silahı çox sevmişəm. Silah görəcəyəm deyə müharibə filmlərindən ötrü ürəyim gedirdi. Hər gecə yerimdə mürgüləyib gah sağa, gah sola yıxıla-yıxıla saat 11-i gözləyirdim. Anam nə qədər təkid edirdi, yatmırdım. Saat 10-da rusların "Vremya" verilişi başlayırdı. Müharibə filmlərinin sevgisindən dilini bilmədiyim xəbərlərə axıracan baxırdım. Rus sözlərinin çoxunu belə-belə öyrəndim. O zaman televizorda anons verilmirdi, biz filmlərin adına televiziya proqramları çap olunan qəzetlərdən baxırdıq və döyüş filmi olub-olmadığını təxmin edirdik. Təxminimiz düz çıxırdısa, səhəri gün bütün kənd uşaqları filmdəki fraqmentləri canlı oynayırdı. Bunun üçün bizə silah lazım idi. Silahları taxtadan mən düzəldirdim. Özümün oyuncaq bir neçə tapançam, iki avtomatım vardı. Tapançanın birinə nazik borudan lülə qoymuş, qara lentlə sarıyıb əməlli-başlı silaha oxşatmışdım. Qənbərlidəki məktəbdə bir uşağa göstərdim, elə bildi həqiqi tapançadır.

Silahın dərdindən hərbi dərslərə böyük sevgiylə hazırlaşırdım. Təlim avtomatını ilk dəfə əlimə alanda rahatca söküb-yığdım. Müəllim də məəttəl qaldı, özüm də. Elə bil avtomatla doğulmuşdum. Hərbi yerişi, salamı, marşı, əleyhqazdan istifadəni də yaxşı bacarırdım.

Müharibə filmləri içimdə qarşısıalınmaz bir istək yaratmışdı: hərbçi olmaq! Əvvəl-əvvəl bu istəyimin uşaq xəyalı olduğunu düşünürdüm, sonra gördüm, yox, əməlli-başlı gerçəkləyirəm. Yuxarı siniflərdə kim olacağımızı soruşan müəllimlər mənə çatanda deyirdilər: "Sən hərbçi olacaqsan!"

Döyüş oyunlarının başçısı həmişə mən olurdum.

Uşaqları məcbur edirdim ki, mənə "Komandir" desinlər. Çoxu paxıllıqdan demirdi. Ən çox da qardaşım bu sevinci mənə qıymırdı. Üstəlik, futbolda qol vurmağıma mane olurdu. Çox yaxşı oynayırdı. Rəqib komandanın müdafiəsində duranda heç cür keçə bilmirdim. Hamını keçirdim, gəlib onda ilişirdim. Oyunumun çəmini elə götürmüşdü ki, ayağını atan kimi topa ilişib-qalırdı.

Böyüdükcə özümdə qəribə bacarıqlar kəşf edirdim. Misal üçün, çöldən qapıya yaxınlaşan adamı tanımaq, hətta tanımadığın adamın tanımadığın adam olduğunu bilmək mənim üçün çox sadə bir vərdiş idi. Evdə uzanırdım, divarın o üzündəki adamın atam, anam, nənəm, yoxsa qardaşım olduğunu bilirdim və bunu adi hal kimi qəbul edirdim. Sən demə, belə deyilmiş. Yaxud oyun zamanı evdə, həyətdə, məktəbdə elə gizlənirdim, məni heç kim tapmırdı. İstədiyim adama o hiss eləmədən yaxınlaşa bilirdim. Evin içində otura-otura çöldə baş verənlər mənə məlum olurdu. Lakin bütün bu qeyri-adilikləri adamlardan ustalıqla gizləyirdim.

Atamın silahlarının içində ən çox tapançanın azarkeşiydim. Əl boyda bir əşya insan öldürməyə qadirdir! Bu, mənə möcüzə kimi gəlirdi.

Neçə gün anama yalvarandan sonra tapançanı mənə göstərməyə razılıq verdi və bərk-bərk tapşırdı ki, bu barədə heç kimə heç nə deməyim. Əgər hökumət bilsə, bütün silahları əlimizdən alar, atamı tutub həbsə atardı. Mən, onsuz da, kimsəyə bir söz deməzdim, lakin atamda silah olduğunu hamı bilirdi.

Əlim ilk dəfə tapançaya dəyəndə elə bil dünyanı mənə verdilər. Heyif, anam Cahangir kişinin qorxusundan onu məndən tez aldı, doyunca baxmağa, qurdalamağa imkan vermədi.

Atam silahlarını tez-tez silib təmizləyir, yağlayır, əsgiyə büküb gizləyirdi. Bəzənsə gizləmək üçün anama verirdi. Mən altdan-altdan onları izləyib tapançanın yerini öyrənmişdim; arxa otaqda yükün arasına qoymuşdular! Yiyəsizliyə salıb silah olan otağa keçdim, götürmək istədim, yorğan-döşəyi qaldırmağa gücüm çatmadı. Qalın döşəklərin birini qaldıra bilməzdim, o da ki, yük ola. Qardaşımı çağırası oldum, xahiş elədim ki, bu barədə ata-anamıza heç nə deməsin. Söz verdi, köməkləşib tapançanı çıxartdıq. Atam onu qara əsgiyə bükmüş, əsginin üstünə ağ sapdan nişana qoymuşdu. Silahın yerini, ağ sapın qoyulma və əsginin bükülmə qaydasını yadımda saxlayıb tapançanı açdım. Soyuq və zəhmli idi. Soyuq, zəhmli və ağır! "Axırıncı aşırım" filmindəki Qəmlonun silahına oxşayırdı. Filmlərdə görəndə asan gəlir, amma bu ağırlıqda silahı bir əldə saxlamaq, atmaq, üstəlik hədəfi vurmaq adamdan hünər istəyir. Ayağa verəndə barabanı asta uğultuyla fırlanır, mənə inanılmaz zövq verirdi. Ora-burasına baxdım, qoxladım, üzümə söykədim, ehtiyatla, hər detalını yadda saxlaya-saxlaya sökməyə başladım, təzədən yığdım. Bir dəfə... İki dəfə... Ona o qədər aludə olmuşdum ki, atamın gəlib bizi görəcəyindən qorxmurdum. Hər ehtimala qarşı qardaşımı qapıya gözətçi qoymuşdum. Qəfil çöldən hənirti gəldi. Qardaşım asta səslə "Deyəsən, atam gəlir" dedi, silahı cəld əvvəlki qaydada büküb, yerinə qoydum.

Amma... İndi xatırladıqca gülmək tutur məni... Əliağalı kəndinə futbola getmişdik. Püşkatmada qardaşım rəqib komandaya düşdü. Ha çalışsam da, onu bizdəki oyunçuların heç biri ilə dəyişmədilər. "2-1" uduzurduq. Oyunun qurtarmasına üç-dörd dəqiqə qalmış mənə yaxşı bir pas verdilər. Qapıçı ilə aramda yalnız qardaşım vardı.

Qardaşımı keçsəm, hesabı bərabərləşdirəcəkdim. Alınmadı. Hirsimdən stadiona uzanıb ağladım.

Axşam evə gələndə Xaçının üstündə qardaşıma bir şillə vurdum. Ağlaya-ağlaya evə qaçdı və silahı yükün arasından götürdüyümü atama söylədi. Atam məni çağırdı. Təmkinini pozmadan, səsinin qaltanlı yerinə salıb soruşdu:

“Silahı çıxartmısan?”

Sakit, soyuq səslə, heç nə olmamış kimi dilləndim:

“Yox.”

“Atana yalan deyirsən?”

“Yalan demirəm. Silah-zad görməmişəm.”

Atam iri, zəhmli gözlərini geniş açaraq gözlərimin içinə baxdı, təmkinimi pozmadığımı görüb şübhəyə düşdü:

“Bəs qardaşın niyə elə deyir?”

“Futbol oynayanda ayağıma vurdu, mən də onu döydüm, acığından elə danışır.”

Sözləri səlis, heç bir həyəcan hiss etmədən söyləyirdim. Qosqoca Cahangir kişi mənə inandı. İçimdə gülürdüm ona. Başımı sığallayıb qapıdan çıxmaq istəyəndə ürəyim dözmədi. Qardaşıma nə qədər acığım tutsa da, atamı axıracan aldatmağa ürəyim gəlmədi:

“Ata.”

Geri döndü, maraqla üzümə baxdı:

“Nədir?”

“Baxdım silaha...” - başımı aşağı saldım - “Qardaşım düz deyir...”

“Bəs niyə məni aldatdın?”

“Aldatmadım ki! Bax, boynuma alıram.”

“Bəs niyə qurdalayırsan o silahı? Silah uşaq işi deyil axı.”

“Tapançadan ötrü ölürəm, özümdən asılı deyil.”

Atam heç nə demədi, axsaya-axsaya arxa otağa keçdi, yükü dartıb yerə tökdü, tapançanı çıxarıb stolun üstünə qoydu, stul çəkib oturdu və məni yanına çağırdı. O gün ömrümün ən xoşbəxt günü idi. Gecəyəcən atamla birlikdə tapançanı söküb-yığdıq. Əllərim elə cəld işləyirdi ki, atam bir neçə dəfə ucadan gülüb, “Maşallah” söylədi. Sonra mənə söz verdi; Novruz bayramında tapançadan güllə atacaqdım.

***Sevinc***

O ağır xəbəri aldığım gün səhər tezdən qapımızın zəng səsinə diksindim. Ürəyimə dammışdı ki, nəsə olacaq. Yuxumu qarışdırmışdım. Nə qədər gözləməsəm də, onun gəldiyini düşündüm və dərhal özüm-özümə güldüm. Müharibənin belə qızğın vaxtı heç telefonlara cavab vermir, o da ki, durub gəlmək ola. Amma o, həmişə gözləmədiyim anda gəlmişdi. Ən ağır səfərlərdən, ən dəhşətli döyüşlərdən qayıtmışdı. Onu ən çox qayıdan yerdə xəyal eləmişdim. Yaddaşımda evə dönən gülər üzlü zabit kimi qalmışdı. Bəlkə, ən çox sevindiyim o anlar idi, ona görə. Gəlməyin bir getməyi də var axı. Vidalaşıb getdiyi anları yaddaşımdan silmək istəyirdim.

Yenə qayıtmışdı, yəqin. Qalxıb qapıya qaçdım, gözlükdən baxanda qorxudan az qala qışqıracaqdım. Mülki geyimli bir şəxs əlində avtomat qapımızın ağzında durmuşdu. Üzü görünmürdü. Blokda dayanan silahlı adama baxa-baxa nə edəcəyimi bilmirdim. Başını azca aşağı salanda tanıdım: Zabil! Qapını açıb az qala döyəcəkdim onu. Bu nə silahdır?

“Nihada almışam! Oyuncaqdır” - gülümsəməyə çalışsa da, üzündə narahatlıq vardı.

“Zabil, silah almaq vaxtıdır? Ürəyim düşdü eee...” - bədənim uçunurdu.

“Dedim, bir xəbər alım sizdən. Zəng-zad eləməyib ki?” - duruxdu - “Atam çox narahatdır.”

Nə zəng etmişdi, nə də zənglərimə cavab vermişdi. Telefon dəlisi olmuşdum. Gecə yatanda zəng gələr, eşitmərəm deyə yastığın altına qoyur, səhər oyananda ilk ona əl atırdım. Əslində, istədiyim vaxt zəng edə bilməzdim. Adətən, axşamlar edirdim. İndi lap qayğı-

lıydım. Dözə bilmirdim. Bütün günü yığırdım. Onsuz da cavab vermirdi. Nömrəni hər yığanda ürəyim əsə-əsə dinləyirdim. Əgər "Bu nömrəyə zəng çatmır" ifadəsi tez deyilirsə, demək, telefonu sönüb, bir az gec deyilirsə, şəbəkə xaricindədir. Düşünürdüm, bunun hansı yaxşıdır? Cavab tapa bilmirdim. Çalışırdım özümə təskinlik verəm. Zabit adamdır, telefonu "zaryadka"ya qoymağa həmişə imkanı olmur. Ya da belə: ola bilsin, şəbəkə tutmayan yerdədir. Məsələn, təlimdə! Bu variant da vardı: enerjiyə qənaət üçün özü söndürüb. Lakin belədirsə, açanda niyə zəng etmirdi? Hər varianta, uzağı, bir-iki saat inandırırdım özümü. Sonra yeni variantlar düşünürdüm, tapmayanda, yaxud ağlıma pis şeylər gələndə təzədən yığırdım. Və eyni cavab. Heç olmasa çağıranda təsəlli tapırdım. Hər "qudok" ona uzanan bir ümid yoluna çevrilirdi. Zəng çatmayanda... İlahi!

"Axşam televizora baxdınız? Bir mayor şəhid olub. Vəziyyəti ağırdır" - canımdakı təlaşı yanan kürə kimi Zabilin üstünə atdım. Sarsıldığımı görüb "İnşallah, yaxşı olar" dedi. Silahı Nihada verəndə mənimlə zarafatlaşdı:

"Dayılarına oxşama eee... bizə oxşa! Al! Avtomat! At görək, bacarırsan?"

"Nolub, ə, dayılarına? Ağdamlı lovğalığın tutmasın."

Güldü, gözlərində doğma işıq parıldadı:

"Sevinc, yadıma, bilirsən, nə düşdü? Xındırıstanda həyətdə tir atmağım."

"Yada düşməli nə var orda?" - güldüm - "Butulkaların heç birini vura bilmədin."

"Yox eee... qəfil o gəldi, gördü ata bilmirəm, silahı alıb bir əliylə bütün butulkaları aşırdı."

"Yadımdadı" - səsimdəki qəhər özümə qəribə gəldi.

Biz ondan niyə xatirə danışırdıq axı. Zabil lap ağ eləmişdi:

“Xındırıstana gedəndə sizi qohumlargilə qonaq apardım? Xatırlayırsan? Evə gec gəldiyin üçün necə hirsləndi sənə? Necə qorxdun?”

“Sən qorxmadın guya? Qaçıb o biri otağa girdin. Özünü yatmışlığa vurdun. Mən qaldım tankın qabağında.”

“Eşidirdim!” - güldü - “Onun o sözləri var haaa! Tapançasını çəkib adamı vursa, daha yaxşıdır!”

“Demə-demə. Hələ baxışları. Üzümə necə baxdısa, dedim, Allah, yer yarılsın, yerə girim. Adama bircə dəfə baxırdı, sonra düz on gün baxmırdı.”

“Uşaqlıqda da eləydi, incidisə, azı on gün çəkirdi. Onda da deyirdin, nə deyir-desin, təki mənimlə danışsın.” - öskürdü - “Amma şirin dili də vardı haa! İstəsə, ilanı yuvasından çıxarardı. Bir dəfə qohumlardan birinin əsgərlikdən gələn oğluna görə on manat muştuluq almışdım, məni dilə tutub necə əlimdən aldısa, ruhum da incimədi.”

Divardakı xəritəyə baxıb səsini qaldırdı:

“Bu nədi belə?”

“Mən vurmuşam!” - o biri otaqdan Aqşinin səsi gəldi.

“Sən niyə gəlib görüşmürsən, yoldaş professor?!” - Zabil bu dəfə Aqşinə sataşdı. Aqşin gülə-gülə otağından çıxdı, əmisiylə görüşüb əlini xəritədə işarələdiyi yerə uzatdı:

“Atamın kəndidir. Cinli.”

“Bizə dəxli yoxdu də bu kəndin, yalnız atana aiddi, hə?”

Aqşin gülümsədi:

“Mən atama görə tanıyıram.”

Zabilin gəlişi içimdəki qorxunu xeyli azaltmışdı. Ürəyimdə deyirdim:

“Yaxşı ki, Zabil var! Çətin anlarda hamımızın dadına çatmaq bir yana, həm də eynimizi açır.”

Aqşinin son sualı Zabillə aramızdakı söz yarışmasında hesabı bizim xeyrimizə dəyişdi:

“Cinli adında da kənd olar? Mənası nədir ki?”

## *Komandir*

Deyilənə görə, burda vaxtilə çinlilər adlı tayfa yaşayıb, kəndin adı ordan götürülüb. Amma bizim tayfamızın adı kolanıdır. Kəndimiz də Kolanı dərəsində yerləşir. Çinli söhbətinə əvvəldən inanmamışam. Kəndimiz haqqında başqa rəvayət eşitmişəm.

Qənbərliyə Dədəli Cinli, bizimkinə Yetim Cinli deyirlər. İkisi də bir camaatdır. Yetim Cinli Qənbərlidən köçmədir və ordan xeyli balacadır. Əlli-altmış ev olar, ya olmaz. Təxminən on ev də yeni tikilmişdi. Cinlidə cavanlar əsgərlikdən gələn kimi özünə məhəllə yeri tutur, əlinə imkan düşəndə ev tikir. Yeni həyat beləcə başlayır. Mən öz yerimi bir az erkən, əsgərliyə getməmiş tutdum. Evimizdən bir az aralı, Kalafalığın düzündəki rahat yastanaya bir maşın çay daşı tökdüm, dedim, bura da mənimdir! Heç kim heç nə demədi. Çox xoşuma gəlirdi bu məhəllə. Hərdən daşların üstündə oturub gələcək ailəmi xəyal edirdim. Kənddə gözaltım da vardı. Amma heç vaxt ona nəsə demək imkanım olmamışdı. Bir az da atamdan çəkinirdim. Bilsə, ətimi kəsərdi. Üstəlik, anamdan utanırdım. Atamdan çəkinirdim, anamdan utanırdım.

Əsgərliyə getməyimə üç-dörd gün qalmış Zabili çağırdım, dedim, gedib qıza onu sevdiyimi söyləsin. Söz verdi, amma bir xəbər çıxmadı. Yəqin, utanıb deməyə. Bəlkə də, qorxub. Ola bilsin, yadından çıxıb. Zabilə nəsə "rüşvət" də vermişdim. Çox mənfəətpərəst idi. Müftə iş görməzdi.

Əsgərlik yaşına çatan gənclərə kənddə böyük hörmət bəsləyirdilər. Mala-heyvana göndərmir, cibinə xərclik qoyur, ordan oturma-burdan otur deyirdilər. Yəqin, qız-

lar da çox istəyirdi əsgər gedənləri. Ona görə ürəklənib Zabilə elə demişdim. Zabil də ki, məlum. Sonralar ondan bu barədə nəsə soruşmağa fürsətim olmadı. Ömür belədir, qəfil böyüyürsən və boğanaq kimi bir həyat başlayır. İndi, deyirəm, nə yaxşı o vaxt Zabildən bir xəbər çıxmadı, onsuz da araya müharibə düşəcəkdi.

Deyilənə görə, Cinlidə vaxtilə çoxlu cin yaşayırmış. Adamlar qorxudan Yeddixırmana, Fərruxa tərəf getmir, Xaçınçayın bərəkətli sahillərinə heyvan gətirmirmiş. Kolanı tayfasından Qənbər adlı qoçaq bir cavan cinlərin başçısı ilə döyüşə girir, deyir, ikimiz vuruşacağıq, kim məğlub olsa, bu yerləri biryolluq tərk edəcək. İnsan cildinə girmiş cin Qənbərə hücum çəkir, Qənbər də qılıncını sıyırıb onun üstünə atılır. Yeddi gün-yeddi gecə döyüşürlər, yeddinci gün cinlər padşahı məğlub olacağını görüb Qənbəri tilsimə salmaq istəyir, Qənbər cəld tərpənir, cibindəki iynəni onun bədəninə sancır. Cinə iynə sancdınsa, sənə tabe olur, ömür boyu qapında nökərçilik edir.

Qənbər cinlər padşahını məğlub edəndən sonra Kolanı dərəsində - Yeddixırmanın ətəyində, Xaçının qırağında kənd salır. O gündən camaat bura həm Qənbərli, həm Cinli deyir. Bizim kənd yaranandan sonra isə qarışıq salmamaq üçün birinə Dədəli, o birinə Yetim Cinli deyirlər.

Qənbər cinlər padşahını illərlə qapısında nökər işlədir. Bir gün cin bizim Zabil kimi diribaş uşaqların birinə şirin kökə verir, deyir, bədənimdəki iynəni çıxart. Uşaq kökəni alıb onun dediyini edir, cin yoxa çıxır. O gündən öz dəstəsi ilə Qənbərli kəndinin sakinlərindən qisas almağa çalışır, ancaq kolanı igidlərindən çəkinib heç nə edə bilmir. Yalnız arvad-uşağı qorxudur, gecələr atların

yalmanına düyünlər vurur, yola-səfərə çıxanların işinin nəhs gəlməsi üçün tilsimlər qurur. Yol azan adamları yığnağa salır, yemək verib əsir götürmək istəyir. Cin yığnağına düşən adam onların verdiyi yeməkdən yesə, çevrilib cin olar. Ona görə gərək həmişə çörəyi kəsməmiş "Bismillah" deyəsən. Cinin iynədən çox "Bismillah" sözündən qorxduğunu eşitmişəm. Nənəm həmişə bizə deyirdi ki, qorxanda "Bismillah" deyin, cin-şəyətin, pis niyyətli varlıqlar sizdən uzaq olacaqlar. Qəribədir, mən cin-şəyətindən yox, "Bismillah" sözündən qorxurdum.

Nənəm mövhumata çox inanırdı. Əmim Rusiyaya işləməyə gedəndə kəndimizin üstündəki pirə nəzir aparır, Zabil də dalınca düşüb arvadı qarabaqara izləyirdi. Nənəm pirdəki balaca kahanın içinə girir, dua oxuya-oxuya torpağın altına pul basdırırdı. Zabilsə... Bilirsiniz nədir? Nənəm gedəndən sonra özünü daşların arasına dürtür, torpağı porsuq kimi eşələyib pulu çıxarırdı.

Bir gün kahanın içində gizləndim, nənəm duasını oxuya-oxuya əlindəki beşliyi basdırıb uzaqlaşan kimi, Zabil şalvarını darta-darta özünü çatdırdı. Məni görəndə donub qaldı. Qorxmasın deyə səsimi çıxartdım. Burnunu çəkdi:

"Bıy, qaqa, sən burda neynirsən?"

"Pirin yiyəsi göndərdi məni!"

Onda çox balacaydı. Uzun-uzadı izah edə-edə başa saldım ki, düz hərəkət eləmirsən. Razılaşmadı:

"O pul burda çürüyəcək, amma mən aparıb konfetə-peçenyeyə verib yeyirəm."

"Çürüdü-çürümədi, sən düz eləmirsən. Yaxşı olar, aparıb nənənə göstərəsən, deyəsən, pirin yanından tapdım."

"Onda əlimdən alar axı!" - çox müdrik cavab idi.

“Öz puludu, alarsa, alsın!”

Zabil bic-bic güldü. Onun gülüşündə dəhşətli istehza vardı.

Düşünürdüm, görəsən, nənəmin pirin torpağına basdırdığı pulun Zabildən başqa kiməsə bir faydası varmı? Var-yoxdur, məsələ bu deyil, məsələ qadının bu hərəkətlə savab iş gördüyünü düşünüb rahatlıq tapmasıdır. O, pirə verdiyi nəzirin oğlunu xəta-bəladan qoruyacağına inanırdı.

İndi mən bütün var-dövlətimi, hətta öz canımı pirin torpağına basdırmağa hazır idim, təki kəndimizi, anamı qoruya biləydim.

Neçə-neçə xatirəmi, qayğısız uşaqlığımı, xoşbəxt gələcəyə inamımı kəndimizlə birlikdə itirmiş, anamla birlikdə torpağa tapşırmışdım.

Kəndimiz işğal edilən gün qara pişik geri dönmüş, igid kolanı oğlu Qənbər cinlər padşahına məğlub olmuşdu. Bu yerlərdə Allahın adını zikr edən bir nəfər də qalmamışdı.

“Bismillah” sözünə bu qədər həssas yanaşan adam ilk dəfə görürdüm. Hər namaz qılanda yanımda oturur, dediyim sözlərə, zikr etdiyim dualara diqqətlə qulaq asır, bəzilərinin mənasını soruşub öz-özünə təkrarlayırdı. Dedim, istəyirsən, səni də öyrədərəm. Dedi, istəyirəm. Öyrətdim. Bir müddət mənimlə namaz qıldı. Çox həvəsliydi. Ancaq sonralar ibadətdən imtina etdi. Səbəbini soruşdum, cavabı gözlənilməz oldu:

“Məncə, kəşfiyyatçı namaz qıla bilməz”.

“Niyə?”.

“Çünki bəzən biz ədalətsiz işlər görməyə məcbur oluruq.”

“Niyə ədalətsiz? Bütün dünya bilir və təsdiq edir ki, torpaqlarımız işğal olunub, evlərimiz dağılıb. Elə biri sən özün! Səncə, ədalətsiz müharibə aparırsan?”

“Razıyam. Mən bunu demirəm. Mən dinc əhalini - qocanı, qadını, uşağı incitməkdən, öldürməkdən danışıram.”

“Kəşfiyyata getmisən, getdiyin yer öz doğma torpağındır, yəni kiminsə dövlət sərhədini pozmamısan, öz yurduna, öz evinə getmisən. Qəfil o evdən sənə atəş açırlar, sən də o evi atəşə tutursan və güllən sən istəmədən gedib bir uşağa, qocaya dəyir. Buna görə günahkarsan?” - onun cavabı həm kəşfiyyat rəhbəri, həm də namaz qılan bir insan kimi məni özümdən çıxarmışdı.

“Belə deyək. Qəfil sizə əmr olunur ki, hardansa “dil” gətirməlisiniz. Siz də gedib bir kəndə girirsiniz, bir qoca, yaxud bir qadın, yaxud bir uşaq tutmaq məcburiyyətində qalırsınız. Mən bundan danışıram.”

Düzü, bu barədə heç düşünməmişdim. Onun dediyində

məntiq vardı. Məni düşüncəyə qərq etdiyini görüb daha da ürəkləndi:

"Demirəm gətirməməlisən, gətirməlisən. Çünki müharibənin öz qaydaları var. Mənim dediyim odur ki, bu qaydalar namazla uyğun gəlmir."

Alnını ovuşdurdu. Deyəsən, özü də belə çox danışmasına məəttəl qalmışdı:

"Əsl döyüşçünün nəfəsi də ibadətdir!" - bu təntənəli sözlərlə balaca monoloqunun son nöqtəsini qoydu. Gülüb, əlini sıxdım və soruşdum:

"Bəs mən namaz qılanda niyə elə maraqla baxırdın, niyə öyrənmək istəyirdin?"

"Səcdə vaxtı dediyin "Bismillah" sözü xəyalımı uzaqlara aparırdı. O söz məni həm qorxudur, həm sakitləşdirir, həm də kövrəldir."

Bu cavab da gözlənilməz olduğu üçün ard-arda suallar verdim və o, "Bismillah" sözünü ilk dəfə nənəsindən necə eşitdiyini danışdı. Bir sözdən başlanan söhbətimiz, doğrudan da, uzaqlara getdi; anasının şəhid olmasına, meyitinin atəş altında qalmasına, meyiti çıxarmağa gedərkən Xaçın çayının sahilində düşmənlərin söyüddən asdığı əsgərə rast gəlməsinə. Mən onu diqqətlə dinləyirdim. Anasına, doğma kəndlərinə sevgisi təbii idi, ancaq əsgərlə bağlı danışdığı məqamlar döyüşçü ləyaqətindən xəbər verirdi.

O, Ali Komandanlıq Məktəbini yenicə bitirib Murovda könüllü xidmətə gəlmişdi. Burda kəşfiyyat bölüyünü seçmişdi. Kiçik leytenant kimi kəşfiyyat taqımına rəhbərlik edirdi. Çox gənc idi. Üstəlik, yaşından xeyli balaca və cansız görünürdü. Lakin mənimlə müdrik bir komandir kimi danışırdı.

Onu ilk gördüyüm gün böyük bir zabit olacağını hiss

etmişdim. Çayın sahilində asılan əsgərlə bağlı dediyi bəzi nüanslar bunu bir daha sübut edirdi. O, anasının dalınca gedərkən təsadüfən rastlaşdığı əsgər cəsədini düşmən görməsin deyə gizləmiş, bir neçə gün sonra ölümü gözə alaraq ora yenidən qayıtmış və cəsədi qərargaha gətirmişdi.

### *Komandir*

Kolanı dərəsinə bir də anamın üçündən sonra qayıtdım. Artıq Qənbərli də işğal olunmuşdu. Xaçının sahili təhlükəli olsa da, əsgərə verdiyim sözü tutmalıydım.

Qoyub getdiyim kimiydi. Üstünün şax-şəvəlini səliqəylə təmizləyib onu, eynən anam kimi, qollarıma aldım, Xaçına tərəf addımladım, çayı keçəndə ayağım sürüşdü, az qala yıxılacaqdım. Mənə elə gəldi, yıxılsam, qucağımdakı meyit soyuq suyun təmasından diksinib dərin yuxusundan ayılacaq.

Xaçın anbarının altıyla hərlənib Çulluya dikəlmək çətin olardı. Mümkün qədər güllə mənzilindən uzaqlaşıb, rayon mərkəzinə gedən yola çıxmaq daha asanıydı. Bundan da vacibi, bir az dincəlməliydim. Əsgəri yerə qoyub heydən düşən qollarıma güc topladım, təzədən qucağıma alıb mümkün qədər sürətlə addımladım.

Xaçının qırağına gəlib qayıdana qədər Qənbərli tərəfdə heç bir səs eşitməmişdim. Demək, təmas xəttində dəyişiklik olmamışdı və mən neytral əraziyə keçmişdim. Çullunun üstündəki yüksəklik bizdəydi hələ. Düşmən Qənbərliyə girib, dağıdıb geri çəkilmiş, Cinlidə mövqe tutmuşdu. Belə bir şəraitdə Xaçının sol sahili təhlükəsiz idi.

Hava ağarınca addımladım. Qaranəfəs olmuşdum. Qaranlıq çəkilən kimi əsgəri balaca bir yastananın arxasına uzadıb ətrafı yoxladım. Açıq düzənlikdə heç kim gözə dəymirdi. Əsgərin üzünə baxdım. Tanış gəlirdi. Elə bil hardasa görmüşdüm. Amma harda? Son iki-üç ildə o qədər əsgər üzü görmüşdüm, hansını yada salaydım? Deyəsən, müharibədə ölənlərin hamısı bir-birinə oxşayırdı. Əlimi üzündə, saçlarında gəzdirdim. Gic-

gahında güllə yarası vardı. Toxunanda barmaqlarım titrədi. Yarasının hələ də ağrıdığını düşündüm. Üzünə təbəssüm qonmuşdu. Ağzının bir tərəfi sevinc ifadə edirmiş kimi sağa dartınmış, dartınan yerdə azca qan donmuşdu. Boynuna keçirilən ip yoğun olduğundan dərisini kəsməmişdi. Xəfif qızartı və göyərti vardı.

Deyilənə görə, şəhidlər birbaş cənnətə, Tanrının hüzuruna gedirlər və canlarını tapşırmamış bundan agah olduqları üçün sevinirlər, üzlərində işıqlı təbəssüm donur. Mən bu işığı müharibədə ölən bütün insanların üzündə görmüşdüm və deyilənlərə inanmışdım.

Boynundakı gilizi açıb götürmüşdülər. Üstündə kimliyini bəlli edən heç bir nişanə yox idi. Sol əlinə tuncla "G.N." yazılmışdı. Ciblərinə baxdım, balaca bir kağız vardı. Kağızı açmadan qaytarıb cibinə qoydum və onu təzədən qollarımın üstünə almaq istədim. Bacarmadım. Heydən düşmüşdüm. Əllərim əsirdi. İki gecə idi yuxu yatmırdım. Əsgəri çiynimə aşırmasam, burdan o yana apara bilməyəcəkdim. Açığı, bu, əvvəl də ağlıma gəlmişdi, ancaq onu incitməkdən qorxub fikrimdən daşınmış, qollarımın üstündə gətirmişdim.

Onu burdaca dəfn edib gedə də bilərdim. İnsanın şəhid olduğu yerdə torpağa qarışması ən doğrusudur. Ruhu bədənindən uçduğu yerdə cismi də torpağın altına çəkilər, iki dünyanı birləşdirərdi. Lakin indi onun yolunu gözləyənlər, bəlkə də ölümündən xəbərsiz olanlar, yaxud əsir düşdüyünü zənn edib inadla axtaranlar vardı. Müharibə gedən yerdə meyiti görüb-tanımaq da, son dəfə öpüb-qoxlamaq da bir təsəllidir. Doğma insanı öz əllərinlə basdıranda rahatlayırsan. Onun torpağa tapşırıldığına əmin olmayanda ölümünə inanmırsan, ömür boyu gözün yolda, qulağın səsdə qalır. Özümdən

götürürəm; anamı cansız da olsa, xilas edib torpağa basdırmasaydım, necə olardı? Yəqin, havalanardım. İndi içimdə hüznlü bir sakitlik vardı. Doğma adamdan ötrü vətən torpağından daha etibarlı hara var?

Əsgəri çiynimə qaldıranda bayaqkı kağız yerə düşdü. Çətinliklə əyilib götürdüm və öz cibimə qoydum. Rahat bir yerdə sahibinə qaytaracaqdım.

Yola çıxan kimi bizimkilərin hərbi maşını göründü. Əl eləyib saxladım. Qərargaha gedirdi. Maşının kuzasında ön xətdən qayıdan əsgərlərin üstümə güllə kimi yağan suallarına candərdi cavab verə-verə mürgülədim. Yorğun olduğumu görüb məndən əl çəkdilər.

## *Xanı*

O vaxt onu tanımırdım. Səhər tezdən ön xətdən növbəni dəyişib qayıdırdıq, gördük yolun qırağında göygöz, sarıyanız bir əsgər var, yanında da bir meyit. Maşına əl elədi. Saxladıq. Köməkləşib meyiti kuzaya qaldırdıq. Soruşdum, kimsən, hardan gəlirsən, atışma gedən yerdən aralı, yiyəsiz düzəngahın ortasında bu əsgəri kim öldürüb? Əməlli bir cavab vermədi. Kuzada oturub kürəyini "bort"a söykədi və anındaca mürgülədi. Bizim uşaqlardan biri "Bu, rusa oxşayır" deyib onu silkələdi:

"Ey, sluşi, kimsən?"

Cavab vermək bir yana, heç gözlərini də açmadı.

"Ey! Cavab ver! Vı russkiy?"

"Məzələnmə!" - yerində qurcalandı və təkrar mürgülədi.

Paltarı qurşağacan islanmışdı. Yerdə o qədər sürünmüşdü ki, palçığa batmış dizlərində daş-kəsəyin izi qalmışdı. Sifətində qəzəb və yorğunluq vardı. Avtomatının lüləsi qurum bağlamışdı. Silahı da toz-torpağa batmışdı. Elə bil onu əvvəl çaya atmış, sonra tozun içində yomalamışdılar.

Uşaqlara dedim, qoyun nəfəsini dərsin, qərargahda hər şeyi təfsilatı ilə soruşacam. Ancaq qismət olmadı. Biz çatan kimi həyəcan siqnalı verdilər. Hamımız maşınlara doluşub Ergi tərəfə getdik. Meyit gətirən göygöz oğlanı orda itirdim və bir də iyirmi ildən sonra gördüm. Ancaq kim olduğunu tezliklə öyrəndim.

*Komandir*

Ergi tərəfdəki postlarımıza hücum olmuşdu, təcili köməyə getməliydik. Yorğun olduğuma baxmayaraq, qaçıb batalyon komandirinin "UAZ"-ına mindim.

Ergidə fəlakət baş vermişdi. Düşmənin doqquz tankı qəfil hücuma keçib səngərlərimizi dağıtmış, əsgərlərimizi qırıb-çatmışdı. Biz ora çatanda, qeyri-bərabər qüvvə ilə düşməni geri oturdub, döyüş meydanında qalan yaralıları çıxarırdılar. Dedilər, düşmən geri çəkiləndə bizim yaralı əsgərlərin hamısının başına güllə sıxıb, bir nəfər təsadüfən sağ qalıb. İndi onların postunun lap yaxınlığında əl-qol ata-ata kömək istəyir, yaxınlaşmaq mümkün deyil.

Yaralının yerini öyrənib irəli atıldım. Bu gün şanslıydım, mənə güllə dəyməzdi. Bizim əsgərlər düşmənin möhkəmlətməyə çalışdığı səngəri atəşə tutub məni qorudular, sürətlə yaralıya tərəf süründüm. Yanına çatan kimi inildədi:

"Müşfiq, sənsən?"

"Mənəm!" - yalan dedim.

"Bilirdim ki, gələcəksən!" - gülümsündü, səsi titrədi - "Gözəl dostum!"

Üzü-başı qanın içindəydi, bircə gözləri ağarırdı. Çoxlu qan itirsə də, baxışlarından həyat fışqırırdı. Onun ölməyəcəyinə gözlərindən əmin oldum və sürümək üçün yerdən azca qaldırdım:

"Mənə toxunma, ölürəm" - sızıldadı.

"Səni istəməyən ölsün." - inamla söylədim.

Yalvarışlarına baxmayaraq, çiyinlərindən yapışıb sürüməyə başladım. Yorulub əldən düşənəcən sürüdüm. Dayanıb nəfəsimi dərəndə başını dizimin üstünə qoyub,

üzünün qanını təmizlədim. Qılçasından və başından ağır yaralanmışdı. Sümüyü qırılsa da, qılçasından qan axmırdı. Başından axırdı. Dəsmalımı yarasına basıb çiyinlərindən bir də yapışdım. Məsafə azalmaq bilmirdi. Arada üzünə baxdım, gözlərinin yumulduğunu görüb qışqırdım:

"Ölməə!!!"

Məni eşitmirdi.

"Adam oğlusan, ölmə!"

Dodaqları səyridi.

"Sənə görə özümü güllənin qabağına verdim! Ölməyə haqqın yoxdur!".

Atəş səslərinin içində öz səsimi eşitmirdim. Üstümdən uçuşan güllələrin vıyıltısı canıma üşütmə salırdı. Ayağımdakı qəlpələr qışqırışırdı. Yubanmaq olmazdı. Yaralının ağız-burnuna dolan qanı silib sifətini şillələdim.

"Ölməəə!!!"

Gözləri yavaş-yavaş açıldı. Baxışları öləzimişdi.

Onu axşamkı əsgər kimi çiynimə aşırıb qışqıra-qışqıra məni gözləyən təcili yardım maşınının yanına qaçdım. Sükanda Piriyev oturmuşdu. Yaralını maşına çatdırıb bircə kəlmə "Piriyev!" deyə bildim və üzüqoylu yerə yıxıldım. Nəfəsim torpaqdan toz qaldırırdı.

Ergidə düşmən hücumunun qarşısını aldıq, növbəni köməyə gələn batalyona təhvil verib, qərargaha qayıtdıq. Yol boyu yatdım. Qərargahda düşüb, biz tərəfə gedən maşınların biriylə bölüyə qalxdım. Səhər tezdən postda olmalıydım.

Bölükdə yeni ab-hava vardı. Döyüşdə fərqlənən və az-çox savadı olan əsgərləri oxumaq üçün Bakıya - Ali Komandanlıq Məktəbinə göndərmək istəyirdilər. Əsgərlərin çoxu səngəri qoyub getmirdi. Mən müha-

ribənin uzun çəkəcəyini və zabit kimi daha çox iş görəcəyimi anladığım üçün razılıq verdim. Həm də sevinə-sevinə. Hərbi təhsil almaq uşaqlıq arzum idi.

Səhəri posta qalxanda əlim cibimdəki kağıza ilişdi. Diksindim. Bu, Kolanı dərəsindən çıxarıb qərargaha gətirdiyim əsgərin cibindən düşən kağız idi! Onu sahibinə qaytarmağı unutmuşdum. Xeyli təəssüfləndim. Gec idi artıq. Kağızı arasında partlayıcı maddə varmış kimi ehtiyatla açdım:

*"Salam, Natiq! Necəsən? Mən yaxşıyam. Sənin də yaxşı olmağını o bir Allahdan arzu edirəm. Natiq, yəqin, orda da havalar soyuq keçir. Üşümürsən? Allah eləməmiş, xəstələnərsən, özünü soyuğa vermə, əynini qalın elə. Məktubunu aldım. Mən də sənə məktub yazmışdım, görünür, almamısan. Üstündə Gəncədə olan yerinin adresini yazmışdım. O məktubda səndən xeyli şikayət etmişdim. Yazmışdım ki, sən insafsızsan. Bilirsən niyə? Çünki mənə məktub yazmırsan. O məktubumdan əvvəl üçünü yazmışdım, göndərə bilmədim. Ürəklənib dördüncünü göndərdim, o da gəlib çatmayıb. Bilirsən, mən sənin kimi insafsız deyiləm. Sənin ünvanını dəqiq bilsəm, tez-tez yazaram, heç vaxt tapıb oxuya da bilməzsən. Amma sizin yerinizi tez-tez dəyişirlər. Nə olar, ay insafsız, sən də mənə məktub yazsan, öz adresini versən?! İnan ki, hər gün sənə məktub yazaram. Mən sənin kimi deyiləm. Xahiş edirəm, Natiq, mənə tez-tez məktub yaz, məni məktubsuz qoyma. O biri məktubumda yazmışdım ki, mənə şəklini göndər. Ürəyə bax, sən o məktubu almamısan, amma şəklini göndərmisən. Ancaq doğrudan da, insafsızsan. O nə sözlərdi yazmısan? "Əgər məndən yana darıxsan, şəklimə baxarsan, darıx-*

*masan, daha sənin öz işindir", nə bilim nə. Özün fikirləş, yol gözləyən qız gözlədiyi adamdan yana darıxmazmı?! Natiq, mənə bir şəklini də göndər, gözündə eynək olmasın. Bu şəkildə qəşəng düşmüsən, ancaq gözlərin görsənmir. Yaman arıqlamısan. Fikir eləmə, inşallah, hər şey yaxşı olacaq. Məhləmizdə toy evi tikirlər, inşallah gəlib hazırını görərsən.*

*Natiq, səndən bir xahişim də var. Özünü qoru, ehtiyatlı ol. Heç olmasa mənim xətrimə özünü qoru. Bir də, arxayın ol, bil ki, yolunu gözləyəcəm. Sənin bir barmağına belə tikan batmasını istəmirəm. Bu günlə düz 208 gündür hər axşam dal balkona çıxıb Allaha dua edirəm. Məni məktubsuz qoyma. Dözə bilmirəm. İnanırsan, az qalıram gedim vayenkomata, deyim, məni yollasınlar sən olduğun yerə. Döyüşə bilməsəm də, sənin yanında olaram. Bu mənə bəs edər. Görəsən məni götürərlər? Kaş bir quş olardım, uçub gəlib səni görüb qayıdardım.*

*Eh, Natiq, sözüm çoxdur. Yazdıqca yazmaq istəyirəm. Ancaq bəsdir. Sənə yazdığım məktubları bilmirəm necə göndərim. Sənin də məktub yazmağını istəyirəm. Amma o məktubun mənə necə gəlib çatacaq, bilmirəm. Mənə məktub göndərsən, Zülfiyyə xalaya yazarsan ki, elə eləsin, heç kim bilməsin. Xahiş edirəm. Əgər bir adam bilsə, mən ölmüşəm. Qonşularımızı tanıyırsan. Mamamın da acığına gələr. Görüşdüyümüzü mamama demişəm. Bir az hirsləndi ki, atan bilsə, öldürər. Dedim, neyləyim, mama, əsgər gedirdi. Allah qoysa, gələndən sonra daha görüşmərəm. Narahat olma. Özüm elə dedim ki, dinməsin. Nə edim? Əlimdən səni gözləməkdən başqa bir iş gəlmir. Ancaq gözləmək.*

*Natiq, nə olar, məni bağışla. Sənin o gecə məni öpməyinə razı olmadım. İndi çox peşmanam. Mən nə*

*biləydim, sən belə tez əsgər gedəcəksən. Elə fikirləşdim, biz həmişə görüşəcək, nə vaxt olsa öpüşəcəyik. Təəssüf, belə olmadı. Gələn səfər görüşəndə öpərsən, özümə deməzsən. Özümə deyəndə utanıram.*

*Sağ ol. Bir xahişim var səndən. Elə elə ki, bu məktubum ələ düşməsin, cır at. Özündən muğayat ol. Özünü qoru. 4.09.1993 (Cır at, xahiş edirəm)"*

Məktubu səliqəylə qatlayıb torpağa basdırdım, əlimlə üstünü sığallaya-sığallaya üfüqdən boylanan günəşə baxdım; isti çaya atılan limon dilimi kimi göyün üzünə dağılmışdı.

# İKİNCİ HİSSƏ

Yeddixırmandakı gümüşü işığı bir də iki il sonra Murovda, Ömər aşırımında gördüm. Həyəcandan ürəyim dördnala çapırdı. Bu həyəcanın içində həm sevinc vardı, həm nisgil. Əlimi ixtiyarsız işığa tərəf uzadıb havada gəzdirdim. Murovun soyuq küləyi gözlərimi yaşartdı. Küləklə birlikdə sinəmə qəribə bir qoxu doldu. Yağışda islanmış ağac qoxusuna bənzəyirdi və hansısa doğma, əziz insanı yada salırdı.

Gümüşü işığa həsrət qaldığım bu iki ildə başıma çoxlu hadisələr gəlmişdi. Ən dəhşətlisi, rayonumuz işğal olunmuşdu. Anamın ölümündən sonra eşitdiyim ən ağır xəbər bu idi.

Bakıya Ali Komandanlıq Məktəbində oxumağa getmişdim. Qara xəbər məni orda yaxaladı.

Gün gündən ağır gəlirdi. Elə bil üstümə yekə, sal daş yıxmışdılar, altında qalıb nəfəs ala bilmirdim.

Dərd burasıdır ki, biz döyüşə-döyüşə, qəhrəmanlıq göstərə-göstərə məğlub olmuşduq. Neçə yaxın dostum, qohumum, səngər yoldaşım, komandirim həlak olmuşdu. İtkilərimizin az qala hamısında bir müəmma vardı. İçimizdə qara bir əl gəzirdi və nə qədər əziyyət çəkirik-çəkək, bizi qalib olmağa qoymurdu.

Ömər aşırımındakı işıq uzun zaman bir uçurumun yaxasında ilişib qaldı. Bu qədər qaldığı olmamışdı. Aradakı iki illik həsrətin acısını çıxarırdı. Parlaqlığı daha da artmışdı. Ona doğru ixtiyarsız bir-iki addım atdım, gözümü yumub başımı azacıq qaldırdım. O səmtdən əsən küləyi sinə dolusu içimə çəkdiyim an kiminsə səsi eşidildi:

“Orucov, sizi qərargaha çağırırlar!”

Gözümü açdım, işıq yox idi, bir anlıq onu havayla birlikdə canıma çəkdiyimi düşünüb sevindim.

Qərargahın həyətində bizim bölük komandirini gördüm. Polkovnik Nəbiyevin yanına birlikdə gedəcəkdik.

Keçən gün briqadamızın bir çavuşu, altı əsgəri dumanda azıb düşmənə əsir düşmüşdü. Yüksəklikdəki posta yemək aparırmışlar, qayıdanda cığırı səhv salırlar, xeyli yenəndən sonra hava açılır, düşmənin nəzarət etdiyi ərazidə olduqlarını görürlər. Çavuş ağıllı tərpənir, əsgərləri gizləyib, ətrafı yoxlamağa çıxır, lakin nabələd olduğundan onu tezliklə tuturlar və qalan əsgərlərin izinə düşürlər. Çavuşun gəlmədiyini görən əsgərlər geri qayıtmaq ümidiylə hərəkətə başlayırlar, ətrafı yenə sıx duman bürüyür və gedib düşmən postunun üstünə çıxırlar.

Yəqin, briqada komandiri bizi bu məsələdən ötrü çağırırdı. Kim bilir, bəlkə hücum əmri verəcəkdi. Kaş belə olaydı. Kursant olduğum vaxt düşmənin Murovda alınmaz qalalar yaratdığını eşitmişdim. Qala-zad yox idi! Bir il əvvəl Ömər aşırımı uğrunda gedən döyüşdə öz səhvimiz ucbatından məğlub olmuşduq. Taktika düzgün seçilməmişdi. Dağlıq yerlərdə qış vaxtı geniş miqyaslı hərbi əməliyyat keçirmək doğru deyil. Sən aşağıda qarın içindəsən, düşmən yuxarıda səngərdə, heç atışmağa ehtiyac yoxdur, şaxta-qar əvvəl-axır səni gücdən salacaq. İndi əsl vaxtıydı! Yay hələ qurtarmamışdı. Doğma torpaqlar adama gəl-gəl deyirdi. Göz işlədikcə üfüqə doğru uzanan mənzərələr, yandırılmış, dağıdılmış evlər, yiyəsiz obalar ürək parçalayırdı. İnşallah, briqadamıza döyüş tapşırığı verilmişdi və kəşfiyyatın əsgərlərinə bu müjdəni mən çatdıracaqdım. Gizir Səfərovun gözlərinin necə parlayacağını təsəvvür etdikcə gülümsünürdüm. Hələ Qırğı! Yüz faiz "Ura!" deyib qışqıracaqdı.

Briqada komandiri Polkovnik Nəbiyev narahat, yorğun və hirsliydi.

Murovda mövqelərimizin gücləndirilməsi bir yana, bu mövqelərin müəyyən edilməsi onun adıyla bağlıydı. Belə deyək, buralarda hər şey dağılmışdı və yeni nə vardısa gəldiyi son bir neçə ayda Nəbiyev təzədən yaratmışdı. Biz düşməndən qat-qat güclüydük. Bunu mərkəzi komandanlıq da bilirdi və yaxın günlərdə Nəbiyevin baş qərargaha aparılacağı haqqında söz-söhbət gəzirdi. Belə bir vaxtda tam təsadüfdən baş vermiş hadisə onun tərcümeyi-halına kölgə salırdı.

Hərbi salam verdik, bölük komandiri ötkəm səslə söylədi:

"Cənab polkovnik, bölük komandiri baş leytenant Abdinov və taqım komandiri kiçik leytenant Orucov əmrinizlə gəlmişdir!"

*Polkovnik Nəbiyev*

Baş qərargahla uzun-uzadı telefon danışığından sonra kəşfiyyat əməliyyatının keçirilməsi üçün razılıq ala bildim. Mərkəz atəşkəsin pozulacağından qorxurdu. Onları qınamırdım. Beynəlxalq təşkilatların vasitəçiliyi ilə sülh danışıqları apardığımız bir vaxtda müharibəyə başlamaq əleyhimizə yozular, bizi istəməyənlərin dəyirmanına su tökərdi. Həm də, açıq desək, döyüşə hazır deyildik. 701-in məğlubiyyətindən sonra Murovda mövqelərimizi təzə-təzə möhkəmləndirirdik. Mən bu istiqamətə təyin olunan gündən postlar yaradır, səngərlər qazdırırdım. İş həddindən artıq çox idi. Çətinliyimizin ən böyüyü relyeflə bağlıydı. Postlara yemək və su qaldırmaq böyük problemə çevrilmişdi. Maşın yolu yalnız Ömər aşırımınacan gedirdi. Hündür, boz qayalardan ibarət olan yüksəkliklər hərbi hissədən çox aralı olduğu üçün əsgərlər postlara lazım olan şeyləri çiyinlərində daşıyırdılar. Seyrək havada dik uçurumlara qalxanda adam təngnəfəs olur, addım ata bilmirdi. Qışda isə aylar uzunu düşmənlə deyil, qar və şaxta ilə döyüşməli olurduq.

Atəşkəsin pozulmayacağına qəti söz verməmiş əməliyyata icazə ala bilmədim. Demək, planımız məxfi qalmalı, kəşfiyyatçılar iz buraxmamalıdır. Tapşırıq məsuliyyətli və çətin idi. Söhbət Kəlbəcər üzə adlayıb düşmən tərəfdən girov gətirməkdən gedirdi. Buna görə kəşfiyyat qruplarına rəhbərliyi nəzərdə tutulan şəxslərlə birbaşa özüm görüşmək qərarına gəldim. Əməliyyata da özüm rəhbərlik edəcəkdim. Çoxdankı arzum olsa da, kəşfiyyat xidmətini hələ tam formalaşdıra bilməmişdim. Düzdür, belə bir xidməti yaratmış, Kapitan Rəşidovu

rəhbər təyin eləmişdim, amma hələ qarşıda çox iş görülməli idi. Ən vacibi, zabit çatışmırdı. Ona görə də kəşfiyyat xidmətinin yalnız bir bölüyü vardı.

Kəşfiyyatdakı uşaqların çoxunu özümlə gətirmişdim. Mən bu əsgərlərlə Arazboyu kəndləri düşməndən təmizləmiş, postlarımızı Haramı düzünün dərinliklərində qurmuşdum. Ali Baş Komandan gözlənilmədən Murova təyin olunmağım haqqında qərar verdi. Dedi, get, oraları qaydaya sal. Mən gələndə Murovu, demək olar, yiyəsiz gördüm.

Özümlə gətirdiyim əsgərlər cəsarətli, qoçaq və vətənpərvər olsalar da, peşəkar deyildilər. Kapitan Rəşidov da hərbi təhsil almamışdı. Belə bir vaxtda Ali Komandanlıq Məktəbini kəşfiyyat üzrə bitirib öz arzusu ilə bizim bölüyə gələn Kiçik leytenant Orucov taleyin bizə hədiyyəsiydi. Kəşfiyyat xidmətinin formalaşmasında Rəşidovla birlikdə mənə yaxından kömək edəcəkdilər.

### *Komandir*

İlk kəşfiyyat əməliyyatına da briqada komandiri Polkovnik Nəbiyevin tapşırığı ilə getmişdim. Onda mənimlə şəxsən görüşməmişdi, əmri xidmət rəisi Kapitan Rəşidovdan almışdım. Uşaqları rəisin məsləhəti ilə seçdim. Qırğı da yeni gəlmişdi. Onun gözlərindəki parıltı diqqətimi çəkdi, həvəsli olduğunu görüb əməliyyata yazdım.

Tapşırıq belə idi: Kəlbəcərin Yanşaq kəndinə gedib müşahidə aparmalıydıq. Aldığımız məlumata görə, ora ağır artilleriya və texnika gətirilirdi.

Səhər hava ağarmamış təmas xəttini keçdik. Yay yenicə girmişdi. Təbiətin gözəlliyi adamı valeh edirdi. Otlarda iz buraxmamaq üçün daşlı-çınqıllı yerlərlə gedirdik. Mənim çəkim elə də ağır deyildi, daşların üstüylə rahat hərəkət edirdim. Qırğı da mənimlə dabanqırma gəlir, bəzən qabağa atılırdı. Onun bu hərəkətini əvvəllər naşılığa yozsam da, yanıldığıma tezliklə əmin oldum. “Qırğı” ləqəbi ona təsadüfi verilməmişdi.

Murovda kəşfiyyatçılar biri-birinə çox yaxın hərəkət edirdilər. Bunu onlara qadağan elədim. Başa saldım ki, topa gedəndə görülmək ehtimalı daha böyükdür. Bir yandan da mina təhlükəsi çoxalır. Öndəki adam minaya düşərsə, hamıya zəfər toxunar. Onlara müşahidə üçbucağı yaratmağı öyrətdim. Biz buna öz aramızda “mişen” deyirdik. Bir nəfər qabaqda gedir, iki nəfər həmin əsgərdən on addım arxada və bir-birindən on addım aralı bərabərtərəfli üçbucaq yaradıb müşahidə apara-apara hərəkət edir. Əslində, kəşfiyyatçılara gündüz hərəkət etmək qadağandır, lakin dağ iqliminin bir

sıra özəllikləri var. Şəraitə uyğun hərəkət etmək əmrini kəşfiyyat qrupunun rəhbəri verir.

İlk kəşfiyyatda özüm "mişen" olmaq istədim, Qırğı başını buladı. Hətta bir balaca istehza da etdi:

"Bizi nə hesab edirsiniz? Harda görünüb ki, komandir canlı hədəf olsun?!"

O, haqlı idi. Kəşfiyyat qrupunun rəhbəri özünü təhlükəyə ata bilməzdi. Bu, bütün qrupun həyatıyla oynamaq olardı. Mənsə dayana bilmirdim. Zabit rütbəsi alsam da, içimdəki əsgər yox olub getməmişdi. Qrup üzvləri necə, mən də elə. Özümü onlardan ayırmırdım. Rütbəm artdıqca bir adamdan o birinə keçmirdim, sadəcə, içimdəki adamlar çoxalırdı. Bir əsgərin üstünə başqa biri gəlirdi.

Qırğını eşitdim. Sağ cinah müşahidəçisi olmaq şərtiylə onu qabağa buraxdım. Qırğıya güvənirdim.

Murovu Kəlbəcər üzə ilk dəfə aşırdım. Təmas xəttini keçəndə bir balaca həyəcan vardı, sonra çəkilib getdi. Qırğının gözünü qırpmadan, eyni zamanda ehtiyatı əldən vermədən irəliləməsi tək məni deyil, bütün qrupu ürəkləndirmişdi. Kəşfiyyat təkcə cəsarət deyil, həm də ehtiyatdır. Ehtiyat olmasa, cəsarət ölümə aparar.

Dərin və uçurumlu dərəylə qalxıb, sonra aşağı yendik. Getdiyimiz yerlərə şərti adlar qoyub xəritədə qeyd edirdik. Qayalıq ərazilərin ardınca çəmənlik, çəmənliyin ardınca meşəlik başlayırdı. Biz meşəyəcən irəliləyib bütün günü orda yatmalı, axşam düşəndə hərəkətə davam etməliydik. Gündüzlər gizlənib gecələr getmək şərtiylə iki sutkalıq yolumuz vardı.

Qayalığa nisbətən çəmənlik açıq ərazi sayılırdı. Yay təzə girdiyi üçün ot elə də hündür deyildi.

Qrup üzvlərinə qayalıqda gizlənmək əmrini verdim

və Qırğıyla “dozor” nəfəri kimi çəmənliyi müşahidəyə çıxdıq. Ona hər şeyi izah etmişdim. Ən çətin anlarda səbrli və soyuqqanlı olmaq lazım gəlirdi. Kəşfiyyatçı əsəbiləşdisə, həyəcanlandısa, qorxdusa, səhv buraxacaq. Müharibədə ən asanı üzbəüz döyüşməkdi. O zaman səhv buraxsan, öz həyatını təhlükəyə atmış olursan, kəşfiyyatçının səhvi isə hamı üçün təhlükədir.

Həm durbinlə, həm adi gözlə bir saat müşahidə apardıq, yaxın yüksəkliklərdə post və ya hərbi məntəqə olmadığına əmin olandan sonra çəmənliyin ətrafını yoxladıq. Səs-səmir gəlmir, insana xas əlamət gözə dəymirdi. Böcəklər elə qayğısız oxuyurdu ki, elə bil bura dincəlməyə gəlmişik, üstəlik, onların dayanmadan oxuması üçün xüsusi sifariş vermişik. Ağacların ahəstə xışıltısı ruha sakitlik gətirirdi. Hər yanı hələ çiçək açmamış kəklikotunun məstedici qoxusu bürümüşdü. Təmiz hava adamın ağzına şəfaverici məhlul kimi axırdı. Görəsən, biz insanlar təbiətin bu gözəlliyindən zövq alıb yaşamaq əvəzinə niyə bir-birimizi öldürməyə məhkum edilmişdik? Olmazdımı bax elə burda, uzanıb ətrafı müşahidə etdiyimiz bu nöqtədə alaçıq qurub ən yaxın adamlarımızla yaşamağın dadını çıxaraydıq?

Çəmənliyi keçəndə Qırğını arxada saxladım. Meşəyə yaxınlaşdıqca təhlükə artırdı. Ağaclar cin-şəyətin kimi görünürdü gözümə. Hər birinin yoğun gövdəsinin arxasında düşmən gizlənə bilərdi. Ağacların sayı qədər düşmən vardı qarşımızda. Meşənin yiyəsiz olduğuna əmin olmadan bunu belə qəbul etmək lazım gəlirdi. Qırğı bu həssas məqamlarda ehtiyatsız davrana bilərdi.

Meşənin küncündə qaya vardı. Ora süründüm. Yəqin, Qırğı istiqaməti qəfil dəyişdiyimi görüb təəccüblənəcəkdi. Ona tərəf baxmırdım. Əslində o, bəlli

istiqamətdən sapdığımı görüb dalımca gəlməməli, məni əsas xətdə gözləməlidir. Yoldaşı hər bir hərəkətindən anlamaq kəşfiyyatçının əsas keyfiyyətdir. Əhsən, Qırğı! O, məni başa düşmüşdü. Dönüb baxanda hərəkət zolağında dayanıb məni və ətrafı həssaslıqla müşahidə etdiyini gördüm. Mənsə qayaya meşədə səsin olub-olmadığını yoxlamaq üçün yaxınlaşırdım. Belə yerlərdə adi şaqqıltı da qayada əks-səda verir.

Qayada səs vardı! Meşədən maşın, ya hərbi texnika hərəkət edirdi. Əlimlə Qırğıya təhlükə işarəsi verib, səsin nə olduğunu anlamağa çalışdım. Dığıltısı sərt deyildi. Hərbi maşın olmazdı. Təxminimə görə, bizdən üç yüz-dörd yüz metr aralıda, getdikcə uzaqlaşan “UAZ” səsiydi. Yol narahat olduğundan səsi gah artır, gah azalırdı. Əgər buralarda hərbi hissə vardısa, bu səs məni ora götürəcəkdi. Onu itirməməyə çalışırdım. Səs birdən kəsilsə, hədəf yaxındadır, getdikcə uzaqlaşıb itsə, ardınca düşmək lazım gələcək.

Səs uzaqlaşırdı. Əlimlə Qırğıya ətrafda nə gördüyünü soruşdum. O, mənə sakitlik işarəsi verəndə qalxıb özümə də qəribə gələn sərbəstliklə meşəyə tərəf addımladım.

Ağacların arası ilə səs gedən tərəfə getdim. Qırğı da meşəyə çatmış olardı. Tapşırığa görə, qayalıqdakı qrup üzvləri Qırğı meşəyə girəndən on dəqiqə sonra onun ardınca həmin yerdən ağacların arasına daxil olacaq, iyirmi-otuz addım irəli gedib “kalço” yaradacaqdılar. Geri qayıdanda uşaqların məni harda gözləyəcəyini bilirdim.

“UAZ”-ın izini gördüm. Hətta batıb-çıxdığı yeri də tapdım. Meşədən yanmış benzin qoxusu gəlirdi. Maşının səsi ağacların mürgüsünü qaçırmışdı. Qayğıyla pıçıldaşırdılar.

Meşənin çıxacağında bir vələs ağacının arxasına yaslanıb qarşı dağın yamaclarına qalxan yola baxdım, "UAZ" tüstü verə-verə dağı yuxarı qalxırdı. Yol narahat olduğundan maşının nəriltisi dərəni başına götürmüşdü. Arxasından çıxan tüstü o qədər gur və qara idi ki, deyirdin, mühərriki bu saat dağılacaq. Dağılsa, əla olardı, hamısını qulaqlayıb Kapitan Rəşidova hədiyyə aparardım.

***Qırğı***

Komandirin qayaya sarı getdiyini görəndə, elə bildim, meşədən hücum var, təhlükəni bizdən yayndırmaq üçün istiqaməti dəyişir. Sonra düşündüm ki, yox, qorxusundan qayalıqda gizlənməyə qaçır. Başını səs dinləyirmiş kimi azca qaldıranda hər iki qənaətimin yanlış olduğunu anladım. Mən heç nə eşitməsəm də, komandirin bir səs aldığını hiss edirdim. Onun nə etdiyini özüm üçün tam aydınlaşdırmamış yerimdən tərpənə bilməzdim. Gözlədim. Mənim vəzifəm qrupun yeganə durbini ilə ətrafı izləmək, komandirin təhlükəsiz hərəkətinə şərait yaratmaq idi.

Qayanın yanından iri addımlarla meşəyə tərəf gedəndə qalxıb ardınca düşmək istədim, lakin yenə özümü saxladım. Bütün qrup ardımca gələcəkdi. Meşədə düşmən vardısa, mühasirəyə düşərdik.

Komandir meşəni yoxlayıb mənə "gəl" işarəsini verdi. Getdim. Ağacların ən sıx yerində "UAZ" səsi eşitdim. Dərəni başına götürmüşdü. Səsə tərəf qaçdım. Komandir meşənin qurtaracağında ağaca söykənib dağın döşüylə qalxan maşına baxırdı. Durbini məndən alıb yenə baxdı və maşının nömrəsini söylədi. Nömrəni kəşfiyyat dəftərçəsinə yaza-yaza astadan dedim:

"Kaş batıb qala, gedib hamısını əsir götürək!"

"Kaş!"

*Komandir*

“Kaş” söylədim söyləməyinə, lakin biz istəyən olmadı. Arxasından qara tüstü verən “UAZ” nərildəyə-nərildəyə dağı o üzə aşdı. Maşının belə əziyyətlə hərəkət etməsi düşmənin zəifliyinin əlaməti kimi içimdə rahatlıq yaratdı.

Biz geniş dərə boyu iki saata yaxın müşahidə aparıb meşənin ortasında qərar tutmuş yoldaşların yanına qayıtdıq. Axşamacan dincəldik, qaranlıq düşəndə hərəkətə başladıq. Gecə “UAZ”-ın dırmaşdığı dağı aşıb Yanşaq tərəfə sallandıq. Sərt uçurumla irəliləyib çəmənliyə çıxdıq. Qaranlıq hələ çəkilmədiyinə görə çəmənliyi birlikdə adladıq. Yanşağın yaxınlığındakı meşədə yerləşib səhərin açılmasını gözlədik.

Səhər ağır-ağır açılırdı. Yanşaq tərəfdən gələn duman azca çisəkləyib çılpaq yamaclara süründü. Dağılmış evlər bir-bir çiskinin altından çıxmağa başladı. Durbinlə baxanda dünənki “UAZ”-ı salamat evlərin birinin həyətində gördüm. Evin yan-yörəsində əsgərlər vardı. Bu, bir, uzağı iki bölüyün əsgəri idi. Ətrafda heç bir yeni tikinti gözə dəymirdi. Lakin kənddən yuxarı yastanaya yol çəkilmişdi. Çox güman, buranı yeni hərbi hissə üçün nəzərdə tutmuşdular.

İki əsgər əlində kanistr meşəyə tərəf gəldi. Demək, yaxınlığımızda bulaq vardı. Əslində, kəşfiyyat xəritəsində bulaq mütləq göstərilməlidir. Bizim hərbi hissədə Yanşaq kəndini yaxşı tanıyan nə qədər kəlbəcərli var, soruşmaq olmazdımı? Biz buralarda bulaq olduğunu bilsək, bəlkə tamam başqa cür hərəkət edərdik.

Əsgərlər əlli addımlığımızacan gəlib xəndəyin altına düşdülər. Yəqin, bulaq balaca idi, suyu az olduğundan çəmənliyə səpələnib itirdi, yoxsa asanlıqla görərdik.

Əsgərlər xəndəyin altında xeyli yubandılar. Qırğı mənə əliylə “Bəlkə, gedib qulaqlayaq?” söylədi. Olmaz işarəsi verdim. Açıq sahəyə çıxsaq, kənddən bizi görərdilər. Köhnə-kürüş forma geyinmiş çəlimsiz əsgərlər üstü kirli, saralmış su qablarının altında güclə yeriyirdilər. Qırğı təkbaşına onların ikisini də qoltuğuna vurub Öməri o üzə aşardı. Əsgərlərə baxdıqca “dil” gətirmək eşqi mənə də sirayət etdi. Gəlmişkən, əliboş qayıtmayaq barı.

Kəndin girəcəyindəki yolayrıcına çatanda əsgərlərin biri sola dönüb dərə yoxuşa çıxdı. Onu rahat izləmək üçün yerimi dəyişdim. Əsgər irəliləyib kəndin yuxarısından bir də sola, biz olan meşənin baş tərəfinə qayıtdı. “Qırğının cücəsi gəlir” deyə düşünüb altdan yuxarı bir az da qalxdım. Əsgərin getdiyi səmtdə, meşənin başındakı talada balaca bir çadır vardı. Əsgər ora yaxınlaşıb içəri keçdi. İçəridən üç nəfərlə bayıra çıxıb siqaret çəkdilər. Zarafatlaşdılar. Zabit geyimində olan yekəpər su gətirən əsgəri bir neçə dəfə xüsusi fəndlə yerə yıxdı. Sonra fəndləri yanındakılara göstərdi. “Bunu aparmaq çətin olacaq” dedim öz-özümə. Və Allaha yalvardım ki, gecə çadırı tərk edib kəndə gəlməsinlər. Elə də oldu. Su aparan əsgər qayıtdı, zabit və iki əsgər çadıra keçdi.

Qırğıya heç nə demədim. Onu xüsusi tapşırıqla uşaqların yanına göndərdim; növbəylə yatıb dincəlsinlər, yemək yesinlər...

Bir saatdan sonra Qırğı yanıma gəldi. Axşam şər qarışana qədər Yanşağın ətrafını müşahidə etdik, gəlib-gedən maşınları, adamların sayını, salamat evlərin yerini xəritədə qeyd elədik, axşam konsert olacaqdı.

Çöldə hərlənən əsgəri Qırğı tutdu, cınqırını da çıxarmağa imkan vermədi. Sürüyüb çadırın yanındakı

daşın arxasında “ştık-noj”la susdurdu. İkimiz çadıra girdik, Qırğı sağdakının, mən soldakının üstünə atıldıq. Təsadüfən əsgər mənə, zabit Qırğıya düşmüşdü. Əsgərin boğazından elə tutdum ki, səs çıxara bilmədi. Zabit müqavimət göstərirdi. O, Qırğını öldürmək, Qırğısa onu sağ tutmaq istəyirdi. Gördüm alınmayacaq, “öldür” dedim. Qırğı sözümə bənd imiş kimi avtomatın qundağı ilə başına möhkəm bir zərbə vurub cəld də ağzını tutdu. Can vermirdi. Əsgəri sürüyə-sürüyə Qırğının əlindən partlayıb çıxmaq istəyən pəzəvəngə yaxınlaşdım. Qırğı səs çıxarmaması üçün onun ağzını tutduğuna görə rahat vuruşa bilmirdi. “Ştık-noj”u zabitin sol qoltuğundan vurdum, sümüklərinin xırçıltısı eşidildi. Bir dəfə burub çıxarmamış ölmüşdü.

Əsgəri alıb sürətlə uzaqlaşdıq. Bir sutkada keçdiyimiz yolu bir gecəyə qayıtmışdıq. Səhəri təmas xəttindəki axırıncı qayalıqda qarşıladıq. Orada gizlənib hərəkət etmək üçün gecənin düşməsini gözlədik.

*Polkovnik Nəbiyev*

“Dil” gətirmək əmri verməmişdim, lakin bizim kəşfiyyatçılar bilirdilər ki, erməni əsirliyində çoxlu adamlarımız var, hər gətirilən girov onların bir neçəsinin azad olunması deməkdir.

Orucov ilk əməliyyatından böyük uğurla qayıtmışdı. Bütün tapşırıqları ən incə detallarınacan yeri-nə yetirməklə qalmayıb girov da gətirmişdi. Biz kəşfiyyatçılarımızın müşahidə ilə əldə etdiyindən əlavə girov gətirilən həmin əsgərdən də çox qiymətli məlumatlar aldıq, sonra üç nəfər mülki şəxslə dəyişdik.

Gözləmədiyim anda belə bir şücaət göstərən, düşmən əsgərini iyirmi-otuz kilometr içəridən qulaqlayıb gətirən zabitə çox güvənirdim. Məni düşdüyüm çətin vəziyyətdən xilas etsə, o edəcəkdi. Hərb tarixində, yəqin ki, bir briqada komandiri bir taqım rəhbərinə, bir polkovnik bir kiçik leytenanta bu qədər möhtac qalmamışdı. Mənimki şanssızlıq idi! Bir belə zəhmət çək, on kilometrlərlə döyüş xətti keç, neçə kənd azad elə, Murovda hərbi hissə yarat, səngər qaz, mina basdır, axırda altı nəfərin təsadüfən azıb-gedib düşsün düşmənin əlinə. O qədər hirsliydim ki, az qala kəşfiyyatçı kamuflyajı geyinib özüm girov gətirməyə gedəcəkdim.

Kiçik leytenant Orucovu həm də şəxsən tanımaq üçün çağırmışdım. Düzdü, qərargahda bir neçə dəfə görmüş, əl tutub görüşmüş, öz hörmətimi ifadə etmişdim, amma bölük komandiri ilə birlikdə iş otağına çağırıb söhbət etmək başqadır.

O, yığcam bədəni, təmiz çöhrəsi və sərt baxışları ilə qartala bənzəyirdi. Gözlərinin içinə baxanda əməliyyatı bacaracağına qəti şəkildə inandım. Hərbi formada, sa-

lam verdiyi yerdə çox əzəmətli görünürdü. Barmaqlarının ucunda da hərbçi dəqiqliyi vardı. Üz cizgiləri mənalı və sakit idi. Onu hövsələdən çıxarmaq, təmkinini pozmaq imkansız görünürdü.

Orucovu daha dərindən müşahidə etmək, səbrini yoxlamaq üçün "Azad" komandasını xeyli yubatdım.

***Komandir***

Polkovnik "Azad" komandası vermədən ayağa qalxıb otaqda gəzişməyə başladı:

"Hər əsgərə beş min istəyirlər!" - dayanıb üzümə baxdı - "Ordu deyil, mafiyadır! Sizin qarşınızda hərbçilər deyil, quldurlar dayanıb, bilirsizmi?"

"Bilirik, cənab polkovnik!" - bölük komandiri dillənəndə Nəbiyevin yadına düşdü ki, biz hələ də hərbi salam vəziyyətində dayanmışıq. Dilucu "A-zad" söylədi və iri addımlarla otağın o başına getdi:

"Deyirəm, rəhbərliyinizlə əlaqə saxlayaq, optimal bir variant tapaq, deyirlər, nə danışırsınız, biz əsgərləri öz rəhbərliyimizdən gizləyirik, onların bu işdən xəbəri yoxdur. Təsəvvür edirsiniz?!"

Gəlib düz qarşımda dayandı:

"Təsəvvür edirsən, Orucov?"

"Edirəm."

"Bir gün bir dəstə erməni azıb sizin posta gəlsə, sən bizdən xəbərsiz onları pula dəyişərsən?"

"Bunu təsəvvür edə bilmirəm, cənab polkovnik" - gülümsədim, doğrudan da, vəziyyət mənə gülməli gəldi.

"Bəs mən nə edirəm?" - səsini qaldırdı - "Onların nazıyla oynayıram! Çünki acizəm! İki-üç İrəvan tulasına yalvara-yalvara qalmışam!"

Polkovnik təmkinini itirməsə də, arada hirs-hikkəsini ifadə edib rahatlamağa çalışırdı. Yenə otağın o başına getdi, qayıdanda bizim yox, xəritənin qarşısında dayandı, mövqelərimizi gözdən keçirə-keçirə qətiyyətli səslə dedi:

"Dil" gətirməlisiniz! Elə etməlisiniz ki, onlar bizə yalvarsınlar!"

Bir az fasilə verib yenə səsini qaldırdı:
“Amma bircə şərtlə: atəşkəs pozulmayacaq!”
Bizə tərəf çevrildi:
“Bacararsınız?”
“Bacararıq!!!” - xorla cavab verdik. Bölük komandirini bilmirəm, mən ürəklə söylədim. Çünki özümə də, dostlarıma da inanırdım.
“Məncə də bacararsınız!” - polkovnik xeyli yumşaldı. O, səsimizdəki özünəinamdan işi bacaracağımızı hiss eləmişdi. Üzünü təkrar mənə tutub şəfqətlə gülümsədi:
“Sənin haqqında çox eşidirəm. Elə bilmə nəsə diqqətdən kənarda qalır. Hər şey gec-tez qiymətləndiriləcək.” - bu, deyəsən, söhbətimizin həvəsləndirmə bölməsiydi, lakin təkcə mənə dediyi üçün bir az səmimi qəbul etmək olardı.
Komandirin son tapşırığı bu oldu: “Qərargaha gedin, əməliyyat planını hazırlayın. Kapitan Rəşidova tapşırmışam!”
Qərargahda bizi “Karta Sabir” qarşıladı. O, uzun müddət torpaq komitəsində xəritəçəkən işləmişdi, kadr çatışmadığına görə qərargahda işə cəlb etmişdilər. Hər zabitdən bir şey öyrənə-öyrənə işə xeyli yiyələnmişdi. Karta Sabir uşaq vaxtı “Kirpi” jurnalında gördüyüm karikaturalara oxşayırdı. Başının ortası keçəl, qarnı qabağa çıxıb. Hirslənəndə kəkələyir, kəkələyəndə gözlərini qırpırdı. Hövsələsiz adam idi, ona görə itoynadan uşaqlar onu tez-tez cırnadırdılar. Deyirdilər, səni uşaqlarına görə burda işlədirlər, yoxsa heç kim sənin xəritələrinlə hərəkət eləmir. Kişini od götürürdü. Yaşı qırxı keçmişdi, amma hələ də uşaqlıq idimi burnundaydı.
Qoltuğunda kağız-kuğuz Kapitan Rəşidovun qapısının ağzında gözləyirdi. Qarnı əvvəlkindən çox pırtlayıb

qabağa çıxmışdı. Elə bil onu çəkən rəssam qəsdən qarnını bir az çox, həm də gözlənilmədən qabağa çıxartmışdı. Qoltuğundakı kağız-kuğuzun arasında uzun bir xətkeş vardı. Yalan olmasın, bir metrə. Leytenant Abdinov xətkeşə işarə edib söz atdı:

"Sabir müəllim, o uzunluqda xəritə çəksən, gedib Xankəndinə çıxarıq, mümkünsə, bir az qısa edərsən."

Bu dəfə hirslənmədi:

"Sizin əməliyyatlara xətkeş lazım deyil, "spiçka"nın tiniylə çəkirəm. Postdan bir az irəli gedib yatırsız, axşam geri gəlirsiz, bu da olur kəşfiyyat!"

Gülüşdük. Onunla görüşüb xidmət rəisinin otağına keçdik.

*Kapitan Rəşidov*

Elə bu məqamdaca isti-isti etiraf edim ki, “kambriq”in hazırladığı əməliyyatdan ağlım bir şey kəsmirdi. Nəyə görə? Ermənilər altı nəfərin dumanda azıb əsir düşməsinə görə biz tərəfin əməliyyat keçirəcəyini bilirdi. Əməliyyat da nə olacaq? Müharibəyə başlayası deyildik ki! Girov gətirib əsgərlərlə dəyişəcəkdik. Ona görə təmas xəttini gücləndirmiş, ehtiyat tədbirlər görmüşdülər.

Görünür, Polkovnik Nəbiyev mənim könülsüz olduğumu hiss edib bölük və taqım komandirləri ilə görüşdə iştirak etməyimi məsləhət bilmədi. Dedi, icazə ver, onları sənsiz, özüm qəbul edim. Dedim, buyur. Onlar söhbət edəndə mən qərargahda, öz iş otağımda gözləyirdim.

Orucov əməliyyata çox həvəsliydi. Lakin onun kimi bacarıqlı bir kəşfiyyatçının da Kəlbəcər üzə keçib girov gətirəcəyi inandırıcı görünmürdü. Mənə qalsa, bir az vaxt keçməliydi. Polkovnik hirslənmişdi. Hirsli zabit, nə qədər təcrübəli olur-olsun, düzgün qərar verə bilməz. Təbii ki, susurdum və onun əmrlərini müzakirə etmək səlahiyyətim yox idi. Yalnız məndən fikir soruşduğu zaman nəsə deyə bilərdim.

Polkovnik Nəbiyevin tapşırığı əsasında əməliyyat planını hazırladıq, Karta Sabir hərbi təxəyyülümüzü öz xəritəsində səliqəylə əks etdirib qrup rəhbərlərinin hərəsinə bir nüsxə verdi. Əməliyyat planına görə Abdinov və Orucovun rəhbərliyi ilə iki qrup yaradılacaq, birinci qrup şərq, ikinci qrup qərb istiqamətindən Kəlbəcərə adlayacaq. Məqsəd girov gətirməkdir. Hərbçi də ola bilər, mülki şəxs də.

Komandirlərə sonuncu tövsiyəmi verib uğurlar ar-

zuladım, onları bölüyə yola salıb özüm qərargahda qaldım. Hər iki əməliyyata rəhbərlik etmək üçün gecə bölüyə qalxacaqdım.

***Komandir***

Kapitan Rəşidov qayğılıydı. Deyəsən, işi bacaracağımıza inanmırdı. Əməliyyat planını hazırlayandan sonra səsindəki yorğunluq diqqətimdən qaçmadı:

“Uşaqlar, yəqin, Polkovnik Nəbiyev özü sizə deyib, nə edirsiniz-edin, atəşkəs pozulmasın. Unutmayın, kəşfiyyat əməliyyatı briqada komandirinin, atəşkəsə diqqət etmək baş qərargahın tapşırığıdır.”

Atəşkəslə bağlı tapşırığın belə israrla, dönə-dönə verilməsinə təəccüb edirdim. Biz atəşkəsi necə təmin edə bilərdik? Düşmənə görünməməklə. Bunu onsuz da əlimizdən gəldiyi qədər edirdik. Axı görülmək, fərq edilmək, açığa çıxmaq kəşfiyyatçının ölümü deməkdir. Allah eləməmiş, mühasirəyə düşsək, istər-istəməz atışmağa məcbur qalacaqdıq. Yoxsa bu tapşırıq o demək idi ki, sizi görsələr, köməyinizə gəlməyəcəyik?

İçimdə mübhəm bir ağırlıq vardı. Murovun yaxasında gümüşü işığı axtardım. Yox idi. Hava qaraldıqca dağlar adamın üstünə gəlirdi. Yorğun olsam da, dincəlməyə vaxt tapmadım. Gizir Səfərovu çağırıb, kəşfiyyata gedən əsgərləri toplamasını tapşırdım.

*Gizir Səfərov*

Kəşfiyyat sözünü eşidəndə gözlərimə işıq gəlir. Yan düşüb yatmaqdan yanımız ağrıyır. Sağ olsun, cavan əsgərlər, işə-gücə də qoymurlar. Özümü lap kənd yerlərində zərli mütəkkəyə dirsəklənib mürəbbəli çay içən qocalar kimi hiss edirəm. Bütün günü ya Mazanovla mübahisə edir, ya da İrəfiyevlə məzələnirəm. Danışmağa söz də qalmayıb. Getdikcə zayıllayıram. Bir az gəzsəydik, həm yelimizi tökərdik, həm də təzə söz öyrənərdik.

Komandir məni çağırıb elə beləcə də dedi: “Səfərov, səfər var!”

Biz kəşfiyyata öz aramızda “səfər” deyirik. Bu sözü mənim soyadımdan götürmüşdülər. Tək taqımımızda yox, bütün bölükdə məndən çox “səfər”ə gedən olmamışdı. Axırıncı əməliyyata komandirin özüylə getmişdim. Mən olan qrup heç vaxt çıxılmaz vəziyyətə düşməyib. Ancaq komandirlə gedəndə bir balaca karıxdıq.

Onda Orucov yenicə gəlmişdi. Uşaqlar onu görəndə dedilər, bu ki uşaqdır, bizə necə rəhbərlik edəcək? Doğrudan da, arıq, cansız bir uşaq idi. İstədim deyəm, ay bala, sən niyə gedib həkimdən, müəllimdən olmamısan, Murov sənin yerin deyil, heç nə yox, dağda-daşda qartallar caynağına alıb aparar səni.

Biz Murovun köhnə döyüşçüləriyik. Dağların dəlmə-deşiyini siçanlardan yaxşı tanıyırıq. Murovun xasiyyətinə də bələdik. Nə vaxt yağış yağacaq, nə vaxt dolu düşəcək, nə vaxt ildırım çaxacaq, bilirik.

Orucov bölüyə gələn vaxt mənim azı üç-dörd il döyüş stajım vardı. Sən demə, komandir də döyüşübmüş. Hət-

ta yaralanıbmış. Bunu sonralar bildim. Hələ ona xeyli vardı. Hələ öz aramızda onu sayaq-saymayaq deyə düşünürdük. Bəzən, az qala, atası yaşda olan əsgərlər onun sözünə qulaq asmırdılar. O isə hər şeyə səbrlə dözürdü. Ən əsası, bizi qərargaha satmırdı! Bir dəfə aramızda yumruq davası düşmüşdü. Əməlli-başlı. Komandirin bu dəfə ciddi ölçü götürəcəyini düşündük. Yenə də səs çıxmadı. O özü taqımdakı vəziyyəti qaydaya saldı, bizi bir yerə yığıb məclis təşkil etdi, hamını barışdırdı. Orda dediyi sözlər dəqiq yadımdadır:

"Kəşfiyyat başqa taqımlara oxşamır, biz bir-birimizi qardaşdan artıq sevməliyik, yoxsa düşmənin içinə gedə bilmərik!"

Biz onsuz da barışacaqdıq, lakin bizdən cavan, təcrübəsiz bir gəncin belə hərəkət etməsi, belə sözlər deməsi mənə qəribə gəldi. Tezliklə ona isinişdim. Hiss etdim ki, elə-belə zabit deyil. Ən azı, hamı kimi deyil. Taqımın əsgərləri məni lağa qoyurdular, deyirdilər, komandirə yaltaqlanırsan. Hələ o İrəfiyev var ha, deyirdi, yəqin, rütbə almaq istəyirsən. Az qaldım "ştık-noj"la burnunu kəsəm. Dedim, ə, debil, neçə ildi bir yerdəyik, mənim kiməsə yaltaqlıq elədiyimi görmüsən? Layiq olduğum yerdə də geri durmuşam, gizlənmişəm. Heç nə lazım deyildi mənə. Nə rütbə, nə vəzifə.

Avtomatın ucuyla yerə "x" çəkdim, dedim, uşaqlar, baxın, bura yazdım, əgər Orucov Murovun ən möhtəşəm zabiti olmasa, adımı dəyişəcəm. Mən ona yaltaqlanmıram, mən ona dəyər verirəm!

Orucovla "Yay postu"na qalxanda düşmənin pusqusuna düşdük. Bu postun adı təsadüfi qoyulmamışdı. Elə bir yer idi ki, qışda dayanmaq mümkün deyildi. Nə geyinirsən-geyin, blindajı nə qədər isti eləyirsən-elə,

soyuğa-sazağa davam gətirmirdin. Yelçəkən yer idi. Həmişə şaxta qarışıq külək əsir, tez-tez çovğun olurdu. Əlini əlcəkdən çıxaranda dırnaqlarından cızıltı səsi eşidirdin. Elə bil əlini toka qoşurdular. Şaxta qılınc kimi kəsir deyirlər haa, qətiyyən bu sözün şişirtmə olduğunu düşünməyin. "Yay postu"nda, doğrudan, belə idi. Neçə nabələd əsgərin qulağını, burnunu, barmağını şaxta kəsib atmışdı. Orda nə erməni həmişəlik mövqe tuta bilirdi, nə biz. O postda təbiət özü mövqe seçirdi və hər iki tərəfə meydan oxuyurdu.

Yaz başı bizdən və düşmən tərəfdən kim cəld tərpənsə, gedib orda dayanırdı. Atəşkəs olduğu üçün kim ora çıxırdısa, qışa qədər qalırdı. "Yay postu"nun bizdə olması kəşfiyyat üçün çox əhəmiyyətli idi. O istiqamətdən təmas xəttini keçənlər bunun nə demək olduğunu yaxşı bilir. Düşmən tərəfdə, ölümün ağuşunda çevrilib arxaya baxarkən bizimkilərin yerləşdiyi hər zirvə inanılmaz təsəllidir. Biz düşmənin dərinliklərində kürəyimizi o zirvələrin qaraltısına söykəyirik. Ordan gələn küləklər bizi üşütmür.

Qar əriməyə başlamışdı. "Yay postu"nu qalxmağın vaxtıydı. Orucov yenicə gəldiyindən buralara elə də bələdçiliyi yox idi. Əgər olsaydı, müşahidə aparmadan, postun boş olduğuna əmin olmadan bir addım da atmazdı. Əslində, biz də müşahidə aparmışdıq. Kəşfiyyatçı nə qədər naşı olar ki, bilmədiyi, ən azı böyük ehtimalla təxmin etmədiyi yerə addım atsın. Post boş idi. Biz düşmənlə eyni vaxtda qalxırdıq ora, sadəcə onlar bizdən bir az qabağa düşdülər.

Ağ "masxalat"da qarın içi ilə hərəkət edirdik. Qabaqda "mişen" vardı. İrəfiyev. Bizdən, təxminən, on addım irəlidəydi. Arxada, beş-altı addım aralıda komandirlə

mən uzanmışdıq. Posta yaxınlaşırdıq ki, düşmən əsgərləri qəfil dağın başına çıxdılar. Biz görünməmək üçün botinka və silahlarımızı qara gömməyə başladıq. "Mişen" də eyni hərəkəti edib görünməz oldu. Üçbucaq yoxa çıxdı. Düşmən bizim mövqelərə baxırdı. Onlara bu qədər yaxın olduğumuzu ağıllarına gətriməzdilər. Bizi görsəydilər, İrəfiyevi yüz faiz vuracaqdılar. Orucovla mənim qaçıb qurtarma şansımız yüzdə-iyirmiydi.

Qara qarışıb yox olmaqdan başqa əlacımız yox idi. Amma nə qədər? Ayağımı don vurdu. Bir az da qalsaq, yəqin, barmaqlarım qaralacaqdı.

Birdən baxdım ki, komandir yoxdur. On beş-iyirmi dəqiqə keçmiş yan tərəfdəki mövqelərimizdən "Yay postu"nu pulemyotla atəşə tutdular. Başımızın üstündə dayanan əsgərlər cavab atəşi açmaq üçün səngərə qaçdılar. Güllələrin bizə atılmadığını görüb başımı yavaşca qaldırdım. İrəfiyev qara elə gömülmüşdü ki, elə bildim, ölüb. Ona qartopu atdım. Dəymədi. Birini də atdım. Yenə dəymədi. Üçüncü düz yanbızından dəydi. İrəfiyev geriyə hərəkət eləməyin mümkünlüyünü qartopudan başa düşdü və biz xilas olduq.

Komandir bizi səngərdə qarşıladı. Heyrətdən gözüm kəlləmə çıxmışdı. Ordan quş olub uçmaq da mümkün deyildi. Düşmənin burnunun ucundan, düşmən cəhənnəm, mənim beş-altı addımlığımdan hara yoxa çıxdı, səngərə necə qayıtdı, ömür boyu mənim üçün sirr olaraq qaldı. Arada soruşurdum, gülüb başını bulayırdı.

Beləliklə, mən də, mənə "komandirə yaltaqlanırsan ki, rütbə alasan" deyən Əsgər İrəfiyev də bizi ölümdən xilas edən kiçik leytenant Orucova ömür boyu minnətdar olduq.

İrəfiyevlə xeyli məzələndim: "Sən çox şeyi başınla

yox, dalınla anlayırsan. Qartopu arxadan dəyən kimi vəziyyəti qiymətləndirdin.”

Cırnayırdı. Hətta bir dəfə söyüş də söydü. Vurdum. Ağzı qanadı. Komandir hardansa eşidib gəldi. Beynimi o qədər xarab elədi ki, İrəfiyevdən üzr istədim. Təsəvvür edirsiniz? Mən olam, İrəfiyevdən üzr istəyəm! Hər yadıma düşəndə gic gülmək tutur məni.

“Yay postu” fəlakəti bu balaca, cansız, göygöz oğlanı hamıya tanıtdı. İcazəsiz atəş açdığı üçün qərargahda danlananda isə əməlli-başlı təsirləndik.

İndi mənə “səfər” var” deyirdi.

Güldüm, cavabım belə oldu: “Əladı ki!”

Gülə-gülə kəmərimdən tutub dartdı: “Erkəksən!”

***Komandir***

Düzü, burdakı uşaqların cəsarəti məni valeh edirdi. Bir kəlmə "Kim kəşfiyyata getmək istəyir?" deyirdim, hamı qabağa çıxırdı. Bəzən seçəndə kimisə aparmadığım üçün utanırdım. Ölümdən qorxmurdular. Onu dəfələrlə görmüşdülər. Müharibədə can qoyan bu bığlı-saqqallı kişilər ilk könüllülərdən idilər və orduya sevgiylə bağlanmışdılar. Onlardan peşəkar olmaq olardı, lakin torpağı onlar qədər sevmək mümkün deyildi. Əsas sevgidir. Sən silahın, texnikanın dilini öyrənib, döyüşün bütün sirlərinə yiyələnə bilərsən, içində sevgi yoxdursa, bilik və səriştə heç nəyə yaramayacaq.

Əməliyyat planına əsasən biz Alaxançallı kəndindən Lev istiqamətinə keçib, ən azı bir nəfər "dil" gətirməliydik. Altı nəfərin əsir düşməsi söhbətinə görə düşmən təmas xəttini gücləndirmiş, əlavə tədbirlər almışdı. İşimiz çətin olacaqdı.

Gizir Səfərovu çağırdım. İnanılmaz ruh yüksəkliyi mənə də sirayət etdi. Ona baxanda özümdən asılı olmadan gülümsünürdüm. Cəsuruydu, güclüydü, mərdiydi. Həm də bir az kobudluğu, köntöylüyü vardı. Elə şirin danışırdı ki, saatlarla oturub qulaq asmaq istəyirdin. Başqa adam o cür loru dildə, söyüşlə danışsa, acığım gələrdi. Bunda alınırdı.

Ötkəm duruşu, əzəməti, alovlu baxışları və bütün bunlara uyuşmayan sadəlövh üz cizgiləri məni yenə güldürdü, toqqasından zarafatla dartdım, dedim, get, uşaqları topla.

Ona "Erkək" deyirdim həmişə. Düzdür, erkəkliyi vardı, amma bu ləqəbin mənası təkcə bu deyildi.

Bölüyümüzün yaxınlığındakı yaylaqda qoyun saxlayan çobanlar ona buynuzlu bir erkək bağışlamışdılar. Hardasa əlli-altmış kilo çəkisi vardı. Sevindiyindən o boyda heyvanı çiyninə alıb dik yoxuşu quş kimi gəlmişdi. Bu hədiyyə Səfərovu "igid kəşfiyyatçıya xalq sevgisi"nin göstəricisi kimi sevindirirdi. Canını torpağa fəda edən, əvəzində bir tük təmənnasında olmayan gizirin bu sevinci öz sirli dərinliklərində incə bir kədər gizləmişdi. Səfərov bunun fərqində deyildi və yaxşı ki, deyildi.

Erkəyi bölüyün həyətinə ötürüb gəldi, dedi, yaxşı məclis quraq, fələkdən bir gün oğurlayaq. O vaxt nəsə vacib işlərim vardı, onun fərəhinə soğan doğramalı oldum və məclis iki-üç gün yubandı. Erkək bölüyün həyətində otlayır, orda da yatırdı. Bir səhər durduq ki, yoxdur. Səfərov dəliyə döndü. Dedi, oğrunu tapsam, boğazını üzəcəm.

Yaxın-uzaqdakı hərbçilərə duy vurdu, erkəyi gördüm deyən olmadı. Xəbəri eşidən kimi "sapyor"un uşaqlarından şübhələnmişdim. Onlar hərdən bizə sataşır, kəşfiyyatçılardan nəsə çalmağı böyük qələbə sayırdılar. Təbii, məqsədləri oğurluq eləmək, yaxud bizə sataşmaq deyildi, ayıq-sayıqlığımızı yoxlayırdılar. Ona görə nə edirdilərsə, az keçməmiş bizə bildirirdilər. Bir növü, təlim-məşğələ keçirdilər. Şübhəsiz, erkəyi də onlar aparmışdı. Bunu bilmək üçün kəşfiyyatçı olmaq vacib deyildi. Gizir Səfərov da onlardan şübhələnmişdi, amma yanlarına gedəndə necə and-aman eləmişdilərsə, inanmışdı. Dedim, Səfərov, get "sapyor"lara denən, heyvanı qaytarsınlar. Dedi, komandır, getmişdim, onlarda deyil. Dedim, yenə get, onlardadır. Dedi, ola bilməz, orda yaxşı uşaqlar var, mənə yalan deməzlər. Dedim,

ağlın olsun, Səfərov, gəlib qapından erkək aparanlar sənə yalan da deyər, o üzə də keçər.

Başını qaşıdı. Çətinə düşəndə həmişə belə edirdi. Və başını qaşıyanda qaşını-gözünü əyirdi. Bu vaxt beynində qısaqapanmalar olduğunu bilirdim. Onu yalnız yalan və fırıldaqla çətinə salmaq olurdu. “Sapyor”lar da bunu etmişdilər. Pərt olmaması üçün dedim:

“Gəl, belə edək, özün onlara göz qoy və istənilən vaxt təlim əməliyyatı keçir. İstəyirsən, sənə köməkçi də verim.”

“Lazım deyil” söyləyib getdi, o gün axşamacan qaş-gözünü əyə-əyə başını qaşıdı.

Gecə yarı “sapyor”lar tərəfdə səs-küy qopdu. Əsgərlər gözlədiyim xəbəri axır ki, gətirdilər. Gizir Səfərov müşahidə edib, maraqlanıb, erkəyin onlarda olduğunu, hətta axşamdan kəsilib hazırlandığını öyrənib. Gecə süfrə açılan vaxt qarovulun gözündən yayınaraq, “sapyor” bölüyünün yerləşdiyi binanın çardağına çıxıb, pəncərəni ayağıyla açıb, düz məclisin ortasına düşüb.

O gecə bizim taqım da qonaqlıqda iştirak etdi.

Çıxıb bölüyə gələndə erkəyin ətindən yeyib ağırlaşan Səfərov ayı kimi yanlarını basa-basa mənə yaxınlaşdı və qoluma girdi:

“Komandir, elə bilmə, onlar bizi aldatdılar. Boyunlarına iki erkək qoymuşam, verməsələr, özlərini oğurlayıb gətriəcəm.”

“İki niyə?”

“Biri ziyanlıq, biri cərimə!”

Və həmişəki kimi şirin-şirin güldü.

*Qırğı*

Kəşfiyyat qrupuna seçiləndə xeyli sevindim. Belə də olmalıydı. Komandirlə ən uğurlu əməliyyatı mən keçirmişdim. Səs-sədamız bütün Murova yayılmışdı. Bu qələbədən sonra məni kəşfiyyata aparmamaq insafsızlıq olardı. Gizir Səfərova qalsa, məni seçməzdi. Yalnız özünü gözə soxurdu. Gələn gündən komandirlə münasibətlərini sazlamışdı. O, bundan əvvəl də həmişə eqoistlik edirdi. Qoçaqlıq, igidlik məqamı gələndə yaşının çoxluğundan istifadə edib irəli atılır, təşəbbüsü ələ almağa çalışırdı. O, "Erkək" idisə, mən də "Qırğı" idim. Ömründə can verməzdim ona.

Budəfəki ağır əməliyyat olacaqdı. Bir-birimizi daha yaxından tanıyacaqdıq. Komandir də kimin nəyə qadir olduğunu görəcəkdi.

"Sapyor"ların təmas xəttini yoxlamasına ehtiyac görmədilər. Məncə, bu, doğru deyildi. Kəşfiyyatçı üçün ən təhlükəli şey minadır. Yoxlanmadan addım atılmazdı. Bildiyim qədər, təşəbbüs Səfərovdan gəlmiş, komandir də qəbul etmişdi.

Gərək düzünü deyəsən, ən təhlükəli məqamda Səfərov irəli çıxdı. Təmas xəttində simlə işə düşən minaların olub-olmadığını yoxlamaq üçün qollarını çırmalayıb əllərini yerə yaxınlaşdıraraq astadan yeriməyə başladı. Bu fəndi mən də bilirdim; sim qolun incə dərisinə dəyən kimi öz soyuqluğunu və sərtliyini büruzə verir.

Səfərov bizdən xeyli qabaqda gedirdi. Onu komandirlə mən müşayiət edirdik. Gecənin zil qaranlığıydı. Düşmən postu yatmasa da, bizi heç vaxt görə bilməzdi. Təmas xəttinin ardınca daşlıq, qumsallıq və dik yeniş başlayır-

dı. Burdan kiminsə keçəcəyini düşünmək ağıl karı deyildi.

Kəşfiyyat qrupunun əsgərləri ən təhlükəli ərazini ağaran daşların üstünə ayaq basa-basa düz xətt boyu bir-birinin ardınca keçdilər. Qabaqda mən gedirdim. Yaxşı ki, tez çıxmışdıq. Səhərə yaxın çıxsaydıq, şehdə sürüşərdik.

Biz Kəlbəcərin qızıl mədənləri istiqamətinə yenib müşahidə aparmalı, girovu hardan və necə götürəcəyimizə orda qərar verməliydik.

Daşlıqdan inanılmaz rahatlıqla yendik. Yıxılan, sürüşən, ayağının altından daş yomalayıb səs salan olmadı. Elə bir dərəyə yenmişdik ki, bizi gündüz də görmək mümkün deyildi.

*Komandir*

Təmas xəttini Gizir Səfərovun cəsarəti və zəhməti hesabına keçdik. O, mənə məsafə saxlamaq işarəsi verib, qollarını çırmaladı. Elə bil kiminləsə güləşə hazırlaşırdı. Aşağı əyildi, çılpaq biləklərini qabağa verib otların arasında simli minaların olub-olmadığını yoxlaya-yoxlaya ehtiyatla irəlilədi. Bizdə ön xəttin mina xəritəsi yox idi. Vaxtilə buraları tərk edən briqadadan heç nə qalmamışdı və bu, kəşfiyyatçıların işini çətinləşdirirdi.

Təmas xəttini keçib daşlı-çınqıllı bir yarğana yenirdik. Ayağımızın altından çıxan balaca bir daş da səs-küy salıb yerimizi bəlli edərdi. Uşaqlara daş yomalamamaq və sürüşüb qayadan uçmamaq üçün xüsusi tapşırıq vermişdim. Son dərəcə ehtiyatlı davranmalıydılar.

Kəşfiyyatın ən çətin işi təmas xəttini keçməkdir. Görülmək və minaya düşmək təhlükəsi içimizə səksəkə salırdı. Bir az kənarda durub sərhədi keçən əsgəri izləmək ikiqat həyəcanlıydı. Adam gözünün qabağında gurultuyla havaya sovrula bilərdi.

Təmas xəttindən o üzə mina təhlükəsi olmurdu. Lap dərinlikdə görülmək də bəzən qorxulu sayılmırdı. Düşmən bizi öz əsgəri zənn edirdi. Kəşfiyyatçı bədən dilində danışmağı da bacarmalıdır; hərəkətlərlə yoldaşına istədiyini başa salmağı, yoldaşının hərəkətlərini oxumağı, eyni zamanda görüləndə kim olduğunu nəzərə çarpdırmamağı...

Düşmənin təmas xəttini daha ehtiyatla - gecənin zülmətində güclə ağaran daşların üstüylə keçdik. Bu dəfə "mişen"liyi Çavuş Əsədova, yəni Qırğıya tapşırdım. Seçimim gizir Səfərovun xətrinə dəydi. Burnunu salla-

dı. Qırğı bir az aralanan kimi çiyninə vurub qulağına pıçıldadım:

“Sən qabaqda mənə çox lazım olacaqsan, yorulmağını istəmirəm.”

Doğrudan da beləydi. Biz Səfərova həm də fiziki gücünə görə güvənirdik. Özündən deyən adamı sıxıb suyunu çıxarardı. Əməliyyata da böyük şövqlə gedirdi. Arada bizə ürək-dirək verirdi:

“Qorxub-eləməyin, kim olur-olsun qollarından yapışıb saxlayacam, siz əllərini bağlayıb ağzına əski tıxayarsınız.”

Qırğını Səfərovla mən müşayiət edirdik. Onun qaranlıqdakı siluetini itirmədən irəliləyirdik. Qrupun digər üzvləri iki-bir, üç-bir ardımızca gəlirdilər. Biz məsafə saxlayırdıq ki, kimsə minaya düşsə, təlafat az olsun. Hamı eyni xətdən keçməli idi. Ona görə, özümüzdən arxadakıların bizi rahat görməsinə şərait yaradır, asta-asta, hər qarışın fərqinə vara-vara addımlayırdıq.

Sizə qəribə gələcək, mən kəşfiyyat bölüyünə gələndə əsgərlər addımını bir xətt boyu atmağı bacarmırdılar. Onların çoxunu Allah saxlamışdı. Kəşfiyyatçının bir vacib keyfiyyəti də mümkün qədər az yerə toxunmasıdır. Addımını elə atmalısan ki, sanki iki yox, bir, hətta yarım ayağın var.

Gündüzlər çoxlu müşahidə apardığımız üçün düşmən postlarının yerini, səngərdəki əsgərlərin sayını, hansı silahlardan istifadə etdiklərini yaxşı bilirdik. Günümüz səngərdə keçirdi. Hər postda kəşfiyyatın bir əsgəri dayanırdı. Onlara tapşırmışdım ki, bütün günü düşməni müşahidə altında saxlayın və ən əhəmiyyətsiz şeyləri də qeyd edin. Quşun uçması, daşın yomalanması, dağ keçisinin hürkməsi belə öz zamanına və məkanına görə çox

əhəmiyyətli sayıla bilər. Əslində, təbiət həmişə insanla danışır, sadəcə bunu anlayan var, anlamayan var.

Gecə xeyli məsafə qət eləyib, dayandıq. Hava seyrək, getdiyimiz yerlər eniş-yoxuş və daş-qaya olduğundan uşaqların nəfəsi kəsilmişdi. Bir az dincəlməliydik. Təmas xəttindən xeyli aralanmışdıq. Səfərov bu istiqamətdə kəşfiyyatda olduğu üçün hər yeri tanıyırdı.

"Plaş-palatka"nın altında xəritəni yoxladım, dayandığımız yerin bir az aşağısında meşə qeyd olunmuşdu. Karta Sabirə nə qədər lağ eləsək də, hələ onun səhv elədiyini görməmişdim. Uşaqları burda qoyub Gizir Səfərovla meşəyə doğru hərəkət elədik. Uzaqda deyildi. Düşündüm ki, burda qalıb səhəri gözləyək, uşaqlar yemək yeyib dincəlsinlər, səhər açılanda ətrafı müşahidə edib qərar verərik. Bəlkə elə buralardan əlimizə keçən oldu. Meşə seyrək olduğundan ürək qızdırmadım, bir az dincəlib hərəkət etmək əmrini verdim. İrəlidə bizi daha qalın ağaclıq gözləyirdi.

Xəritədə göstərilən qalın meşəni yaxşı tanıyırdım. Karta Sabir onu bir az aralıda qeyd eləmişdi. Komandirə vəziyyəti deyib, mənə qulaq asmasını xahiş etdim. Meşənin yaxınlığında balaca yaşayış məntəqəsi vardı. Hava işıqlananda orda kimisə görə bilərdik. Komandir məsləhətimə qulaq asdı və mən deyən istiqamətə hərəkətə başladıq. “Dozor” nəfəri özüm idim. Qayalıqdan çəmənliyə yenəndə ayaqlarım bayram elədi. Mən insan əzalarının sevindiyini ilk dəfə onda gördüm.

Düz bir saatın tamamında meşəyə çatdıq. Elə yorulmuşdum ki, ağacların sıx yerində “mən söndüm” deyib kəlləni atdım. İldə bir neçə dəfə, xüsusən fəsillər dəyişən vaxt məni belə dəhşətli yuxu tutur.

Oyananda hava ağarmışdı. Komandirlə Qırğını soruşdum, dedilər, müşahidə üçün meşənin kənarına çıxıblar.

Ac idim. “Veş-meşok”u eşələyib tuşonka çıxartdım. Zəhləm gedirdi tuşonkadan. O qədər yemişdim, boğazım yara olmuşdu. Ancaq əlacım yox idi. Həvəssiz qaşıqladım. Hələ bir sutka keçməmişdi, yeməyimi yarılamışdım. Çörəyim tamam qurtarmışdı. “Veş-meşok”un dibində bir neçə soyutma yumurta və kartof dəyirdi əlimə. Mən hərəkət edəndə çox yeyirəm. Komandirlə Qırğı Allahın bəxtəvərləridir, iki-üç loxmayla günü yola verirlər. Onların bədəni də qıvraqdır. Mən dizel motoruyam. Yaxşı ki, Allahın suyu var, pesok qatıb içirəm. Bu olmasa, gedib-gələ bilmərəm.

Bir də “kambriq”in bizə hədiyyə etdiyi konfetlər dadıma çatır. Gücüm tükənəndə ağzıma atıb soruram, gözlərimə işıq gəlir. Kim nə deyir-desin, kəşfiyyatçının ən böyük çətinliyi aclıqdır. Ac qala bilmirsənsə, evdən

çölə çıxma. Komandirlə Qırğı harda qaldı, görəsən? Bir adam tapsaq, qulaqlayıb gedərdik. Özümə söz vermişəm, bu əməliyyatdan sonrakı məzuniyyətimi ancaq yemək-içməyə sərf edəcəm. Üç ildən artıqdır hərbidəyəm, bir dəfə də olsun rahat, doyunca yeyib-içməmişəm. Ya yeməyə bir şey tapmamışam, ya da bir səbəb çıxıb, iştahamı qaçırıb. Bu dəqiqə elə acıxmışam, qınayan olmasa, İrəfiyevi kəsib yeyərəm. Onsuz da bir işə yaramır.

## *Komandir*

Yayın son günlərini yaşasaq da, dağlar, meşələr saralmamışdı. Zod tərəfə uzanan ovsunlu mənzərəyə baxdıqca kəşfiyyatda olduğumu unudub səsimi qaldırmaq, bir-iki ağız oxumaq istəyirdim. Heyif buralardan! Gözəl vətənimiz vardı, yiyəsi olmadı.

Dağılmış evlərin arasında bir qaraltı eşələnirdi. Adama da oxşayırdı, heyvana da. Qırğının durbinə sarıldığını görüb qaraltını müşahidə etdiyini düşündüm. Balaca bir daş atıb onu yanıma çağırdım və astadan soruşdum:

"Qaraltını görürsən?"

"Yox."

Barmağımla göstərməyə çalışdım. Qırğı gözlərini nə qədər qıyıb baxsa da, heç nə görmürdü. Durbini gözünə qaldırıb baxdı. Yenə görmədi.

"Necə Qırğısan bəs?" - zarafatlaşdım - "Belə çıxır ki, əsl Qırğı mənəm."

"Sən qartalsan!" - ciddi-ciddi söylədi - "Qartal daha uzağı görür. Deyilənə görə, bir kilometrdən siçanın hərəkətini izləyə bilir."

"Amma yanındakı tələni görmür!"

"Tələnin nə dəxli var?"

"Var. Görməklə iş bitmir, gərək nəticə çıxarasan. Deməк, insan bütün canlılardan yaxşı görür."

Qırğının qaraltını tapmaq üçün əziyyət çəkdiyini görüb əlavə etdim:

"Durbinlə axtarma, elə tapa bilməzsən, əvvəl adi gözlə gör."

Və üzümü üzünə yaxınlaşdırıb barmağımın ucuyla qaraltını göstərməyə çalışdım. Nəhayət, gördü, amma baş çıxara bilmədi:

“Tərpənmir. Daşdır.”

Durbini gözünə aldı.

“Tərpənir. Yaxşı bax.”

“Həə, tərpənir. Sən onu necə gördün? Güclə sezilir.”

Durbini alıb baxdım və qaraltını xeyli izlədim. Kəşfiyyatda diqqət və səbr çox vacibdir. Təkrar edirəm: diqqət və səbr! Saatlarla sakit-səssiz uzanıb müşahidə aparmaq asan deyil. Uzaqda tərpənən qaraltı maraq doğurduğu üçün zamanın necə keçdiyini hiss etməyə bilərsən, bəzən elə olur, axşamacan tərpənən bir şey görmürsən, lakin yenə baxırsan. Kəşfiyyatçı üçün sakitlik, hadisəsizlik, hərəkətsizlik yoxdur. Sakitlik, hadisəsizlik, hərəkətsizlik özü də məlumatdır.

Qırğını gizir Səfərovu çağırmağa yollayacaqdım ki, arxadan fısıltısı gəldi. Qırğı cəld silahını səsə tərəf çevirdi. Mən arxadan gələn fısıltı ilə durbinin halqasında tərpənən qaraltını üst-üstə otuzdurub dilləndim:

“Ayıdır!”

“Bir az səliqəli hərəkət elə” - Qırğı yavaşca xəbərdarlıq elədi.

“Boş-boş nə boylanırsız ora-bura?” - Gizir Səfərovun yuxulu və köntöy səsi şəraitə görə çox yüksəkdən çıxırdı. Ona “sakit ol” işarəsi verdim. Mənə yaxınlaşanda çənəmi yaşayış məntəqəsinə tərəf qaldırıb pıçıldadım:

“Orda bir şey tərpənir, səncə, nə olar?”

Gözlərini qıyıb baxdı:

“Ayıdır!”

Qırğı da, mən də heyrətimizi gizləyə bilməyib xorla soruşduq:

“Görürsən?”

“Əlbəttə!”

Bic-bic gülməsindən zarafatlaşdığını anladıq. Bəs qaraltının ayı olduğunu nədən bilirdi? Görünür, burda kəşfiyyatda olmuşdu və ayıların dağılmış yaşayış məntəqəsinə gəldiyini müşahidə etmişdi. Lakin beynimdə dolaşan bu cümlə gizir Səfərovun ayını necə görməsindən daha maraqlıydı; bir yerdə ayı varsa, demək, adam yoxdur!

*Gizir Səfərov*

Boynuma alıram ki, Lev çayının sahillərini, Seyidlər, Dəmirçidam, Susuzluq zonasını bizim Ağsaqqaldan yaxşı tanıyan yoxdur. O, Kəlbəcərin Seyidlər kəndindəndir. Dağda-daşda kərtənkələ kimi hərəkət edir. Harda görünüb, harda itir, bəlli deyil. Mazanovdan heç biz özümüz baş açmırıq, o da ki, erməni ola. Hərdən "suiti" deyirəm ona. Açıq ərazidə, daşın-qayanın, meşənin, otun olmadığı yerdə elə bil torpağa kəllə vurur, yoxa çıxır, gözlənilməyən yerdən təzədən pırtlayır.

Dəmirçidama doğru hərəkət planını hazırlayanda komandir "mişen" getməyi Ağsaqqala həvalə etdi. Üçbucağın oturacaq nöqtələrində Qırğıyla mən olmalıykən özüylə məni seçdi. Qırğını ümumi nəzarət üçün ən arxada gələn qrupa saldı. Fürsət tapıb etiraz elədim:

"Orucov, yenə özünüzü qabağa verirsiniz, şəxsən mən indiyəcən komandirin irəlidə getdiyini görməmişəm. Belə çıxır ki, o biri komandirlər ya qorxaq olublar, ya da taktikanı bilməyiblər."

"Siz mənə nə vaxt komandir deyəcəksiniz?" - söhbəti necə dəyişdisə, pərt oldum.

"Günah özünüzdədir. Bizimlə əsgər kimi davranırsınız."

"Belə çıxır ki, səmimiyyətim, sizinlə dost-yoldaş münasibətim özümə problem yaradır?"

"Təxminən. Müsəlmana yaxşılıq yoxdur!" - güldüm, gözlədim ki, o da gülsün, lakin çox ciddi idi, hətta məndən bir az incimiş kimiydi.

"Əslində, biz sizə öz aramızda komandir deyirik, müraciət edəndə andıra qalmış dil familiyanızı çağırır." - vəziyyəti yumşaltmağa çalışdım.

“Təzə gələn əsgərlər də sizə baxıb belə deyir.”

“Qələt eləyirlər! Qulaqlarını kəsib küçük kimi bölüyün həyətinə bağlayaram!”

“Söz danışdın də!” - incik-incik başını döndərəndə deməyə söz tapmadım. Orucovun taqımında əsgəri nəinki vurmaq, ona acıqlanmaq da olmazdı. Allahın İrəfiyevi qudurub başımıza çıxmışdı. Komandirə atasından artıq güvənirdi. Gələndən çiçəyi çırtlamışdı. Bölükdə hamı bilir, mənim çayımı həmişə İrəfiyev süzüb. Borcudur. Hər yerin ağsaqqalı-qarasaqqalı bilinməlidir. Orucov gələn gündən bu xasiyyətini tərgitdi. Bir dəfə özünə dedim, arxayınlıqla cavab verdi ki, artıq mən də “dembl”əm. Necə hirsləndimsə, az qala avtomatın lüləsini qarnına soxacaqdım. Dedim, ayə, maygülü, “dembl”lik xidmət stajı ilə ölçülmür e! Adamda “dux” olsun gərək! Mən gedənəcən sən “maladoy” qalacaqsan.

Balaca qardaş kimi baxdığım Orucovdan utanırdım. Adama elə baxırdı, elə məzəmmət edirdi, elə sözlər tapıb deyirdi, bölüyün gözü qabağında şillələsə, ondan yaxşıydı. Bir gün 101-də, yeməkxanada özünə çay süzəndə mənə də süzdü. İlk dəfə çay süzən komandir görürdüm. Çaşıb qaldım. Dedim, mən sizə süzməliyəm, siz niyə belə edirsiniz? Dedi, sən də qalxanda mənə süzərsən. Onda anladım ki, bu, başqa adamdır. Bununla özünə layiq davranmalısan. Orucov bölüyə gələndə bizim qaydalar qüvvədən düşdü, onun qaydalarıyla yaşamağa başladıq. Bu da İrəfiyev kimi “çumo”lara sərf eləyirdi.

İndi əsgərlərin qulağını kəsmək deyəndə komandirin üzünü çevirməsi həmən məsələydi. Gördüm, danışdıqca yolu yoxuşa sürürəm, sözün əvvəlinə qayıtdım:

“Sualımı cavabsız qoydunuz, komandir!” - belə müraciət etdim ki, yumşalsın, o saat hiss elədi:

“O biri komandirlər arxadan idarə edir, mən qabaqdan!” - səsi bıçaq kimi soyuq və sərt idi. Dinmədim. Bundan sonra qərara aldım ki, ona heç vaxt familiyasıyla müraciət etməyim.

Hava qaralırdı.

Ağsaqqal silahını götürüb qabağa düşdü, on addım aralanan kimi komandirlə mən sağ-sol cinahlarda yer aldıq. Qrup üzvləri yorğun dəvələr kimi ah çəkə-çəkə bir-bir ayağa qalxdılar. Ağaclar sərin axşam küləyində yellənib bizə əl elədi.

## *Komandir*

Səhərəcən nəfəs dərmədən yol getdik. Sağ olsun Mazanovu, gizli cığırları yaxşı tanıyırdı. Dəmirçidama qədər bir dəfə də yerinə düşməyən hərəkət eləmədi. Biz bu gedişlə Sərsəngə qədər gedərdik, heç kimə görünməzdik.

Mazanovun yerişinə həmişə gizli-gizli göz qoyurdum. Qədəmlərini torpağa astaca basır, otları əzmir, palçığa iz salmırdı. Çəkisi yox idi elə bil. Bəlkə heç minaya-zada da düşməzdi. Ən qəribəsi - bunu özündən asılı olmadan edirdi. Təbiətən bu cür idi. Keçi qayalıqda necə yeriyir, qatır çınqıllığa necə qalxır, Mazanov da elə. Təngnəfəs də olmurdu.

Kədərli sifəti, yorğun, qayğılı baxışları onu azı on yaş qoca göstərirdi. Yeriyəndə, qaçanda, güləşəndə nə qədər çəpik idisə, adi vaxtda o qədər süst dayanırdı. Az danışırdı. Danışanda da elə sözlər deyirdi, yarım saat fikrə gedirdik. Sakit və mehriban olduğundan hamı onun hörmətini saxlayırdı. Hərdən Kəlbəcər şairlərindən şeir deməyi də vardı. İllah da bir balaca içəndə.

Gecə boyu Mazanov dayananda dayandıq, döyükəndə döyükdük, baxanda baxdıq, uzananda uzandıq. O, instinktiv hərəkət edirdi, amma qızıl qaydaları pozmurdu. Səhərə yaxın qalın bir meşəlikdə dayandı. Əlimlə arxadakılara yerə yatmaq işarəsi verib ona yaxınlaşdım. Ağzını qulağıma söykəyib su səsinə oxşayan pıçıltıyla dedi:

"Dəmirçidamdayıq!"

Mazanovla Qırğının yerini dəyişib, özüm ətrafı yoxlamağa çıxdım.

## *Qırğı*

İndiyədək belə gecə yürüşü görməmişdim. Çox rahat gəldik. Bir az yemək yeyib dincələndən sonra “dozor” nəfəri kimi önə çıxdım. Hər tərəf zil qaranlıq idi. Çox da uzağa getməyib gecənin dərinliklərində səs-səmir axtardım. Təxminən, beş yüz addımlığımda it hürdü.

Səhər açılan kimi komandir məni və Əsgər Hüseynovu yanına çağırdı. Hamı kimi, Əsgər Hüseynovun da ləqəbi vardı: Maral. Onun yerişi-duruşu, baxışı marala bənzəyirdi. Qeydi-adi eşitmə qabiliyyəti vardı. Komandir deyirdi, bunun başının üstündə görünməyən antenalar var; bu maralın buynuzları məftildəndir! Gülürdük.

“Meşədən şıqqıltı gəlir”, “Dağın o üzündə traktor gedir”, “Postun ətrafında hənirti var” - bunlar Əsgər Hüseynovdan mütəmadi eşitdiyimiz sözlərdir. Hamısı da doğru çıxırdı. Ən vacibi, musiqiyə, quş nəğməsinə, dəniz uğultusuna yox, müharibəyə həssaslıq göstərirdi. Hərbi texnikanı, silahları və partlayan mərmiləri səsindən tanıyırdı.

“Maşın səsi gəlir” - Hüseynov idi.

Komandir durbini qaldırıb səs gələn tərəfə baxdı.

## *Komandir*

Qırmızı "Niva" kəndin dağılmış evlərinin arasından burula-burula keçib ağacdan düzəldilmiş şlaqbauma yaxınlaşdı. Şlaqbaumu qaldırdılar, içəri keçib salamat evlərdən birinin qarşısında dayandı, içindən zabit düşdü. Bir azdan hardansa əsgərlər peyda oldu. Onlar, elə bil, porsuq kimi yerin altından çıxırdılar. Demək, bura ayrıca bölükdür, "Niva" qərargahdan zabitləri gətirir.

Səhər düzülüşü başladı. Əsgərlər addımlaya-addımlaya oxuyurdular: "Yes heros zinvor..."

Səhər düzülüşü və hərbi yerişin ardınca yemək üçün binaya doluşdular. Durbini gözümdən çəkəndə hərbi hissənin üstündə "Qaz-66" markalı maşın gördüm. Yanında üç-dörd əsgər vardı. Durbinlə baxdım. Rabitə maşını idi. Maşının üç-dörd addımlığından uçurum başlayırdı. Yanındakı əsgərlər azalsaydı, birini tutub o uçurumdan yendirmək olardı. Qaranlıqda lap dördünü də gətirərdik. Gecə səsini eşitdiyimiz it rabitə maşınının yanında bağlıydı.

Bölük yerləşən ikimərtəbəli evin əlli-altmış addımlığındakı dərənin qaşında taxta tualet vardı. İstədiyimiz adamı ordan da götürə bilərdik. Hətta fürsət gözləyib, zabit də tutardıq. Bu köpəkuşağı gün ərzində bir dəfə tualetə gəlməyəcəkdilər?

Kapitan Rəşidovun gözəl bir sözü var, deyir, kəşfiyyat cibə girməyə bənzəyir; ən gözlənilməz anda, ən gözlənilməz yerdən hərəkətə keçməlisən. Dərənin qaşında tikilən taxta tualet Dəmirçidamdakı bölüyün cibi sayılırdı.

Gün-axşamacan üstümüzə ot atıb bölük yerləşən ərazini və ətrafını müşahidə etdik. Əhval-ruhiyyələri

yüksək deyildi. Hər tərəfdə süstlük hökm sürürdü. Əsgərlər yanlarını basa-basa, ayaqlarını sürüyə-sürüyə yorğun atlar kimi yeriyirdilər. Onları bizim piyada bölüyünün əsgərləri ilə müqayisə etdim.

Gündüz meşədən çıxmaq olmazdı. Gecəni gözlədik. Gizir Səfərovla çavuş Əsədovu götürüb bölüyə yaxınlaşdım. Biz "cücə"mizi tualetin ya yanında, ya içində gözləməli idik. Başımı qaldırıb yanımıza gələn cığıra baxan kimi evin həyətində itlər hürüşdü. Rabitə maşınının yanındakı it onların səsinə səs verdi. Qarovulda dayanan əsgər çobanlar kimi qıylayıb göyə güllə atdı. Biz məcbur olub uçurumla aşağı yendik və itlər susana qədər bölüyə yaxınlaşmadıq.

İkinci həmləni rabitə maşınına etdik. İtlər bu dəfə də səs-küy saldı. Hirslənmişdim. Az qala silahı çəkib maşını gülləyə tutacaqdım.

Üçüncü həmləyə tək getmək qərarına gəldim. Tək getsəm, bəlkə itlər məni görməzdi. Səfərov etiraz etdi.

*Gizir Səfərov*

Başımı hansı daşa-qayaya çırpım? Nə qədər çalışıram, təkbaşına düşmən bölüyünə getməsinin yanlış olduğunu komandirə başa sala bilmirəm. Heç olmasa arxadan müşayiət etməyimizə icazə versin. Dirəşib. Hələ bir dediyi sözə baxın:

"İtləri meşəyə tərəf bağlayıblar. Kənd tərəfdən gəlsəm, görməyəcəklər."

"Tutaq ki, gəldiniz, nə edəcəksiz?" - Qırğı da düzəməlli bir sual verərmiş.

Komandirin cavabını eşidəndə tüklərim biz-biz oldu:

"Kazarmaya girəcəm!"

"Dəlisiz?" - özümdən asılı olmadan dilləndim.

"Ağıllı adamın burda nə işi var?" - cavab sərrast idi, alnımın çatından dəydi və məni susdurdu.

Komandiri saxlaya bilmədik. O, əlini-qolunu salla-sallaya Dəmirçidama tərəf addımladı. Heç bizimlə vidalaşmadı da! Kölgəsi qaranlığa qarışıb itən kimi Qırğını qucaqlayıb sızıldadım. Komandirdən əlimi üzmüşdüm.

***Komandir***

Lənətə gəlsin! Bu tərəfə də it bağlayıblar. Hürən kimi aşağıda bağlanan, rabitənin yanında yatan itlər də hürüşürlər. Gecənin sükutunu doğrayan səs-küy dərə boyu burulub meşəlikdə yox olurdu. İtlər olmasa, kazarmaya girmək, əsgərlərdən birini yatdığı mələfəyə büküb çıxarmaq mənə çətin gəlmirdi.

Bölüyə girməmiş fərq edilməyi, orda həlak olmağı özümə sığışdırmırdım. Bu maymaqların əlində ölməyi Allah heç kimə qismət eləməsin. Döyüş ayrı. Döyüşdə ölərsən də, öldürərsən də! Avaranın birinə yatdığı yerdə qəhrəmanlıq fürsəti vermək kişilikdən deyildi.

Səhərəcən cəhd elədim, heç nə alınmadı. Hər dəfə itlər hürür, itlər hürəndə rabitənin yanındakı "çoban" qıylayır, havaya atəş açırdı. Bölükdəkilər elə rahat yatmışdılar ki, elə bil öz xarabalarındaydılar. Yəqin, burda itlər həmişə belə hürüşürdü. Yoxsa ən azı bir dəfə çıxıb yan-yörəni yoxlayardılar. Gecənin qatı qaranlığında bütün Dəmirçidam kəndi Kapitan Rəşidovun "cib"inə bənzəyirdi. İtlərin kəşfiyyatçılara hürdüyü heç kimin ağlına gəlmirdi. Yəqin, bura gəlib çıxan ilk kəşfiyyatçılar idik.

*Qırğı*

O gecə səhərəcən yumurtası tərs gələn toyuq kimi döyükdüm. Bütün qrup həyəcan içindəydi. Gizir Səfərovun ürəyi partlayırdı. Bir neçə dəfə özündən çıxıb komandirin ardınca getmək istədi, tutub-saxladıq. Axırı ona sakitləşdirici dərman verməli olduq, lakin dərman onun həyəcanını daha da artırdı. İki nəfər qolundan sallaşmışdı. Arada ağzını da tuturdular ki, söyüş söyəndə səsi eşidilməsin.

Gecə boyu Maralı müşahidə nöqtəsində saxladıq. İtlər hürüşdükcə nəfəsi titrəyirdi. Bəzən həyəcandan tıncıxır, danışa bilmirdi. İtlərin hər hürüşməsinə bir dəfə sevinir, bir dəfə həyəcanlanırdıq. İt hürürdüsə, demək, komandir sağ idi, eyni zamanda, hər hürüşmənin ardınca onun görülmə ehtimalı artırdı.

Ömrümdə Allaha o qədər yalvarmamışdım. Yalvara-yalvara Allahın varlığına daha çox inanırdım. Özüm ölümlə üz-üzə qalsaydım, bu qədər sarsılmazdım. Komandirin başına bir iş gəlsə, bölüyə hücum edəcək, onlar oyanıb, geyinib, silahlanana qədər qırdığımızı qıracaqdıq. Gizir Səfərov çoxdan bu barədə düşünürdü.

Görəsən, qaranlığa bələnmiş Dəmirçidam kəndində nə baş verirdi? Komandir indi harda idi?

İtlər yenə hürüşdü. Maral eşitdiyimiz səslərin mənasını həm mənə, həm özünə izah edir, komandirin sağ-salamat olmasına ikimizi də inandırırdı.

İt hürür: “Girə bilmir bölüyə. Mümkün deyil. Usta adamdır, bunu gec-tez anlayacaq.”

Güllə atılır: “Boş şeydir. Göyün boşluğuna atılır. Bunlar lap naşıdılar ki!”

Sakitlik çökür: “Gizlənə bildi. Müşahidə aparır.”

Bölüyün yuxarısındakı itlərin biri ulayır: "İt qaraltının nə olduğunu bilmir. İçəridəkilər də bunu hiss edir. İtləri hürdürənin vəhşi heyvan olduğunu düşünürlər."

Yenə sakitlik: "Qayıdır, deyəsən..."

Qəfil daha bərkdən hürüşmə: "Vay! Vay! Bu nə inadkar adamdır? Özünü ölümə verəcək."

Qıylama və üç-dörd güllə səsi: "Deyəsən, gördülər. Allah saxlasın."

Yenidən sakitlik: "Şükür, görmədilər."

Və sakitlik uzanır, uzanır, uzanır...

Sakitliyin səs-küydən daha həyəcanlı olduğunu Maral da duyur, deyəsən. Lakin bu səssizlikdən nikbin mənalar çıxarmağa çalışır: "Bölüyə girməyin mümkün olmadığını anladı, qayıdır."

"Nədən bilirsən?" - soruşuram.

"Səncə, kəşfiyyatçı gedən yer belə sakitlik olar?"

"Yox. Bunu anladım. Amma gizlənib müşahidə də apara bilər."

"İtlər ulayan vaxt elə idi. Səsini kəsibsə, qaraltı, ona məlum olmayan təhlükə uzaqlaşır demək. İtlər bunu havadakı iydən hiss edir. Gözləri uzağı yaxşı görmür."

Maral kəndlə aramızdakı balaca dərəni dinşəyir. Bu an onun ətrafı təkcə qulaqları ilə deyil, bütün bədəniylə dinlədiyini hiss edirəm. Üzündəki təbəssüm qaranlığa işıq saçır: "Komandir yaxınlaşır!"

Mən bizə yaxınlaşan adamın hənirtisini iki-üç dəqiqə sonra eşidirəm. Hər ehtimala qarşı silahımı sazlayıram.

"Neynirsən?" - Maral silahın lüləsini aşağı basır. Komandir görünür. "Şükür sənə, İlahi!" deyib Gizir Səfərovu müjdələməyə qaçıram. "Göy-göl"də yaxşı bir qonaqlıq alacam!

*Komandir*

Hava ağarmamış geriyə - Zod tərəfə hərəkət etməliydik. Kəlbəcərin qızıl mədənlərində 24 saat qızğın iş gedirdi. Dağları nəhəng həşərat kimi gəmirib yeyirdilər. Zodun dəmir yoluna yük maşınları işləyirdi. Mühafizə güclü olsa da, ordan girov götürmək burdan asan olardı. Hərbçilər yol boyu bütün yük maşınları ilə birlikdə hərəkət etmirdilər. Orda o qədər müşahidə aparmışdım ki, az qala hansı saatda hansı maşının, hansı avtobusun gəldiyini bilirdim. Qızıl mədənlərinin relyefi pusqu qurmağa əlverişli idi. Vəziyyəti Mazanova qısa izah edib onu yenə "mişen" təyin etdim və hərəkətə başladıq.

Yorğun dəvələr üst-başının toz-torpağını tökə-tökə ayağa qalxdılar və ağır-ağır addımladılar. Zoda tərəf hərəkət zamanı Mazanovu sağ-salamat qayıtmağıma sevinib quş kimi qanadlanan Gizir Səfərov və Əsgər Hüseynov müşayiət edirdilər.

*Gizir Səfərov*

Mən Gizir Səfərov olam, qorxudan bu hala düşəm? Gözgörəti qocalırdım. Boynuma alıram. İndən belə girov-mirov vecimə deyildi. Sağ-salamat qayıtmaq barədə düşünürdüm. Əməliyyat dedilər, gəldik, baxdıq, mümkün olmadı. Həmişə mümkün olmur ki! Qoy bir dəfə də “olmadı” kəlməsini qəbul eləsinlər.

Komandir gedən gecə nə qədər sarsıntı keçirmişdimsə, Ağsaqqalın bizi gətirib çıxardığı meşədə zol düşüb yatdım. Deyəsən, atdığım dərman indi təsir eləmişdi. Oyananda gün sifətimi yandırırdı. Qaranlığa öyrəşən gözlərim bol işıqda öz-özünə yumulub göynəyirdi. Beş-on dəqiqə heç nə görmədim. Arada, elə bildim, ölmüşəm, cənnətdəyəm. Cənnət dediyin elə bu turşməzə işıq bolluğudur. Lakin dizlərimin sızıltısı, ayaqlarımın göynərtisi sağ olduğuma dəlalət edirdi. Canımı bu ağrılardan belə rahatlıqla qurtara bilməzdim.

Ağsaqqal bizi meşəlik adıyla çox sarsaq bir yerə - qayalığa və kolluğa gətirmişdi. Günəş hərlənib kolların arasından üzümə vururdu. Deyəsən, yatandan sonra məni başqa yerə sürümüşdülər. Altımda qalan xırda daşlar qabırğamı əzirdi.

Uşaqlar iki-bir, üç-bir kolların dibinə sərilib yatışmışdılar. Bir ayağını qatlayıb dikəldən, o birini dümdüz uzadan İrəfiyevin paltarı yuxarı dartılmışdı. Ağsaqqal daşa söykənib dimdik qalmışdı. Ağzının yanından su axırdı.

Kəşfiyyatın üçüncü günü komandiri ilk dəfə oturan görürdüm. Onun çiyinlərindən yorğunluq tökülürdü.

“Yatmadınız, komandır?”

Çönüb üzümə baxanda güldü, gözlərinin ətrafı qırışıb ona doğma bir sima bəxş elədi:

"Necəsən, Erkək?"

"Yaxşıyam. Siz, deyəsən, heç yatmırsınız."

"Komandiriniz ayaq üstə yatır, belə olmasaydı, sizi üç gün avara qoymazdı."

"Əlinizdən gələndən artıq elədiniz. Bəzən mümkün olmur."

"Mümkün olmayan şey yoxdur! Özünə təskinlik vermə. Onlar bu qədər ərazini tuta bilir, biz bir əsgər apara bilmirik?"

Başımı aşağı salıb susdum. İkimiz də haqlı idik.

"Geri qayıtmalıyıq. Yeməyimiz də qurtarır" - Ağsaqqal yuxudan oyanmamış danışırdı.

"Geri qayıdırıq, sadəcə yolüstü Zod tərəfdən keçəcəyik" - komandir Ağsaqqalın üzünə baxmadan söylədi.

***Komandir***

Suyumuz da qurtarmışdı. Əsgər Mazanovun yığdığı qırxbuğumu ovub yedik. Ağsaqqal özü də bir topa pencəri ağzına atıb gəvələyərək söylədi:

"Kaş duz olaydı!"

"Duzu neynirsən?" - Gizir Səfərov soruşdu.

"Qırxbuğumu duzla ovub yeyəndə ləzzətli olur."

"Elə danışırsan, guya bura qırxbuğum yeməyə gəlmişik" - Səfərov onu pərt eləməyə doğru qəti və inamlı addımlar atdı.

"Duz kəşfiyyat əməliyyatına mane olursa, bağışla!" - ona da Ağsaqqal deyərlər. Səfərovu susdurdu, üstəlik bir "Hı!" eləyib əks-hücum vəziyyəti aldı. Səfərov tərksilah olmuşdu. Ağsaqqala yanaşıb qolunu boynuna saldı.

"Sən Allah, bir şeir oxu."

"Ayə, yeri burdan!" - Səfərovun ağır qolunu boynundan çıxarmağa çalışdı.

"Xahiş edirəm, oxu."

"Yeri burdan dedim!"

"Ayağının altında ölüm, oxu!"

Ağsaqqal gözlərini süzdürüb yorğun baxışlarla Səfərova baxdı.

"Oxu, Mazanov, oxu. Biz də xahiş edirik." - söhbətə qarışmalı oldum.

Sözümü yerə salmadı. Üz cizgilərini və qaşlarını qəribə şəkildə oynadaraq oxudu:

*Mən gedirəm qürbət elə,*
*Sən salamat qal, ay dağlar.*
*Halallıq ver, qoy qalmasın*
*Ürəyimdə xal, ay dağlar.*

*Dostum-yarım keçir gennən,*
*Dərdim artır günü-günnən.*
*Məni qəmnən, qəmi mənnən*
*Al, ay dağlar, al, ay dağlar...*

*Günəş gəzib yorulanda,*
*Sazın simi qırılanda.*
*Göydə qartal vurulanda,*
*Məni yada sal, ay dağlar...*

Son misralara çatanda dodaqları titrədi, gözlərindən iki gilə yaş diyirləndi.

"Sağ ol eee... Ağsaqqal, ürəyinə qurban olum." - Səfərov onun üzündən öpüb sinəsinə sıxdı. Dağlar da Əsgər Mazanovu eşidirdi. Qarşı yaxadakı sünbüllü otlar dəniz kimi dalğalanıb onun səsinə səs verirdi.

Qarşımızda cilvələnən Yeddiqardaş dağ silsiləsiydi. Yeddi yanaşı zirvə! Bir anlıq bizim Yeddixırmanı xatırladım. Kim bilir, bəlkə də, bu dağlarda yaylayan yeddi qardaşın Cinlidə əkin yerləri, hər əkin yerinin ayrıca xırmanı varmış. Yeddixırman yeddi taxtadan ibarət idi. Başında "vışka" vardı. Vışka sonradan, sovetin vaxtında qoyulmuşdu. Dağın zirvəsi əvvəlki erməni-müsəlman davasından qalma səngər yerləriydi. Son günlərəcən orda bizim də səngərimiz vardı. Çullu işğal olunanda dağ mühasirəyə düşdü, geri çəkilməyə məcbur olduq. Köməyimiz və texnikamız olsaydı, Yeddixırmandan Çullunu da, Qənbərlini də qoruyardıq.

Gözüm Yeddiqardaş dağında Yeddixırmanın gümüşü işığını axtardı. Görünmürdü. Mən təkcə Əsgər Mazanovun oxuduğu kövrək şeirə və bu şeiri dinləyə-dinləyə qəfil fərqinə vardığım ad oxşarlığına görə deyil, həm də

gümüşü işığa görə Yeddiqardaşa belə doğma nəzərlərlə baxırdım. O işığı gördüyüm yerlər mənə inanılmaz doğmalıq bəxş edirdi. Gümüşü işığın sayəsində Murovun nəhəngliyi, ucalığı, insan ayağı dəyməyən sirli mağaraları, soyuğu, sazağı məni qorxutmurdu. Əksinə, buralarda özümü daha yenilməz hiss edirdim. Bütöv bir qoşunu bu dağlarda azdırar, sıx dumanlarda, qalın meşələrdə, dərin dərələrdə təkləyib bir-bir o dünyaya göndərərdim.

*Qırğı*

Kolluqdan hərəkətə başlayanda susuzluqdan yanırdım. Dilim-ağzım quruyub bir-birinə yapışmışdı. Elə bil boğazıma yapışqan tökmüşdülər. Ağsaqqalı yanlayıb bizə su tapmasını xahiş etdim. O, bir az irəlidə çaydan keçəcəyimizi söylədi və keçi inadkarlığı ilə dəstənin qabağına düşdü. Şər qarışmışdı.

Dərəyə doğru xeyli yenəndən sonra balaca çayın şırıltısını eşitdik. Komandir sudan çox içməməyi məsləhət gördü. Düz deyirdi. Suyu çox içəndə hərəkət eləmək olmurdu.

Oxqay! Gözümə işıq gəldi! Yəqin, bulaqların beş addımlığında dayanmışdıq. Çayın suyu heç vaxt belə sərin, saf olmaz. Doyunca içsəm də, ağzımı sudan çıxarmaq istəmirdim.

“Flyaqa”ları doldurub, çay yuxarı addımladıq. Ağsaqqalın sağa buruldduğunu görəndə onun izini itirməmək üçün addımlarımızı yeyinlətdik. Maral da onun yanındaydı. Mənə elə gəlirdi, Mazanovun rahat hərəkət etməyinə Maral mane olur, hər şeydən şübhələnir, iki dəqiqədən bir dayanıb müşahidə aparmalı olurlar. Onları komandirlə mən müşayiət edirdik. Arada yaxınlaşıb söhbət edə bilirdik. Bir dəfəsində Maralı ön xətdən qaytarmasını təklif etdim, yoxsa səhər açılanacan gedib bir yerə çata bilməyəcəkdik. Etiraz elədi, “Tunelə yaxınlaşdıqca təhlükə artır”, - dedi - “Qoy ehtiyatlı davransınlar.”

Maral siçanlara da reaksiya verirdi. Hətta bəlkə qarışqaların yerişini hiss edib şübhəyə düşürdü. Böcəklərin susması da, ötməsi də onun üçün ehtiyat siqnalı idi.

İstifadədən çıxmış köhnə bir tunelə gəlib çatana

qədər qıl körpüsünü beş-altı dəfə o üzə-bu üzə adladıq. Kəşfiyyat qrupunun qabağında gedən adamdan - "dozor"dan çox şey asılıdır. O, istəsə ağır, istəsə yüngül səfər təşkil edə bilər. Kolluqdan tunelə yürüşümüz Maralın sayəsində ağırdan-ağır oldu, lakin sağ-salamat gəlib çatdıq. Girişin üstündəki iri, hamar daşa yazılmış "101" rəqəmi məni xeyli həyəcanlandırdı. Bu rəqəm sirli qaranlıqla dolub-daşan tunelin vahiməsini artırırdı. Olmaya pusquya düşmüşdük və bizə xüsusi parollarla işarə göndərirdilər? Məsələ budur ki, bölüyümüz Toğananın üstündə, camaatın "101" kimi tanıdığı balaca qəsəbədə yerləşirdi.

Komandiri yanlayıb qoluna toxundum və qaranlıqda güclə görünən rəqəmi ona göstərdim. Mənə baxıb gülümsündü:

"Çoxdanın yazısıdır, narahat olma."

Başımı əyib nəhəng qaranlığa baxdım, tüklərim biz-biz oldu. Tunelə su damır və yerə dəydikcə qaranlıq boşluqda əcaib səslər çıxarırdı. Bu saat içəridən alov püskürən əjdaha çıxacaq, hamımızı udacaqdı.

"Qırğı, tuneli yoxla!" - komandir əmr elədi.

Avtomatın lüləsinə spirt töküb od verdim və içəri keçdim. Alovu əks edən damcılar, divarlardakı su şırnaqları və balaca gölməçələr uçub-dağılmış tunelin sirli qaranlığında əcaib mənzərələr yaradırdı. İşıq ətrafa vuran kimi buranın kimsəsiz, unudulmuş bir yer olduğunu anladım.

"Tunel boşdur" - mən dedim.

"Burda qalacağıq" - komandir dedi.

"Çox soyuqdur, həm də su damır" - mən dedim.

"Gülllədən qorxmadıq, damcıdan qorxacağıq?" - o dedi.

Tunelin qarşısına gözətçi qoyub içəri doluşduq. Hərə bir tərəfdə oturdu. Qaranlıqda bir-birimizdən başına su damıb-dammadığını soruşurduq. Damcıların altında hərlənib islanmayan yer axtarırdıq. Gizir Səfərov əylənmək üçün yaxşıca fürsət tapmışdı. Hamıyla məzələnirdi. Hətta arada komandirə də sataşdı:

"Gəlin canlı örtük yaradaq, komandir islanmasın."

"..."

"Soyuqlayar."

"..."

"Komandir, "pesok"lu su istəmirsiz? Təmiz tunel suyu, xalis şəkər tozu!"

"..."

"Orucov! Eşitmirsiniz?"

"..."

"Komandir yoxdu deyəsən! Ə, Qırğı, o zırnanı yandır görək kişiyə nə gəldi?"

Məni də maraq götürdü, ətrafı bir anlıq işıqlandıranda Gizir Səfərovun damcıları "flyaqa"nın ağzı ilə tutduğunu gördüm. Komandirsə yox idi. Tunelin girişindəki gözətçidən soruşdum, müşahidə üçün çıxdığını söylədi. Biz tuneldə onu gözləyəcəkdik.

"Ömründə bircə dəfə qeyrətə gəlib komandirlə zarafat elədin, onda da eşitmədi." - qayıdanda Gizir Səfərova ilişdim və uşaqların şaqqanaq çəkib gülməsini gözlədim. Səfərov bircə kəlməylə vəziyyətdən çıxdı: "Həəə, valla!!!"

Elə bu kəlməylə də təşəbbüsü ələ aldı: "Deyirəm, komandir yoxkən İrəfiyevi kəsib yeyək. Aclıqdı. Bu da bir işə yarasın barı."

Tuneli gülüş dalğası bürüdü, qaranlıq qorxusundan ən ucqar dəlmə-deşiyə çəkildi. Səhər gülüşümüzlə açılırdı.

***Komandir***

Əsgər Mazanovun bələdçiliyi çöl divarına “101” yazılmış tuneldə sona çatırdı. Buralar artıq mənim tanıdığım yerlər idi. Murova gələndən təmas xəttini üç-dörd dəfə Zoda gedən maşın karvanlarını müşahidə etmək üçün keçmişdim. Kəlbəcərin qızıl dağlarında qızğın iş gedirdi. Bir az müşahidə edəndə, deyirdin, uzağı, on günə yaxın ətrafdakı dağları daşıyıb aparacaqlar. Qızıl mədənlərinin mühafizəsi yüksək səviyyədə təşkil olunmuşdu. Ancaq yollarda “cücə” yaxalamaq mümkün idi. Mən tuneldən son vəziyyəti yoxlamaq üçün çıxmışdım. Zod tərəfdən gəlib qızıl yataqlarına qalxan dolama yolları müşahidə edəcəkdim.

Gəlib-gedən maşınların işıqları görünürdü. Bəzi mədənlərdə traktorların da işığı nəzərə çarpır, diqqətlə qulaq asanda səsi eşidilirdi. Hava ağaranda hər şey aydın göründü. Budur, dağ yolları üçün nəzərdə tutulan “alabaş” avtobus səhər növbəsinin işçilərini mərkəzi meydana gətirdi. Avtobusdan əvvəl üç silahlı hərbçi düşdü, dalınca fəhlələr, mühəndislər. Yaxınlıqda polis maşını görünür. Üstü “miqalka”lı ağ “Niva”dır.

Fəhlələr üzüyuxarı gedib qarışqa yuvasına bənzəyən torpaq və daş topalarının arasında, qara deşiklərin içində yox oldular. Bir azdan növbəni təhvil verən qara paltarlılar göründü. Toplaşıb avtobus tərəf gəldilər. Əsgərlər onları maşına mindirib özləri də mindilər və tozanaqlaya-tozanaqlaya gedən yük maşınlarının ardınca irəlilədilər.

Hərəkət edən maşınlara bir neçə yerdə pusqu qurmaq olardı. Həmin nöqtələri qeyd edib tunelə, uşaqların yanına qayıtdım. Gün xeyli qalxmışdı. Bir az yatacaqdım.

Deyirəm, tunelin havası mənə düşür, özümü gümrah hiss edirəm, Qırğı o yandan qayıdır ki, ayısan, ona görə, mağarada xoşbəxt olursan. Onda sən də quşsan, uç, qon budağa! Dəhşətdilər! Adamı anlamaq istəmirlər. Beynim necə çöndüsə, az qala əzişdirəcəkdim. Komandir özünü vaxtında yetirdi:

"Dincələ bildiniz?"

Burnunun üstünə iri bir damcı düşüb bığına və saqqalına dağıldı, başını yuxarı qaldıranda növbəti damcı alnına düşdü. Su çox soyuq idi, komandir bir balaca diksinən kimi oldu, bizi gülmək tutdu. O da əliylə üzünü silib gülümsədi.

"Dincəldik, komandir!" - İrəfiyev idi. Onun cır səsini eşidəndə təkrar gülüşməyə başladıq.

"Əsas Əsgər İrəfiyevdir. O, dincəldisə, bizə ölüm yoxdur." - mən dedim, amma sözüm hədəfə dəymədi. Komandir söhbəti İrəfiyevin xeyrinə dəyişdi:

"Səfərov, sən niyə hər dəfə "Əsgər İrəfiyev" deyirsən? Bu, sənə çətin deyil?"

"Nə deyim bəs?"

"Əsgər Rəfiyev! Belə daha rahatdır. De görək."

"Ölsə də demərəm! "Rəfiyev" ciddi familiyadır. Belə mənasız adamlara "İrəfiyev" də çoxdur!"

Üçüncü gülüş dalğası... İrəfiyev hirsləndi:

"Səfərov, xahiş edirəm məni danışdırma!"

"Səninlə danışmıram ki, komandirlə danışıram."

"Mənim haqqımda da danışma!" - səsini başına atdı.

"Yaxşı, dalaşmayın. Yeməyə nəyiniz var?" - komandir qanımın arasına girdi, yoxsa İrəfiyev məni öldürəcəkdi.

"Veş-meşok"lar boşaldı. Kimin nəyi var ortaya tökdü;

bir-iki dilim çörək, bir “qavyadina”, iki “tuşonka”, üç-dörd soyutma kartof, bir az da konfet... Yeməyimiz az olsa da, komandirlə birlikdə ləzzətli nahar elədik. Əsgər İrəfiyevi gözətçi qoyub hərəmiz bir tərəfdə uzandıq. Yorğun olduğumuzdan hamını yuxu apardı. İki daşın arasında qorxulu bir vaqeə gördüm; erməni arxadan məni tutur, çırpınıb əlindən çıxıram və qaçıram, ardımca düşüb yenə tutur, yenə vurnuxub qaçıram. Mən qaçıram - o tutur, o tutur - mən qaçıram. Bir dəfə, beş dəfə... Qaçdım-qovdu, qovdu-qaçdım və bu yorucu yuxudan İrəfiyevin dəhşət dolu səsinə ayıldım:

“Erməni gəldi!!!”

***Komandir***

Əsgər Rəfiyev qışqıranda müşahidə aparan vaxt səhv buraxdığımı düşündüm. Dedim, yəqin, məni görüblər. Axı ehtiyatlı davranmışdım. Lənət olsun!

"Mövqe tutun! Əmr olmadan atəş açmayın!" - içimdə başqa adam danışırdı.

Qışqıra-qışqıra içəri qaçan Rəfiyevi yerə yıxıb ağzını qapadım. Uşaqlar bir göz qırpımında silaha sarılıb mövqe tutdular. Patronumuz bitənəcən içəri heç kimi buraxmazdıq. Lap bir ordu gəlsəydi, xeyri yox idi.

Rəfiyevi birtəhər sakitləşdirdim, özünə gələr-gəlməz çöldə nə baş verdiyini soruşdum, tunelin qarşısında adam kölgəsi görmüşdü. Uşaqlara yerlərində qalmaq əmrini verib çıxışa doğru getdim. Doğrudan da, tunelin girişinə adam kölgəsi düşürdü, lakin tərpənmirdi. Bir insan tərpənmədən bu qədər dayanmazdı. Şəkil çəkdirmirdi ki! Silahı sifətimə qaldırıb asta-asta tuneldən çıxdım, günəşə tərəf boylananda göyə millənən dik və lüt qayadan başqa heç nə görmədim. Bir az da qabağa çıxanda hər şey aydın oldu; günəş hərləndikcə dik və lüt qaya tunelin ağzına adama bənzəyən kölgə salırdı.

İçəri qayıdıb vəziyyəti izah etdim və Əsgər Rəfiyevi uşaqların tənbehindən qorumaq üçün mövzunu dəyişdim:

"Ehtiyatı əldən verməyin! Biz düşmənin nəzarətində olan ərazidəyik və yaxınlıqda hərbçilər var!"

Axşamacan gözlədik. Ərzaq ehtiyatımız qurtardığına görə geri qayıtmalıydıq. Qızıl mədənlərində əməliyyat hazırlamalı olsaydıq, azı bir sutka çəkəcəkdi.

*Qırğı*

Komandir doğru qərar vermişdi. Nə qədər bədənimizdə hey-hərəkət vardı, qayıtmalıydıq. Onun söylədiyinə görə, qarşıda uzun bir dərə, dik bir yoxuş vardı. Ən çətin və təhlükəli yer sayılan Canavar yalını aşsaq, bizim postlara çatardıq.

Tuneldən çıxıb dərə boyu asta-asta addımladıq. Etirazımıza baxmayaraq, öndə komandir gedirdi. Əslində, içimin dərinliklərində buna razıydım. Komandirin öndə olması daha ürəkli hərəkət etməyimizə imkan yaradırdı.

Yol narahat... Biz yorğun... Üstəlik ac...

Komandirin arxasınca gedən Gizir Səfərovun qaraltısı ayı kimi sağa-sola aşırdı, elə bil ayaqlının altında yumru nəsə vardı. Arada daşların dibindən yeyilən, bəzən yeyilməyən otlar qoparıb ağzına atırdı:

"Kaş çinli olaydıq."

"Elə niyə?"

"Əlimizə keçəni yeyərdik."

"Ac qalsaq yeyərik."

"Köpəkuşağı xoşa-xoşluqla ilan-qurbağa yeyirlər! Adam deyillər, vallah!"

Ayaqlarımın göynərtisindən bilirdim ki, dərim soyulub, corablarıma yapışıb. Batinkanı çıxarsam, bəl-kə, içindən qan süzülərdi. Dizim bükülürdü. Mən beləydimsə, demək, hamının gücü tükənmişdi. Bircə komandir şux yeriyirdi.

Əsgər Mazanov bir dəfə yıxıldı. Bu, təsadüf deyildisə, pis əlamət sayılırdı. Ağsaqqal hələm-hələm dizini yerə qoymazdı.

Canavar yalına millənəndə vəziyyət daha da qəlizləşdi. Həm havamız çatmır, həm də hərəkət etdiyimiz yer daha

da sərtləşirdi. Qaya, daş, tikan, qumsal - qaya, daş, tikan, qumsal - qaya, daş, tikan, qumsal... Üstəlik zil qaranlıq! Bəzən addım atanda ayağımız altımızdan çıxır, qeyri-iradi qışqırmaq istəyirdik. Sürüşüb hara düşəcəyimizi bilmirdik. Qayadan, yarğandan, qumsaldan uçub getmək təhlükəsi vardı. Adam yorğun olanda çox səs-küy salır. Komandır bunu hiss edib dəstəni saxladı, geri qayıtdı, hamıya bir-bir yaxınlaşıb xəbərdarlıq etdi. Biz dözüb səs-küy salmadan bir az da getsək, düşmən postlarının qənşərindəki təhlükəli ərazini adlayardıq.

Əsgər Rəfiyev iki-üç dəfə yıxılıb yerindəcə qaldı. Hər dəfə özümü yetirib qaldırdım. Son dəfə yıxılanda qalxmaq istəmədi:

“Mən bitdim, məni burda qoyub gedin.”

Dərindən nəfəs ala-ala əlavə etdi:

“Narahat olmayın, siz çıxıb gedəndən sonra özümü vuracam, əsir düşməyəcəm.”

“Axmaq, nə danışırsan?” - az qala şilləliyəcəkdim.

Komandir geri qayıtdı. Uşaqlara dayanmamaq əmri verilmişdi. Dağın başında görüşəcəkdik. Lakin mən getmək istəmədim. Komandir israr edincə bir az aralanıb onları gözlədim. Gizir Səfərov da getməmişdi.

Komandir Rəfiyevə ürək-dirək verirdi:

“Olan şeydir. Bir az dincini al, hərəkət edəcəksən. Hamımız yorulmuşuq.”

“Yox, komandir, yorğunluqdan deyil, ürəyim üzülür. Gedə bilməyəcəm.”

“Gedəcəksən. Qorxma. Dərindən nəfəs al. Həyəcanlanma. Lap az qalıb.”

“Az qalmayıb. Məni aldadırsınız.”

“Nədən bilirsən az qalmayıb?”

“Hiss edirəm. Hələ yolu yarılamamışıq. Dağın başı,

Allah bilir, hardadır. Siz gedin. Mən ayağa qalxa bilsəm, gələcəm."

Komandir Əsgər Rəfiyevlə çox əlləşdi, birtəhər ayağa qaldırıb on-on beş addım gətirdi. Rəfiyevin dizləri altında durmurdu. Komandir qolunu buraxsa, yıxılacaqdı. Birdən Gizir Səfərov qaça-qaça Rəfiyevə yanaşdı, başını paçasına salıb qaldırdı və yoxuş yuxarı qaçmağa başladı. Bu, inanılmaz idi!

Arxalarınca gedib Gizir Səfərovun üzüqoylu düşdüyünü, Rəfiyevin onun boynuna mindiyini gördük. Səfərov elə dərindən və tez-tez nəfəs alırdı ki, Rəfiyevi çiynində qaldırıb-yendirirdi. O halıyla zarafatından qalmırdı:

"Gərək səni Dəmirçidamda qoyaydıq. Gələn dəfə gələndə aparardıq."

Rəfiyev dinmirdi. Onun danışmağa da taqəti qalmamışdı. Komandirlə Rəfiyevin qollarından yapışdıq. Gizir Səfərov ayağa qalxdı. Az qala bizi də özüylə qaldıracaqdı. Rəfiyev çiynində yoluna davam elədi. Biz yanlarınca gedirdik.

"Söz ver ki, nə desəm, edəcəksən, yoxsa səni aparmaram." - Səfərov deyirdi.

"Aparma. Vaapşe danışdırma məni." - Rəfiyev bir az toxtamışdı.

Üzüyuxarı daha da dikləşən daşlıqda Gizir Səfərov dizlərini yerə qoydu, Rəfiyevi çiynindən düşürdü və uzandı. Mən ömrüm boyu belə nəfəs alan adam görməmişdim. Sinəsi az qala partlayacaqdı:

"Komandir, dağın başına az qalıb, hərəmizə bir güllə vurun, çıxın gedin." - nəfəs-nəfəsə qalmışdı - "Mən qocalmışam, bu da ki, əvvəldən bir işə yaramır."

"Lazım olsa, onu da edərik, narahat olma" - komandirin cavabı gözlənilməz olsa da, soyuqqanlı və təmkinli danışmağı xoşuma gəldi, Gizir Səfərov şirin-şirin gül-

dü. Onun alov kimi püskürən nəfəsi qaranlığı yavaş-yavaş qovurdu. Üfüq ağarmağa başlamışdı. İlk dəfəydi səhərin açılması mənə bu qədər pis təsir edirdi. Bircə saat yubansaydı...

Uşaqlar bizdən xeyli aralanmış, təhlükəli ərazidən keçib getmişdilər. Komandirin təkidinə baxmayaraq, onları tərk eləmək istəmirdim. Ancaq o, üzünü bozartdı:

“Sənə əmr edirəm, Çavuş Əsədov! Təcili kəşfiyyat qrupunun yanına qalx və onları bizim posta qaldır!”

Dinməz-söyləməz aralandım.

*Komandir*

Yoldaşa sevgini başa düşürəm, lakin əmr də əmrdir! Hərə öz başıyla hərəkət eləsə, aləm qarışar. Gizir Səfərovda da, Çavuş Əsədovda da, arada sevimli Ağsaqqalımız Əsgər Mazanovda da belə saymazlıq olurdu. Murova gələn gündən məndən yaşca böyük əsgərlərlə problem yaşayırdım. Nə qədər qoçaq olsalar da, qayda-qanunu başa düşmürdülər. "Döyüşçü "ustav" hərləmir" deyə yanlış bir qənaətləri vardı. İndən belə xasiyyətlərini dəyişəsi deyildilər. Amma yenə də, yenə də məni eşitməliydilər. Mən bu adamların hər biri üçün cavabdeh idim. Başlarına bir iş gəlsə, özümü bağışlamazdım.

Qırğı gedəndə yüküm bir az azaldı. İndi qalırdı Gizir Səfərovla köməkləşib Rəfiyevi təhlükəli zonadan çıxarmaq. Səfərovsa özünü taqətdən salmışdı, yeriyə bilmirdi. Tərs kimi hava ağaranda düşmən postunun qarşısında olduğumuzu gördüm. Düzdür, onlar bir az aşağıda idilər, bizi görə, görsələr də, rahat nişan ala bilməzdilər. Lakin qalxıb növbəti yamacı aşmaq istəsək, hardasa otuz-qırx metr açıq nişangaha çıxacaqdıq.

"Yaxınlıqda düşmən postu var, səssiz və hərəkətsiz olun!"

Beş dəqiqədə bir qarış məsafə qət etmək şərtiylə tədricən irəli çıxıb ətrafı müşahidə etdim. Bizi görə, hiss etdirmədən ardımızca gələ bilərdilər. Bircə təsəllim vardı: qalxdığımız Canavar yalı bizim nəzarətimizdəydi. Uşaqlara lazımı təlimatı vermişdim. Onlar posta çatıb kömək göndərəcəkdilər.

Açıq ərazini səkkiz yaza-yaza sürətlə keçmək olardı, lakin buna nə Səfərovun, nə Rəfiyevin taqəti çatardı.

Səfərovdan gedə bilib-bilməyəcəyini soruşdum. Cavabı bu oldu:

“Bəs İrəfiyev?”

“Sən öndə, mən arxada, onu müşayiət edərik, keçər.”

Razılaşdı. Yerindən qalxıb addımladı. O, demək olar, son qüvvəsini xərcləyirdi. Atəş nöqtəsini keçdi, lakin onu gördülər. İlk güllənin açılması ilə Gizir Səfərovun daşın arxasına yatması bir oldu. Başını azca çıxarıb cavab atəşi açdı. Bu vaxt postdan bir neçə adamın dərəyə qaçdığını gördüm. Çox deyildilər. Lap on nəfər gəlsəydi, dərslərini verəcəkdim.

Polkovnik Nəbiyevin qulağından iraq, atəşkəs pozulmuşdu.

Aclığın və yorğunluğun əldən saldığı Rəfiyev başını qucaqlayıb çığırırdı. Əslində, o, Gizir Səfərovun dediyi qədər qorxaq deyildi, sadəcə, bu dəfə belə alınmışdı.

Öz-özümə hesabladım: iki maqazin məndə, ikisi Rəfiyevdə, üstəlik hərəmizdə bir qumbara. Azı bir saat müdafiə oluna bilərik. Gizir Səfərov da tutduğu əlverişli mövqedən bizi qoruyar.

Postdan davamlı güllələr yağdıran pulemyotçunun durduğu yeri nişan alıb beş-altı güllə atdım. O, bir neçə dəqiqə susdu. Demək, hava məsafəsi elə də uzaq deyildi. Biz Gizir Səfərovla eyni vaxtda postu güllə yağışına tutsaq, Rəfiyev qaçıb gedə bilərdi. Əgər bacarsaydı...

“Rəfiyev, özünü cəmləyib Səfərovun yanına aşa bilərsən?”

“Yo-o-x!”

Səsinin titrəməsindən vəziyyəti anladım. Səfərov yuxarıdan qışqırdı:

“Komandir, sən məni müdafiə elə, Rəfiyevi cıxardım.”

“Öküzlük eləmə! Sənin gəlib-qayıtmağındansa, mənim bir istiqamətə hərəkətim daha doğrudur.”

“Səni riskə ata bilmərəm!”

“...”

“Rəfiyev ətlik danalar kimidir. Ağırdır.”

İki daşın arasında zarafatından qalmırdı. Amma bu dəfə bizə ruh vermək üçün candərdi danışırdı. Rəfiyevin səsi də eşidildi arada:

“Görürlər danaya kim oxşayır...”

Haqlıydı. Gizir Səfərov danaya daha çox oxşayırdı.

“Qırğı” gələcək!” - düşmən postuna daha üç güllə göndərib dedim.

“Onda o qeyrət nə gəzir!” - Gizir Səfərov da üç güllə atdı. Bizimlə bir yerdə silahlarımız da söhbətləşirdi. Növbəti güllələr sağ cinahımızdan, düşmən postunun daha rahat göründüyü yerdən açıldı. Təkcə Qırğı yox, Ağsaqqal da qayıtmışdı.

“Gülləyə qənaət edin!” - Qırğı ilə Ağsaqqalın dayanmadan atəş açdığını görüb qışqırdım, ancaq məni eşitmədilər. Bir də baxdım, Gizir Səfərov bizə tərəf qaçır.

“Avara! Hara gəlirsən?!” - pulemyot yerləşən nöqtəni güllə yağışına tutdum. Bircə pulemyotdan ehtiyat edirdim. Əclaf üstümüzdəki açıq ərazini kotan kimi şumlayır, xırda daşları iki-üç metr havaya qaldırırdı. Bizim açdığımız atəşlər də düşmən postunu toz-torpağa bürüyürdü.

Gizir Səfərov komandirliyi öz əlinə almışdı və məndən icazəsiz əməliyyat keçirirdi. Bu qalınlığı igidliyə də bağışlamaq olmazdı. Ona bərk hirslənmişdim. Hələ əmr də verirdi:

“Atəş açın, çıxırıq!!!”

Ona tabe olmağa məcbur idim. Yenə atəş başladı. Birinci maqazinin son güllələrini pulemyotçuya sıxdım, başını qaldırıb atəş açmasına aman vermədim. Gizir Səfərov Rəfiyevi çiyninə alıb atəş tutan ərazidən o üzə aşdı və qışqırdı:

"Bir azdan səni çıxarırıq, komandir, hazırlaş!" - dalınca yenə xuruşu tutdu - "Sağ-salamat qaça biləcəksən?"

*Gizir Səfərov*

Nə qədər harayladımsa, komandirdən cavab gəlmədi. Olmaya onu vurmuşdular? Dayandığı yerə boylandım, yox idi. Gizli bir yerdən çıxdığını təxmin edib düşmən postunu atəşə tutdum. Az keçməmiş arxadan səsini eşitdim:

"Gedirik!"

Baş barmağımla əla işarəsi göstərib, gülümsündüm. Komandir qışqırdı:

"Postla oynamayın, altdan yuxarı gəlirlər!"

Əsgər Rəfiyevi əllərimizin arasına alıb növbəti aşırımı aşanda bayaq atışdığımız yerdən düşmən güllələrinin səsi eşidildi. Onlar bizə çata bilmədiyini görüb barmaq silkələyirdilər. Özümdən asılı olmadan çox biədəb bir söyüş söydüm. Komandir eşitməzlikdən gəldi.

Təhlükə sovuşar-sovuşmaz gördüm, susuzluqdan yanıram. Dodağım çartıltıyla çatladı. Əlimi atdım. Qanamışdı. Dodağın susuzluqdan çatladığını eşitmişdim, inanmamışdım, indi öz başıma gəlirdi. İçimdən alovlanan tonqal sinəmi, boğazımı, ağzımı yandırır, dodaqlarımı pörşələyirdi. Bədənim bu istinin təsirindən şam kimi əriyirdi.

Bizim postdan köməyə gələn əsgərlərə tərəf bir kəlmə "Suuu!!!" deyib üzüqoylu yıxıldım. Məni ayağa qaldırıb postun altındakı bulağa apardılar. Son gücümü toplayıb qaçdım və təkrar ağzı üstə suyun içinə yıxıldım. Şırıltıyla başıma, üzümə, qulağıma tökülən buz kimi sudan bir-iki ağız udub, yanan dodağımı, dilimi axının qabağına tutdum...

Bir də onda ayıldım ki, komandir ayağımdan sürüyür. Başımın sol yanı yox idi. Heç nə hiss eləmir, heç nə görmür, heç nə eşitmirdim. Burnumun sol deşiyi də tutulmuşdu.

### *Komandir*

Köməyə gələn əsgərlər Rəfiyevi iki ağacın üstündə apardılar. Mən Gizir Səfərovun yanında gözlədim, o, bir az toxtayan kimi qoluna girib posta doğru addımladım. Yoldaşlarımız kəsif tər qoxusuna bürünmüş balaca, alçaq blindajda yan-yana uzanmışdılar. Biz də onların yanına sərildik. Bədənimizdən yorğunluğun buxarı qalxırdı. Yemək yeməyə də taqətimiz qalmamışdı. Hələ mən bu vur-çatlasında qalxıb qərargaha zəng etməliydim.

Dizlərimin giziltisi kəsilən kimi postdan azca aralanıb Kapitan Rəşidovla ratsiya əlaqəsi yaratdım. Əvvəldən danışdığımız kimi, məni 5-ci dalğada gözləyəcəkdi. Asanlıqla əlaqə saxladıq, vəziyyəti qısaca izah etdim və girov gətirməyin mümkün olmadığını söylədim. Zəngimə sevinsə də, əliboş qayıtmağımız kefini pozdu. “Gözlə” dedi. Bir azdan yenə əlaqəyə girdik. Danışan briqada komandiri Polkovnik Nəbiyev idi. O, qətiyyətli səslə bu sözləri söyləyib ratsiyanı söndürdü:

“Girovsuz geri qayıtma!”

# ÜÇÜNCÜ HİSSƏ

“Girovsuz geri qayıtma!”

Mən, onsuz da, girovsuz qayıtmayacaqdım. Kapitan Rəşidova zəng etməyimin məqsədi sadəcə ona məlumat vermək idi. Polkovnik Nəbiyevin bu tonda əmr verməsi yersiz idi. Onun səsindəki soyuq qəzəb içimi almaz kimi doğramışdı.

***Polkovnik Nəbiyev***

Kimdən nə istədiyimi yaxşı bilirdim. Hər cür ağlagəlməz vəziyyətlərdən çıxmağı bacaran bir zabit mənə yox deyə bilməzdi. Bəlkə, bunu özü bilmirdi, mən bilirdim və imkanlarını ortaya çıxarmaq üçün ona fürsət verirdim. Komandirdən çox şey asılıdır. Atın qabağına ot misalı. O, "dil" gətirəcəkdi, əmin idim. Kəlbəcərdən belə gec qayıtması da göstərirdi ki, əmri icra etməyə çalışmış, doğrudan da, mümkün olmamışdı. Olsaydı, heç vaxt boş qayıtmazdı. Lakin olacaqdı. Xidmət rəisi Kapitan Rəşidova qalsa, qrupu geri çağırıb bir müddət gözləməli idim. Razılaşmadım. Dəmiri isti-isti döyərlər. Özünə də dedim. Dedim, Rəşidov, mən bölük komandiri leytenant Abdinova niyə eyni əmri vermədim? Yoxsa elə bilirsən, zabitlər arasına ayrı-seçkilik salıram? O, qorxusundan heç təmas xəttini keçə bilməmişdi. Gedən kimi açığa çıxıb geri qaçmışdılar. Təmas xəttini keçsəydilər də, bir iş görə bilməyəcəkdilər. Mən kimə nə dediyimi bilirdim.

## *Komandir*

Canavar yalının üstündəki postda bir az dincəlib irəliyə - daha hündür yerdə qərar tutan Əyri yamaca adladıq. Yemək yeyib, bir-iki saat yatdıq. Mən yuxudan tez qalxdım və durbini götürüb müşahidə nöqtəsindən Göyçə tərəfə baxdım. Uzaq düzənliklərdə ot yığan, taxıl biçən adamlar gözə dəyir, maşınlar, kombaynlar görünürdü. Qarşıda elə bir mənzərə açılmışdı ki, gözünü qırpmadan tamaşa eləmək istəyirdin. Hava təmiz şüşə kimi şəffaf idi. Buralar dövlət sərhədi olduğundan güclü müharibə getməmişdi. Bizim dağlardan fərqli olaraq, Kiçik Qafqazın bu hissəsi top və "Qrad" səsindən diksinməmiş, təbii şuxluğunu itirməmişdi.

Qırğı blindajdan çıxıb mənə yaxınlaşdı:

"Komandir, yuxuda gördüm ki, iki nəfər tutmuşuq, biri uşaqdır."

"Uşaqla nə işimiz var, Əsədov?"

"Öldürmürdük, dəyişməyə gətirirdik."

"O birisi kim idi?"

"Bığlı-saqqallı bir kişi."

"Hərbçi idi?"

Qırğı tutuldu, bir az düşünüb "Bilmədim" söylədi. Durbinlə Göyçə gölünün sahillərinə baxa-baxa onunla zarafatlaşdım:

"Bir az diqqətli ol də, necə yəni bilmədim. Sən kəşfiyyatçısan axı."

"Yuxuda kəşfiyyatçı deyildim."

"Kəşfiyyatçı deyildinsə, camaatın uşağını niyə tuturdun?"

"Bunu da bilmədim."

"O görünən gölü tanıyırsan?" - əlimi uzaq düzənlikdə ağaran nəhəng gölə tərəf uzatdım.

“Əlbəttə. Sevandır.”

“Sevan yox, Göyçə. Yadında saxla: Göy-çə!”

“Komandir, əslində, “Sevan” sözü də onların deyil. “Se” farsca “üç” deməkdir. Bu, üçüncü “Van” gölüdür. Biri də Türkiyədədir.

“Bəs o biri hardadır?”

“Bax bunu da bilmirəm!” - güldü

“Sən ikidən o yana heç nə bilmirsən. Amma Səfərova baxanda yaxşısan. O, heç biri, ikini də bilmir.”

Ürəkdən güldü, Səfərova sataşmağım kefini açmışdı.

“Hə, Əsədov, madam yaxşı yuxu görmüsən, gedək Ermənistana.”

“Ermənistana? Zaqran?”

“Zaqran!”

“Briqadada nə deyərlər?”

“Briqadada deyirlər, əliboş qayıtma!”

“Doğrudan?”

“Doğrudan.”

“Elədirsə, gedək.”

“Gedək. Qulaqlamağa birini taparıq.”

“Birini yox, ikisini!”

“Mənim uşaq-muşaqla işim yoxdur.”

“Uşağı biz tutarıq, siz dəyməzsiniz”.

Çevrilib onun yorğunluqdan şişmiş, qızarmış gözlərinə baxdım:

“Bəlkə, üçünü tutaq?”

“Mən ikidən o yanasını bilmirəm. İndicə özünüz dediniz” - yenə güldü, bu dəfə mən də güldüm.

"Ermənistan" sözünü eşidəndə təəccüb elədim. Bu qədər kəşfiyyatda olmuşdum, bizə heç vaxt dövlət sərhədini keçmək icazəsi verilməmişdi, indi taqım komandiri özbaşına keçirdi. Keçirdi və bizi də özüylə aparırdı. Məncə, doğru addım deyildi. Kəşfiyyata çıxanda atəşkəsi pozmamağı dönə-dönə tapşıran komandirlər bu addımımıza nə deyəcəkdilər? Narahat idim. Məsləhətləşməyə ehtiyac vardı. Bəlkə də, komandir qərargahla məsləhətləşmişdi, sadəcə, Qırğıya öz fikri kimi söyləyirdi.

Qrup üzvləri yuxudan qalxan kimi komandir bizi postun qabağında cərgəyə düzüb gəzinə-gəzinə danışmağa başladı:

"Dəmirçidam əməliyyatına görə sizə təşəkkürümü bildirirəm! Doğrudan, çox əziyyət çəkdiniz. Nəticə əldə edə bilməsək də, böyük təcrübə qazandıq. Amma..."

Canıma vic-vicə düşdü, ürəyimə damdı ki, məni danlayacaq.

"Amma çox, çox, lap çox narazı qaldığım, hətta hirsləndiyim məqamlar oldu! Özü də sıravi əsgərlərə yox, çavuşa və gizirə görə!"

Başını hirslə qaldırıb bir-bir üzümüzə baxdı. Gözaltı Qırğıya nəzər yetirdim. Pörtmüşdü. Maral buynuzlarını göstərirmiş kimi başını aşağı əymişdi. Bircə Əsgər Rəfiyev səy-səy ağzını açıb komandirin addımlarına baxırdı.

"Bildiyiniz kimi, Murovda yeni nizami ordu indi-indi formalaşır. Kəşfiyyatsa ordunun qaymağıdır. Əgər biz qaydalara əməl eləmiriksə, o biri əsgərlərdən nə gözləyək?"

Gəlib Qırğının qarşısında dayandı və qışqırdı:

“Çavuş Əsədov! Eşidirsən məni?”

“Eşidirəm, komandir!” - Qırğı qorxan deyildi, sadəcə utanırdı. Komandirin haqsız yerə səsini qaldırmadığını bildiyi üçün utanırdı.

“Müharibə vaxtı əsgər “döyüşə get” əmrinə əməl etməsə neyləyirlər?”

“Güllələyirlər!”

“Döyüşə get” əmri ilə “döyüşü tərk et” əmri eyni şeydir. Əmr əmrdir! Müzakirə olunmur. Bunu da bilirsənmi?”

“Bilirəm.”

“Amma sənə deyirəm, kəşfiyyat qrupunu götür, posta qaldır, etiraz edirsən. Guya məni çox istəyirsən.”

“Komandir, vallah...”

“Vallahlıq-billahlıq deyil! Sən birinci qayda-qanuna, ikinci mənə, üçüncü yoldaşlarına hörmətsizlik edirsən! Nə qədər əməliyyat bitməyib, dediyim qanundur. Çünki bütün baş verənlərə məsul mənəm! Öldü, yaralandı, əsir düşdü - niyə? Bu sual sizə yox, mənə ünvanlanacaq. Atdığım hər addıma görə başımla cavab verəcəm! Bunu anlayırsan?!”

“Anlayıram.”

“Hələ Gizir Səfərov!”

Boğazımı “uşaqların içində məni çox danlama, ikilikdə lap üzümə tüpür” anlamında arıtladım. Şükür, səsi yumşaldı bir az.

“Sizə güvənib taqımda qayda-qanun, nizam-intizam yaratmaq istəyirəm, sizsə belə. Səfərov, mən briqadaya təzə gələndə qərargah rəisinin göstərişi ilə bir müddət dəftərxanada oturdum, piserin işlərini yoxladım, sənədlərin içində bilirsən nələr gördüm?”

Gözümü döyürdüm.

"Yol evi"nə qalxan yolun qırağında kubiklərin üstünə qaldırılmış təkərsiz bir "Qaz-66" var, xatırlayırsan?"

"Xatırlayıram."

"Guya o maşın altı ay ərzində üç min kilometr yol qət edib! Səncə, təkəri olmayan, motorunun hissələri çıxarılan maşın yol gedə bilər?"

"Gedə bilməz, cənab leytenant!" - özüm qəsdən rütbəsini bir az yuxarı dedim.

"Səncə, niyə elə yazıblar?"

"Benzini satıblar!" - Şəstlə söylədim. Onsuz da söhbət yoxuşa gedirdi.

"Doğrudur! O maşın hətta hərəkət eləsə belə, bu dağda-daşda altı aya üç min kilometr gedə bilməz. Bunun üçün gərək dayanmadan ölkəni dolaşsın, hətta arada Gürcüstana-zada da keçsin. Bəs bu faktı sənə niyə deyirəm?"

"Bilmirəm, Oruc... komandir!" - ən yaxşısı komandirdir. Xoşu gəlir bu sözdən.

"Səngərdən bu üzə hər cür bardaq yarada bilərlər, əllərini də ciblərinə qoyub dolayı gəzərlər. Necə ki gəzirlər! İstəyirsən, səni piyada bölüyünə göndərək, orda benzin satarsan."

"Mən elə adam deyiləm."

"Ustav"ı saymayan adam təkərsiz maşının yanında benzin satsa, daha yaxşıdır. Belə adamla təmas xəttini keçmək olmaz!" - səsini qaldırdı - "De görüm, sənə güvənib düşmən üzə keçə bilərəm, ya yox? Bəlkə, bir komandir kimi sayıb dediyimə əməl etmək istəmirsən?"

"İstəyirəm!" - doğrudan istəyirdim.

"İstəyirsən, amma dediyimin əksinə gedib atəş altına qayıdırsan. Üstəlik, yoldaşlarına əmr verib, icazəsiz əməliyyat keçirirsən."

“Sizi xilas etmək üçün etdim, komandir!”

“Sən məni xilas etmədin, kürəyimə bıçaq vurdun!”

“Allah eləməsin.”

“Allah elədi, Səfərov! Gördün ki, sənin xəbərin olmadan çıxdım ordan. Doğrudur, məni xilas etmək istəyirdin, ancaq əvəzində inamımı, etibarımı zədələdin. İndən belə ən çətin anda sənin hansı addımı atacağını təxmin edə bilmərəm. Sənə güvənə bilmərəm! Elə vəziyyətdə elə hərəkət edərsən, hər şey zibilə dönər!”

“Bağışlayın, komandir. Haqlısınız...” - üzr istəyən tip deyiləm, bunu necə etdim, özümə də qəribə gəldi, amma içimin dərinliyində doğru addım atdığıma əmin idim.

Komandir sakitləşdi, hirs-hikkəsinin qalanını səssiz gəzişməklə ovudub əsas məsələyə keçdi:

“Ermənistana gedirik! Girovu ordan gətirəcəyik. Beş gündən artıqdır yollardayıq, ac-susuz qalmışıq, yorulmuşuq. Ona görə budəfəki səfərimiz könüllü seçim əsasında olacaq. Kim yorulubsa, qorxubsa, burda qalıb bizi gözləsin.”

Heç kimdən səs çıxmadı. Komandir “qorxubsa” sözünü işlətməsə, bəlkə, əməliyyatdan imtina edən tapılardı. Bu sözdən sonra Allahın İrəfiyevi də öz xoşuna geri durmazdı.

“Rəfiyev, təklif edirəm, sən bizi burda, postdakı uşaqların yanında gözləyəsən.”

“Xahiş edirəm, məni yoldaşlardan ayırmayasınız.” - kəşfiyyatçı üçün dəstədən ayrılmaq ölümdən betərdir.

“Onsuz da bizim burda öz adamımız olmalıdır. Sən həm də yorulmusan, dincini alarsan.”

“Axşamacan bir şeyim qalmaz.”

“Sən burda qal.”

“Komandir...” - İrəfiyevin səsi boğuldu - “Məni ölüm-

dən qurtardınız, sizi necə tək buraxım?" - ağlamsındı.

Komandir güldü:

"Tək niyə oluram, Rəfiyev! Yanımda bu qədər adam var."

"Mən də onların biri!" - burnunu çəkib qəddini düzəltdi - "Ən azı sizə atılan bir güllənin qabağını kəsərəm!"

"Yaxşı, yaxşı, hamımız gedirik."

Hərbi duruşa keçdi və əmr verdi:

"Düzlən! Farağat! Xırda bir səhv buraxanı bir daha kəşfiyyata aparmayacam!"

Bu, bizim üçün ən böyük cəza idi. Komandir nə dediyini bilirdi.

### *Komandir*

Gecə Yeddiqardaş dağının bizə ən yaxın zirvəsində gümüşü işığı gördüm. Ətrafa nur çiləyən o işıqdan bir topa da mənim içimə düşmüş, varlığımı nura bələmişdi. Kövrək bir xoşbəxtlik duyğusunun içində itib-batmışdım. Səadət dənizində xəyal kimi üzürdüm. Bu dəqiqə yaxınlıqdakı yamacın tinindən atılıb qollarımı çalsam, qartal kimi havalanaram. Gümüşü işıq yanına çəkər məni. Ona qarışıb əriyərəm, həm itirdiklərimə, həm arzuladıqlarıma qovuşaram.

Ölüm gümüşü işığa qovuşmaqdırsa, buna hazıram və ondan zərrəcə qorxmuram. Bir gün ölümlə qarşılaşsam, onun üstünə gülümsünərək gedəcəm. Ölümü yanımdakı "flyaqa" kimi hiss edirəm. O, həmişə mənimlədir.

O adamlar ölümdən qorxur ki, onun heç bir işığı yoxdur. Bax, postdan mənə səslənən bu qırışmal əsgər kimi:

"Komandir, siqaretiniz var?"

Gümüşü işıq onun səsindəki yadlıqdan, yabançılıqdan ürküb, qaranlığa qarışır. Çönüb qəzəblə əsgərə baxıram:

"Siqaret çəksən, düşmənə görünə bilərsən!"

"Burda atəş açmırlar."

"Bəlkə açdılar."

Tutulur.

"Təəssüf ki, siqaretim yoxdur."

"Siz hara baxırdınız, komandir? Orda kimsə var?"

"Yeddiqardaşda işıq yanırdı, görmədin?"

"Yox."

"Diqqətlə baxdın?"

"Baxdım. İşıq-zad yox idi."

"Vardı. Yaxşı baxmamısan."

Əsgər onunla zarafatlaşdığımı düşünüb gülümsünür, mənsə işığın görünüb itdiyi yerə baxıram.

## *Qırğı*

Yenə qabaqda gedirdim. Təmas xəttindən bir az aralananda Əsgər Mazanovla yerimizi dəyişəcəkdik. Hərəkətə başlamazdan əvvəl komandir Maralı "dozor" göndərmişdi. O, tez qayıtmış və demişdi: "Sakitlikdir."

Maralın belə deməsi sərhədi söhbət edə-edə keçəcəyik anlamına gəlirdi. Doğrudan da, elə oldu. Müharibə edən iki ölkənin sərhədinə heç oxşamırdı. Komandir neytral zonanın bizim posta ən yaxın yüksəkliyində Rəfiyevlə başqa bir əsgəri müşahidəçi kimi saxladı. Onlar biz gəlincə burda gözləyəcək, təhlükə yaranarsa, atəş açıb mühasirəni yarmağımıza kömək edəcəkdilər. Görünür, komandir Rəfiyevi, haqlı olaraq, dərinliyə aparmaq istəmirdi.

Əyri yamacdan nəhəng su şırnağı ilə asta-asta dərəyə yenib başqa bir sel yoluyla yuxarı qalxdıq. Xeyli irəliləyib, bir daşlıqda dayandıq. Xəritəmiz yox idi. Planlaşdırılmamış "səfər"ə çıxmışdıq. Səhər açılmışdı. Daşlıqda özümüzə rahat yer seçib axşamacan müşahidə aparacaqdıq.

Əslində, axırıncı postdan xeyli müşahidə aparmışdım. Haradan gedəcəyimizi dəqiqləşdirib Mazanovla müzakirə də etmişdim. Təmas xəttindən mümkün qədər uzaqlaşmalıydıq ki, əməliyyatı ağlagəlməz yerdə rahat həyata keçirək.

Gün çıxmamış Mazanovla Hüseynovun hərəsini bir istiqamətə göndərdim. Mümkün qədər ehtiyatlı olmalıydılar. Fərq edilsək, planımız pozulardı. Qayıdıb gələndə Mazanov bunları söylədi:

"Dağların sərt yerindəyik, kimsə gözə dəymir. Bir az qabaqda daha effektli müşahidə aparmaq olar. Əkin-biçin vaxtıdır, sahələrdə çoxlu adama rast gələcəyik. Yuxarıdakı post elə də güclü deyil. Təxminən beş-altı bivec əsgərləri var."

"Bəlkə postdakı qotur gədələri götürüb qayıdaq?" - Gizir Səfərov özünəməxsus laqeydliklə dilləndi.

"Post nə qədər zəif də olsa, ən azı bir-iki güllə atılacaq. Düşmən tərəfdə yollar rahatdır, səsi eşidib tezliklə yaxınlaşa bilərlər." - izahat verməyə məcbur oldum ki, uşaqlar irəli getməyin vacibliyini anlasınlar. Boyunlarına almasalar da, yorulmuşdular.

Bir azdan özüm ətrafı yoxlamağa çıxdım. Mazanov haqlı idi. Ətrafı müşahidə üçün azı on-on beş kilometr irəliləməliydik.

Qarşıda iki kənd vardı. Biri sağımıza, o biri solumuza düşürdü. Biz iki kəndin arasındakı dərəylə Göyçə gölünə tərəf hərəkət edəcəkdik. Xoşbəxtlikdən dərə gölün lap yaxınlığına qədər uzanırdı. Kənar yamaclardan görünməmək naminə gecə hərəkət eləmək lazım gəlirdi.

Sol tərəfdəki kənd uzaqda olduğundan yaxşı müşahi-

də apara bilmirdik. Sağ tərəfdəki isə, demək olar, görünmür, dağın daldasına düşürdü. Biz dərə boyu hərəkət edib, kəndin yaxınlığında müşahidə aparacaqdıq.

Daşlıqda keçirdiyimiz bir gün bir əsr qədər uzun gəldi. Deyəsən, mən də yorulmuşdum.

*Gizir Səfərov*

Göyçə gölünə tərəf uzanan dərə boyu addımladıqca xəyalımdan qəribə şeylər keçirdi. Məsələn, düşünürdüm ki, müharibə, doğrudan da, ədalətsiz şeydir; biz niyə erməni verib özümüzünkünü ala bilirik, özümüzünkünü verib, erməni ala bilmirik? Əgər buna icazə olsa, Əsgər İrəfiyevi babat bir dığaya dəyişərdik, aparıb verərdik "kambriq"ə. İrəfiyevin də qohum-əqrəbasına deyərdik, gecə yol gələndə ayağı sürüşdü, qəhrəmanlıqla qayadan uçdu! Vəssalam! Allah o dünyasını versin! Öz düşündüyümə özüm şaqqanaq çəkib güləcəkdim az qala. Baxdım, komandir yaxında olsa, təklifimi ona çatdırıb kefini açardım. Heyif, qaranlıqda anışdıra bilmədim.

Qumsal dərə uzaqdan elə yığcam görünürdü, deyirdim, yarım saata gedib o başına çıxacağıq. Bayaqdan addımlayırdıq, bitmək bilmirdi. Elə narahat yerlərlə gedirdik ki, ayaqlarımız batinkanın içində bəlkə onuncu dəfə soğan kimi soyulurdu. Arada qıçım burxuldu, oynaqlarım xırçıldadı. Kəlbəcərdən gələndə burnuma-qulağıma dolan soyuq su başımın içində hələ də uğuldayırdı. Üzümün sol yanı keyimişdi. Həm xəfif-xəfif ağrıyır, həm də danışanda "tın-tın"layırdım. Nəfəs almağım çətinləşmişdi.

Dərənin bir ortasında dayanmaq əmri verildi və Maralın səsi eşidildi:

"Tank!"

"Hardadır?" - komandir soruşdu.

"Səs sol tərəfdən gəlir."

"Bizi gözləyin!"

Komandirlə Maral dərənin sol yamacına qalxdılar. Bizsə "dozor" nəfəri kimi irəliləyən Ağsaqqalı saxlamaq üçün Qırğını qabağa göndərdik.

*Komandir*

Ehtimal doğru çıxdı; sol tərəfki kənddə hərbi hissə vardı. Tankı görmədik, biz dərədən çıxıb boylanana qədər getmişdi. Havanın sərinliyinə qarışan tırıltı bir anlıq eşidilib itdi. Demək, kəndə yaxınlaşmaq olmazdı. Səhərəcən irəliləmək lazım gəlirdi.

Uşaqların yanına qayıdıb, bir az dincimizi aldıq. Gizir Səfərov qəfil siqaret yandırdı, onun üstünə atılıb alovu ovcumda sıxdım. Əlimin içi gizildəsə də, ovcumu açmadım. Səfərov xırıldadı.

Ona heç nə demədim, qumsal dərəni təzədən dəstələyib ağır-ağır addımladıq.

Səhərə yaxın dərənin tədricən bitdiyini gördüm. Əsas heyəti qumsallığın dərin yerində saxlayıb Qırğı və Maralla irəli getdim. Düzənliyə çıxanda qaranlıq canını işığa tapşırdı və qarşımızda göz işlədikcə ağ-mavi sulardan ibarət geniş dünya açıldı. Bir anlıq gümüşü işığın okeanına düşdüyümü zənn edib tilsimləndim. Gölün cazibəli nəhəngliyinə baxdıqca baxdım. Mənə elə gəldi, Yer kürəsinin sonuna gəlib çıxmışıq. Hər şey arxada qalıb. Müharibə də, qaçqınlıq da, vətən də! Burdan o yana nəinki insan, heç torpaq da yoxdur. Gölün sol kənarındakı taxıl zəmisi bura nə üçün gəldiyimi yadıma salıb məni öz aləmimə qaytardı.

Zəmi biçilib qurtarmamışdı. Demək, bir azdan adamlar gələcəkdi. Sahənin yaxınlığında, nisbətən hündürdə fermaya oxşayan tikililər vardı. Maralı dayandığımız yerdə qoyub Qırğıyla uçub-dağılmış evlərə yaxınlaşdıq. Tikilinin altındakı artezianda böyük su nasosu işləyirdi. Nasosu söndürsək, mütləq baxmağa gələn olardı və biz

onu asanlıqla götürüb gedərdik. Bəs nasos suyu hərbi hissəyə vururdusa? Özümüzü yandıra bilərdik!

"Uşaqlar bir-bir mənim yanıma keçsinlər. Gündüz bu tikililərdə gizlənəcəyik, axşama Allah kərimdir." - Qırğı əmrimi eşidən kimi dərənin Göyçə gölünə tərəf üzülən boğazına tərəf addımladı.

Əvvəl Hüseynovun, sonra Mazanovun yanına qayıtdım. İyirmi dəqiqə keçməmiş hamımız uçuq divarların arasında özümüzə yer eləmişdik. Biz gələnəcən komandir tikilinin nə olduğunu müəyyənləşdirmişdi:

"Bizimkilərin toyuq ferması olub."

"Nədən bildiniz?" - Səfərov soruşdu.

"Onlar buxarını belə qoymur" - əlini hisli divarın əyilən yerinə uzatdı. Buxarıdan qəribə bir doğmalıq vururdu adamı. Bir anlıq elə bildim, daşların istisi hələ də çəkilməyib.

Uşaqları yerbəyer edəndən sonra komandir mənə silahın səsboğucusunu çıxartmaq əmrini verdi. Özü də çıxartdı. Birlikdə açıq sahəyə doğru addımladıq. Onun belə sərbəst hərəkət etməsinə təəccübləndiyimi görüb dedi:

"Çavuş Əsədov, biz elə bir yerə gəlib çıxmışıq ki, gizlənməyə ehtiyac yoxdur. Ehtiyatlı hərəkət etsək, şübhə doğurarıq."

"Bəs səsboğucu? Onları niyə çıxardıq?"

"Səsboğucu kəşfiyyatçılarda olur."

Geyimimizdə, üst-başımızda, ciblərimizdə kim olduğumuza dair adi bir əşya belə yox idi. Komandirin dediyi sonuncu sözlər məni lap ürəkləndirdi:

"Buralar da sənin torpağındır, Əsədov! Heç nədən qorxub-eləmə!"

Doğru deyirdim. Adam öz torpağında nədən qorxmalıdır? Əlimizi-qolumuzu sallaya-sallaya taxıl zəmisinə yaxınlaşdıq. Artıq biçinçilər işə başlamışdı. Kövşən yerləri heyvanlarla dolub-daşırdı. İki-bir, üç-bir əsgərlər də gözə dəyirdi. Bizə tərəf heç baxmırdılar da! Zəminin yaxınlığındakı təpənin üstünə qalxdıq, uzanıb ətrafı müşahidə etdik. Arada növbəylə yatdıq. Oyanıb söhbətləşdik. Qırğı öz həyat hekayətini mənə danışdı. Laçında doğulub. Düşmən deyilən varlıqları ilk dəfə bizimkilər Xankəndidən Gorusa gedən yük maşınlarının qarşısını kəsəndə görüb. Laçının "Aşağı poçt"unda karvanın qabağını kəsib sürücüləri düşürüblər, döyüblər, ölümlə hədələyiblər.

Qırğı danışdıqca qızışırdı:

"Əmim yekəqarın sürücünün qulağından tutub Zabux dərəsini göstərdi. Dedi, baban Andronikin qulağını, bax, orda kəsmişik, bir də gəlsən, səni də onun gününə salacağıq. Sürücü qorxusundan ağladı. Laçınlı dostlarının adını çəkdi. Onda bir az kövrəldim. Yazığım gəldi ona." - səsində qəhər sezilməyə başladı.

"Bəsdi görək! İndi ağlamaq tutacaq səni!" - güldüm ona.

"Yox eee... nə olur-olsun müharibə ədalətsizdir. Hər yerdə günahsızlar əziyyət çəkir."

"Biz neyləyək? Müharibəni biz başlamamışıq ki!"

"Məhəllədən sakit, fağır bildiyim adamlar erməni görəndə özlərindən çıxmışdılar. Heç kimi tanımaq olmurdu. Hamının içində gizli bir nifrət, qəzəb varmış."

"Onlar da eynisini edirdilər. Camaat durduğu yerdə qəzəblənməmişdi."

“Elədir.”

Laçın alınanda Qırğının əmisi on iki nəfər kənd adamıyla mühasirəyə düşür. Həkərinin qırağıyla üzüaşağı neçə gün yol gəlib Qubadlıya çıxırlar. Yanlarında bir qız uşağı varmış. Qardaşı onun üçün xüsusi bir güllə saxlayırmış ki, əsir düşsələr, bacısını öldürsün.

“Əmim deyir, taqətimiz üzülmüşdü. Qubadlı postuna çatanda bilməyib bizimkilərdi, yoxsa ermənilər. Yanındakılara deyib, siz gizlənin, mən qabağa gedim, vəziyyəti öyrənim. Maykasını çıxarıb, ağ bayraq kimi başının üstündə yellədə-yellədə posta tərəf qaçır. Həm də “Allahu əkbər!” deyib qışqırırmış ki, bizimkilər olsa, tanısınlar. Əsgərlər eyni nida ilə cavab verəndə onu ağlamaq tutur.”

Baho! Qırğı indi ağlasa, necə kiridəcəkdim?

Zəmidə qırmızı paltarlı bir qadın gözə dəydi, söhbəti dəyişmək üçün onu Qırğıya göstərib dedim:

“Bax, qəşəng bir qadın var, sənin üçün apararıq!”

“İstəmirəm!”

“Gop eləmə! İstəyərsən.”

“Mənə “boevik” lazımdı. O biçarəni neynirəm?!”

“Qırğı, sən əsgərlikdən sonra şeir-zad yaz, içində incə-mincə bir müğənni var.”

“Musiqiyə getmişəm də, komandir!”

“Doğrudan? Hansına?”

“Qarmona!”

Gülmək tutdu məni:

“Əsədov, Seyid Lazım ağanın cəddi haqqı, bilsəm qarmonçalansan, səni buralara gətirməzdim. Gör harda deyirsən mənə. Düşmənin otuz kilometr dərinliyində!”

“Elə demə, buralar da sənətkarlar oylağıdır.”

“Nə sənətkarı?”

“Aşıq Alı, Aşıq Ələsgər, Zodlu Abdulla... Alqayıt. O qədər var ki...”

“Şeir bilirsən onlardan.”

“Şeir işinə Ağsaqqal baxır.”

“Kəşfiyyat taqımının əməlli-başlı özfəaliyyət qrupu var. Bir dənə də müğənni tapsaq, iş tamamdır.”

“Axtararıq” - Əsədov bu kəlməni o qədər ciddi dedi ki, özümdən asılı olmadan çevrilib üzünə baxdım və çaşıb qaldım. O da mənim kimi söhbət edə-edə ətrafı gözdən qoymurdu. Dili qarmonçalan kimi danışsa da, gözlərindən əsl qırğı idi. Daşı dəlib keçən qorxmaz baxışlarını görəndə ona zarafatla dediyim sözlərə görə pis oldum.

Yarımçıq zəmidə kombayn işləyirdi. İşə gur saçlı, diribaş bir adam rəhbərlik edirdi. O, hamını, hətta əsgərləri də ora-bura buyurur, bəzən üstlərinə qışqırırdı. Əsgərlər onun tapşırığının dalınca qaça-qaça gedirdilər. Axşama yaxın hamı dağılışdı, gursaçlı kombaynı saxladıb sürücünün yanına qalxdı və biçinə davam etdilər. Bir az yer qalmışdı, yəqin, biçib qurtarmamış getməyəcəkdilər. Zəminin aşağısında qara “Qaz-53” dayanmışdı. Kabinəsində adam vardı.

Zəmiyə qaranlıqla birlikdə yendik. Ətrafa yalnız kombaynın yeknəsəq səslə pozduğu qorxunc sükut çökmüşdü. Gizir Səfərovla Qırğı kombaynın gözünə görünmədən maşına yaxınlaşmalıydılar. Onlar kombayn sahəni hərlənib o üzə çevriləndə hərəkətə keçəcək, maşının içindəki adamı zərərsizləşdirib əməliyyata başlayacaqdılar. Qorxunc sükutun vahiməsini özüm dağıtdım:

“Erkək, qorxmursan ki?!”

Komandirin sualını eşidəndə necə ürəkdən güldümsə, hamı diksindi. Yəqin, başa düşdülər ki, qorxan adam düşmən ölkənin ortasında belə ucadan gülməz. Cibimdəki pres kəndirlərini və əski qırıqlarını çıxarıb Qırğıya verdim, dedim, istəyir dünyanın ən güclü adamı olsun, ortasından yapışıb saxlayacam, sən əllərini bağlayıb, əsgiləri ağzına tıxayarsan. Vəssalam! Burda çətin nə var?!

Maşına ehtiyatla yanaşmalıydıq. Kabinədəki polis, yaxud hərbçi ola bilərdi. Bəzən belə yerlərə mühafizəçi ayırırdılar. Maşında silahlı şəxs olsa, yəqin, gün ərzində komandirin gözündən yayınmazdı. Biz toyuq fermasının yıxıq tikililərində istidən tıncıxdığımız vaxt onlar təpənin başında nə edirdilər? Aşıqdan-qarmondan danışası deyildilər ha!

Kombayn nəriltiylə dönüb sahənin o başına gedəndə özümü sol tərəfdən "Qaz 53"-ə yetirdim. Çata-çatda nə illah elədim, rusca "qapını aç" sözü yadıma düşmədi. Az qala qayıdıb komandirdən soruşacaqdım, dedim, birdən elə bilər, qorxumdan qayıdıram. Həyəcandan dimdikli papaq qoymuş adam mənə saqqallı göründü. Əlimi tutacağa atan kimi cəld hərəkətlə qapıların ikisini də bağladı. Avtomatın qundağını iki-üç dəfə şüşəyə çırpıb qışqıran vaxt söz qəfil yadıma düşdü:

"Atkroy akno!!!"

İkinci dəfə düzəliş verdim:

"Atkroy dver!!!"

Hər dəfə qundaq sürüşür, şüşə qırılmırdı. Qırğı otərəfki şüşəni qırdı. Dimdikli papaq qoyan kim idisə, mən tərəfdən qapını açıb özünü çölə atdı, ona yaxşı bir

şillə ilişdirdim. Yerə yıxılanda uşaq olduğunu gördüm. Əllərini qaldırıb inildədi. Ağzından-burnundan qan açılmışdı. Özünə gələr-gəlməz bir də qışqırıb qaçmaq istədi. Buna görə ikinci şilləni yedi və sakitləşdi. Qırğı uşağın əllərini bağladı, ağzına əsgi tıxadı. Əsgi balaca olduğu üçün uşaq diliylə çıxartdı. Bir də, bir də. Alınmadı. Maykamı cırıb onun ağzını boynunun dalından bərk-bərk bağladım. Artıq komandir də bir neçə əsgərlə yanımızdaydı. Uşağı Ağsaqqala verib dedi:

“İki əsgərlə götür! Dərə yenişə Əyri yamaca tərəf! Bizi gözləmə! Özümüz gəlib sənə çatacağıq!”

Ağsaqqal uşağı ley kimi götürüb qaranlıqda itdi. Biz də getməyə hazırlaşırdıq ki, komandirin növbəti əmrini eşitdik:

“Kombaynı da götürün!” - çaşqınlığımızı görüb əlavə etdi - “Əsas ordakı gursaçlıdır! Kabinədə iki nəfərdilər. Silahları yoxdur. Amma hər ehtimala qarşı ehtiyatlı olun! Mən də burdayam. İrəli!”

Ətrafı bir də gözdən keçirib mövqe tutduq, Səfərovla Əsədovun təhlükəsiz hərəkət etməsi üçün şərait yaratdıq. Səfərov bizə yaxınlaşan kombaynın arxasına keçib pilləkənin üstünə atıldı. Arxa şüşədən içəri boylanıb qapının tutacağından yapışdı. Qırğı kombaynın qabağında peyda olub silahını kabinəyə tuşladı. Kombayn dayandı. Gizir Səfərov qapını açıb sürücüylə boğuşdu, onu dartıb yerə saldı. Sürücü "Bandit!" deyə qışqırdı.

Qırğı da gursaçlını dartıb düşürdü. Gursaçlı baş verənləri o dəqiqə anladı: "Tooork!!!"

Sürücü boynunu qısıb Gizir Səfərova tabe olsa da, gursaçlı sağa-sola vurnuxur, gözünü "Qaz 53"-dən çəkmirdi. Köməkləşib onları maşının yanına gətirdik. Gursaçlının qapısı açıq qalan və şüşəsi qırılan maşını görüb həyəcanlanması diqqətimdən yayınmadı. O, əlimizdən çıxıb qaçmağa çalışırdı:

"Məni burda öldürün! Sizinlə heç yerə getməyəcəm!" - bizim dildə aydın danışırdı.

Boğazından yapışıb yavaşca dedim:

"Getməsən, uşağı öldürəcəyik!"

Yumşaldı.

"Mənə nə edirsiniz edin, uşağa dəyməyin" - deyib yalvarmağa başladı.

Zəmidən çıxanda "Qaz 53"-ün tormoz borularını kəsdik, təkərlərini deşdik. Sürücü xahiş edirdi:

"Nə olar, kombaynı söndürün, təzə almışıq, heyifdi, xarab olmasın."

Komandir "Olmaz, diqqət çəkər" söyləyəndə Səfərov qızışdı:

"Bicok erməni! Kombaynı söndürsək, deməyəcəklər ki, bu niyə dayandı?"

Mən sürücüyə təskinlik verdim:

"Narahat olma, yanacağı bitəndə özü sönəcək."

Gursaçlı yenə ayaqlarını dirəyir, getmək istəmirdi. Gizir Səfərovun "kəşfiyyat diplomatiyası" bu yerdə işə düşdü:

"Aə, kolpanbaş, sizi öldürmək fikrimiz olsa, burda boğub öldürərik. Ən yaxın postdan özümüzünkülərlə dəyişəcəyik!"

Komandir deyilənləri təsdiq edəndə gursaçlı inandı, dizindəki sərtlik azaldı və sürətimiz artdı. Qumsallıqla xeyli aşağı düşmüşdük ki, Səfərovun səsi eşidildi:

"Bıy! Ştık-nojum düşüb!"

Komandir bircə dəfə başını bulamaqla məsələyə öz münasibətini bildirdi.

Yoxuşa gəldiyimiz dərəni yenişə keçirdik deyə üçqat artıq sürətlə irəliləyirdik. Ağsaqqal uşağı götürüb qeybə çəkilmişdi. Ha yüyürürdük, çata bilmirdik. O qədər yeyin gedirdik ki, hava ağarmamış dərəni keçib gecə qaldığımız daşlığa çatdıq. Ağsaqqal iki əsgər və uşaqla bizi burda gözləyirdi.

Daşlıqdan sallananda çönüb geri baxdım, kombaynın ətrafında işıqlar dolaşırdı. Az keçməmiş göyə fişəng at-

dılar. Hündür bir daşın üstünə çıxıb baş verənləri seyr edən komandir çox əzəmətli görünürdü. Dayandığı yerdən amiranə səslə dediyi sözlər göydəki fişəngləri söndürüb yerə səpələdi:

"Səfərovun ştık-nojını gördülər!"

### *Komandir*

Sel yolunun ayağında iri bir daş vardı. Uşaqların yorulduğunu görüb bu daşın altında dincəlmək, çörək yemək qərarı verdim. Gecə boyu yol gəlmişdik, üstəlik, səhər tezdən narahat bir yenişi aşağı düşmüşdük. Gün xeyli qalxmışdı. Qısa istirahətləri nəzərə almasaq, buracan dayanmadan yerimişdik.

Daşın altını, elə bil, bizim üçün hazırlamışdılar. Sel yolu ovcumuzun içi kimi görünürdü. Ardımızca gələn olsa, çılpaq yamaclarda sərçə kimi dənləyərdik. Amma gündüz su şırnağı ilə qalxsaq özümüz qarşı dağın hədəfinə çevrilərdik.

Dağların, qayaların, uçurumların arasında bir çimdik duz kimi itən kəşfiyyat qrupumuzun yerini öyrənmək üçün gərək quş olub uçaydılar.

Sel yoluna gözətçi qoyub daşın altında oturduq. İlk işimiz təzə yol yoldaşlarımızla tanışlıq oldu. Sürücü - Qay, gursaçlı - Qarik Vardenis rayonunun Böyük Mərzə kəndinin sakinləri idilər. Uşaq - Albert Qarikin bacısı oğluydu.

Böyüklər özlərini sərbəst aparırdılar. Uşaq da ən yaxın postdan qayıdacağına inanmışdı. Baxışlarındakı qeyri-müəyyən qorxunu nəzərə almasaq, bizimlə birlikdə kəşfiyyata gəldiyini düşünmək olardı. Onun on üç yaşı vardı. İrəvanda orta məktəbdə oxuyurdu. Kənddə aqronom işləyən dayısı Qarikgilə yay tətilinə gəlmişdi. Evdə darıxdığı üçün dayısı özüylə sahəyə gətiribmiş, iş uzanıb, qalıb “Qaz-53”-ün kabinəsində.

Ağsaqqal qonşularına yaxşı xidmət edirdi. Kəlbəcərlə Vardenis sərhəddir axı. Hərəsinin qabağına bir parça quru çörək qoymuşdu. Yemək istəmirdilər. Mən təkid

edəndə yedilər. Biz də hərəyə bir tikə çörək, bir dilim kartof çeynəyib üstündən şəkərli su içdik. Səfərov istehzasından qalmadı, qarnını sığallayıb "Yaman yeyib-içdik haaa!!!" - deyəndə hamı güldü. Qariklə Qay da bizə qoşuldu.

Uşaqlar ermənilərdən "Freedom" siqareti alıb çəkdilər. Kefi durulan Gizir Səfərov oxumağa başladı:

"Yes heros zinvor! Yes heros zinvor!"

Ermənilərin üçü də diksindi.

Səfərov Kəlbəcərin Dəmirçidam kəndindəki bölüyün səhər düzülüşü zamanı oxunan bu sözlərin mənasını soruşdu. Qarik cavab verdi:

"Mən qəhrəman əsgərəm" deməkdir!"

Səfərov dəli oldu:

"Doğrudan?"

"Hə. Əsgər marşıdır."

"Səncə, sizin əsgərlər doğrudan qəhrəmandır?"

"Qəhrəman olmasalar, o qədər torpağı tutardılar?!"- Ağsaqqal bayaqdan qabağında qalan bir qırıq çörəyi ağzına atıb çeynəyə-çeynəyə bivecсə, bir az da acıqla dilləndi.

"Ağsaqqal, sən mumla! Deyir, dəvə taxıla girdi, dedilər, necə çıxardaq ki, sünbülü tələf eləməsin, ağsaqqal dedi, yıxın sürüyün!"

"Düz deyirəm, dana!" - Əsgər Mazanov höcətləşdi - "Erməniyə verdiyin suala bax!"

"Dedim, sən mumla! Qoy Qardik cavab versin. Qardik oldu hə, adın?"

"Qarik" - gursaçlı həvəssiz dilləndi.

"Hə, Qarik. Cavab ver görək, doğrudan erməni əsgərləri qəhrəmandır?"

"Onlar qəhrəman olsa, biz sizin əlinizdə girov qalmazdıq!"

“Bərk de, qoy Ağsaqqal da eşitsin. De, de! Çəkinmə.”

Qarik dediyi sözləri bir az bərkdən təkrarladı. Səfərov:

“Ay sağ ol! Halal olsun! Əyri yamaca çataq, səni İrəfiyevlə güləşdirəcəm! Tanıyırsan İrəfiyevi?”

“Tanımıram.”

“Əsl “heros zinvor” odu. Qorxumuzdan gətirmədik ki, bütün Vardenisi Göyçə gölünə tökər, Polkovnik Nəbiyevlə üz-göz olarıq.”

Səfərovun son sözləri məni də güldürdü. Sonra üzünü Ağsaqqala tutdu:

“Nə burnunu sallamısan? Biz rusa uduzduq, bu yamaqlı gədələrə yox! Döyüşə-döyüşə torpağımızın səksən faizini aldıq, qaldı iyirmi faiz, onu da alacağıq. Ona görə burdayıq, Ağsaqqal! Gəzməyə gəlməmişik!”

Ağsaqqal laqeydcə başını bulayıb susdu.

“Sən niyə danışmırsan, ə, qırışmal!” - Səfərov əlinin zərbiylə yanında büzüşmüş Qayın çiyninə necə çırpdısa, altından toz qalxdı. Həddini aşacağını görüb onu söhbətə tutdum:

“Səncə, bizim gəldiyimizi, sahədən adam götürdüyümüzü nədən anladılar?”

“Necə yəni nədən? Ştık-nojım qalmışdı.” - elə fəxrlə dedi ki, guya yaxşı bir iş olmuşdu.

“Sən onu çıxarmışdın?”

“Yox çıxarmamışdım.” - əlini Qaya uzatdı - “Bunu kombayndan salanda bir az əl-qol atdı, yəqin, orda düşüb.”

“Başqa nədən? Yaxşı-yaxşı düşün.”

“Qaz-53”-ün şüşəsi qırılmışdı, qapıları açıq qalmışdı. Kombaynı işləyə-işləyə, işığı yanılı qoymuşduq.”

“Biz taxıl oğruları ola bilərdik. Sahədəki adamlar da qorxudan qaça bilərdilər. Kimliyimizi necə anladılar?”

"Maşının yanına Albertin qanı tökülmüşdü." - Qarik dilləndi.

"Sən əsgərlikdə olmusan?" - mən soruşdum.

"Hə. Çitada. Döyüş batalyonunda xidmət etmişəm. Sizinkilərdən yaxşı dostlarım vardı. Çox mərd, qorxmaz uşaqlar idi. Ruslarla, çeçenlərlə dalaşanda biz cənublular bir olurduq."

"Gopa basma, ə!" - Səfərov onun üstünə qışqırdı - "Siz biznən heç vaxt bir olmamısız! Qılığımıza girib, bıçağı arxadan kürəyimizə vurmusuz!"

"Bizim günahımız yoxdur. Arsax üçün əsgər yığılanda bizim kəndə də gəldilər, hamısını qapıdan qovdum, dedim, biz onlarla qonşuyuq, neçə illər bir yerdə yaşamışıq, aramıza düşmənçilik salmayın."

"Sənə hardan inanım?"

"Yalan demirəm, sizinkilərlə həmişə dostluğum olub."

"Düz deyir o?" - əlinin ucuyla Qayı itələdi. Qay başını razılıq anlamında yellədi. Gizir Səfərov əsəbi halda dilini çıxarıb şəhadət barmağıyla göstərdi, Qayın səsi eşidildi:

"Biz müharibə istəmirik. Dinc adamlarıq."

"Ona görə Xocalını qırdınız?"

Ermənilərin ikisi də başını aşağı saldı, bircə Albert nə baş verdiyini anlamadan ürkək nəzərlərini üzümüzdə gəzdirir, mərhəmət axtarırdı. Onu həmin an qardaşım Zabilə oxşatdım. Zabil də kəndimiz dağılan gün Xaçını keçib Çulluya qaçanda bu yaşdaydı və adamların üzünə elə bu cür çaşqınlıqla baxırdı.

Əslində, yuxusuzluqdan nadinclik edirdim. “Tın-tın”-lığım da bir yandan əsəblərimi gərirdi. Burnumun sol tayı tez-tez tutulur, açmaq üçün at kimi fınxırmalı olurdum. Hər dəfə fınxıranda ermənilər diksinirdi. Onların məndən qorxması xoşuma gəlirdi. Elə ürkək dayanırdılar ki, ürək döyüntülərini bədənlərindən hiss eləyirdim. Uşaq vaxtı ovcumda tutub sıxdığım sərçələr gəlirdi xəyalıma. Heç birinə zərrə qədər yazığım gəlmirdi. İmkanım olsa, min-bir əzabla öldürüb, təzədən dirildərdim. İllah da bu kolpanbaşı! Əclaf adama oxşayırdı. Bircə uşağa azacıq rəhm edirdim. Deyəsən, o, aramızda müharibə getdiyini heç əməlli-başlı bilmirdi. Amma beyninə yeritməyə imkan tapmışdılar ki, bu dünyada “tork” adlı milyonlarla insan var və uşaqdan-böyüyə hamısı bizim düşmənimizdir.

Komandir “Bir az yatın dincəlin!” deyib daşın altından çıxdı. Mən Qarikin qollarını möhkəm-möhkəm bağlayıb ipin ucunu toqqama ilgəklədim. Qırğı isə Qayı özünə bənd elədi. Alberti bağlamadıq. Günün hansı saatıydı, bilmədim, Qırğının həyəcan dolu səsinə oyandım.

İşdən agah olan kimi Qarikin qulağının dibinə bir qapaz ilişdirdim. Qapaz onu elə tutdu ki, az qala məni də özüylə yomalayıb daşın altından çıxaracaqdı. Komandir mənə acıqlandı.

Qarovulda yatan əsgərə daha çox acığım tutmuşdu. O boyda zülüm çəkəsən, axırda hansısa maymağın ucundan səni, bütün dostlarını yatdığınız yerdə güllələyib qaçalar!

Gözümün acısını almaqdan ötrü mən də azca çimir elədim. Mürgüləyən vaxt qarovulda duran əsgərin sayıqlığını yoxlamaq üçün iki-üç sual verdim. Səsi diri gəlirdi. Üstündən beş dəqiqə keçməmiş Yeddixırman dağının yaxasındakı ardıcların tünd qoxusunu duydum. Dalınca qara pişik çığırdı. Canımdan üşütmə keçsə də, oyanmadım. Dayçamız kişnəyəndə gözlərimi açdım. Qarovulçu avtomatını qucaqlayıb yatmışdı. Bütün kəşfiyyat qrupu yuxudaydı. Uşaq da yatmışdı. Bircə Qariklə Qay şirin-şirin söhbətləşirdilər. Qarovulçunun yatdığını görən Qarik pıçıltıya keçdi. Təxmini başa düşdüm ki, bizim yatdığımızı Qaya xəbər verir. Səsləri kəsildi. Qarik bağlı əllərini asta-asta Qırğının qucağındakı silaha uzadanda qayışından çəkdim, Qırğı qışqırıb oyandı. Onun səsinə hamı oyandı və Səfərovun dəliliyi tutdu. Qariki vurdu. Dalınca dirəşdi ki, bizi aldadıb yatdığına görə qarovulçunu qayadan atmalıyıq. Onu birtəhər sakitləşdirdim. Dedim, narahat olmasın, öz yoldaşlarını təhlükədə qoyan əsgər cəzasını alacaq. Amma burda yox.

Qarikin hərəkəti sal daşın altında səssiz bir gərginlik yaratmışdı. Hamı kəfəni yırtıb çıxmış kimi hiss edirdi özünü. Mənə qalsa, təhlükə o qədər ciddi deyildi. Silahı çəkiləndə Qırğı onsuz da oyanacaqdı. Amma bir məqam vardı - mən avtomatı qəfil çəkdim, asta çəksəm, Qırğı bilməyə bilərdi.

Qəribədir, Qarikin bu hərəkəti uşaqlara xəyanət kimi gəlirdi. Halbuki normal idi. Onun yerinə kim olsa, fürsətdən yararlanmaq istəyərdi.

“Bizi, doğrudan, güllələyəcəkdin?” - Səfərov qarovul-

dakı əsgərə dartınıb əl-qol atandan, bir-iki yağlı söyüş söyüb sakitləşəndən sonra Qarikdən az qala nəvazişlə soruşdu.

“Yox. Heç vaxt!”

“Niyə?”

“Bizə kişi kimi söz vermisiniz, öldürməyəcəksiniz, dəyişəcəksiniz. Sizi niyə güllələyim ki?”

“Kişiyə bax ee!!!” - Qırğı havalı-havalı güldü - “O boyda torpaq tutublar, o qədər adam öldürüblər, hələ üstəlik kişilikdən, mərdlikdən danışırlar!”

“Mən həyatım boyu heç kimi vurmamışam.” - Qarik sakit və inamla danışırdı.

“Bəs onda silaha niyə əl atırdın, axmaq köpəyoğlu?!” - Səfərov yenə hövsələdən çıxdı.

“Sizi qorxudub qaçacaqdım. Başqa niyyətim yox idi. Əlləri bağlı, bu qədər adamı necə öldürərdim? Dəli-zadam belə hərəkət edim?”

Uşaq ermənicə dayısından nəsə soruşdu. Səfərov onun nə dediyi ilə maraqlandı. Qarik izah etdi:

“Deyir, məni də aparacaqdın?”

“Sən nə dedin?”

“Dedim, yox.”

“Yalan demə.”

“Görmürsüz necə peşman olub. Guya mən qaçdım, bu qaldı. Onun əsir düşməsində günahkar mənəm. Evdən gətirməsəm...”

“Biz sizin kimi oğraş deyilik ki, uşağa əl qaldıraq. Onu öldürməyəcəyik. Amma sənin başını duz torbasında “heros zinvor”lara göndərəcəm. Arxayın ol.”

Qarik köks ötürüb daşın altında uzaqlara baxdı.

Heç nəyi vecimə almadan təzədən yatdım. Bir də komandirin səsinə ayıldım. Hava qaralmışdı və biz su şırnağı ilə Əyri yamaca qalxacaqdıq. Səfərovla Qarikin dava-dalaşı və mübahisəsini nəzərə almasaq, yaxşı istirahət eləmişdik. Dizimizə taqət, gözümüzə işıq gəlmişdi. Şırnağın ortasında təhlükəli bir keçid vardı. Ayağın sürüşsə, birbaş Qarikin bizi güllələmək istədiyi sal daşın yanınacan yomalanardın. Keçidə çatanda komandir bizi dayandırıb, Qarikin ipini Səfərovun toqqasından açdı. Dedi, özün keçəcəksən. O, Qarikin özünü qayadan atacağından şübhələnmişdi. Əgər Səfərova bağlı olsa, onu da özüylə dərənin dibinə yuvarlayar, yəqin, ikisi də o dünyalıq olardı. Səfərov belə incə şeyləri bilməzdi.

Komandir keçidin tinindəcə Qarikə vəziyyəti başa saldı:

"Bu sıldırımdan özünü atsan, ölməyəcəksən, yaralanacaqsan, şikəst qalacaqsan, biz də səni sürüyə-sürüyə dediyimiz yerəcən aparacağıq. Heç nə dəyişməyəcək. Əksinə, əzabların artacaq, zarıyacaqsan. Yüz dəfə peşman olub özünü söyəcəksən. Biz səni öldürməyəcəyik. Dedim bayaq, öldürmək istəsək, bu qədər əziyyətə niyə qatlaşırıq? Səfərova deyərəm, boğazını cücə boğazı kimi üzər. Sual verə bilərsən: elədirsə, özümü qayadan atmağımdan niyə narahatsan? Deyim: sən bizə sağ lazımsan. İstəyirik, bizi əziyyətə salmadan özün öz ayağınla gedəsən.

"Dumanda azan əsgərlərlə dəyişəcəksiniz?" - komandirin dediyinə Qarik məhz burda, bu uçurumun kənarında, yolumuzun, demək olar ki, bitdiyi yerdə tam səmimiyyəti ilə inanmışdı.

“Bunu hardan bilirsən?” - komandir soruşdu.

“Eşitmişəm!”

“Kimlə dəyişməyin nə fərqi var? Xankəndi, İrəvan bizim əsirlərlə doludur. Birini tapıb dəyişəcəyik.”

Qarik komandiri başdan-ayağa süzüb bu söhbətə dəxli olmayan, bəlkə də çox dəxli olan bir söz dedi:

“Siz əsl zabitsiz! Bizdə sizin kimisi yoxdur. Əmin ola bilərsiniz.”

Komandirin qaşları çatıldı:

“Bu hardan çıxdı?”

Qarik:

“Sizi zəminin yanındakı təpənin üstündə gördüm. Bir az da göz qoydum. Özünüzü elə aparırdınız ki, elə bildim, bizim əsgərlərsiniz, taxıl oğurlamağa gəlmisiniz”- öskürdü - “Yenə də içimdə bir şübhə qalmışdı. Kombayna hücum olanda məsələni anladım. Amma gec idi.”

Komandir “Bizi vaxtında tanımadığın üçün sənə kəşfiyyat qrupumuz adından təşəkkür edirəm!” deyib, güldü. Qarik başını aşağı saldı.

Keçidə ayaq basan kimi Albertin qışqırığı başladı. O, evdən şəp-şəplə çıxmışdı və sərt yerlərdən keçdikcə hər dəfə ayağını yaralayırdı. Komandir onu saxladı. Papağını alıb, əsirləri bağladığımız iplərlə yaralı ayağına sarıdı. Qarikin papağını da o biri ayağına bağladı. Albert qalxıb ilk addımını atanda çönüb gülümsədi:

“Spasibo, komandir!”

Bu, azmış kimi, ən sərt yerdə uşağın qorxduğunu görüb onu çiyninə aldı. Qəribə hislər keçirdim.

Su şırnağından çəmənliyə keçəndə cığırı tapa bilmədik. Hər tərəf bir-birinə bənzəyən cığırlarla dolu idi. Biz xəritəsiz hərəkət etdiyimizə görə getdiyimiz yerləri yadda saxlayaraq irəliləmiş və həmin yerlərlə də geri qa-

yıtmışdıq. Əyri yamaca lap az qalmış yolumuzu itirdik. Əsgər Mazanovun belə qəfil qocaldığına ürəkdən üzülürdüm. O, dəstənin önündə gedirdi, amma gəldiyimiz cığırı tapmırdı. Komandir məzələnirdi onunla:

"Ağsaqqal, bizi o altı əsgər kimi aparıb erməni postuna çıxarmayasan?"

"Arxeyin ol. Cığırı tapmasam da, istiqaməti düz götürmüşəm. Bircə qorxum var!"

"Nədir?"

"Posta yaxınlaşanda bizimkilər atəşə tutarlar!"

"Xəbərləri var axı. Rəfiyev də ordadır."

"Biz Rəfiyev dayanan istiqamətdən getmirik. Aşağı üzdəyik."

"Dəqiq?"

"Dəqiq."

"Nə təklif edirsən?"

"Burda başqa bir postumuz var. Siz gözləyin, mən ora dəyim, yuxarı posta xəbər verək."

"Bəlkə biz də gələk?"

"Bu tərəfdən yol çox narahatdır, vaxt itirəcəyik."

"İstiqaməti bildiyinə əminsən?"

"Əminəm."

"Postlara mümkün qədər yaxınlaşaq. Hava işıqlaşanda atəş altında olduğumuz ortaya çıxar."

"Çıxmaz. Neytraldayıq. Güllə tutmur buraları."

"Ardımızca gələ bilərlər."

"Cəsarət eləməzlər. Bura ovcumuzun içidir."

"Mazanov, dəqiq bilmədiyin heç nədən əminliklə danışma. Əməliyyatın nəticəsi səndən asılıdır."

"Ürəyinizi sıxmayın, komandir, buraları tanıyıram."

***Komandir***

Necə sıxmayım ürəyimi? Komandir rəhbərlik etdiyi qrupla birlikdə əlində üç girov hara getdiyini bilmir. Bilmir deyəndə, istiqamətin doğru olduğu mənə də aydındır, amma təkcə istiqamətlə deyil ki! Biz Allah ümidinə gedirik. Getdiyimiz yerdə nə var - bax, bilmədiyimiz budur!

Tərs kimi, o biri uşaqlardan heç kim bu tərəfləri tanımırdı. Mazanov səhv eləsə, batardıq.

Çəmənliyin rahat yerində dayandıq, bir-birimizdən on-on beş metr aralı mövqe tutub gözlədik. Mazanov qətiyyətli addımlarla irəliləyib qaranlıqda yox oldu. İnamla yeridiyini görüb xeyli ürəkləndim. O, düz qırx dəqiqəyə qayıtdı. Aşağı postdan bizim üçün quru çörək və pendir gətirmişdi. Acmışdıq. Mazanovun gətirdiyi pendir-çörək olmasa axırıncı yoxuşu qalxa bilməyəcəkdik.

Bizim posta yaxınlaşanda Ağsaqqal bir neçə dəfə quş kimi səsləndi, Əyri yamacda işıq yandı və söndü. Daha ürəklə addımlayıb posta qalxdıq. Hamı bizi gözləyirdi. Postdakı kəşfiyyat əsgərini Rəfiyevin dalınca göndərdik. İçəri girən kimi Gizir Səfərov yorğunluğunu unudub gülə-gülə soruşdu:

“Əliboş gəldin? Bəs dedilər əsir gətirirsən?”

Rəfiyev mat-mat üzümüzə baxır, nə baş verdiyini anlamağa çalışırdı. Səfərov zarafatın dadını çıxarmamış bayırda vur-çatlasın düşdü. Postun əsgərləri Qariki döymək istəyirdilər. Gizir Səfərov silahını çəkib özünü çölə atdı:

“Avaralar! Sən öl hamınızı aşsüzənə döndərərəm! Duxunuz çatır, gedin özünüz gətirin, ondan sonra döyün! Siz kimsiniz mənim girovuma əl qaldırırsınız?”

O gündən bu söz yaddaşımda ilişib qaldı və hər dəfə xatırlayanda məni ürəkdən güldürdü: “Mənim girovum!”

Ömrümdə ilk dəfə “Girovum” sözünü beynimdə şəxs əvəzliklərinə görə dəyişdim. Qəribə səslənirdi.

Səhər açılmışdı. Yaxın postlardan kim eşidirdisə, girovları görməyə gəlirdi. Hərə bir sual verir, kimi söyür, kimi dartınırdı. Gizir Səfərov Qarikə əməlli-başlı mühafizəçilik edirdi. Əsirlərlə rəftarın yaxşı olmadığını görüb onları blindaja qapadım, yanına da keşikçi qoydum. Toğanadan ardımızca göndərilən maşın gəlib çıxanacan blindaja məndən başqa heç kim girə bilməzdi. Bu qərardan sonra hamımız rahatladıq. Ən çox da Gizir Səfərov. Artıq “onun girovu”nu heç kim incidə bilməzdi.

Qarikgillə bircə nəfərin görüşməsinə icazə verdim. O, hərbi hissədən maraq üçün dəvət olunan göyçəli əsgər idi. Mənə deməyə çəkinsələr də, Əyri yamacdakı uşaqlar Göyçə gölünün yanınacan gedib çıxdığımıza inanmırdılar. Ağsaqqalla aralarında mübahisə də düşmüşdü. Hərbi hissədəki göyçəli əsgəri mübahisəyə son qoymaq üçün çağırmışdılar. Əsgər Qariki də, Qayı da tanıdı. Qucaqlaşıb görüşdülər. Hətta Qay kövrəlib ağladı. Bizim əsgər də xeyli qəhərləndi. Çölə çıxanda ondan soruşdum:

“Qarikin yanındakı uşaq kimdir?”

“Tanımadım.”

“Deyir, bacım oğludur.”

“Bacısı oğludursa, atası hərbçidir. Qarikin bircə bacısı var, o da irəvanlı bir zabitə ərə gedib.”

Göyçəli əsgər heyranlığını gizlətmirdi:

“Siz hara gedib-çıxmısınız? Böyük Mərzədə idiniz?”

“Hə.”

“Oraları dağıdıblar?”
“Yox, əskinə, abadlıqdı. Bircə toyuq fermasını dağıdıblar.”
“Atam o fermada işləyirdi. Mən orda doğulmuşam.”
“Doğrudan? Biz iki-üç saat orda gizlənib müşahidə apardıq. Buxarınızın yeri bilinirdi.”
“Vay-vay!” - qəhərləndi.
Göyçəli əsgərin əlini sıxıb yola salandan sonra gözüm Səfərovu axtardı. Özünü postun həndəvərinə verib kəklikotu yığırdı.
“Orda neynirsən, yoldaş “zamkamvzvod?” - ona hərdən zarafatla belə müraciət edirdim.
“Atama kəklikotu yığıram!”
“Atan hardadı? Toğanadan gələn maşında o da gəlir?”
“Məzuniyyətə gedəndə aparacam!”
“Səni məzuniyyətə buraxan var?”
“Hər əməliyyatdan sonra üç-beş gün məzuniyyət verirlər.”
“Əməliyyat keçirmək kəşfiyyatçının borcudur, buna görə nə məzuniyyət?”
“Verməsəniz, qaçacam!”
“Bircə şərtlə verərəm; bir az da mənim atama yığ o kəklikotudan.”
“Gözüm üstə!” desə də, işlətmək üçün əsgərləri harayladı.
Çoxdan atama baş çəkmirdim. İki günlük də olsa, Sumqayıta getmək arzusu baş qaldırdı içimdə. Buna görə özünü dağa-daşa verib ayı kimi eşələnən Gizir Səfərova ürəyimdə minnətdarlıq etdim.

*Polkovnik Nəbiyev*

Erməni hərbçilərinin bu qədər əl-ayağa düşəcəyini gözləmirdim. Ən çox da Albert adlı o uşaqla maraqlanırdılar. Bir gün əvvəl biz onlara yalvarçı düşmüşdüksə, indi vəziyyət tamam dəyişmişdi. Uşaq deyirdilər, başqa heç nə demirdilər. Yalan olmasın, Kəlbəcəri geri istəsək, verərdilər. Uşağın kimliyi ilə maraqlandım və biləndə dəhşətə gəldim; alay komandirinin oğlu idi! Böyük Mərzəyə dayısıgilə qonaq gəlmiş, dayısı ilə birlikdə əsir düşmüşdü.

Erməni hərbçilər belə bir şayiə yaymışdılar ki, guya bizimkiləri ora xüsusi hərbi vertolyot aparıb. Onlar kəşfiyyatçıların bu qədər dərinliyə gedib çıxmasına heç cür inanmır, başqalarının da inanmasını istəmirdilər. Bu, Kiçik leytenant Orucovun süngüylə göylərə yazdığı bir əfsanəydi.

Kəşfiyyat qrupu gəlib çıxmamış ermənilər əl-ayağa düşmüşdülər. Telefonda yalvarır, nə istəsək, verəcəklərini deyirdilər. Əməliyyatın necə uğurlu keçdiyini onların yalvarışından hiss etmişdim və Kapitan Rəşidovu muştuluqlamışdım. Bizim qəhrəmanlar yol gəlirdilər.

Baş qərargahdan zəng edib Ali Baş Komandanın mənimlə danışmaq istədiyini söylədilər. Özümdən asılı olmadan ayaq üstə qalxıb papağımı qoydum:

"Salam, Nəbiyev!"

"Salam, cənab Ali Baş Komandan!"

"Nəbiyev, deyilənlər düzdür?"

"Düzdür, cənab komandan!" - bildim ki girovları soruşur.

"Maraqlı nəsə deyirlər?"

"Hələ danışdırmamışıq. Qərargaha bir azdan çatacaq-

lar. Üçü də mülki şəxsdir."

"Deyirlər, aralarında hərbçi oğlu da var."

"Var. 13 yaşlı uşaqdır. Alay komandirinin oğludur."

"Müdafiə Nazirliyinə tapşıracam, vertolyot göndərsin, əsirləri Bakıya yola salarsınız."

"Baş üstə, cənab Ali Baş Komandan!"

*Komandir*

Qərargaha çatan kimi qanım qaraldı. Xidmət rəisi Kapitan Rəşidovun sevinə-sevinə boynuma sarılması da kefimi açmadı. Hərbi hissənin növbətçisi mərkəzi qərargahdan məni axtardıqlarını söylədi. Getdim. Zəng edən generalın köməkçisi idi. Aramızda belə bir dialoq oldu:

"Kiçik leytenant Orucov, yanınıza bir adam gələcək, onun uşağının adı sizin taqımda gedəcək. Nəzərə alarsan."

"Bu, sizin tapşırığınızdır, yoxsa generalın?"

"Sizcə, mən generalın xəbəri olmadan sizə nəsə deyərəm?"

"Bilirsiniz niyə soruşdum? Generalın belə bir tapşırıq verəcəyinə inana bilmirəm. Biz kəşfiyyat taqımıyıq, ayda neçə dəfə düşmən arxasına keçir, ölümlə üzüzə qalırıq. Mən birinin yerinə başqasını ölümə apara bilmərəm. Əməliyyata gedənlər bunu bilsə, mənə nə deyər?"

"Onu kəşfiyyata yazmazsınız, öz əlinizdə deyil?"

"Sizcə, o əsgəri daha uyğun yerə salmaq olmaz?"

"Demək, sən qədər ağlımız yoxdur, hə? Nə deyim generala? Tapşırığa əməl etmirsiniz?"

"Etmirəm yox, edə bilmirəm. Bu, sadəcə olaraq, mümkün deyil. Mümkün olsa, edərəm."

"Aydındır! Sağ olun!"

"Siz də sağ olun."

Telefonda qəribə bir cığıltı səsi gəldi və bu səs qara pişiyin səsinə oxşadı.

Briqada komandirinin sözünə xilaf çıxdığını görəndə yerdən-göydən əlimi üzdüm. Bu, hərbi qulluqda rastlaşdığım ilk iriçaplı ədalətsizlik idi - içimi şumlayıb keçdi.

Briqada komandiri Kiçik leytenant Orucovu yanına çağırmalı, şəxsən təşəkkürünü bildirməli, vəzifəsinin və rütbəsinin artması üçün müraciət etməli idi. Etmədi. Qərargahın həyətində qrup üzvləri ilə ümumi görüş zamanı əlini sıxmaqla kifayətləndi. Orucov bu barədə heç düşünmürdü. Mən söhbətin içində olduğum üçün vicdan əzabı çəkirdim. Axı niyə? Niyə bu qədər zəhmətin dəyəri verilməsin? Kəşfiyyat xidmətində bundan artığını etmək mümkündürmü? Özümü saxlaya bilməyib Polkovnik Nəbiyevdən bu barədə soruşdum. Cavabı gözlənilməz oldu:

“Mən təqdimat vermişəm, özü işləri korlayıb!”

“Nə edib?” - təəccüblə xəbər aldım.

“Generalı eşitməyib.”

“Nə general?”

“Kəşfiyyat taqımına uşaq göndərmək istəyirdilər, adı gedəcəkdi. Mənə dedilər, xasiyyətini bildiyimə görə, dedim, özünüz söyləyin.”

“Məsuliyyətdən qaçdınız?” - aramızdakı səmimiyyətdən istifadə edib ərklə soruşdum.

“Qaçdım. Daha doğrusu, Orucova hörmət əlaməti olaraq, onu bu saxtakarlığa məcbur etmədim. Dedim, özü cavab versin. Heç səni də qarışdırmadım. O da ki...”

“Generalın özünə yox deyib?”

“General bizim qəhrəmanla şəxsən danışacaq qədər ehtiyatsız deyil. Köməkçisi zəng edib və “yox” cavabı alıb. Mən Orucovun sənədlərini təltif üçün göndərmək

istədiyimi söyləyəndə etiraz etdilər. O zaman özümü saxlaya bilmədim, yalandan dedim ki, artıq məktubu göndərmişəm. Və köhnə tarixlə məktub hazırladıb Gəncədən yola saldım."

"Yox cavabını bilə-bilə."

"Bəli, kapitan!"

"Görəsən, biz bununla vicdan rahatlığı tapa biləcəyik?"

"İnanmıram. Amma hər halda mənim əlimdən bu qədər gəlirdi."

"Generala vəziyyəti izah etmək olardı."

"Anlayışla yanaşacağını zənn etmirəm. Əmr müzakirə olunmur."

"Bu, əmr deyil, polkovnik!"

"Nə deyirsən, Rəşidov? Murovda qiyammı qaldıraq?"

"Söz tapmıram."

"Onda deyim, bir çay gətirsinlər, boğazımızın qovuşuğu açılsın. Sən narahat olma. Orucov dəyərli zabitdir. Onun qarşısını almaq mümkün olmayacaq. Sadəcə, zamana ehtiyac var."

***Komandir***

Axırıncı dəfə məzuniyyətə nə vaxt getdiyimi xatırlamıram. Deyəsən, məktəbdən göndəriş alanda atamgilə dəydiyim idi. Ondan bəri getməmişdim. Əməliyyatdan qayıdan kimi avqustun maaşını aldım. Pulum varkən üç günlük məzuniyyət götürüb Sumqayıta yola düşdüm. Uşaqlara da növbəylə məzuniyyət veriləcəkdi. Əvvəl Gizir Səfərov, dalınca Çavuş Əsədov bir sıravi əsgərlə gedəcəkdilər. Qalanlarını da növbəylə göndərəcəkdim.

Bölükdə işlərim getdikcə çoxalırdı. İşdən iş çıxırdı. Murova xidmətə gələn gündən yığcam bir hamam quraşdırmaq arzusundaydım. Bit-birə əsgərləri basıb yeyirdi. Mənim kimi ailəli olmayan, əsgərlərin içində qalan zabitlər də onlardan seçilmirdi. Dərimiz qaysaq bağlamışdı. Bəzən aylarla bədənimizə su dəymirdi. Əlbəttə, mən zabit idim, istəsəm, çimməyə imkan tapardım, bəs əsgərlər? "Yol evi"ndəki kazarmada qışın ən sərt şaxtasında da bit-birə olurdu. Taxtabiti uşaqları yeyib-bitirir, gecələr yatmağa qoymurdu. Qışın şaxtasında çöldə təpik döyürdülər. Hamısının bədənində qırmızı şırımlar açılmışdı. İçəridə his verən solyarka yandırırdılar deyə sifətləri qapqara qaralmışdı. Kazarmaya girəndə elə bilirdin zəncilərin arasındasan. Görüşə gələn valideynlər səsi çıxmamış uşaqlarını tanımırdılar.

Bölükdə su vardı, yüngül xərclə kolonka quraşdıra bilsəm, onu qızdırmağa odun da tapılardı. Ətraf meşəlik idi. Hər əsgər "veş-meşok"unda beş-altı odun gətirsə, bəs edərdi.

Sumqayıtda həm də qiymətlərlə maraqlanacaqdım.

## *Zabil*

Günorta dərsdən qaldığımız yataqxanaya qayıdırdım. Yağışlı bir payız günüydü. Binaların arasındakı ağaclar saralmış yarpaqlarını sağa-sola səpələmişdi. Yağışda islanan yarpaqların qoxusu Fərrux meşəsini yadıma salırdı. Xəyalım bu vaxtlar cır armud qoxusuyla adamı bihuş edən Fərrux meşəsindən Yeddixırmana keçdi, dağın zirvəsindəki vışkanın başına dolanıb Çulluya endi. Qohumların kəndin çıxacağına toplaşıb anamı gətirən maşını gözləməsini xatırladım. Ağlayan qadınların sifəti gözlərimin önündə canlandı. Dəsmalının ucunu ağzına tutan yaşlı qadının qoz ləpəsinə bənzəyən yanaqları elə hey titrəyirdi. Kolanı dərəsi, Xaçın çayının soyuqluğu, təngnəfəs qaçdığım üzümlük, atamın qaralmış sifəti... Çoxdandır oraları belə xatırlamırdım. Məhəlləmizə sirli bir Qarabağ havası dolmuşdu.

Payızın zəhmindən saralıb-solan ağacların altında bir hərbçi dayanmışdı. Əvvəl ona fikir vermədim. Buralarda kamuflyajlı adam görmək adi hal idi. Ancaq nədənsə bu, mənə çox doğma gəldi. Diqqətlə baxanda tanıdım və özümü saxlaya bilməyib qışqırdım.

Çantam əlimdən yerə düşmüşdü. Həm sevinirdim, həm ağlayırdım. Payız ağacları məhvərindən oynadan kimi, o da məni özümdən çıxarmışdı. Qaçıb boynuna sarıldım. Ondan vətən qoxusu gəlirdi. Özüylə birlikdə bütün Kolanı dərəsini Sumqayıta gətirmişdi.

Qolunu boynuma salıb yerə dağılan kitabların yanına getdi, əyilib bir-bir yerdən yığdı. Mən də kömək elədim. Kitabları yerdən götürə-götürə gözümü ondan çəkmirdim. Bəzən kitab-dəftər yerinə asfalta əl atırdım. Həyəcanlı olduğumu görüb soruşdu:

“Göstər görüm harda qalırıq, buraları tamam unutmuşam.”

Əlimlə biz olan binanı göstərdim və dedim:

“Sən yavaş-yavaş gəl, mən qaçım atamla bibimi muştuluqlayım!” - evə tərəf qaçdım.

Bütün yataqxana onu qarşılamağa çıxdı. Kişilər ayaqqabılarını geyinə-geyinə, arvadlar yaylığını bağlaya-bağlaya, uşaqlar ayaqyalın həyətə yüyürür, gənc qızlar və gəlinlər pəncərələrin pərdəsini azca aralayıb baxırdılar. Atam qollarını açaraq axsaya-axsaya və ağlaya-ağlaya ona tərəf qaçdı.

Atamın ağlaya-ağlaya çıxması məni də qəhərləndirdi. O, təkcə mənim gəlişimə sevindiyi üçün ağlamırdı. Bu göz yaşlarının içində çox şey vardı. Çox şey! Qaçıb onu qucaqlamaq, Yeddixırmanın qaşında gördüyüm, sonra Murovda - Ömər aşırımında və Yeddiqardaşda qarşıma çıxıb məni ən doğma insanlara, doğma torpaqlara bağlayan gümüşü işıqdan danışmaq istədim. Ancaq yaşadıqlarımı anlada bilməyəcəyimdən qorxdum. Bu, elə bir duyğu idi ki, haqqında yalnız susmaq olurdu.

Atamı bağrıma basdım. Onun doğma qoxusu məni uşaqlığımın ən xoşbəxt anlarına apardı. Onda hər şeyimiz vardı. Bizi xoşbəxt edən heç nəyi əlimizdən almamışdılar. Atamı da heç vaxt ağlayan görməmişdim.

Onun yaşlı gözlərinə baxmağa utanırdım.

*Zabil*

Həmişə fikir vermişəm, görüşün ilk dəqiqələri çox həyəcanlı olur. Bu həyəcan, uzağı, beş dəqiqə çəkir. Sonra hamı sakitləşir və adam kimi söhbət etməyə başlayır. Mən qardaşımla oturub şirin-şirin söhbət eləməkdən ötrü bu həyəcanlı anların tez bitməsini istəyirdim. Amma bitmirdi. Yaxın-uzaqda yaşayan qohumlar onun gəldiyindən xəbər tutub özlərini yetirirdilər. Gələn-gələn özünü saxlaya bilməyib ağlayırdı. Əllərinə fürsət düşmüşdü. Qardaşımın belə qəfil gəlişiylə kəndimizlə anam təkrar yada düşmüşdü. Mən onda anladım ki, nə qədər torpağımız işğaldadır, heç bir dərdimizi unuda bilməyəcəyik. Hər dəfə bir bəhanə ilə faciəmiz təzədən başlayacaq, biz onu ilk dəfə yaşayırmış kimi təzədən ağlaşacağıq.

Axırda atam özü təpindi qohumlara, uşağın üstünə ağlaşmayın dedi. Uşaq e! Məni gülmək tutdu. Yaxınlaşıb astaca qoluna toxundum:

“Olar sizə komandir deyim?”

Güldü:

“Ələ salrsan məni?”

“Allah eləməsin!”

“Evdə komandir olar?”

“Bu sözdən xoşum gəlir.”

“Səni əsgərliyə göndərərik, komandir sözünü istədiyin qədər deyərsən.”

“Onda da deyərəm, indi də deyim, nə olar ki?”

Dinmədi. Dinməmək razılıq sayılırdı. Ancaq ona komandir deməyə çəkindim.

Kitablarımı gətirdim, gündəliyimi göstərdim, şəkillərimi tökdüm ortaya. Onun diqqətini cəlb etmək, onu

o biri qohumların əlindən almaq üçün yüz oyundan çıxırdım. Hamıdan çox mənə diqqət edirdi. Mənimlə ünsiyyət onun xoşuna gəlirdi. Hər dəfə bir bicliyimi tutanda elə gülürdü ki! Gözlərindəki qüssə yalnız onda çəkilib gedirdi.

Bir də ortancıl qardaşımız kənd-kəsək adamlarından lətifə danışanda ürəkdən gülürdü. Onu bircə ortancıl qardaşımız əlimdən ala bilirdi. Damarını tutmuşdu. Elə söhbətlər salırdı ki, əlindəki işi yarımçıq qoyub qulaq asırdı.

Atam:

"Adam adamı belə unudar? Heç demirsən, bir yataqxananın küncündə qoca bir atam var, gedim baş çəkim!"

O:

"Vallah, vaxt eləyə bilmirəm."

Atam:

"O mahnıda nə təhər deyir? Sən gəlməsən, özüm gəlləm! Bir az da geciksən, burdan maşın tutub düz Murova gələcəkdim."

O:

"Nə vaxt istəsən, gəl. Amma isti vaxtı gəl. Havanı da dəyiş."

Atam:

"A bala, sən əsgərsən ki, dalınca düşək? Getdin oxudun, zabit oldun, yenə dəyişmədin. İstəsən, arada imkan eləyib gələ bilərsən, özün istəmirsən."

O:

"İndən belə çalışaram gəlim."

*Komandir*

Doğmalarla söhbət eləmək həmişə mənə çətin gəlib. Bilmirəm hansı sözü seçəm, necə işlədəm. Mən doğmalara sevgisini ifadə edə bilməyən adamlardanam. Uca hislərin qarşısında susuram. Hərbi xidmətlə bağlı verilən suallarda da belədir. Cavab tapa bilmirəm. Ömür boyu əsgərlik xatirələrini danışan, hələ üstəlik bəzəyib-düzəyən adamlara həsəd aparmışam. Mənə qalsa, sevgidi, dostluqdu, kişilikdi - bunlar haqda danışmaq ayıbdı. Etməli olduğun işi niyə danışasan? Heç ağac deyir ki, baxın, necə meyvə gətirmişəm? Günəş deyir ki, sizə təmənnasız isti bəxş edirəm?

İndi atamın qarşısında da belə tərk-silah olmuşam. Nə deyim, nə danışım? Hamısını özü bilir. Vaxtımın az olmasını da, bir az səhlənkarlığımı da, əslində, gəlmək və görmək istədiyimi də. Məndən olsa, doğmalarla üz-üzə oturub saatlarla bir-birimizə baxarıq. Mənim üçün bunun əvəzi yoxdur. Doğmalar həm də ona görə doğmadır ki, onlarla bu cür rahat ola bilirsən.

## *Zabil*

Məktəbdən qayıdanda onu evdə görmədim. Halbuki elə bilirdim iki-üç gecə qalacaq. Məzuniyyəti üç günlük götürmüşdü. Ya bizimlə darıxdı, ya da vacib işləri vardı. Tezdən dərsə gedirdim, o, içəri otaqda yatmışdı. Sən demə, oyaqmış. Köhnə ayaqqabıda islanmasın deyə ayaqlarıma sellofan sarıdığım yerdə yaxaladı məni. Qolumdan tutub küçəyə çıxardı:

"De görüm, yaxşı ayaqqabı harda satılır?"

"Sputnik" mağazasında" - gözlərimə işıq gəldi.

Mənimlə çıxdı. Yol boyu xeyli söhbətləşdik. Mənə dedi, böyük kişi olmusan, qız-zad sevmirsən ki? Mən də utanmadan hələ sən varsan, dedim. Güldü.

Böyümüşdüm, hə. Həm də sürətlə. Çətinlik insanı vaxtından əvvəl böyüdür. Dərslərimlə birlikdə evin qayğılarına da qaçırdım. Atam yer-yurd alınandan bəri tamam dəyişmiş, yaşlı, kövrək, ümidsiz bir qocaya çevrilmişdi. Artıq o, bizim yox, biz onun qayğısına qalırdıq.

"Deyirlər, erməni generalının oğlunu əsir gətirmisən, düzdür?" - yolda da danışdırır, səsini eşitməkdən doymurdum.

"Kim deyir?"

"Hamı danışır. General yalvara-yalvara qalıb, sən də demisən, Ağdamı qaytar, oğlunu verim."

"Bəs general nə deyib?"

"Razılaşmayıb. Sən də onun oğlunu verməmisən. Hamı sənin böyük kəşfiyyatçı olduğunu deyir. Atam da təsdiqləyir. Deyir, dədəm Cavada oxşayıb."

Dinmədi. Mən də o biri qardaşım kimi, xatirələrə dalmaq qərarına gəldim:

“Yadındadı, Cavad babamın ordenlərini yaxana taxmağın?”

“Yadımdadı” - nəvazişlə qoluma girdi, ürəkləndim.

“Güzgüdə fəxrlə özünə baxırdın. Onda hamımız bilirdik ki, hərbçi olacaqsan.”

Güldü, daha mən nəsə deməyə imkan tapmadım və söhbətimiz bununla bitdi.

Mağazaya getdik, seçdiyim ayaqqabını aldı, elə mağazadaca geyindim, köhnələri cırıq kağıza büküb sellofanlı-zadlı zibil yeşiyinə atdım. Görüşüb ayrılmaq istəyəndə dedim:

“Olar mənimlə məktəbəcən gedəsən?”

“Niyə?” - təəccüblə soruşdu.

“İstəyirəm bir az da söhbət edək.”

Razılaşdı. Əslində, mənim məqsədim qardaşımı sinif yoldaşlarıma göstərmək idi. Sonra onların yanında forslanacam, özümdən müharibə xatirələri quraşdıracaqdım. Guya bunların hamısını mənə qardaşım danışmışdı.

Ayrılanda hamama aid əşyaların harda satıldığını soruşdu, bazarın içində o cür mağazaların çox olduğunu deyib boynuna sarıldım.

Dərsdən çıxıb evə gələndə evdəkilərlə vidalaşıb getmiş, gedəndə olun-qalan pulunu bibimə vermişdi.

### *Komandir*

“101”-dəki hərbi hissədə hamam tikmək arzumu gerçəkləşdirə bilmədim. Maaşımdan Zabilin ayaqqabısının haqqını, yolpulunu, cibxərcini çıxanda yerdə bir şey qalmırdı. Bir az da evə kömək elədim. Balaca-dar otaqda güzəranları elə də yaxşı keçmirdi. Pulu atama verməyə utandım. Bibimə verdim. Anam ölən gündən bibim bizim evdə qalır, atamın, qardaşlarımın qayğısını çəkirdi.

Taqımın əsgərləri bağışlasın, bir az da kirli gəzməli olacaqlar. Ancaq mən bu hamamı əvvəl-axır tikəcəkdim. Yazıq Vəzirov hamam deyəndə hamı ona gülürdü. Elə biri mən özüm. İndi anlayıram ki, rəhmətlik necə müdrik sözlər deyirmiş.

Həm taqım komandiri, həm də bölük komandirinin müavini idim. Bölüyün bütün işlərini mən görürdüm. Kapitan Rəşidov məni cidd-cəhdlə bölük komandiri qoymaq istəyirdi və bunu açıq-aşkar deyirdi. Taqımda yaratdığım nizam-intizamı bütün bölükdə görmək istəyirdi. Təbii ki, buna briqada komandiri razılıq verməliydi. O, bizim bölük komandirini harasa yerləşdirməli, məni onun yerinə qoymalıydı.

“Özün öz işinlə mən qədər maraqlanmırsan” - Kapitan Rəşidov narazı-narazı söyləyirdi.

Cavab vermirdim. Doğru sözə nə deyəsən? Əslində, mənə rütbə və vəzifə verilməsini istəyirdim, lakin bunun üçün nə etmək lazım olduğunu bilmirdim.

Kapitan Rəşidov vəziyyəti belə görüb bölük komandirinin müavini kimi səlahiyyətlərimi artırdı. Komandirimiz etiraz eləmirdi. Bütün rəhbərlər kimi, ona da iş görən müavin lazım idi. Kapitan Rəşidov deyirdi:

“Mən ixtisaslı hərbçi deyiləm, amma sən hərbçisən. Ən azı, general olanacan irəli getməlisən. Bu yolda əlimdən gələni edəcəm.”

“Sağ ol, rəis” deyirdim, başqa söz tapmırdım.

O, bir gün mənə qəribə bir tapşırıq verdi. Bu, əslində, təlim əməliyyatı idi.

***Kapitan Rəşidov***

Təlim əməliyyatının ideyasını gözlənilmədən tapdım. Deməк, ailəmlə birlikdə Toğanada qalırdım və hər gün səhər tezdən bölüyə piyada qalxırdım. Maddi-texniki təchizat bölüyünün qarajı yolumun üstündəydi. Orda çoxlu it vardı. Hər səhər hürə-hürə mənə tərəf qaçır, rahat getməyimə imkan vermirdilər. Qarovulda duran əsgərlərin itlərə təpinməməsi mənə pis təsir edirdi. Bir-iki dəfə iradımı bildirsəm də, xeyri olmamışdı.

Bir gün Orucovu çağırdım, dedim, gecə təlimi keçəcəyik, bu da koordinatlar. Burda qarovul var, burda itlər, qarovulçunu əsir almalı, itləri tutub gətirməlisiniz. Tapşırığı verdim və axşam evə gəldim. Səhər qalxanda gördüm, hər tərəf sakitlikdir. Maddi-texniki təchizat bölüyünün komandiri bizim bölüyün həyətində gileylənə-gileylənə vurnuxurdu:

"Cənab kapitan, Orucovu görürsünüz? Gecə qaraja basqın edib, qarovuldakı əsgərləri də, itləri də aparıb."

*Komandir*

İnanmayacaqsınız, gecə təlimində Əsgər Rəfiyev ağlagəlməz qəhrəmanlıq göstərdi. Sən demə, itlərdən qorxmurmuş və onları ovsunlamağın yolunu bilirmiş. Beş-altı itin hamısını o tutdu. Qarovuldakı əsgərləri isə Qırğı ilə Səfərov götürdülər. Heç cınqırlarını çıxarmağa imkan vermədilər.

Gecə təlimindən sonra Gizir Səfərovun Əsgər Rəfiyevlə amansız zarafatları yenidən alovlandı. O, məni yanlayıb fınxıra-fınxıra deyirdi:

"Komandir, nə olur-olsun, gecə təlimlərində bir namərdlik var. Pis başa düşməyin e, tam namərdlik olmasa da, onun məşqi kimi bir şeydir. Şəxsən mən qarovuldakı o gədələri tutanda xeyli utandım. Öz elədiyim özümə qəribə gəldi. Qırğıda da beləydi. Amma Əsgər İrəfiyev elə hücuma keçirdi, Allaha and olsun, erməniyə o cür hücum eləməz! Bunun mahiyyətində bir satqınlıq var e!"

Gülürdüm:

"Nə vermisən Rəfiyevə, ala bilmirsən?"

Gizir Səfərov:

"Mən ona deyəcəm, qərargahda yeni kəşfiyyat planı hazırlanıb, it tutmaq bacarığını nəzərə alaraq səni Dəmirçidamdakı bölüyə göndərəcəklər, gedib ordakı itləri tutacaqsan, rahat kəşfiyyat əməliyyatı keçirəcəyik. Sizdən çox xahiş edirəm, sözümün yalanını çıxarmayın."

"Səfərov, sən gəl bu fırıldaq işlərinə məni qarışdırma."

"Sizdən soruşsa, heç nə deməyin. Söhbəti yayındırın."

"Edə bilmərəm. Məndən soruşsa, belə bir planın ol-

madığını deyəcəm."
"Yaxşı, onun da əlacını taparam. Elə edərəm, yaxınlaşıb sizdən heç nə soruşmaz."
"Necə edəcəksən?"
"Deyəcəm, əməliyyat tam məxfidir. Heç kimə heç nə demə! Bilsələr, dərimizi soyarlar." - bic-bic güldü.

Səfərovun başçılıq etdiyi "köhnə əsgərlər" təkcə belə əyləncələrlə məşğul olmur, bölükdə nizam-intizam yaratmağa da mane olurdular. Gecələrin birində Əsgər Mazanovu, yəni bizim Ağsaqqalı qarovulda yatan yerdə tutdum. Saat 4 radələri, yuxunun ən şirin vaxtıydı. Qalxıb ikinci mərtəbədən boylandım. Qarovuldan hənirti gəlmirdi. Aşağı düşüb bölüyün həyətini dolaşdım, heç kim yox idi. Qarovulda Mazanovun olduğunu bilirdim. Bölük növbətçisini yoxladım, o da yatmışdı. Kazarmaya gəldim, Ağsaqqal əlində avtomat öz yerində dirsəklənib şirin-şirin yatırdı. Avtomatını dartıb almaq istəyəndə oyandı, silahı bərk-bərk özünə sıxdı, gözlərini açmağa macal vermədim, əl fənərini yandırıb üzünə tutdum. Silahı bərkdən dartdım, dalınca özü gəldi, buraxmadı.

"Komandir! Silahımı almayın!" - belə bir hərəkəti yalnız məndən gözlədiyi üçün tanıdı. Doğrudur, bura ön xətt deyildi, ancaq yenə də qarovulda yatmağı Mazanova yaraşdırmırdım.

Çölə çıxdıq, gözlərini qıyıb üzümə baxdı:
"Komandir, xahiş edirəm, mənə görə uşaqları incitməyin. Səhvimi başa düşürəm. Nə cəza verirsinizsə, özümə verin."

O, hamıya "Qalx" komandası verib onu bölük qarşısında biabır edəcəyimdən çəkinirdi. Doğrudur, bu cəzaya layiq idi, ancaq mən Ağsaqqala qarşı belə bir hərəkət etməzdim.

Bölük növbətçisi ilə birlikdə iki gün əlavə qarovulda durmaq cəzası verdim ona, məmnuniyyətlə razılaşdı. Üstündən üç-dörd gün keçmiş "köhnə əsgərlər"i bölüyün yeməkxanasında içki içərkən tutdum. Məclisə Gizir Səfərov başçılıq edirdi. Mənim yatdığımı düşünürdülər. Amma budur, qəfil içəri girmişdim. Ağsaqqal özünü yenə təmkinli apardı:

"Komandir, ad günümü qeyd edirik."

"Mazanov, mən təksə sənin yox, bölükdə olan hər kəsin doğum tarixini bilirəm, niyə yalan danışırsan?"

"Ad günümə az qalıb, onda cibimdə pul olacaq-olmayacaq, bilmirəm, indidən dostları başıma yığmışam."

Gözümü gəzdirib kəşfiyyat taqımını bütün briqadada tanıdan bu əzabkeş insanlara diqqətlə baxanda ürəyim kövrəldi, özümdən asılı olmadan ağzımdan bu sözlər çıxdı:

"Elədisə, mənə niyə deməmisiniz?"

Məclisdən sevinc nidaları yüksəldi. Ancaq onlarla çox oturmadım. Çıxıb bölüyün həyətini gəzməyə başladım.

Gizir Səfərovla Əsgər Mazanovun tərxis olunma əmri çıxanda birinci mərtəbədə banket təşkil elədik. Səfərov əməlli-başlı kövrəlmişdi.

Doğrudan da yorulmuşdum. Gör neçə il idi, səngərlərdəydim. Taa 91-ci ildən. Beş ildən artıq eləyirdi. Bəs idi. Evə qayıdıb bir iş tapmaq, ailə qurmaq, oğul-uşaq sahibi olub, sadə insanlara qarışmaq istəyirdim.

Canavar yalının üstündə burnuma, qulağıma su dolduğu üçün hələ də "tın-tın" danışırdım. Komandirin təşkil elədiyi yolasalma məclisində çıxış eləyəndə dedim, "tın-tın" adamdan kəşfiyyatçı olmaz! Mən artıq burnunda danışan qoca bir kişiyəm! Haqqınızı halal edin. Bir balaca gözlərim də doldu! Çıxışımı bu pafoslu sözlərlə bitirdim:

"Yadınızdadır, mən sizə deyirdim, vaxt gələcək, Orucov Murovun ən böyük zabitlərindən olacaq. Gördünüz? Üstündən bir il keçməyib, haqqında əfsanələr dolaşır. Mən şadam ki, bu ulu dağları belə igid kəşfiyyatçıya, ləyaqətli zabitə əmanət edib gedirəm!"

"Yaxşı görək!" - komandir bir az utandı, deyəsən.

"Səmimi danışıram! Burda xidmətdə qalsam, düşünərsiniz ki, bu sözləri nəyinsə xatirinə deyirəm. İnanın mənə, heç bir təmənna güdmürəm! Komandir, siz böyük adamsınız! Bundan da böyük olacaqsız! Allah sizə də, burda qalan dostlara da, hətta Əsgər İrəfiyevə də kömək olsun!"

Gülüşmə düşdü.

*Komandir*

İçib keflənən kimi kəşfiyyat taqımının son əməliyyatını müzakirə etməyə başladılar. Mən də bir küncə çəkilib sakitcə qulaq asırdım. Ağız deyəni qulaq eşitmirdi. Kimin nə söylədiyini çətinliklə müəyyən etmək olurdu. Elə sözlərə şaqqanaq çəkib gülürdülər ki, məəttəl qalırdım. Kefliliyin sirri səbəb olmadan sevinə bilməkdir.

İçki Əsgər Rəfiyevin dilini açmışdı:

"Gizir Səfərov, sən Erkək olduğunu sübut elədin. Sənin sağlığına!" - əlindəki qədəhi havaya qaldırdı.

"Sən nə bilirsən erkəklik nədir? Hahaha!" - Səfərov ona sataşdı.

"Niyə bilmirəm? Bilməsəm, Marala da Erkək deyərəm!"

Bu dəfə Maral qızışdı:

"Nə olub mənə, quşbeyin?! Səfərova yaltaqlıq eləmə!"

"Girən özünsən! Quş da özünsən!"

"Quş demədim. Quşbeyin dedim!"

"Ayıbdı, a kişi, komandir oturub!" - Ağsaqqal yenə öz ampluasındaydı. Mənsə taqım əsgərlərinin bu an məni tamamilə unudub sərbəst olmasını istəyirdim. Bu, onların vida məclisinə hədiyyəm idi.

"Erkək, Erkək deyirik, komandir Dəmirçidama gedəndə dili batmışdı qorxudan!" - Qırğı söz atdı.

"Dilim batmamışdı e... ürəyim dözmürdü. Komandirə görə narahat olurdum." - Səfərovun cavabı tutarlı deyildi.

"Bəsdi, ə, bəsdi, ə, yaltaqlanma!" - Sağ ol, Rəfiyev!

"Səfərov, boynuna al, sən kəşfiyyatçı deyilsən. "Boyeviksən". Səni kəşfiyyata gücünə və ürəyinə görə aparırlar" - Qırğının səsi yenə eşidildi.

“Bəs sənin nəyin var? Nə ürəyin var, nə gücün!”
“Gücüm də var, ürəyim də, üstəlik, kəşfiyyatçı bacarığım da!”
“Nədir o kəşfiyyatçı bacarığın?”
“Təmas xəttindən o üzdə səhv buraxmamaq!”
“Sənsən səhv buraxmayan? Komandir deyir, yuxarı get, sən dala qayıdırsan!”
“Barı sən danışma də!”
“Mənə qulaq assaydınız, Dəmirçidamdan əliboş qayıtmazdınız!” - Rəfiyev bir dəfə hıçqırıb diqqəti öz üzərinə çəkdi.
“Doğrudan?” - Səfərov çönüb təəccüblə ona baxdı.
“Komandirə də dedim, dedim, gəl məni eşit, “çast”ın üstündəki yamacda mal otaran naxırçını götürək, gedək.” - mənə elə söz deməmişdi.
“A kişi, komandirə yox e, mənə dedin! Hahaha!” - yalançının şahidi Ağsaqqal idi.
“Olsun sən! Nə fərqi var?” - Rəfiyevin gözləri əyilmişdi.
“Axı çoban çox aralıda idi. Onu gələn kimi hamımız görmüşdük. Dəmirçidamdan ora azı iki saatlıq yol vardı.”
“Yuxarıdan kəsə getmək olardı” - Rəfiyev yenə hıçqırdı.
“Olmazdı. Oraları məndən yaxşı tanıyırsan?” - Ağsaqqal da keflənmişdi.
“Bəli!!!” - Rəfiyev gözlənilmədən ayağa qalxıb qışqırdı - “Bəli! Səndən yaxşı tanıyıram! Kəlbəcərlisən deyə heç kim oraları sənin kimi tanımır?”
“Əlbəttə. Kim adamın rayonunu özündən yaxşı tanıyar?”
“Ərazini kəşfiyyatçı kimi tanımaq başqa şeydir!” -

Rəfiyev tamam ciddiləşmişdi - “Siz neyləmisiz orda? Bütün günü malın qabağında eşşək hərləmisiz!”

Gülüşmə.

“Dəmirçidamda əsir düşsək, nə edərdiniz? Hamınız deyin, axırda mən deyəcəm. Buyur, Qırğı. Birinci sən de.” - Səfərovdan gözlənilməz təklif gəldi.

“Ehtiyat gülləm olur həmişə. Gicgahıma sıxmaq üçün.”

“Mazanov!”

“Ürəyimdən atardım. Yoxlamışam. Avtomatın lüləsini ürəyimin üstünə qoyanda baş barmağım tətiyinə çatır. Qollarım uzundur.”

“Meymun kimi! Həhəhə!” - Rəfiyev güldü.

“Rəfiyev, şitlik eləmə! Səni qovacam məclisdən!” - Səfərov onu susdurdu. - “Hüseynov, sən?”

“Fərqli planlarım olur. Gah güllə, gah qumbara. Baxır ovqatıma.”

“Rəfiyev!”

Rəfiyev tutuldu. Deyəsən, onun intihar ssenarisi yox idi.

“Burda da maymaqsan e! Hamı öldü, sən qaldın!” - Səfərov hırıldadı.

“Bəs sən özün?” - Qırğı parıldayan gözlərini Səfərov-un üzünə dikdi.

“Mən sizi əziyyətə salmazdım. Hamınızı plan qurmaq adı ilə bir yerə toplayıb partladacaqdım.”

“Namərddd!” - Mazanovu qəfil ağlamaq tutdu. Nə qədər çalışdılar, kiridə bilmədilər. Gizir Səfərov başını biləyinin, biləyini masanın tininə qoyub için-için ağla-yan Ağsaqqala baxıb irişdi:

“Şair ruhlu adamdı, qoyun ağlasın, ürəyini boşaltsın!”

“Səfərov, zəmidə “Qaz 53”-ün üstünə qaçanda, elə

bildim, saman oğurlamağa gedirsən." - Qırğı gülə-gülə dilləndi. Onun da dərdi Səfərov idi. Qısqanırdı.

"Qorxma, bizi elə oğru hesab eləmişdilər."

"Kim?"

"Eşitmədin? Yolda Qarik dedi."

"Oğrusunuz də! Ha adam oğurlamaq, ha saman, nə fərqi var?!" - Rəfiyev dedi.

"Deyəsən, əməliyyata getməməyin acığını çıxırsan a, Rəfiyev!"

"Sənə sübut edərəm ki, oğrusunuz? Sübut edərəm!"

"Ə, səyləmə, otur aşağı!" - Səfərov təpindi ona. İncəvara oturub sakitləşdi.

"Özümdən qoçağını görmədim dəəə!"

Qırğının arxaya söykənib vaysınması Səfərovu hiddətləndirdi:

"Gərək vaxtında Rəfiyev kimi "çurban" eləyəydim səni. Təzə gələndə az qalırdı mənə "əmi" deyəsən."

Bir də gülüşmə. Rəfiyev nəsə dedi, səs-küydə eşidilmədi. Bir də hıçqırıb udqundu. Qırğının səsi bütün səsləri batırdı:

"Səfərov, goplama! Burda hamını birinci gündən tanımışıq."

"Ayə, qırışmal, sən mənim birinci günümü harda görmüsən? Mən Zəngilanda kəşfiyyata gedəndə sən yerini isladırdın."

"Nə dəxli var? Ona qalsa, Karta Sabir hamıdan yaşlıdır!"

"Karta Sabirin keçəlindəki xəritəni kim görüb?" - Rəfiyevin cır səsi məclisin ab-havasını dəyişdi.

"Mən görmüşəm! Mən görmüşəm!" - Ağsaqqal nədənsə şagird kimi əlini qaldırıb yellədərək söylədi. - "Hindistanın xəritəsinə oxşuyur!"

Daha bir gülüşmə.
“Uşaqlar, hiss elədiniz erməniləri tutanda Qırğı necə kövrəlmişdi? Ondan olsa, üçünü də buraxardıq.” - Səfərov idi.
“Üçünü də yox, uşağı məmnuniyyətlə buraxardım!”
“Daş təpənə! Onlar nə qədər uşaq öldürdülər. Biz neylədik ki? Heç bir şillə də vurmadıq.”
“Necə vurmadıq? Sahədə ağzını-burnunu dağıtmadın?”
“Ay danabaş, onda bilmirdim kimdir. Gözümə saqqallı kimi göründü.”
“Qorxudan?!”
“Qorxuludur də! Niyə yalan deyim? Düşmən maşınının içində adam var və sən ona hücum edirsən. Silahını çəkib səni şadaraya döndərə bilməz? Guya sən qorxmurdun?”
“Bir qram da!”
“Yalan deyirsən!”
“Allaha and olsun, qorxmurdum.”
“Qırğı, özünü qartal kimi aparma! Orda qorxmayan bircə nəfər vardı.” - Səfərov barmağını yuxarı qaldırıb “tın-tın”ladı.
“Kim? Sən? Sən idin o qartal?” - Qırğı istehzayla qımışdı.
“Mən ayıyam! Qartal Orucovdur!”
Məclisə bir anlıq sükut çökdü, təzədən hamının yadına düşmüşdüm.
“Komandirin sağlığına! Sağ ol, komandir, sən olmasan, kəşfiyyat bölüyü heç nədir!”
Yerimdə qurcalandım. Zarafatların növbəti ünvanına çevrilməmiş məclisi tərk elədim.

*Kapitan Rəşidov*

Tərxis olunan əsgərlərin yerini doldurmaq haqda düşünürdüm. Gizir Səfərov da, Əsgər Mazanov da əvəzsiz kəşfiyyatçılar idi. Düzdür, "ustav" bilmirdilər, ancaq onlarda olan cəsarət, qorxmazlıq, qoçaqlıq təzələrdə yox idi. Gözüm hər yerdə kəşfiyyatçı axtarırdı. Orucov da bu işin ustasıydı. Əsgəri yerişindən, duruşundan, baxışından tanıyırdı. Bəzən elə adama etimad göstərirdi, heç cür inanmaq olmurdu, lakin az keçməmiş qənaəti doğru çıxırdı. Kəşfiyyat bölüyünə əsgər axtarmağı ona da tapşırmışdım. Yeni gələnlər bizi qane etmirdi. Qərargahı, hərbi yığıncaqları, yeni çağırışçılar yığışan məntəqəni, poliqonu itiyi itən adamlar kimi hərlənirdik.

Kəşfiyyatçı bədəncə qıvraq, səliqə-sahmanlı, ürəkli, səbirli, ağıllı olmalı, çox az zamanda qərar verməyi bacarmalıdır. Üstəlik, aclığa, yorğunluğa davam gətirməli, otla, meyvəylə qidalanmağın çəmini tapmalıdır. Bəzən Kiçik leytenant Orucov bölüyün yeni gələn əsgərlərinə əmr edirdi: "Bu gün yemək yoxdur! Dağılışın meşəyə, özünüzə yemək tapın!" Və ən maraqlısı, özü də əsgərlərlə gedirdi. Daha bəzi zabitlər kimi, yeməkxanaya qayıtmırdı.

Bir də piyada hərəkət etməyi çox sevirdi. Bu, kəşfiyyatçı üçün vacib keyfiyyət idi. Kəşfiyyatçı adi insanlardan iki-üç dəfə sürətlə yeriməyi bacarmalıydı.

Orucov hər mənada örnək bir zabit idi. Onda kəşfiyyatçıya xas bütün keyfiyyətlər vardı. Daşların üstüylə kəklik kimi səkir, uzaqdan qartal baxışıyla baxır, hücum lazım olanda aslana dönürdü. Ən böyük möcüzəsi isə bu idi: görünməz ola bilirdi! Sizi əmin edirəm, o, istənilən evə, istənilən kazarmaya, istənilən hərbi hissəyə çox ra-

hatlıqla girə bilərdi. Buna girmək yox, sızmaq, axmaq demək daha dəqiq olardı. Çox zaman adi həyatın içində gözlənilmədən hardasa peyda olurdu. Yaxud yanından elə gedirdi, hiss eləmirdin. Sanki buxarlanırdı.

O, ətrafda nə varsa, hamısıyla ünsiyyətə girməyi bacarırdı. Bəzən ən vacib xəbəri ağaclardan, quşlardan, ayaq altında qalıb sınan quru bir çöpdən ala bilirdi. Su bulanmağıyla onun üçün böyük hərbi sirr açardı. Quşlar uçuşuyla və səsiylə düşmənin hücumunu xəbər verərdi.

Görmə bucağı və gördüklərini ağlının süzgəcindən keçirib nəticə çıxarmaq bacarığı fenomenal idi. Tutaq ki, Səfərovla eyni istiqamətə baxırlar. Səfərov baxdığı bucaqda on detal görürdüsə, Orucov yüzünü görürdü.

O, yox ola bilirdi və özü ilə birlikdə qrupu da yox edirdi. Kəşfiyyat zamanı maskalanmağı hamı bacarır, bununku başqa iş idi.

Belə bir zabit özünə bab əsgəri hardan tapaydı?

Hər yana soraq salmışdıq, xəbər çıxmırdı, görünür, kimi axtardığımızı anlayırdılar.

### *Komandir*

Seyfəli poliqonunda çadırların qarşısında dayanıb zabitlərlə söhbət edirdim. Deyəsən, Gizir Səfərov haqlı idi. Böyük Mərzə əməliyyatından sonra adım-sanım hər yana yayılmışdı. Qardaşım Zabilin Sumqayıtda haqqımda danışdığı əfsanə uşağın öz təxəyyülü deyilmiş. Peşəkar hərbçilər də çox şeyi şişirdib danışırdılar. Lakin zəhmətimizi kiçildənlər də vardı. Guya atəşkəs olduğu üçün belə əməliyyatlar eşidənlərə maraqlı gəlirdi, halbuki əvvəllər çox olmuşdu. Mən bir söz demirdim. Kiminsə səhvini tutmaq ağlımın ucundan da keçmirdi. Olan olmuşdu və keçib getmişdi. Bugünümüz və sabahımız daha maraqlıydı.

Zabitlərlə danışa-danışa gözüm adam axtarırdı. Kəşfiyyat bölüyünə əsgər tapmalıydım. Elə bil, çadırların arasında köhnə tanışım vardı, görən kimi üzdən tanıyacaqdım. Əslində, elə bu cür idi. Kəşfiyyatçılıq bacarığı olan əsgəri yüz addımdan tanıyırdım və özümə çox yaxın hesab edirdim. Söhbətimiz də o saat tuturdu.

Tanrının kəşfiyyat üçün yaratdığı xüsusi adamlar var. Komandir onları yüzlərlə əsgərin içindən tapıb üzə çıxarmalıdır. Bəs necə? Hansı prinsiplərlə? Bu suala uzun-uzadı cavablar verə bilərəm, lakin ən əsası hissiyyatdır. Mən kəşfiyyatçını hiss edirəm. Bunun üçün gözlərinin içinə bir dəfə baxmağım kifayətdir.

Zabitlərin arasında həmyerlim Leytenant Poladovla rastlaşdım. Onun alov saçan gözlərini görəndə həm sevinir, həm də sıxılırdım. Ağdam alınanda üç igid qardaşını şəhid vermiş, Qurana əl basıb onların qanını alacağına and içmişdi.

Biz tərəflərdə ilk kəşfiyyat bölüyünü Poladov yarat-

mışdı. O qədər qəhrəmanlıqlar göstərmişdi ki, hərbi təhsili olmadan ona zabit rütbəsi vermişdilər.

Ağdamın ağır günlərində onun, qardaşlarının, ümumiyyətlə o doğma torpaqlar üçün canını sipər edən yüzlərlə igid oğlanın yanında olmadığım üçün xəcalət çəkirdim. Onda mən təhsil almaq üçün Bakıya getmişdim. Ağdamın alınacağı yuxuma da girməzdi. Yoxsa, yəqin ki, indi Poladovun üzünə şax baxa bilərdim. Ancaq o, deyəsən, belə düşünmürdü:

"Keçirdiyin əməliyyatları eşitdikcə ürəyim dağa dönür!"

Əlimi sıxıb məni qucaqladı:

"Səni Ergidə bir dəfə görmüşdüm. Amma Murovdakı igidliyini eşidəndə həmin adam olduğunu bilmirdim. Şəklini görəndə tanıdım." - gülümsündü.

Mən onu Ergidə gördüyümü xatırlaya bilmədim. Müharibədə belə şeylər olur. Kənardan köməyə gələn daha çox diqqət çəkir və yadda qalır.

Leytenant Poladov yenə Ağdamdaydı və özü yaratdığı kəşfiyyat bölüyünə komandirlik edirdi.

Dediyi xoş sözlərə görə minnətdarlığımı bildirib, susdum, deməyə başqa söz tapmadım. Onunla rastlaşmağım məni xeyli qüssələndirmiş, Ağdamla bağlı ən həzin xatirələri yadıma salmışdı.

"Məni burda gözlə" deyib aralandı, iki-üç dəqiqə keçməmiş balacaboy, dolu bədənli bir gizirlə geri qayıtdı. Gizirin gözlərinə baxanda məni ildırım vurdu. Bu, kəşfiyyatçı doğmalığı deyildi, nəsə başqa bir şey idi. Bu gözləri hardasa görmüşdüm və yaddaşımın dərinliyinə qazılmışdı. İndi qəfil rastlaşanda içimdə qumbara partladı elə bil.

"Tanıyırsan bu oğlanı?" - Poladov gülə-gülə mənə

baxdı. Sual məni lap çaşdırmışdı. Səs çıxarmadığımı görüb üzünü gizirə tutdu:

“Sən necə, xatırlamırsan bu adamı?”

Gizir mənə çox doğma gələn, hətta içimdə partlayış törədən gözlərini gözlərimə zilləyib susdu. İri, qara gözləri yaddaşımın ən qaranlıq künclərini işıqlandırırdı.

“Tanımadım!” - xorla cavab verdik.

“Orucovdur. Kəşfiyyatçı. Murov.”

Gizirin iri gözlərində işıq dolaşdı:

“Ooo! Murov qartalı! Tanışlığımıza şadam! Sizin haqqınızda çox eşitmişəm.”

Bu sözü ilk dəfə eşidirdim. Murov qartalı! Mənə bir az yüngül kimi gəldi. Dərhal Səfərovun məclisdəki sözlərini xatırladım. O da nəsə qırğıdan-qartaldan danışırdı.

“Daha yaxşı xatırla!” - Poladov gizirin qolunu buraxmamışdı hələ.

Gizir təəccüblə gah ona, gah mənə baxırdı.

“Siz görüşmüsüz! Yaxşı fikirləşin.” - Poladov bu dəfə ikimizə də müraciət etdi.

Yenə mat-mat bir-birimizin üzünə zilləndik. Birdən yaddaşımın dərinliyində gur işıq parladı və adamı tanıdım: Ergi düzündə atəş altından çıxardığım yaralı idi, üzünü qan örtdüyü üçün bircə gözləri yadımda qalmışdı.

Giziri tanıdım, ancaq özümü o yerə qoymadım. Gizirsə gözlərini qıyıb mənə baxdıqca baxırdı. Hardasa gördüyünə əmin idi, ancaq tapa bilməzdi. Çünki məni görəndə halı özündə deyildi.

Poladov dözmədi. Bir kəlmə “Ergi” söylədi. Gizir yenə yadına sala bilmədi. Yalnız bunları dedi:

“Həəə... Orda başımdan yaralanmışdım...”

“Səni ölümdən xilas edən bu oğlandır!”

Gizir ən doğma adamını tapmış kimi sevindi və boynuma sarıldı. Sonra çiyinlərimdən tutub özündən araladı və üzümə diqqətlə baxdı. Gülümsədi. Gözləri yaşardı. Nəsə demək istədi. Dodaqları titrədi. Heç nə deyə bilməyəcəyini görüb məni ikinci dəfə sinəsinə sıxanda onun çiyninin üstündən axtardığım əsgəri gördüm. Qarayanız, şüvərək, qayış kimi bir oğlan idi. İri addımlarla atəş təlimi keçirilən yerə gedirdi. Gözdən itəcəyindən qorxub gizirin əlindən çıxmağa çalışdım. O, ayrılmaq istədiyimi görüb məni buraxdı və təəccüblə Poladovun üzünə baxdı. Mən tələsik "Görüşərik" deyib aralandım.

Seyfəli poliqonunda zabitlər yığışan çadırın yanından keçirdim. Arxadan kimsə çiynimə toxundu. Geri dönəndə qarşımda mavi gözlü, sarışın bir zabit dayanmışdı. Filmlərdə gördüyüm alman zabitlərinə oxşayırdı. Ona hərbi salam verməkdən özümü saxlaya bilmədim. Salamımı aldı və dolğun, qətiyyətli səslə söylədi:

"Murovda xidmət etmək istəyərsən?"

"İstəyərəm" - dedim.

"Kəşfiyyatda..."

"Ən böyük arzum olub!"

Bu üç kəlməlik dialoqla ömrümün yeni, tamam fərqli səhifəsi açıldı. Qazaxdan Toğanaya dəyişilməyim uzun çəkmədi. Bir-iki ay hazırlıq keçəndən sonra ilk əməliyyata getdim. Eşidəndə ki, komandir də bizimlə gələcək, əməlli-başlı həyəcanlandım. Sən demə, komandirlər də kəşfiyyata gedirmiş.

***Komandir***

Əslində, əməliyyat sadə idi: Kəlbəcərin qızıl yataqlarını, Zod aşırımını müşahidə edib qayıdacaqdıq. Qızıl yataqları strateji əhəmiyyətli yer sayıldığı üçün biz ayda bir neçə dəfə bu əməliyyatı keçirirdik. Özüm əlavə tapşırıq götürdüm. Kəşfiyyat dəftərimdəki bütün qeydlərdə düşmən əsgərlərinin qızıl yataqlarına gəlmə vaxtı təxminən eyni idi. Onlar hər gün səhər saat 6-7 arası gəlirdilər. Müşahidəçilərin çoxu "Alabaş" avtobusları qarışıq salır, onları da qızıl mədənlərində işləyən fəhlələr hesab edirdilər. Mən avtobusu partlatmaq istəyirdim. Buna görə Kapitan Rəşidovdan briqadanın razılığını almasını xahiş etdim. Və təbii ki, özümüzlə götürməyə iki ədəd tank əleyhinə mina verəcəkdi.

Razılıq əldə olundu və "dozor" nəfərlərindən biri kimi Ləzgini - bizim Əsgər Şabanovu seçdim. O, mənimlə kəşfiyyat qrupunun önündə gedəcəkdi.

Maşınla Alaxançallıya getdik. Dəmirçidamdan qayıdarkən dincimizi aldığımız postdan axşam saatlarında çıxdıq, Səfərovun huşunu itirdiyi bulağın üstündən keçib, Rəfiyevin yıxılıb qaldığı yamacı aşağı sallandıq. Bizi atəşə tutan post mışıl-mışıl yatırdı və onlar yuxuda belə görməzdilər ki, bir az əvvəl burda mühasirədən güc-bəla ilə çıxan kəşfiyyatçılar yenidən eyni yolla qayıdırlar.

"101" nömrəli tuneldə səhəri qarşıladıq. Gündüz orda qalıb müşahidə apardıq. Ləzgi ona öyrətdiklərimi əla mənimsəmişdi. Minanı yerləşdirəcəyimiz yeri müəyyən edib geri qayıtdıq. Gecə saat 10-11 radələrində hərəkətə keçib əvvəldən müəyyən etdiyimiz kolluq və qumsallıqla yuxarı qalxdıq. Saat 3-də minaların ikisini də yola

yerləşdirib dərənin içinə qayıtdıq. Ancaq orda dayanmadıq, tunelə tərəf irəlilədik. Qarşıdakı qayalıqda maskalanıb gözlədik. Yol görünmürdü, partlayış olsa, səsini eşidəcəkdik. Mən Allaha yalvarırdım ki, "Alabaş"-dan əvvəl başqa maşın gəlməsin.

Partlayış dərəni başına götürən kimi saata baxdım: 06:13.

Dərindən nəfəs alıb torpağa daha çox sığındım.

## *Kapitan Rəşidov*

Qızıl dağlarındakı əməliyyatın belə tez və bu qədər uğurlu alınacağını gözləmirdim. Kiçik leytenant Orucov yenə xarüqə yaratmışdı.

Ermənilər hərbçilərin deyil, fəhlələri gətirən maşının minaya düşdüyü haqqında xəbər yaydılar. Özü də hadisə Kəlbəcər ərazisində deyil, Zod tərəfdə olubmuş. Yəni bizimkilər dövlət sərhədini pozaraq müharibədə guya iştirak etməyən Ermənistanın ərazisinə müdaxilə edib, dinc sakinləri öldürübmüşlər. Lakin biz kəşfiyyat məlumatlarına əsasən dəqiq bilirdik ki, fəhlələr ora saat 8-dən tez gəlmirlər. Hərbçilər onlardan əvvəl gəlib, yolu və qızıl mədənlərini qoruyan gözətçi məntəqələrini gecə növbəsindən təhvil alırlar.

Uğurlu Zod əməliyyatını bəhanə edib, çoxdan düşündüyüm arzumu, axır ki, həyata keçirdim; Orucovu özümlə Toğanada kirayə tutduğum evə apardım. Bütün əsgərlər kimi, Orucov da hərbi hissədə çətinlik görürdü. Onun Murova gələndən bəri doyunca yeyib-içib rahat bir yerdə dincəlmədiyinə adım kimi əmin idim. Əslində, bu çətinlik zabit heyətinə aid deyildi, onlar hamamlanmağa da, yeyib-içməyə də imkan tapırdılar. Orucovsa sıravi əsgər həyatı sürürdü. Onlarla birlikdə bölükdə yatır, yeməkxanada yemək yeyirdi. Səhra paltarını əynindən, batinkanı ayağından çıxarmırdı.

Dəvətimə etiraz elədi. Çox utancaq idi. Dedim, evdə söyləmişəm, sənin üçün süfrə hazırlayıblar. Əlacsız qalıb gəldi. Yolda ona evlənməyi məsləhət gördüm. Toğanada ev tutub qalar, daha rahat həyat sürərdi. Güldü. Bu barədə heç vaxt düşünmədiyini dedi.

Həyat yoldaşıma Orucov haqqında hər şeyi danış-

mışdım. Ona görə qonağımızı böyük həvəslə qarşıladı, yaxşı süfrə açdı, lakin bizimlə oturmadı. Nəsə lazım olanda içəri girib süfrəyə qoyur, tez də çıxıb o biri otağa gedirdi. O, bu qədər çəkingən qadın deyildi. Həmişə qonaq olanda bizimlə stolda oturur, söhbət edir, suallar verirdi. Bu dəfə nədənsə qonaq otağından qaçırdı. Bəlkə, ağrıyıb-eləyirdi. Axırıncı dəfə çay süzüb gedəndə Orucovdan üzr istəyib ardınca çıxdım, bizimlə bir yerdə oturmamağının səbəbini soruşdum, soyuq və ötkəm səslə dedi:

"O oğlanın gözlərindən qorxuram! Çox zəhmlidir."

# DÖRDÜNCÜ HİSSƏ

Qarşımdakı tilsimi qıran "Cəmilli əməliyyatı" Kapitan Rəşidovun sayəsində baş tutdu. Biz gedirdik, müşahidə edirdik, lazımlı məlumatlar əldə edib qayıdırdıq, hərdən yol, körpü, maşın partladırdıq, lakin bizə inanmayanlar vardı. Gərək əlində sübut olaydı! Ya girov, ya əşyayi-dəlil. Ləzgiylə getdiyim sonuncu əməliyyatdan polis "Niva"sının sirenini gətirmişdik. Hamı inandı! Əldə fakt vardı. İndi hərbi hissədəki tibb maşınının üstündədir. Hərdən vıyıltıyla sağa-sola keçəndə olub-bitənləri yadımıza salır.

Kiçik rütbəli zabitlər və əsgərlər kəşfiyyata əyləncə kimi baxırdılar. Düşmən arxasındakı hərbi hissənin yerini öyrən, xəritəsini çək, artilleriyanın yerləşmə nöqtəsini, istiqamətini müəyyənləşdir - onlar üçün maraqlı deyildi, nəinki adi bir əşya. Mən belə söhbətləri vecimə almırdım, lakin xidmət rəisi Kapitan Rəşidov alınırdı. Ona elə gəlirdi, zəhmətimiz hədər gedir.

Çox düşünüb-daşınandan sonra çıxış yolunu tapdı: "Cəmilli əməliyyatı"nı sübut kimi videokameraya çəkəcəkdik! Kameranı isə əsgərlərlə tez-tez görüşə gələn Kəlbəcərin icra başçısından istəyəcəkdik.

Əməliyyat planını hazırlamaq üçün rəisin yanına gedəndə "Sony" markalı videokameranı stolunun üstündə gördüm. Gözləri ilə işarə edib gülümsündü:

"Əvəzində kişiyə ordan vətən torpağı gətirərsən!"

Bu balaca kamerayla nə çəkəcəkdik? Dilini də bilmirdim. Rəis "Asandı, öyrədərəm" deyib əsas məsələyə keçdi.

Əks-kəşfiyyatdan aldığımız məlumata görə, Cəmilli kəndi ərazisində, Lev çayının sahilində hərbi hissə salınmışdı. Biz gedib bu məlumatı dəqiqləşdirməliydik. Çəkilişi də orda aparacaqdıq.

Rəis Karta Sabirin axşamdan hazırladığı əməliyyat xəritəsini stolun üstünə sərib necə hərəkət edəcəyimizi karandaşla göstərməyə başladı. Hər şey aydın idi, yalnız Lev çayının sol sahilindəki qara nöqtələrin mənası qaranlıq qalırdı. Barmağımı nöqtələrin üstünə qoyub rəisin üzünə baxdım:

"Bu nədir?"

Gözlərini qıydı:

"Heç nə! Karta Sabirin səliqəsizliyi!"

"Özbaşına niyə çəksin ki? Bəlkə nəsə bilir?"

"Sabir heç səhər nə yediyini bilmir."

Xəritəyə uzun-uzadı diqqətlə baxdı və "Tak" deyib dikəldi:

"Sən bölüyə qalx, uşaqları seç, mən Sabiri götürüb gəlirəm."

### *Kapitan Rəşidov*

Bölüyə gedəndə bütün hazırlıqlar görülmüşdü. Orucov seçdiyi uşaqların içərisində köhnələrdən Gizir Əsədov, Çavuş Rəfiyev, Çavuş Hüseynov və Əsgər Şabanov vardı. Məncə, qrup yaxşı seçilmişdi. Briqadanın kəşfiyyat xidmətinə tabe olan digər taqımlardan əsgər gətirməyə ehtiyac qalmırdı.

Kəşfiyyat qrupunun uşaqları ilə əməliyyatı bir daha müzakirə edib, tapşırıqlarımı verdim. Axırda Karta Sabirdən Lev çayının sahilində qoyduğu səliqəsiz nöqtələrin mənasını soruşdum. Aydın bir cavab vermədi. Əvəzində xəritəni ən incə detallarınacan gözdən keçirən kəşfiyyatçılara baxıb güldü:

"Elə baxırsınız, guya mükəmməl əməliyyat keçirəcəksiniz!"

"Duxun çatır, sən də gəl bizimlə, gözlərinlə gör!" - Qırğının fitilini çəkdilər elə bil.

"Mən kəşfiyyatçı deyiləm axı!" - Karta Sabir geri durmadı.

"Deyilsən, dilini farağat qoy!" - məntiqli cavab idi.

"Qırğı, sənə nə olub belə?" - Orucov söhbəti yumşaltmağa çalışdı.

"Komandir, görmürsünüz? Elə danışırlar, guya yuxarı postlardan baxıb qayıdırıq."

Orucov qımışdı:

"Sabir müəllim, düz deyir? Sən də bizim əməliyyata inanmırsan?"

"Sən yaxşı oğlansan. Sənə inanıram. Amma bu uşaqlara yox!" -  az qala çığırdı - "Hələ o "tın-tın" gədə var haaa, Səfərovdu, Səftərovdu-nədi? Erkək oğrusu!"

"Oğru deyil, insaf elə!"

“Oğrudan betərdi!”

Rəfiyev söhbətə qarışdı:

“Sabir müəllim, kolxozlar dağılır, kəndlərdə torpaq satıb kef eləyirlər, sən də o boyda işi-gücü qoyub gəlib burda boş-boş əməliyyat xəritələri çəkirsən.”

Karta Sabir əlindəki xətkeşi yuxarı qaldırdı:

“Mənim xətkeşim torpaq satmaq yox, torpaq almaq üçündür.”

“Xətkeşlə torpaq alırlar?” - Rəfiyev söylədi.

“Bə nəynən alırlar? Döyüşün taktikasını mənim kimi oğullar hazırlayır! Havayıdı bəyəm?”

Mübahisəyə son qoymaq üçün dilləndim:

“Uşaqlar, hazırlaşın, “Cabir postu”na mən də sizinlə qalxacam!”

### *Komandir*

"Cabir postu" haqqında Murovda kədərli bir əhvalat dolaşırdı. Deyilənə görə, Cabir adında komandir əsgərləriylə postdaymış. Əsgərlər çimmək üçün icazə istəyirlər, o da səhvən hamısını birdən yola salır. Komandirin tək qaldığını görən düşmən hücuma keçir. Cabir təkbaşına postu axıracan qoruyur, ağır yaralansa da, mövqeyini tərk etmir. Bizimkilər özlərini çatdırıb düşməni geri oturdanda Cabirin səngərdə həlak olduğunu görürlər.

Hər dəfə o posta qalxanda Cabirin düşdüyü vəziyyəti düşünür, düşmənin hardan, necə gəldiyini xəyalımda canlandırır, özümü, əsgərlərimi qəhrəman komandirin yerinə qoymağa çalışırdım. Oxşar vəziyyətə düşsək, biz də axıracan vuruşardıqmı? Vuruşardıq. Buna əminəm.

Dik, sıldırım qayanın və uçurumun üstündə yerləşən "Cabir postu"na iplə qalxırdılar. İpsiz getsən, ya iməkləməli, ya da sürünməliydin. Həm də çox ehtiyatla. Allah eləməmiş, əlin-ayağın üzüldü, dərənin dibinə yomalanardın.

Biz ön xətti "Cabir postu"ndan keçəcəkdik.

İp qarın-yağışın altında çürümüş, nazilmişdi. Hər an qırıla bilərdi. Əlimi atdıqca canıma vəlvələ düşürdü. Qırılsa, ölmək bir yana, şil-şikəst qalardın. Bir kəşfiyyatçının qayadan yıxılıb ölməsi, yaxud şikəst qalması adamın arına gəlirdi.

Postdakılara xəbərdarlıq elədim:

"İpiniz nazilib, üzülə bilər!"

Post komandiri:

"Əsgər göndərmişik, alacaqlar!"

"Əsgər niyə?"

“Komandir səhər düzülüşündə elan etdi ki, kim Bakıdan bizə yüz metr kəndir alıb gətirsə, ona bir həftəlik məzuniyyət verərəm. İki əsgər irəli çıxdı, iksini də yola saldı. Köməkləşib alacaqlar.”

Gülmək tutdu məni, “Maşallah”dan özgə deməyə söz tapmadım.

Səhər saat 5 radələrində ön xətti təmizləmək üçün çıxan iki sapyor təxminən bir saatdan sonra geri qayıtdı. Onlar minaaxtaran nizələr əllərində Kapitan Rəşidovun qarşısında fağır-fağır dayandılar:

"Ön xətt açıqdır, gedə bilərsiniz!"

Komandir taleyimizə qərar verən sapyorlara çarəsizcə baxdı və üzünü Kapitan Rəşidova tutub dedi:

"Rəis, indi biz bunlara inanaq?"

Kapitan qımışdı:

"İnanmaqdan başqa əlacımız yoxdur!"

Murovda kəşfiyyat getdikcə çətinləşirdi. Orucov gələndən sonra ard-arda bir neçə uğurlu əməliyyat keçirdiyimiz üçün düşmən bütün keçidləri təzədən minalamışdı. Hərəkət etmək təhlükəliydi.

İndiki əsgərlərə iki il əvvəl təmas xəttini sapyorsuz keçdiyimizi deyəndə, inanmırdılar. Bu, doğrudan da, inandırıcı deyildi. Yadıma düşdükcə özüm də şübhə edirdim və ovaxtkı cəsarətimə görə indi qorxurdum. Əslində, buna cəsarət də demək olmazdı. Bilmirdik. Anlamırdıq. İndi çox şey dəyişmişdi. Mən özüm kurs keçib gizir rütbəsinə qalxmışdım. Hüseynovla Rəfiyev də bir pillə irəliləyib çavuş olmuşdular.

Kəşfiyyata daha ciddi hazırlaşır, daha güclü qrupla gedirdik. Yeddi-səkkiz nəfərlik qrupun bir snayperi, bir sanitarı, bir rabitəçisi, bir pulemyotçusu, üç-dörd əsgəri vardı. Pulemyotu daşımağa iki əsgər ayrılırdı. Ərzağı da xeyli artırmışdılar. Türkiyədən lobyalı tuşonka, qatı süd gətirmişdilər. Düzdü, ard-arda yeyəndə bizi bezdirir, mədəmizi qıcqırdırdı, amma daha nə edəydik? Ac qalmaqdansa, bu yaxşıydı. "Pesok"lu suya yenə də sevimli içkimiz kimi baxırdıq.

Təkmilləşmə düşmən tərəfdə də gedirdi. Ayıq-sayıqlığı artırmışdılar. Təmas xəttini sağ-salamat keçmək işin əsas hissəsiydi. Komandir buna görə narahat olurdu. Arıq-çəlimsiz sapyorların öz işlərini dəqiq gördüyünə şübhə etsəm də, komandirin "dozor" çıxacağından qorxub özümü qabağa verdim.

## *Komandir*

Ömər və Güzgü zirvələrinin sağındakı yüksəklik düşmənin əlindəydi. Ondan arxaya bizim nəzarətimizdə olmayan daha bir zirvə vardı. "Cabir postu" ilə üz-üzə olan bu yüksəkliyə şərti olaraq Qamış yüksəkliyi deyirdik. Biz səhərə yaxın təmas xəttini "Cabir postu" ilə Qamış yüksəkliyinin arasından keçəcəkdik. Düşmənin ən zəif postu bura idi. Uzun-uzadı müşahidə aparıb vəziyyəti öyrənmişdik. Gecələr rahatca yatır, bəzən qarovul da qoymurdular.

Əməliyyat zamanı hər hansı hadisə baş versə Kapitan Rəşidovun rəhbərlik etdiyi qrup Qamış yüksəkliyini götürəcək, düşmən əsgərlərini əsir alacaqdı. O, bizə yalnız bu cür kömək edə bilərdi.

Hərəkətə başlamağa az qalmış Daşkəsən tərəfdə məşəl fırladılar. Canımı qara qayğılar aldı. Mən bir yana Kapitan Rəşidov da əməlli-başlı şübhəyə düşdü. Biz tərəfdən kiminsə düşmənə casusluq etməsi onu bərk qorxudurdu. Olmaya təmas xəttini keçəcəyimizi bu işarəylə xəbər verirdilər? Belə deyildisə, səhərə yaxın bu məşəli niyə yandırmışdılar? Üstəlik, nəsə deyirmiş kimi belə təkidlə fırladırdılar?

Gözləmək məcburiyyətində qaldıq. Qısa müşahidə və araşdırmadan sonra məşəlin bir parol, bir işarə olmadığına inanıb hərəkətə başladıq. Qırğı özünü qabağa verdi, etiraz eləmədim. Vəfalı Qırğı! Yenə gözünü yumub ölümün ağuşuna atılırdı.

*Qırğı*

Təmas xəttini bu nöqtədən ilk dəfə keçirdim. Canımda üşütmə vardı. Buz üstünə çıxan buzov kimi titrəyirdim. Əvvəla, nəinki düşmən, heç biz tərəfdə basdırılan minaların da yerini bilmirdik. 701-in vaxtından nə basdırılmışdı, hara basdırılmışdı, məlumat yox idi. İkincisi, düşmən öz tərəfində istehkamı möhkəmləndirmişdi. Aldığımız məlumata görə, onlar müasir və həssas piyada minaları əldə etmişdilər. Üçüncüsü və ən vacibi, bizim sapyorlara inanmırdım. Ayağımı hər atanda on dəfə dua, hər çəkəndə on dəfə şükür edirdim. Canlı hədəf idim. “Mişen”.

Sapyorların açdığı cığır tərtəmiz idi. Ön xətti sağ-salamat keçib dərə boyu Qonurdağa üz tutduq. Ağ çınqılı yenib dağa dikləşəndə yağış başladı, zirvəyə çatanda daha da gücləndi. Ağ yağış deyirdilər buna. Damcısı iri yağışlar adətən uzun-uzadı yağmır. Ağ yağış iri damcılarla gün ərzində fasilələrlə yağır, bəzən saatlarla şıdırğı tökür. Adamı vahimə basır. Elə bilirsən, dağları sel yuyub aparacaq. Hələ ildırım! Qulağının dibində çaxır. Biz çıxan zirvələrin başı buludu dəlib keçir. Demək, ildırım başımızın üstündə yox, qulağımızın dibindədir. İldırımı çəkməsin deyə rabitə qurğusunun daşını çıxartdıq.

Komandir videokameranın hayındaydı. Gah qoynuna salır, gah plaş-palatkanın altında gizləyir, gah da əlindəki sellofana bükürdü. Görünür, o da nəsə sübut eləməkdən ötrü çəkib-gətirmək həvəsindəydi. Yoxsa kameradır, islandı, tulla getsin. Əslinə qalsa, kəşfiyyatda çəkiliş aparmaq doğru deyil. Diqqətin dağılar, səhv buraxarsan. Şəxsən mən düşmən arxasında çəkiliş aparmağa ürək eləmərəm.

Səfərovun yeri görünürdü. O gedəndən Rəfiyevin dili açılmışdı. Özünü əməlli-başlı "dembl" kimi aparırdı. Bir az da Səfərovu yamsılayırdı. Yağışın bizi döyəcləyib toyuğa döndərdiyi vaxt bunun dişlərini şaqqıldada-şaqqıldada mənə verdiyi suala baxın:

"Cabir postu"nda "turba" tutan əsgəri gördün?"

"Gördüm."

"Dedim, bu nədi belə? Bilmədi."

"Özü deməyib. "Pezerka"dı. Tankı vurmaq üçündü."

"Cabir postu"na tank gəlir?"

"Tank olmasın, vertolyot olsun!"

"İçi boşdu ee... a kişi. Atmağa heç nəyi yoxdu. Dedim, yaxşı samovar trubası çıxar bundan."

"Ermənilərdə də vertolyot yoxdu, narahat olma."

Rəfiyev cavabımdan məmnun qalıb rahat-rahat titrədi.

Arada komandirlə də söhbət eləməyi özünə borc bilirdi:

"Komandir, həmişə deyirsiz, ayıq-sayıq olun, amma heç demirsiz ayıq nədi, sayıq nədi."

"Ayıq oyaq olmaqdı, sayıq gözüaçıq və diqqətli olmaq! Hər oyaq adam gözüaçıq və diqqətli olmur, Rəfiyev! Bəzən ayaq üstə də yatır adam."

"Anladım" - əllərini hindli rahiblər kimi sinəsində iç-içə qoyub qəddini azca əydi

Ləzgini yanlayıb oxuduğu mühazirə isə bambaşqa aləm idi:

"Biz olan zirvələr dəniz səviyyəsindən üç min metr yüksəklikdə qərar tutub. Qayalıqda, çınqılda, sərt uçurumlarda təkəmseyrək xırda otlar gözə dəysə də, çəmənlik xeyli aşağıdadır. Buna Alp çəmənliyi deyirlər." - dişlərini şaqqıldadıb əlavə edirdi - "Bütün hündür dağlar kimi, Murov da dörd qatdan ibarətdir: meşəlik, çəmənlik, çılpaq qayalıqlar, qar və buz lay-

ları. Biz qaya təbəqəsindəyik. Ordan Qonurdağa - Alp çəmənliyinə yenmişik. Bir az aşağıdan meşələr başlayacaq. Rahat gizlənəcəyik" - qəribə şəkildə hırıldadı. Burnunun ucundan süzülən su əyilib ağzına doldu. Bir anlıq onun dəli olduğunu düşündüm. Ləzgi ona qulaq asmırdı.

Nə qədər islansaq da, hər damcı bədənimizə güllə kimi dəyirdi. Soyuqlayıb qızdırmasaq yaxşıydı.

Qonurdağın başına günorta çatmışdıq. Çatan kimi komandir Kapitan Rəşidovla əlaqə saxlayıb dedi:

"Qarpız yeyirik!"

Bu, yəqin, dağın zirvəsinə çatmaq anlamına gəlirdi. Qarpızı dilimləməmiş ağ yağış daha da gücləndi. Axşamacan büzüşüb qaldıq, axşam hərəkətə başladıq. Yağış ara vermişdi. Amma bunun bizə heç bir xeyri olmadı. Üst-başımızdan su süzülürdü. Paltarlı-palazlı hovuza atılıb çıxmışa bənzəyirdik. Sinəmizəcən qalxan otlar başdan-başa suyun içindəydi. Yeridikcə yaşıl nəmişliyə qərq olurduq. Bədənimizin heç bir əzasını hiss eləmirdik. Bircə ayağımızda və dilimizdə istilik vardı. Düşmən hücum etsə, silahın tətiyini çəkə bilməzdik.

Bu dəfə hərəkət cədvəlini qarışdırmışdıq. Hava yağmurlu olduğu üçün gündüzlər də yol gedirdik. Buludun kölgəsiylə getmək olurdu. Bulud çəkilən kimi otların arasında gizlənirdik. Günəş düşən tərəfdən durub baxanda buludun kölgəsi durbinlə də aydın görünmür, buludlu yerdən gün düşən ver aydın görünür. Komandir dağ təbiətinin bu incə sirlərini yaxşı bilirdi.

İki sutka hərəkət edəndən sonra Lev çayını keçib Cəmilli meşəsinə yetişdik. Uşaqları rahat bir talada qoyub üçümüz ətrafı müşahidəyə çıxdıq: komandir, mən və Ləzgi.

### *Komandir*

Kamera məndə, snayper Qırğıda, durbin Ləzgidə... Biz Kəlbəcər tərəfki dağın yaxasından düşmən postları yerləşən Ömər aşırımına baxırdıq. Aramızdan axan Lev çayının səsi Xaçını xatırladırdı. Görəsən, Xaçınla hardasa qovuşurdular? Suları bir-birinə qarışırdı?

Dağlara qəribə mənzərə açılmışdı. Kəlbəcər üzdən Murov fərqli görünürdü. Zirvələr daha hamar, yamaclar daha tumarlı. Hər yerə təzə yollar çəkmişdilər. Bu yolları tələsmədən kameraya aldım. İrəli çıxanda artıq Cəmilli qərargahı görünürdü. Hərbi hissə köhnə ferma yerində salınmışdı. Aramız üç yüz-dörd yüz metr olardı. Bir az qabağa gedib kameranı işə saldım. Əsgərlər səhər düzülüşünə çıxmışdılar. Kamera uzaqdan yaxşı götürmürdü deyə bir az da yaxınlaşmaq lazım gəlirdi. Uşaqlara dayanıb maskalanmaq işarəsi verib özüm, təxminən, 80-90 addım irəli çıxdım, çəkiliş üçün yaxşı mövqe seçib kameranı işə saldım. Üstündə işıq yanırdı. Diqqət çəkə bilərdi. Ancaq daha bundan keçmişdi.

Əsgərlər Gizir Səfərovun “marşını” oxuyurdular: “Yes heros zinvor...”

Çəkiliş bitən kimi bir möcüzəyə şahid oldum; Karta Sabirin xəritədə təsadüfən nöqtə qoyduğu yerdə anlaşılmaz ləkələr görünürdü. Bura Levin o üzündə, Ömər aşırımının arxasındakı yastana idi. Uşaqların yanına dönüb durbini aldım və dörd dənə top gördüm. Karta Sabirin səhvən qoyduğu hər nöqtənin yerində bir top! Gözlərimə inanmadım. Həyəcanımı paylaşmadan uşaqlara yerindən tərpənməmək işarəsi verdim və durbini götürüb Lev çayının sahilinə getdim.

*Qırğı*

Çayın qırağında nə vardı? Ömər aşırımına tərəf nə görmüşdü? Ora getməyin təhlükəli olduğunu bilmirdimi? Komandir gedir, mən ondan gözümü çəkmirdim. Arada snayperin durbinindən də baxırdım. O, gözlərim baxa-baxa qeybə çəkildi. Elə bil, çəmənlikdə sağa-sola uçan kəpənək qəfil öz rəngində olan çiçəklərin üstünə qondu, qanadlarını açdı və görünməz oldu. Kəpənək gülün ləçəyindən qopmuşdu. Çəmənliyi o qədər sevirdi ki, Tanrı ona can vermişdi. Sağa-sola uçur, istədiyi yerə qonub gülün-çiçəyin bir parçasına dönürdü. Komandir də indi canından artıq sevdiyi vətən torpağının bir daşı, bir ağacı, bir otuydu. Bir azdan yenidən canlanacaq, yanımıza qayıdacaqdı.

Hərbi hissədə vur-çatlasın vardı. Qaçırdılar, idman edirdilər, qışqırırdılar. Səs-küyləri aləmi götürmüşdü. Elə bil, bir saatdan sonra qanlı döyüşə girəcəkdilər. Bunlar Dəmirçidamda gördüyümüz əsgərlərə bənzəmirdi. Həm çox idilər, həm də canlı. Lakin diqqətlə baxanda bu hay-küyün keçici, yalançı bir şey olduğunu aydınca hiss edirdin.

Komandir hərbi hissənin belə coşub-çağlayan vaxtı gedib onların içinə də düşə bilərdi. Avtomatının səsboğucusunu açıb mənə verəndə buna qəti şübhəm qalmadı. Gedərdi. Ondan nə desən çıxardı. Rusca da bilirdi, rusa da oxşayırdı. Gedərdi, lap ştaba girib hərbi sənədlər də götürərdi.

Yaş və soyuq otların üstünə uzanmışdıq. Tərpənə bilməzdik. Ətrafı müşahidə edə-edə komandirin yoxa çıxdığı yerdən gözümü çəkmirdim. Ləzgi də oraları marıtlamışdı. Arada necə udqundusa, boğazından xırçıl-

tı səsi gəldi. O da həyəcanlıydı. Pıçıldamaqdan özünü saxlaya bilmirdi:

"Bu, hara getdi?"

Hara gedəcəkdim? Ömər üzdəki topların markasını yazmaq istəyirdim. Yazdım da. İkisi özü hərəkət edən dördtəkərli top idi və bizim mövqeləri vurmaq üçün hazır dayanmışdı. Toplar yerləşən yerə yol təzə çəkilmişdi. Deməli, topları da təzə gətirmişdilər.

Bir neçə saat müşahidə aparıb Murovun Kəlbəcər yaxasına çəkilən bütün yeni yolları qeydə aldım və yavaş-yavaş geri qayıtdım.

Qırğı da, Ləzgi də gəlib onların yanına çatanacan harda olduğumu, necə qayıtdığımı görməmişdilər. Özüm öz işimdən razıydım. Əgər Qırğı kimi kəşfiyyatçı gözləri baxa-baxa məni itirib heç yerdə tapmamışdısa, düşmən heç cür görə bilməzdi.

Yanlarına çatıb səsimi çıxaranda diksindilər.

Və sevindilər.

Qırğı necə ah çəkdisə, ağacların yarpağı əsdi. Bu an başımızın üstündəki ildırımötürən vışkada it hürdü. Diksindim. İtin ipini tutmuş iki qara geyimli hərbçi dağın qənşərinə çıxıb yan-yörəni yoxladı. İt bizi görmüşdü, ancaq hərbçilər unamazdı. Bir az boylanıb geri qayıtdılar. Mən Kapitan Rəşidovla əlaqəyə girdim. Bu dəfə 7-ci dalğada rastlaşdıq və dedim:

"Qəşəng bayram süfrəsi açmışıq, bolluqdur. Ancaq bizi görürlər, süfrəni yığışdırmalıyıq. Yoxsa qonaq gələcək."

"Qərarı özün ver, mən bu işi sənə həvalə edirəm" - söylədi və əlaqəni kəsdi. Uzun danışmaq olmazdı.

Qırğı ilə Ləzgiyə meşəyə sürünüb mövqe tutmaq əmrini verdim. Biz durduğumuz yer açıqlıq idi. Çəkiliş üçün qabağa çıxmışdıq. Görünə bilərdik. Yaxud itlə ya-

nımıza yenərdilər. Özüm bir az qalıb açığa çıxıb-çıxmadığımızı yoxladım. Deyəsən, təhlükə fikirləşdiyim qədər ciddi deyildi.

Uşaqların yanına qayıdıb vəziyyəti qısaca izah elədim. Dedim, mühasirəyə düşsək, bir-bir çıxmağa çalışacağıq. Salamat çıxan Qonurdağın başına qayıtsın, orda görüşək.

Gündüz olsa da, geriyə hərəkət etmək əmrini verdim. Bu dəfə qabağa özüm düşdüm. Başqa heç kimə arxayın ola bilməzdim.

Qonurdağla üz-üzə ermənilərin boş qalmış postu vardı. Yardımçı post sayılırdı. Gələndə boş olduğunu müşahidə etmişdim. Buludların kölgəsi ilə həmin zirvəyə doğru hərəkət etdim. Günəş çıxanda otun altına soxulurdum. Torpağın nəmi və soyuğu ayağımdakı qəlpələrə nəğmə oxudurdu. Canıma düşən üşütmə də, ayaqlarımın sızıltısı da məni səbəbsiz yerə toxtadırdı.

Günortadan bir az əyiləndə posta çatdıq.

*Qırğı*

Yardımçı posta çıxmağımızın mənasını sonralar anladım. Əgər, doğrudan da, düşmən bizi görmüşdüsə, komandirin bu hərəkətindən sonra şübhələri qalmaz, bizi öz əsgərləri zənn edərdilər. Bura blindaj da sayılmazdı. Balaca idi. Kovuş demək daha doğru olardı. Hətta deşik, kalafa lap uyğun gəlirdi. Xəndəyin üstündəki kirli fənərdən miskinlik yağırdı. Hələ qatlanmış yorğan döşəyin hisi-pası. Avtomatın ucuyla araladım, bit qarışqa kimi qaynaşırdı. Ətrafa kirli paltarlar atılmışdı. Bəlkə, diqqətlə axtarsan, zibilliyin arasında əsgər meyiti də tapardın. Belə bir postun əsgəri heç vaxt yaxşı vuruşa bilməzdi. Orada təəssüf etdim, dedim, kaş bircə aylıq döyüş əmri verilə, gör buraları necə götürərik. Onda kəşfiyyat da asanlaşar.

Düşmən əsgərlərinin miskin həyatını hər detalıyla bəlli edən bu postda çox qalmadıq. Dağın uçurum yaxasıyla dərəyə endik. Bura dağın quzeyi idi. Gün tutmurdu. Və o qədər narahat idi ki, kiminsə burdan aşağı yenəcəyini təsəvvür eləmək olmazdı.

Dərəyə düşəndə qaranlıq qovuşurdu. Yardımçı postdan gündüz vaxtı yenməyimiz yaxşı oldu, gecə o uçurumlarda hərəkət edə bilməzdik.

Dərədəki çayın qırağında bir az dincimizi alıb yemək yedik. Yenə yağış yağdı. İki-bir, üç-bir daşların altına sığınıb gözlədik. Gecənin yarısı komandir bizi qaldırdı. Qonurdağa otların içiylə qalxdıq. Ot o qədər uzanmışdı ki, az qala bizi itirirdi.

Günəşi Qonurdağın başında qarşıladıq.

### *Komandir*

Ot adamdan hündür idi. Qantəpər çiçəkləri əl boyda açılmışdı. Yarpaqlarda muncuqlanan yağış damcıları günəşdə almaz kimi bərq vururdu. Otu yara-yara bulağın yanına çatdıq. Dağın başında nadir hallarda bulaq olur. Tanrı Qonurdağa belə bir hədiyyə eləmişdi. Bulağın üstündə ot daha da sıxlaşırdı. Bəlkə, yay uzunu bura heç kimin ayağı dəyməmişdi. Bulağın həndəvərində mövqe tutub dincəlirdik. Mürgüləyənlər də vardı. Birdən otluğun beş-altı yerdən dalğalandığını gördüm. Dalğa bizə tərəf axırdı. Mühasirəyə düşdüyümüzü düşündüm. Uşaqları cəmləyib "kalso" yaratdım. Çavuş Hüseynov - bizim Maral gözə dəymirdi. Otların arasında onu tapmaq vaxt aparacaqdı. Yəqin hardasa yatıb qalmışdı. İndi güllə səsinə oyanardı. Onun necə diksinəcəyini düşünüb gülümsədim. Təkcə otların tərpənişi deyil, xışıltısı da yaxınlaşmışdı. Silahları səsə tərəf çevirib həyəcanla gözlədiyimiz an Maral qışqıra-qışqıra bizə tərəf qaçdı. O, avtomatın qayışından yapışıb arxasınca sürüyürdü. Bizə yaxınlaşan dalğa onun səsindən ürküb sürətlə aralandı və otun seyrələn yerində bir dəstə maral göründü.

Maralın biri otlaya-otlaya Çavuş Hüseynovla burun-buruna gəlmiş, onu oyatmış, Hüseynov təşviş içində qışqıraraq bizə tərəf götürülmüşdü.

Rəfiyev ona baxıb ağzını əydi:

"Qorxaq!"

Qırğı lap dərinə getdi:

"Maral maraldan qorxdu!"

Gülüşmə düşdü.

Əslində, biz Qırğının zarafatına yox, təhlükənin sovuşmasına gülürdük.

*Kapitan Rəşidov*

"Cabir postu"nda səksəkə içində gözləyirdim. Mənə elə gəlirdi, kəşfiyyatçılar açığa çıxıblar. Ancaq qəlbimin dərinliyində Orucova inanırdım. İndiyəcən uğursuz əməliyyatı olmamışdı. Onun kitabına məğlubiyyət sözü yazılmamışdı. Gündüz geri qayıtmaq barədə özünün qərar verməsini də buna görə məsləhət gördüm. Əslində, mən əməliyyatın rəhbəri kimi onlara gizlənmək əmri verməliydim. Gündüz hərəkət eləmək olmazdı. İllah da hərbi hissənin yaxınlığında. Lakin Orucov qayıtmaq istəyirdisə, demək, nəsə bilirdi.

Üçüncü rabitə əlaqəsinə girəndə ürəyim toxtadı: "Qarpız bostanındayıq, gəlirik". Demək, Qonurdağı aşmışdılar. Böyük təhlükə adlamışdı. Bir var hərbi hissənin mühasirəsinə düşsünlər, bir var Murovdakı postların. Məsafə yaxın, düşmən sayca az olduğu üçün postlarla baş eləmək daha asan idi. Hücuma keçib mühasirəni yarmaq olardı.

Kəşfiyyatçıları Ağ çınqılın dik yoxuşu gözləyirdi. Bundan sonra "Cabir postu" ilə Qamış yüksəkliyinin arasındakı dərəyə çıxacaqdılar. Gecə dəhşətli yağış başladı. Qamış yüksəkliyinin o üzünə daha çox yağır, tez-tez şimşək çaxırdı. Gözümü uşaqlar olan səmtdəki qaranlıq səmadan çəkə bilmir, ürəyimdə dua edirdim.

*Komandir*

Yağış bizi Ağ çınqıl yoxuşuna dikələndə tutdu. Uşaqların biri sürüşüb çaya düşdü. Maral olmasa, bilməyəcəkdik bəlkə. “Kimsə yıxıldı” - dedi. Bu vaxt əsgər başını çıxarıb bir dəfə çığırmağa imkan tapdı. Qırğı ilə özümüzü yetirib avtomatı uzatdıq, yapışdı, dartıb çıxartdıq. Silahı suda qalmışdı. Qırğı özünü selə vurdu, suyun altına girib nə qədər axtardısa, tapmadı. Maral suya atılıb silahı çıxartdı. O, əsgər selə yıxılan yeri yadında saxlamışdı.

Şıdırğı yağışın qara məhlula çevirdiyi qatı qaranlığı yara-yara üzüyuxarı addımladıqca xırda çınqıl ayağımızın altında aşağı axırdı. Nə qədər gedirdik, çaydan aralanmırdıq. Selin qıjıltısı bütün səsləri batırırdı. Çınqılla birlikdə axıb çaya düşsək, salamat qurtara bilməzdik. Uşaqlar fərqində deyildilər: sel bizi aparırdı. Kəşfiyyatda olduğumu unudub qışqırdım:

“Bir-birinizin avtomatından yapışın!”

Uşaqlar bir-birinə tutundular və biz ağır-ağır addımlamağa başladıq.

“Tədricən sola!” - hansı tərəfə daha tez dikləşə biləcəyimizi təxmin edirdim. Sola hərəkət etdikcə sel sanki xəfifləyirdi. Dik yoxuş burnumuza dirənmişdi. Qaranlıq hər yanı elə bürümüşdü ki, bura nə vaxtsa günəş işığı düşəcəyinə heç kim inanmazdı. İndi şimşəyin çaxması üçün dua edirdim. Çünki yalnız onda ətrafı bir anlıq görür, uşaqları saymağa çalışırdım. Şimşəyin çaxması həm də bu dünyada işığın tamam itmədiyinə bir işarə kimi içimdə ümid qığılcımı yandırırdı. Başımızdan, elə bil, vedrəylə su tökürdülər. Kameranı islanmasın deyə sellofana büküb zabit çantasına qoymuşdum:

“Hamınız burdasınızmı? Səsinizi çıxarın!”

Uşaqlar sırayla öz familiyalarını söylədilər: “Əsədov, Rəfiyev, Şabanov...”

Soyuqdan titrəsək də, bir-birimizdən yapışıb addımlayırdıq. Hərəkətsiz dayanmaq ölümə bərabər idi. Yuxarı qalxa bilməsək də, hər halda, çınqılla dərəyə də axmırdıq. Kimsə taqətdən düşüb yıxılarsa, aşağı sürüşməsin deyə sonuncu əmrim belə oldu:

“Silahların kəmərini bir-birinə keçirin!”

Sola gedirdik, ancaq dərə bitmirdi. Deyəsən, heç dərə yox idi burda, Ağ çınqılın hər tərəfi ilə sel axırdı. Ən doğrusu üzüyuxarı addımlamaqdır. Nə qədər çətin də olsa!

Gecənin qaranlığı ildırımötürəndəki əsgərlərin paltarının rəngindəyidi. Bu qaranlıq mənə qara pişiyi xatırlatdı. Arada çığırtı da eşitdim. Yağış onun səsiylə yağır, sel onun səsiylə axırdı. İçimdəki həyəcan da o lənətə gəlmiş pişik kimi çığırırdı. Qəfil yoxuşun başında gümüşü işığı gördüm. Göründü və çəkildi. Dizlərimə necə güc gəldisə, özümdən asılı olmadan qışqırdım:

“Qurtulduq!”

Söz ağzımdan çıxmamış bütün qrup üzvlərinə sirayət elədi və məni yoxuş yuxarı çəkdilər. Mən də son gücümü toplayıb bir bədənə çevrilən qrupu irəli dartmağa başladım. Özümüz özümüzə kotan kimi qoşulmuşduq və Ağ çınqılı şumlaya-şumlaya yoxuşun başına - gümüşü işığı gördüyüm yerə qalxırdıq.

Yoxuşun başında parlayan işığın görünməsiylə şimşəklər susdu, yağış yavaşıdı, çaylağın altından axan sel zəiflədi. Ayağımız yer tutdu. Mən gümüşü işığın sayəsində həm də hansı istiqamətə gedəcəyimizi müəyyən etdim.

Bir azdan Murov dağları başa-baş gümüşü işığa bələndi: səhər açılırdı!

Lap düşmənin ortasıyla addımlasam da heç nədən qorxmurdum.

Dördüncü rabitə əlaqəsi vaxtı Orucovu başa düşmədim. Dedi, Qamış yüksəkliyinə doğru dərənin içiylə gəlirik? Gündüz vaxtı, dərənin içiylə? Heç olmasa, nəzərə çarpmayan yerlərdən bir-bir, iki-iki keçmək olmaz? Sizi görərlər axı. Cavab qısa oldu:

“Qələt eləyərlər!”

Və əlaqə kəsildi.

O, nəyə arxayın idi?

Durbini götürüb dərənin Kəlbəcər tərəfə aşan yerinə baxdım. Kəşfiyyatçıların silueti görünürdü.

Pulemyotçunu xəbərdar elədim:

“Güllə səsi eşidən kimi, nəfəs dərməyə imkan vermirsən! Qamış yüksəkliyindəki postu son patronacan atəşə tutursan. Həm də bir nöqtəni yox, səpələyərək. Hər tərəfini! Məqsəd kimisə vurmaq yox, başlarını çıxarıb atəş açmalarına mane olmaqdır. Dağınıq! Hər yana! Elə bil, xörəyə duz səpirsən!”

“Başa düşdüm, komandir!”

Piyadalara üzümü tutdum:

“Əmr verən kimi posta hücum edirik! Kim hansı cinahdan gedəcəyini bilirmi!”

“Bilirik!”

“Sual yoxdur?”

“Yoxdur!”

“Kəşfiyyatçılar dərəylə gəlir! Biz onları qorumalıyıq!”

Durbinlə baxırdım. Dəstənin qabağında gələn Orucov necə yorulmuşdusa, ləngər vura-vura yeriyirdi. Deyirdin, bu saat yıxılacaq. Onu görəndə gözlərim doldu. Dalınca gələnlərin vəziyyəti lap pis idi. Hətta heç bir

maneə olmasa belə, gəlib yanımıza çatacaqlarına inanmırdım.

Qamış postunda sakitlik idi. Tezdən ölüvay bir əsgər çıxıb ora-bura boylanıb blindaja qayıtmışdı.

Bizimkilər gəlirdi.

Düşmən susurdu.

Bu gərgin dəqiqənin hər biri bir il kimi gəlirdi mənə.

Aradan neçə il keçdi, bilmədim, bir də gördüm, Orucovu kəndirlə posta qaldırırıq.

*Komandir*

Çəkib gətirdiyim video mənə görə adi kadrlar idi, ancaq bütün briqadada səs-küy saldı və dediyim kimi, qarşımdakı bütün sədləri aşırdı. Bir neçə ayın içində kiçik leytenantdan kapitan rütbəsinə yüksəldim, kəşfiyyat bölüyünün komandiri oldum. Üstəlik, "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edildim. Ən vacibi, "101"-də hamam tikdirə bildim. Təkcə bizim bölüyün uşaqları deyil, digər əsgərlər də çimməyə gəlirdilər. Heç kimə yox demirdik. Bircə şərtlə - hərə öz odununu gətirsin! Təmiz əsgər görəndə özümdən asılı olmadan xoşbəxt olurdum.

Daha məni "Alay komandirinin oğlunu girov gətirən kəşfiyyatçı" kimi yox, "Ermənilərin "razvod"unu videoya çəkən zabit" kimi tanıyırdılar. Və bu söhbət girov söhbətindən çox yayılmışdı. Görünür, çəkiliş ilk hadisə olduğu üçün insanlarda daha böyük maraq yaratmışdı.

*Polkovnik Nəbiyev*

Kəşfiyyatçılarımızın çəkib gətirdiyi videomaterialın doğurduğu reaksiyanı görəndə Böyük Mərzə əməliyyatı vaxtı Kapitan Rəşidova dediyim sözləri xatırlatdım. Dedim, mən deyəndə ki, Orucovun qarşısını heç kim ala bilməyəcək, inanmırdın! Bu da sübut! Gec oldu-güc oldu! Rəşidov başını buladı:

"Cənab polkovnik, adam dörd il kiçik leytenant rütbəsində taqım komandiri işlədi. Bu qədər də olmazdı axı!"

Haqlı idi. Amma buna da şükür. Bəlkə, nəticə belə yubandığı üçün məni daha çox sevindirirdi. Buzlar əriməyə başlamışdı. "Cəmilli əməliyyatı"na heç kim ağız büzə bilməzdi. Göstərdiyi şücaət təkcə Orucovu deyil, bütün briqadamızı göylərə qaldırmışdı. Hər yerdə bizdən danışırdılar. Biz Ali Baş Komandanı ikinci də-fə təəccübləndirmişdik. O, videomaterialı izləyəndə heyrətini gizləyə bilməmiş, Orucovu ordenlə təltif etmək fikrini də özü söyləmişdi. Bu, hərbçi karyerası üçün mühüm hadisə idi.

Artıq Orucova heç kim mane ola bilməzdi.

Bu dəfə özümü saxlaya bilmədim, onu kabinetimə çağırıb alnından öpdüm.

***Komandir***

Desəm, güləcəksiniz, məni evləndirmək istəyirdilər. Bibim qonşuluğunda bir qız gözaltı eləmişdi. İş o qədər ciddiləşdi ki, qızı görmək üçün Sumqayıta gedəsi oldum. Deyəsən, bir az da öz içimdə maraq vardı. Bakı Dövlət Universitetini bitirmişdi. Texnikumda dərs keçirdi. Qıza görə Sumqayıta tez-tez gələcəkdim. Atam gəlişimə həm sevinir, həm də dodaqaltı qımışırdı. Onlar məni evə bağlamağın ən yaxşı yolunu tapmışdılar.

## *Sevinc*

Bəzənib-düzənib işə gedirdim. Bloka çıxanda ikinci mərtəbədə yaşayan Səltənət xala məni evinə çağırdı. Oğlu tələbəm idi. Bir az zəif oxuduğu üçün mənimlə tez-tez görüşür, oğlu barədə suallar verir, daha yaxşı hazırlaşması üçün dəftər-kitab alırdı. Çoxdan tanıyırdım onu. Hələ tələbəlik illərindən dostlaşmışdıq. Ancaq evlərində olmamışdım.

Qapıları yarıaçıq idi. Bir az aralayıb səslənmək istəyirdim ki, içəri otaqda qalın, yun papaq qoymuş gənc hərbçi gördüm. O, stol arxasında giriş qapısına tərəf oturmuşdu. Öz-özümə dedim, bu kimdir? Nə gündədir? Niyə isti otaqda papağını çıxarmır?

Səltənət xala qıvraq addımlarla qarşıma çıxdı. Səsinin tonu qəribə gəldi mənə. Bir az yüksəkdən danışırdı. Sanki içəridəki adama nəsə eşitdirirdi.

Qardaşı oğlunun müharibədə olduğunu bilirdim. Yəqin, bu, həmin oğlan idi. Yolüstü görüşüb hərbi hissəyə gedəcəkdi, vaxtı az olduğundan papağını çıxarmamışdı. Kim bilir, bəlkə bibisi onu zorla içəri dartmışdı. Səltənət xalanın qonaqpərvərliyi vardı. İndiyədək məni, bəlkə, min dəfə evinə dəvət eləmişdi. Atamdan çəkinməsəm, yəqin ki, gedərdim. Hər dəfə bu qadının ürəkdən dəvətlərini qəbul etmədiyim üçün utanırdım.

Zabit gözlərini qıyıb mənə necə baxdısa, sıxıldım. Səltənət xalanın rabitəsiz suallarına candərdi cavab verib, işə tələsdim.

Səltənət xalagildə gördüyüm zabit həm sevimli, həm də qorxunc gəlmişdi mənə. Onun qalın papağını yadıma salanda qımışır, baxışlarını xatırlayanda üşənirdim.

## *Komandir*

Hərbi hissəyə tələsirdim, Səltənət bibim daş atıb başını tutdu ki, bir az ayaq saxla, qızı sənə göstərəcəm. Oturub gözlədim. Qapının arasından qarayanız bir qız boylandı. Onu görən kimi anamı xatırladım. Gözlərində ağ işıq vardı. Tərəddüd etmədən razılığımı bildirdim. Bibim inanmadı. Sevindiyindən əli çalır, ayağı oynayırdı. Tez atamgili, o biri bibimi, qohumları muştuluqladı. Atamın gözləri yaşardı, Zabil sevindiyindən qışqırdı, bizdə qalan bibimisə ağlamaq tutdu.

## *Sevinc*

Hörmətli qonşum, məni, demək olar ki, hər gün, bəzən gündə bir neçə dəfə görən və hər dəfə də hal-xoş edən Səltənət xaladan məktub almışdım. Bu qədər rastlaşdığın insan sənə niyə məktub yazsın? Oxuyanda məsələdən hali oldum və evlərindəki papaqlı zabitin sirri açıldı. Hirsləndim. Məktubu cırıb atdım. Doğrudan da, gələn Səltənət xalanın qardaşı oğlu imiş. Və o, məni görməyə gəlibmiş!

Sən demə, Səltənət xalanın mənimlə mehriban davranmasının səbəbi bu imiş. Məktubun məni hirsləndirən yerində elçi gəlmələri üçün razılığımı istəyirdi. Dəli oldum! Sevimli qonşumun altdan-altdan iş görməsi hislərimə toxunmuşdu. Ən çox da xəbərim olmadan məni çağırıb zabit qardaşı oğluna göstərməsi yer eləmişdi mənə. Hələ gör nə yazırdı: "Sevindim ki, xoşuna gəlmisən!" Hirsimdən dəli bir gülmək gəldi mənə. Minnəti olsun! Hələ sən get ona isti otaqda papaq çıxarmağı öyrət, sonra evləndirərsən. Acığımı məktubdan çıxdım deyə ürəyim soyudu və məsələni şişirtdiyimi anladım.

*Komandir*

Gümüşü işığı itirmişdim. Ona görə imkan tapan kimi Sumqayıta o qızı görməyə gedirdim. Uzaqdan baxırdım. İzləyirdim. Qıza yaxınlaşmaq kəşfiyyata getməkdən çətinmiş. Utanırdım. Bir gün cəsarətimi toplayıb yaxınlaşdım. Həyəcandan az qaldım hərbi salam verəm. Yox-yox, özümü cəmlədim. Dedim, filankəsəm. Gözlərini süzdürüb baxdı. Bu, həm etiraz eləmək, həm də salamı almaq anlamına gəlirdi. Mən ikinci variantı qəbul edib irəli durdum. Gördüm, alınır. Amma nə deyəcəyimi bilmirdim. Başladım universitetdən, təhsildən, tələbəlikdən danışmağa. Söhbətimiz tutdu. Danışa-danışa məhəlləyəcən getdik. Ayrılanda gülümsündü. Dedi, indiyədək bu yolu piyada gəlməmişdim. Onun gülüşündən içimə bir işıq düşdü. Hiss elədim ki, axtardığım qadındır. Bu, sevgi deyildi. Mənim heç kimə bənzəməyən ömrümün əvvəldən yazılmış qaydalarından biriydi. Onunla evlənməliydim.

Elçilər əliboş qayıtdı.

Deyilənə görə, atası qəliz adam idi.

Mən hərbçi olduğum üçün tərəddüd etdiklərini düşünürdüm.

Özüm onunla açıq danışmışdım. Demişdim, razı olsan, evlənərik. Ancaq kim olduğumu bəri başdan nəzərə almalısan. Həyatımız hamı kimi olmayacaq. Sənə nəsə vəd verib, yanında yalançı çıxmaq istəmirəm. Dərindən düşün, götür-qoy elə, fikrini bizimkilərə bildir.

Uzun çək-çevirdən sonra razılıq aldıq. Nişanımız oldu. Evlənmək xeyli gülməliydi. Qardaşım zorla mağazaya aparıb təzə paltar aldırdı. Nişanlımla görüşə gedəcəkdim. Kostyum və köynəkdə özümü çılpaq

hiss edirdim. Həm də geyinmək qaydasını bilmirdim. Köynəyin boynundakı kağızı çıxarmadan əynimə keçirib görüşə getmişdim. Üstünü vurmadı, amma evlənəndən sonra başıma qaxdı. Dedi, o nə idi elə? Dedim, vallah, köynəkdə karton olduğunu ilk dəfə onda gördüm. Elə köynək geyinməmişdim. O - 91, bu - 99. Harda görəcəkdim? Hərbi formanı əynimdən çıxartdım ki!

***Sevinc***

Sevmirdim onu. Ailə qurmaq da istəmirdim. Çox kasıb yaşadığımız üçün işləyib ata-anamı vəziyyətdən çıxarmaq barədə düşünürdüm. Həm də hərbçiylə çətin olacaqdı. Bunu özü də mənə demişdi, qohumlar da. Bircə mənimlə açıq danışması xoşuma gəldi. Gördüm, mərd adamdır.

Fikrim qəti idi. Ailə qurmaq ağlımın ucundan da keçmirdi. Atam imkan vermədi. O, anamla dolanmırdı. Evimizə elə bir ziddiyyət düşmüşdü ki, başımı alıb qaçmaq məcburiyyətində qaldım. Belə bir vaxtda yun papaqlı zabit üzümə qapı kimi açıldı.

Altı ay get-gəldən sonra valideynlərim razılıq verdilər.

Murovun əfsanəvi kəşfiyyatçısını nişandan sonra tanıdım və qorxdum! O, əsl qəhrəman idi! Onun qadını olmağı bacaracaqdımmı?

Tanıdıqca sevdim. Başqa cür mümkün deyildi.

Yataqxanaya gəlin köçdüm. Aqşin doğulandan bir az sonra Toğanaya getdik. Orda ev tutmuşduq. İşıq yox, qaz yox, qohum yox, həyan yox. Şəhərdə böyümüş qız qucağında körpə uşaq yalnız göy üzü görünən dərin və kimsəsiz bir dərənin dibinə atılmışdı. Ancaq axşam o gələcəkdi! Buna görə hər əziyyətə qatlaşırdım. Xasiyyətim də getdikcə dəyişirdi. Çılğınlığım soyuqqanlılıqla əvəz olunurdu. O, məni yavaş-yavaş özünə oxşadırdı.

Ağstafaya dəyişilənəcən orda qaldıq.

***Komandir***

Deyirəm də, hər şey "Cəmilli əməliyyatı"ndan sonra başladı. Həyatım yeni bir ritmə düşdü. Rütbə aldım, vəzifə aldım, orden aldım, ailə qurdum, oğlumuz oldu, Toğanada evimiz oldu.

Mənim bütün uğurlarımda xüsusi əməyi keçən Kapitan Rəşidov xoşbəxtcəsinə gülümsünürdü. Bir gün isə tamam ağlagəlməz hadisə baş verdi. Polkovnik Nəbiyev yanına çağırıb, rəisin getmək istədiyini və məni öz yerinə təklif etdiyini söylədi. İnanmadım. Kapitanla görüşüb söhbətləşdim. "Səndən yaxşı kim işləyə bilər?" - söylədi. Tərəddüd edirdim. Bacarardımmı? Briqadanın kəşfiyyat xidmətinin rəisi balaca vəzifə deyildi. Götür-qoy etməli idim. Kapitan Rəşidov məni ürəkləndirdi:

"Sən bu saat korpus komandiri olmağa hazırsan!" - əlini çiynimə qoyub sinəsini qabağa verdi, səsini qaldırdı - "Orucov, sənə yenə deyirəm, qabağa getməlisən! Parlaq gələcəyin var. Sən general olacaqsan! Böyük qələbəmiz sənin adınla bağlanacaq!"

Belə sözlər məni utandırırdı. Güldüm. Dedim, rəis, siz Allah, mənə belə sözlər deməyin, axı nə etmişəm ki?

*Polkovnik Nəbiyev*

Xidmət rəisinin təklifini nəzərə alıb Orucovla görüşdüm. Məncə, bacaracaqdı. Qəhrəmanlığı öz yerində, onda qeyri-adi bir qabiliyyət də vardı; diqqətindən heç nə yayınmırdı!

Dağ şəraitində keçirilən kəşfiyyat əməliyyatları haqqında çoxlu kitablar oxumuşam. Rusiyanın Qafqazda xidmət edən yüksək çinli zabitlərinin xatirə və gündəlikləri bu mövzuda ən yaxşı yazılar kimi yadımda qalıb. Dağlar fərqlidir. Hərbi əməliyyatlar üçün, ən başlıcası, dağ şəraitində rahat hərəkət etməkdir. Murovda yamaclar düşmən tərəfdən rahat, biz tərəfdən sərt olduğuna görə onlar öz postlarına yol çəkir, artilleriya və ağır texnikanı təmas xəttinə yaxınlaşdırırdılar. Bu fakt Orucovun gözündən yayınmamışdı. Söhbət zamanı erməni üzdən çəkilən bütün yeni yolların xəritəsini stolumun üstünə qoydu. Məəttəl qaldım. Ona yol çəkilişlərini müşahidə etmək barədə xüsusi tapşırıq verilməmişdi, özü bunun əhəmiyyətli olduğunu anlayıb xəritəsini çıxarmışdı. Düşməndən müdafiəmiz üçün bu məlumatların qiyməti yox idi.

Hər bacarıqlı zabit rəhbər ola bilmir. Orucovun ağlı, zəkası və məsuliyyət hissi buna imkan verirdi.

Onun təqdimatını baş qərargaha göndərdim.

Etiraz etmədilər.

Beləliklə, Kapitan Orucov briqadanın kəşfiyyat xidmətinin rəisi təyin olundu. Briqadaya çağırıb əlini sıxdım, təbrik elədim.

*Komandir*

Hər işim yolunda idi, lakin gümüşü işığı birdəfəlik itirmişdim. Onu bir daha görməmək qorxusu içimdən üşütmə kimi keçirdi. Murovun gecələri üzümə sönmüşdü. Evlənməyimmi, rütbə-vəzifə almağımmı, övladımın olmağımı məni həyat sevincimdən ayrı salmışdı? Axı balaca Aqşinin üzündə də o işıqdan bir zərrə vardı. Olmaya, ailən-uşağın var, artıq mənə ehtiyacın yoxdur demək istəyirdi.

Elə gecə olurdu səhəri dirigözlü açırdım. Hər yerdə onu axtarırdım. Yox idi. İmkan tapıb yolumu Çəmənlidən saldım. Bəlkə, Yeddixırmana yaxın müqəddəs bir yerdə gözümə görünərdi?

İçimdə heç nə ilə ovunmayan bir sızıltı vardı və bu sızıltı ayaqlarımdakı qəlpələrin sızıltısından daha dözülməz idi.

Çəmənlidə - Seyid Lazım ağanın ziyarətgahında ürəyimə qəribə bir rahatlıq gəldi. Ağanın məzarının başına fırlanıb dua etdim. Ziyarətçilər həyətdəki çardağa yığışıb nurani bir kişiyə qulaq asırdılar. Bu, deyəsən, ağanın oğlu idi. Onun danışdıqlarını eşitmək üçün çardağa yaxınlaşdım.

"Həzrəti Musa ailəsi ilə gedərkən yaxınından keçdiyi Tur dağında ağ işıq gördü. Elə bil, dağ alışıb yanırdı. Musa gedib o oddan bir az gətirmək, isinmək istədi. Dağa yaxınlaşanda səs eşitdi: "Ey Musa! Mən sənin Rəbbinəm!.. İrəli gəl, qorxma, sən Allahın amanında olanlardansan..."

Həyəcandan qulaqlarım uğuldadı. Söhbətin arxasını eşitmədim. Özümü bağçanın həyətindəki bulağa verib üzümə su vurdum. Bir az toxtayandan sonra dikəldim.

Bayaqkı nurani kişi başımın üstündə dayanmışdı:
"Mən səni tanıyıram!" - gülümsünüb əlini uzatdı - "İcazə ver, ananın ruhuna "Yasin" oxuyum."
"Qəbrini ziyarət edə bilmədiyim adama necə "Yasin" oxutdurum?" dedim və onun əlini sıxıb aralandım.

## *Qırğı*

Havalar yenicə qızmağa başlayanda komandirdən qəribə bir təklif aldım:

"İyunun əvvəli buralarda ol, səninlə vacib bir səfərim olacaq!"

Nə illah etsəm də, başqa heç nə demədi. Və elə bil, onun bu sirli sözlərinin mənasını öyrənməyim deyə qəza-qədər məni işə saldı. Dağdan yenərkən maşınımız xəndəkdən aşdı, altında qalmamaq üçün yana atıldım, üzüqoylu yerə düşdüm, qabaq dişlərimin ikisi qırıldı, qalanı zədələndi. Məni Bakıya hospitala yazdılar. Müalicə bir az uzun çəkdi. Qayıdanda iyunun ortaları idi. Komandir hərbi hissənin həyətində bir daşın üstündə oturmuşdu. Ona yaxınlaşdım. Əlini mənə uzatsa da, üzünü yana çevirdi.

"Həkimlər buraxmadı!" - az qala, yalvaracaqdım ona.

"İstəsən, gələrdin!" - üzümə baxmadan dilləndi, səsindəki soyuqluq içimi üşütdü.

"Allah haqqı, çox çalışdım, buraxmadılar!"

Susdu, amma yenə üzümə baxmadı.

Hospitaldan mənə verilən sənəd əsasında ordudan tərxis olunacaqdım. Axıracan aramızdakı buzlar ərimədi. Vidalaşanda da çox soyuq görüşdü. Mən də qüruruma sığışdırıb ona heç nə demədim. Çünki doğrudan da, həkimlər məni buraxmamışdı. Təkcə dişlərim qırılmamış, kəllə sümüyüm də zədələnmişdi. Düzdür, təkid etsəm gələ, bərk ayaqda qaça bilərdim. Ancaq onun məndən nə istədiyini və bu istəyi bir həftə sonra yerinə yetirməyin imkansız olduğunu bilmədiyim üçün müalicəni yarımçıq saxlamadım. Biləndə isə artıq gec idi. O, Murovdan Ağstafaya, ordansa Ağcabədiyə dəyişilmişdi. Bir gün görüşüb üzrxahlıq edəcəkdim.

## *Komandir*

Əvvəlcə külək olub əsdim, doğma qoxusu canıma hopan torpağın üstünə yata-yata uzaq-uzaq təpələri aşdım, sonra çiçək qoxusuna çevrildim. Otdan-ota, güldən-gülə, çəməndən-çəmənə keçdim. Yorulanda lalənin bağrına hopdum, nərgizin təbəssümündə gizləndim, bənövşənin qoxusunda əridim. Tanış pıçıltısı könlümü ovsunlayan çayın gileyli nəğmələrinin üstündən sükut kimi axdım. Qurd olub yüyürdüm, ilan olub süründüm, quş olub uçdum. O vaxtacan ki, bənövşəyi qaranlığın bətnində məğrurca dikələn bir dağ, o dağın sol yamacında səssiz hənirtiylə kiriyən bir məzar gördüm. Bənövşəyi qaranlığın içindən məzara ağ işıq tökülürdü. İşığa qarışıb məzara hopmaq istədim. Əlim, ayağım, paltarım işığın içində əriyib yox olmağıma imkan vermədi. Əlimi-əlimdən, ayağımı-ayağımdan, bədənimi-bədənimdən sıyırıb çıxara bilmədim. İşıq axdı - mən baxdım, mən baxdım - işıq axdı. Yalnız gözlərimdən tökülən gümüşü istilik o işığa qarışa bildi. Mən kənarda qaldım. Ayaqlarımın sızıltısı, qəlbimin göynərtisi işıqla aramda keçilməz bir dünya yaratmışdı. Bircə qəlbimdəki intizarın səbbi alınmışdı. Əlimdə ixtiyar olsa, qalan ömrümü elə beləcə, bu inanılmaz mənzərəyə baxa-baxa keçirərdim. Nə geriyə dönərdim, nə sağa-sola baxardım, nə başqa bir şey düşünərdim. Uzaqlar necə yaxın, ucalar necə alçaq, dərinlər necə dayaz görünürdü. Gedə bilmədiyim yollar ovcumun içində qıvrılırdı. Səadət çox yaxındaydı. Əl atıb tutmağım qalırdı. Başımın üstündəki dağ da sevindiyindən cilvələnirdi.

Lakin bir qüvvə həm də məni geriyə itələyirdi. Arxada məni gözləyənlərin səsini eşdirdim. Məzara tökülən

işıq şəlaləsi məni sinəmdən, qoyub gəldiyim yollar kürəyimdən çəkirdi. Quş olub uçdum, ilan olub süründüm, qurd olub qaçdım. Gileyli nəğmələr oxuyan çayın sükutuna dönüb geri axdım. Çəməndən-çəmənə, güldən-gülə, otdan-ota qayıdan qoxuya döndüm. Bir də baxdım, küləyəm. Əsə-əsə boz təpələri aşdım və adama çevrildim. Uzaqlar uzaqda, ucalar ucada, dərinlər dərində qaldı. Ancaq o işıqdan içimdə böyük bir səadət duyğusu parlamışdı. O işığı da götürüb Seyid Lazım ağanın ziyarətgahındakı nurani kişinin yanına tələsdim.

## *Sevinc*

İlk dəfə idi Seyid Lazım ağanın ziyarətinə onsuz gedirdim. Çox sevirdi buranı. Həmişə bizi gətirirdi, uşaqlara tanıdırdı. Deyirdi, ağa Tanrının seçdiyi bəndələrdən olub. Qapısına gedən adam naümid qayıtmayıb, qapısına getdiyi adam övladının qanından keçib! Hökumətin görə bilmədiyi işlər bircə kəlməsiylə yerinə yetib. Öləndə öz vəsiyyəti ilə burda - Çəmənlidəki baba mülkündə basdırılıb, məzarı böyük ziyarətgaha çevrilib.

Ağanın oğlu ziyarətgahın yanındakı uzun çardağın başında oturub danışırdı:

"Həzrəti Musa ailəsi ilə yolla gedərkən Tur dağında işıq gördü..."

Əhvalatın içindəki "ailəsi ilə" sözü ox kimi bağrıma sancıldı. O, bizi tək qoymuşdu. Mən, Aqşin, Nihad əl-ələ tutub onun qoxusunu həm də bu ziyarətgahdan almağa gəlmişdik.

Ağanın oğlu məni tanıdı. Yaxınlaşıb hal-xoş edəndə gözləri doldu. Dedi, bir dəfə anasına "Yasin" oxumaq istədim, qəbrini ziyarət edə bilmədiyi üçün razılaşmadı. O günün səhəri tezdən, mən sübh namazına duranda gəldi. Üst-başı toza-palçığa batmış, ayaqları islanmışdı. Uzaq səfərdən gələnə oxşayırdı. Gülümsünüb dedi, ağa, indi "Yasin" oxuya bilərsən. Özümü saxlaya bilmədim. Dedim, sən ordan gəlirsən? Cavab vermədi. Mən elə bu çardağın yanındaca, ayaq üstə şəhid anamızın ruhuna bir "Yasin" oxudum. Duam bitəndə baxdım ki, yanımda yoxdur. Özü getmiş, yerində bir topa ağ işıq qalmışdı.

### *Komandir*

Nə Ağstafa Murov idi, nə də mən həminki adam. Arada Polkovnik Nəbiyevə qulaq asmayıb bura qərargah rəisi gəlməyimə peşman olurdum. Yadımdadır, o, soyuq nəzərlərini üzümdə gəzdirib demişdi:

"Getməyini istəmirəm! Mənə burda çox lazımsan. Amma seçim özünündür."

Dinməmişdim. Məcbur olub konkret suala keçmişdi:

"Düzünü de, getmək ürəyincədir?"

"Ürəyimcədir!" - tərəddüd etmədən dillənmişdim. Çünki doğrudan da, belə idi. Mən rütbə almaq, daha böyük vəzifələr tutmaq və daha çox iş görmək arzusuyla yaşayırdım.

Beləliklə, Şəmkir korpusunda xidmət illərim başladı. Bura "701"-dən yadigar qalmış Murova bənzəyirdi. Hər şeyi sıfırdan başlamaq lazım gəlirdi. Gəldiyim ilk gündən anladım ki, məni bunun üçün dəvət ediblər.

Gümüşü işığı görmək arzusuyla gecələr yatmır, bütün sutkanı işləyirdim. Mənə elə gəlirdi, ürəkdən ibadət edənləri Tanrı mükafatlandırdığı kimi, mən də daha çox işləsəm, o işıq gözümə görünəcək. Hətta onun dalınca Hərbi Akademiyaya oxumağa da getdim. Ağstafadan ayrılıb məni gözləyən torpaqlara qayıtmağım üçün bu, vacib idi.

*Mayor Poladov*

Onunla üçüncü dəfə Şəmkir korpusunda rastlaşdım. Onda mən də orda xidmətdə idim. Murovun qəhrəman kəşfiyyatçısı gələn gündən zabit kimi ad çıxarmışdı. Əsgərlərlə ünsiyyəti, hərbi hissədə gördüyü işlər, əsgərlərə öyrətdiyi biliklər görünməmiş nümunə idi. Onun yorulmadan, usanmadan, bezmədən bu qədər əziyyətə qatlaşması mənə qəribə görünürdü. O, ətrafdan təcrid olunaraq, dərvişvari xidmət keçirirdi. Maaş-zad verməsəydilər, gedib istəməzdi də. Bizə fədakarlıq kimi görünən işləri o, borc kimi yerinə yetirirdi. Tabor komandiri əlini cibinə qoyub dolayı gəzir, yeri gələndə beşdən-üçdən qazanırdı. Hərdən dözmürdüm, deyirdim, Orucov, komandirin kefdədir, sənsə özünü şəhid edirsən, heç olmasa arada istirahət elə, məzuniyyət götür, evə get. Eşidəndə ki, yeddi aydır evə getmir, az qaldım dalaşam! Dedim, müharibənin ən ağır vaxtlarında da ayda bir-iki dəfə evimizə dəymişik, ailəmizlə görüşmüşük, belə olmaz axı. Bircə onda mənimlə razılaşırdı, “Düz deyirsən!” söyləyirdi.

Xidmət! Xidmət! Xidmət! Onun üçün bircə söz vardı. Söz yox, dua idi ağzında.

Onu Allah xidmət üçün yaratmışdı.

*Komandir*

Bu dünyada bir kimsəyə minnətim olmadı, Sevincdən başqa. Biz, əslində, sənəddə evli idik, həyatda deyil. Bir-birimizdən ayrı düşmüşdük və bəzən işlərim o qədər çox olurdu ki, ayların necə keçib-getdiyini bilmirdim. O, həm evi-uşaqları idarə edirdi, həm də bir gözü mənim üstümdə olurdu. Özünə zarafatla "əsgər anası" deyirdim. Doğrudan da, anam nə edərdisə, Sevinc onu edirdi. Əlində zənbil xidmət keçdiyim yerlərə gəlir, əsgər valideynləri kimi məni gözləyib görüşürdü. Yaxşı ki, Zabil varmış. Mən evimdən birinci Sevincə, ikinci Zabilə görə arxayın idim. Yoxsa xidmət eləyə bilməzdim.

Zabil arada məndən möhkəm incimişdi. Toyumda çağıra bilmədiyim üçün. Açığı, deyə bilərdim, amma utandım. Əsgərlikdə idi. Haramıda qulluq edirdi. Fikirləşdim, necə zəng vurum, deyim, toy eləyirəm, qardaşıma icazə verin? Bəlkə, toy başqasının olsa, edərdim. Alınmadı. Və bir gün atamdan eşitdim ki, Zabil məndən inciyib, özü də açıq şəkildə bəyan edib: "Mənim o adda qardaşım yoxdur!"

## *Zabil*

Boynuma alıram ki, o sözü demişdim. Haqqım vardı. Belə şey olar? Qardaşın ölkənin ən tanınmış zabiti ola, ad-sanı hər yana yayıla, səni toyuna çağırmaya! Mənə üç günlük icazə almaq onun üçün çətin deyildi. Heç yadına düşməmişəm.

Necə incimişdimsə, deyirdim, onu qəbir evinəcən bağışlamaram.

Haramı düzünün ortasında qulluq edirdim. Çörək anbarına baxırdım. Möhkəm yağış yağmış, yollar qırsaqqız palçıq olmuşdu. Əhmədbəylidən çörək gətirən "Qaz-53" qaranlıq qovuşanda gəlib çıxdı. Arxasını anbara verib dayandı. Əlimdə fənər maşına yaxınlaşdım. Yük yerinin qapısını açıb fənər işığını içəri salanda dəli oldum: qardaşım burdaydı!

Üzünü qırışdıraraq həmişəki doğmalıqla güləndə yuxu görmədiyimə əmin oldum. Atılıb boynuma sarıldı. Qarovuldakı əsgərə əliylə səs salma işarəsi verib, otağında dincələn komandirimin yanına keçdi. Qapını açan kimi səsi aləmi götürdü: "A kişi, artırmırsan? Yanına kapitan gəlir, ayağa qalx, "çest" ver!" Komandirim məndən də çox həyəcanlandı. "Orucov sənsən?!" - deyib ayağa qalxdı.

Kursant yoldaşı imişlər.

Onunla qardaş olduğumu heç kim bilmirdi. Ona görə, gecənin bu vaxtı Haramıda peyda olması komandirim üçün əsl möcüzəydi. Sonralar etiraf etdi ki, onun düşmən üzdən biz tərəfə adladığını düşünüb və həyəcanlanıb.

Mənə bir həftəlik məzuniyyət aldı. Çörək maşınıyla Əhmədbəyliyə gəldik. Ordan hərbi maşın bizi Daşbuna, qardaşımın bir dostunun evinə apardı. Gecəni qal-

dıq, səhər cibxərcliyimi verib məni taksiyə otuzdurdu və Sumqayıta yola saldı. Dedi, özüm gələ bilməyəcəm, hərbi hissəyə qayıtmalıyam. Sağollaşıb ayrılanda səsini qaldırdı:

"Zabil!"

"Ha can!" - hiss elədim ki, nə qədər desəm də, ondan inciməmişəm.

"De görüm, məni bağışladın?"

"Bağışladım!"

Güldü, "Atamgilə salam deyərsən" söyləyib yolu o üzə keçdi.

*Komandir*

Akademiyaya getdiyim vaxtlar şəhərdə ailəmlə qalırdım. Aqşin böyümüşdü artıq. Lakin evdə az gördüyü üçün məni tanımırdı. Aqşinə atasının varlığını hiss etdirə bildim. Buna görə çox xoşbəxt idim. Körpə yaşlarından ona əllə sağollaşmaq öyrətmişdim. Anasının qucağında mənə əl eləyir, hətta öpüş də göndərirdi. Hər dəfə mən gülürdüm, Sevinc qəhərlənirdi. Nəsə, o an özünü saxlaya bilmirdi. Həmişə mənimlə zarafatlaşan, şux xasiyyətli Sevincin belə kövrəldiyini görəndə daha çox gülürdüm. İstəyirdim o da göz yaşlarını silsin, gülümsəsin. O isə ağlaya-ağlaya gülümsünürdü. Həm öz istədiyini edirdi, həm mənim istədiyimi.

O saat özümü ciddiliyə vururdum. Bizdə belə idi; mən ciddiləşəndə o, zarafata keçirdi, o ciddiləşəndə mən.

“Salamat qal. Mən getdim. Bir broblem olsa, telefonla xəbər edərsən!”

“Broblem yox, problem!”

“Ay qız, o yana get, mənə danışmaq öyrətmə!”

Şirin-şirin gülürdü. Mənə də bu lazım idi. Onu gülə-gülə qoyub aradan çıxırdım.

Ağcabədinin Qiyamadınlı kəndindəki tabora komandir təyin olunanda evə vaxtlı-vaxtında gəlib-gedəcəyimə söz verdim. Hərbi hissəmiz təmas xəttinin yaxınlığında yerləşirdi. İşə həvəsliydim. Uzun ayrılıqdan sonra doğma Qarabağa qayıtmışdım.

Taborda qəribə bir əsgərlə rastlaşdım. Açığını deyim, beləsini görməmişdim. Hərbi qayda-qanunlara robot kimi əməl edirdi. Yanımda olduğu bir il ərzində qüsurunu görmədim. Əvvəl-əvvəl şəxsi işi diqqətimi çəkdi. Milli Təhlükəsizlik Nazirliyinin tədris müəssisəsində

işləmişdi. Hərbi hissənin həyatindəki çardaqda oturub onu yanıma çağırtdırdım. Arıq, uzun oğlan idi. Xidmətə gec gəlmişdi. Bir az sual-cavab edəndə xeyli savadlı olduğunu gördüm. Xəritəni əzbər bilirdi. Nəinki Azərbaycan, dünyanın siyasi xəritəsindən nə sual versən, cavabı hazır idi. Bəzən, kefimin yaxşı vaxtı sorğu-suala tuturdum, az tanınan ölkələrin paytaxtını soruşurdum, deyirdi. Kamboco, Qvatemala, Kotidivuar, Qvineya...

Deyirdim, Qasımov, bunları mən özüm bilmirəm, gərək yanıma dünya xəritəsi qoyum, birdən məni aldadarsan!

Deyirdi, yoldaş mayor, sizi heç vaxt aldatmaram!

"Yoldaş mayor!" Gizir Səfərov mənə belə müraciət eləsə, yarım saat danlayardım. Ancaq Qasımov yoldaşı da, mayoru da elə deyirdi, etiraz eləmirdim.

Onu özümə fərdi əsgər götürdüm.

Deyəsən, yaşlanırdım. Murovun soyuğunda-sazağında gizildəməyən qəlpələr Aranın düzündə zümzümə edir, elə bil nəğmə oxuyurdu. Qəlpələr zümzüməsini kəsəndə də bir ayrı cür narahat olurdum. Mənə elə gəlirdi, sayıqlığımı itirirəm.

Qasımov:

"Yoldaş mayor, niyə çıxartdırmırsınız bu qəlpələri?"

Mən:

"Əvvəl-axır müharibə başlayacaq. Bəlkə, yenə qəlpə yarası aldım. Deyirəm, iki dəfə xərcə düşməyim!"

Zarafatyana verdiyim cavab onu nədənsə tam qane elədi.

Qasımovun bircə pis xasiyyəti vardı; çox danışırdı! Həm də həddindən çox. Bu, bir yandan yaxşı idi. Məni yatmağa qoymurdu və istənilən vaxt taborda baş

verənləri yoxlamaq imkanım olurdu. O biri yandan, biz də dincəlməliydik axı! Bir sözlə, daş qayaya rast gəlmişdi. Forma geyindiyim gündən indiyəcən rastlaşdığım yeganə adam idi ki, ona “Qoy bir az yataq” deyirdim. Bəzən o qədər usta danışırdı, casus olmasından şübhələnirdim. Buna görə bir müddət onu hiss etdirmədən izlədim.

“Qasımov, al o xəritəni, yaxın gəl.”

Gəldi. Ağdam istiqamətini göstərib dedim:

“Tutaq ki, hərbi əməliyyat başlayıb. Biz Ağdamı almağa gedirik. Döyüş planını necə hazırlayardın?”

Başqa əsgər olsa, gülər, geri durar, onu lağa qoyduğumu düşünüb bir kəlmə də deməzdi. Ancaq Qasımov... Xəritəyə baxmadan hər yüksəkliyin, hər postun, hər kəndin, hər çayın adını deyə-deyə hardasa xəyallarımda olan mükəmmələ yaxın bir əməliyyat planı açıqladı. Bəzi yerlərdə tankları saxlayıb, piyadaları qabağa verdi, səbəbini soruşanda ciddi görkəm aldı:

“Yoldaş mayor, o ərazidə qumsallıq və uçurum var, tankların hərəkəti çətindir!”

Əlim üzümdə qaldı!

Onunla hər cür söhbətlər edirdik. Siyasət, din, fəlsəfə.

“Süffeyn vuruşmasında İmam Əli Dəclə çayını alır, su yolunu bağlamır. Düşmən alanda bağlayır. Bu hadisə üç dəfə təkrar olur. Hər dəfəsində düşmən su yolunu bağlayır, İmam Əli bağlamır. Halbuki bağlasa qələbəni asanlıqla əldə edər. Səncə, bu, taktiki cəhətdən doğru addımdır?” - sualı birnəfəsə səsləndirib ciddi-ciddi Qasımovun arıq üzünə, batıq ovurdlarına, bir az irəli çıxmış iri, işıqlı gözlərinə baxdım. Sual bir az gec çatdı ona. Gözləri iki-üç dəfə açılıb yumuldu və onu qəfil

gülmək tutdu. Çaşdım. Cavabını eşidəndə isə özümü əməlli-başlı itirdim:

“İmam Əli qələbədən çox axirətini düşünürdü. O, elə hərəkət edirdi ki, Rəbbi qarşısında utanmasın!”

İki-üç dəfə udqunub soruşdum:

“Bəs nəyə gülürdün?”

“İmam Əlini müzakirə etdiyimə...”

“Demək istəyirsən ki, biz İmam Əlidən çox balaca adamlarıq?”

Bu dəfə gülmədi, gülümsəməklə keçindi:

“Siz yox, mən balacayam, yoldaş mayor!”

“Mən böyüyəm?”

“Siz fərqlisiniz! Sizin də Məkkəniz-Mədinəniz vətəninizdir. Vətəni sevmək imandandır.”

Söhbəti uzatmaq istəmədim. Amma bu sözləri deməyi özümə borc bildim:

“Özünü kiçiltmə, Qasımov! Hamıdan üstün olmağa çalış.”

Yeri gələndə hamıdan üstünlüyü vardı da. Posta müşahidəyə göndərmişdim, tövşüyərək yanıma qaçdı. Rəngi avazımış, ağzı qurumuşdu.

“Yoldaş mayor, təhlükə var!”

“Bu, hardan çıxdı, Qasımov?!”

“Dumanda nəsə hiss etdim!”

“Hiss etdin, ya gördün?”

“Hiss etdim!”

“Deyəsən, qorxmusan.”

“Yoldaş mayor, qorxub hiss etmədim, hiss edib qorxdum! Köhnə qəbiristanlığa tərəf dumanın içində adamlar var.”

Köhnə qəbiristanlıq batalyonun boş tərəfi sayılırdı. Ancaq arxadan güclü nəzarət vardı. Oranı düşmən

kəşfiyyatçılarını cəlb etmək və pusquya salmaq üçün "zəif" saxlayırdıq. Qasımov bunu bilmirdi. Qəbiristanlıq deyən kimi hissiyyatında yanılmadığını anladım və bir az sonra bizimkilərin açdığı atəş ehtimalları təsdiq etdi. Düşmən kəşfiyyatçıları açığa çıxıb geri oturdular.

Gecələr onun harasa getdiyini bilirdim. Deyəsən, təmas xəttini keçirdi. Bəzən tez qayıdır, bəzən səhərəcən gəlib çıxmırdı. Uzaq və çətin yol keçdiyini paltarlarını təmizləyəndə hiss edirdim. Palçıqlı, yaş və tozlu olurdu. Hardasa süründüyü, çaydan keçdiyi, torpağa uzandığı bilinirdi. Başqa vaxt hara gedirdisə, mənə deyirdi. O səfərləri haqda nə gedəndə, nə gələndə bir kəlmə danışmırdı. Amma mən onu sabahacan gözləyirdim.

“Sən yatmamısan hələ?” - hər dəfə eyni sual.

“Yuxum qaçdı. Çay isidimmi sizə?” - hər dəfə eyni cavab.

“Qasımov, yorğunam, bir az yatacam” - və eyni sonluq.

Nəsə soruşmağa cəsarət etmirdim.

Gecələr yatanda da, yatmayanda da otağının işığını söndürürdü. Mən də buna adət etmişdim. Bir dəfə uzanıb televizora baxırdı, qəfil yerindən qalxdı və həyəcan əmri verdi. Nə baş verirdi? Axı o, yalnız ekrana baxırdı. Ekranda nə gördü ki, belə qəfil ayağa qalxdı? Olmaya, qaçan titrlərlə ona məxfi məlumat ötürmüşdülər? Tabor ayağa qalxdı, müdafiə tədbirləri görüldü. Bir azdan qızğın döyüş başladı. Düşmən hücuma keçmişdi.

Geri qayıdanda soruşdum: “Düşmənin hücuma keçdiyini nədən bildiniz?”

Laqeydcəsinə cavab verdi: “Onlar tərəfdən otağa işıq düşdü.”

İşıq o qədər ani və zəif düşmüşdü ki, mən hiss eləməmişdim. Otaq qaranlıq olmasa, komandir də bilməyəcəkdi.

Dalınca dediyi söz lap gözlənilməz oldu:

“Məni aparmağa gəlmişdilər!”
Gözlərim böyüdü. Canımdan üşütmə keçdi. Nəsə soruşmağa macal tapmamış ikinci cümləni söylədi:
“Yenə gələcəklər!”
Mən o vaxt ermənilərin komandirin başına pul qoyduğunu eşitmişdim, ancaq cəsarət edib onun olduğu hərbi hissəyə gələcəklərini heç vaxt ağıl eləməzdim.
Doğrudan da, gəldilər. Özü də iki dəfə. Hər dəfəsində də gücümüzü görüb geri qayıtdılar.
Komandir məni bundan da artıq əsgərlər xəstələnəndə heyrətləndirdi. Hardasa 30 nəfərə yaxın uşaq qəfil bağırsaq pozuntusu və soyuqlamadan yatağa düşdü. Bizə verilən dərmanlar yetərli deyildi. Batalyonun zabitlərini çağırdı, loto oynayırmış kimi əlini cibinə salıb bir əllilik çıxartdı və stolun üstünə çırpdı:
“Məndən bu qədər! Sizi görüm!”
O biri zabitlər də ondan-iyirmidən “düşüb” iki yüzə yaxın pul düzəltdilər, əsgərlər üçün dərman alındı. Dərmanın dalınca mən getdim. Anam tibb bacısı olduğundan bu işlərdən bir az başım çıxırdı. Qayıdanda komandiri kazarmada gördüm. O, dizlərini yerə atıb qızdıran əsgərlərin ayaqlarını yuyurdu.

***Komandir***

Çaylar dənizə, dənizlər okeana tökülür. Bütün cığırlar yollara, yollar ana yollara, ana yollar böyük şəhərlərə aparır. İnsanın ömrü də belədir. O, yaşının ən məhsuldar çağlarına hər tərəfdən yol gəlir; bilikdən, həyatdan, təcrübədən... Mən Ağdamdakı hərbi hissəyə komandir təyin olunanda öz okeanıma qovuşdum. Bir vaxtlar Özbəkistandan qaçmış sıravi əsgər indi öz doğma el-obasına briqada komandiri, polkovnik-leytenant kimi qayıdırdı. Bu, həyatımın zəfər yürüşüydü! Özümü gümüşü işıq selinin hüdudsuz sevinci içərisində hiss edirdim.

Nəhəng dağı biri çiçəyindən, biri bulağından, biri təmiz havasından tanıyır. Vətəni də hərə bir tərəfindən sevir.

Mən vətəni əsgərindən sevirdim!

Ağdamda məni üç minə yaxın əsgər gözləyirdi. Biz əl-ələ verib qələbəyəcən bir yerdə gedəcəkdik. Lakin adamları həqiqi xidmətə alışdırmaq asan deyildi. Buna çox vaxt bu işə məsul insanlar mane olurdular.

Briqadaya gələn gün əsgərlərin məzuniyyət cədvəlini yoxladım. Cümşüdov soyadlı əsgərin il ərzində dörd dəfə evə buraxıldığını gördüm. Tabor komandirini çağırıb onunla maraqlandım. Dedi, mərkəzi qərargahdan tapşırılıb, hazırda yenə məzuniyyətdədir.

Murovdakı kəşfiyyat bölüyündə mənə əsgər gizləməyi təklif edən köhnə "dost"umu unutmamışdım. Deyəsən, onunla ikinci dəfə qarşılaşmalı olacaqdım.

Tabor komandirinə əmr verdim:

"Bu əsgəri yerin deşiyində də olsa, tapın gətirin! Sabah səhər düzülüşündə burda olsun!"

Səhər hava işıqlaşmamış qapım döyüldü. Tabor komandiri saçlı-saqqallı bir cavan oğlan gətirmişdi. Saç-saqqalını qırxdırıb, otağıma çağırdım, onunla iyirmi dəqiqə söhbət etdim. Məncə, məni başa düşdü.

Həmin gün mərkəzi qərargahdan - generalın köməkçisindən zəng gəldi. Salam-kəlamsız "Bizi ikinci dəfə adam yerinə qoymadın" deyib telefonu söndürdü.

Bir həftə keçməmiş Cümşüdovla maraqlandım, çox yaxşı xidmət keçdiyini söylədilər.

## *Xanı*

Düz iyirmi il əvvəl yanında meyit, biz olan maşına əl eləyən sarıyanız, göygöz oğlanı Ağdamda "kambriq" kimi qarşılayırdım. Bir-birimizi qiyabi tanıyırdıq. Mən də buraların adlı-sanlı kəşfiyyatçısı idim.

"Deməк, məşhur Xanı sənsən!" - ilk sözü bu oldu, əlimi sıxdı.

"Mənəm, komandir!" - mən də onun əlini sıxdım.

Briqada komandiri kimi ilk işi məni də götürüb ön xəttə çıxmaq oldu. Biz düşmənə görünməmək üçün maşının rahat gedəcəyi postu seçdik. Yolda qabağımıza araba qoşulmuş uzunqulaq çıxdı. Arabanın üstündə böyük su qabı vardı. Ensiz yolda maşın keçib gedə bilməzdi. Mən düşdüm, uzunqulağı yedəkləyib geri qaytardım. Komandir maşınla ardımca gəldi. Əsgərlər ilk dəfə ön xətdə briqada komandiri görürdülər. Ona görə çaşıb qalmışdılar. Qalxıb sıraya düzüləndə komandir onları danladı:

"Allahın heyvanı sizin üçün su gətirib, yiyəsiz geri ötürürsünüz..."

Başlarını aşağı saldılar.

Blindaja girdik. Əsgərlərin vəziyyətini görüb kədərləndi. Çoxlu suallar verdi. Postun giziri bütün problemləri çəkinmədən sadaladı. Komandirin boğazı qurudu. Bir stəkan su istədi. Su yox idi! Sən demə, əsgərlər ərindiyindən arabadan su da götürməyiblər. Uzunqulaq gözləyib-gözləyib, heç kimin çıxmadığını görüb, geri qayıdıb.

Başını buladı, heç nə demədi. Onun səsini bir də maşına oturub postdan xeyli aralananda eşitdim:

"Xanı, bu uzunqulağı bu uşaqların əlindən, bu uşaq-

ları da bu uzunqulağın əlindən xilas eləməsək, işimiz alınmayacaq.”

Beləliklə, Ağdamda hərbi hissənin gücləndirilməsi işi başladı. Birinci, ön xətt möhkəmləndirildi; səngərlər qazıldı, postlar düzəldildi, atəş və müşahidə mövqeləri yaradıldı. İkinci, postlara su, üçüncü, yol çəkildi. Dördüncü, qamışdan və çiy kərpicdən tikilmiş kazarmalar hər şəraiti olan daş tikililərlə əvəz olundu. Beşinci, maşınların postlara təhlükəsiz getməsi üçün torpaq sədlərin tikintisi başlandı.

Uzunluğu yüz əlli-iki yüz, hündürlüyü dörd-beş metr olan torpaq istehkamların yaradılması əvvəlcə inanılmaz görünürdü. Üst-üstə əlliyə yaxın postun hər birinin arxasında çəkiləcək bu sədlərin sayəsində həm də dinc əhali hektarlarla ərazidən təhlükəsiz istifadə edəcəkdi.

Heyif, işi başa çatdıra bilmədik. Başımıza gələn faciə hər şeyi alt-üst etdi. Torpaq sədd çəkməyə gedən istehkamçıların maşını gecəylə hücuma məruz qaldı, dörd əsgərimiz şəhid oldu.

***Komandir***

Qərargahımız Xındırıstanda yerləşirdi. Kənddə ev tutmuşdum, ailəmlə qalırdım. Evimizin bir sakini də artmışdı: Nihad! Aqşindən fərqli olaraq, o, mənim kimi sarıyanız idi.

Dərslər başlananda Sevinc uşaqları götürüb şəhərə gedirdi. Tətillərdə, istirahət günlərində Zabilin maşınıyla gəlirdilər. Zabil arada mənə sataşmaq istəyirdi:

"Komandir, gələndə bizi qarşılamaq əvəzinə evin açarını sürücüylə göndərirsən, yanında da bir yığın paltar! Qardaş, biz bura paltar yumağa gəlmişik?"

"Kişinin paltarını arvadı yuyar! Sən belə şeyləri bilməzsən! Duxun çatırsa, evlən, gör!"

Gileylənirdilər. Filan toya gəlmədin, filan ad günündən imtina etdin, filan qonaqlıq dəvətini unutdun, filan yasda camaat səni soruşurdu. İzah edə bilmirdim ki, vaxt yoxdur. Deyirdim, ay Zabil, üç min əsgərə cavabdehəm e... Gülürdü:

"Komandir, elə deyirsən, guya hamısını bir-bir tanıyırsan!"

"Tanıyıram, əlbəttə!"

İnanmırdı. Əsgərim üçün elçilik eləməyimi eşidəndə, inandı.

Əsgər kazarmada özünü asaraq intihar etmək istəmişdi. Yanıma çağırdım. Danışdırıb öyrəndim ki, əmisi qızını sevir, qızı başqasına verirlər, ona görə dözə bilmir.

Tanıdığım komandirlərin çoxu əsgərlərin qız sevdiyini eşidəndə onları ələ salır, beyinlərinin qızla-qadınla məşğul olmasını istəmirlər. İlk baxışdan onları qınamaq olmur. Odun-alovun içində şirin xəyallara dalmaq

ölüm deməkdir. Lakin mən istəyən döyüşçü sevginin bəri yox, o biri üzündədir. Əsgərlərimin qız sevdiyini eşidəndə, ata-anasını, bacı-qardaşını, dost-tanışını xatırlayıb darıxdığını görəndə sevinirəm. Hər şey burdan başlayır. Ev-eşik, ailə, qohum-əqrəba, kənd-kəsək, tay-tuş, dost-tanış, qız-qadın sevgiləri cəmləşib vətən sevgisini əmələ gətirir. Vətən - bu saydıqlarımın cəmidir. Balaca sevgilərin hansınasa ilişib qalan balaca adamdır.

Eşqə düşən əsgərin atasının telefon nömrəsini aldım, zəng vurdum. Özümü təqdim etdim. Dedim, mümkünsə, qardaşınızı da götürün, hərbi hissəyə gəlin. Əvvəl qorxdu, elə bildi, oğluna nəsə olub. Dedim, narahat olmayın, hər şey qaydasındadır və sizi xeyir iş üçün çağırıram.

Gəldilər. Dedim, il yarım bu əsgər mənim övladımdır, ona görə onun elçiliyini etmək mənə düşür. Gedin, öz aranızda razılaşın, cavanlara xeyir-dua verin. İkisi də çaşıb qaldı. Sən demə, qardaşlar uşaqların bir-birini sevməsindən xəbərsizmiş. Əsgərə bir həftə məzuniyyət verib atasıyla yola saldım, qayıdanda bizə nişan konfeti gətirmişdi.

Elçilik etməyimə baxmayın, toylara nadir hallarda gedirdim. Mayor Poladov bir neçəsinə məni zorla apardı. Bir gün dedim, Poladov, sənə etiraz eləmirəm, gedirəm, qorxuram axırda mənə "toylar komandiri" desinlər.

Sevinc mənimlə daha sərt zarafatlar edirdi. İstehkam tikintisindən üstüm toz-torpaqlı gəlmişəm evə, o yandan qayıdasan ki, erməniyə üzbəüz gücünüz çatmır, yeri qazıb altıyla Ağdama getmək istəyirsiniz?! Necə hirsləndimsə, üstünə qışqırdım. Dedim, get işinlə məşğul ol, sən nə bilirsən biz nə iş görürük?!

## *Sevinc*

Zarafat etməyinə edirdim, amma üzü dönəndə, nəfəs çəkməyə qorxurdum. Qorxmaqdan çox çəkinirdim. Sifətində bir ifadə vardı, o, peyda oldusa, üzünü görmə. Hər dəfə o əhvalda evə gələndə Aqşin pıçıldayırdı: "Kazarma rejimi başladı!"

Nihad özünü şirin satırdı. Onu lap çox istəyirdi. Baxırdı, deyirdi, Sevinc, balaca mənə oxşayıb, rahat uşaqdı, amma bu böyük var ha, səni incidəcək. Bəlkə də incidir, demirsən.

Həqiqətən də incidirdi və mən bunu ona demirdim. Qorxurdum qırılsın övladından. Ona elə bir söz desin, o da qırılsın. Çox sərt xasiyyəti vardı. Gözündən düşdünsə, getdin!

Hərdən deyirdi, ə, professor, həmişə oxuyursan, yoxsa mən gələndən-gələnə kitaba baxırsan? Bu da deyirdi, yox, ata, həmişə oxuyuram. Nihad şahmatçıydı. Yaxşı da oynayırdı. Atası onun qələbələrinə çox sevinirdi. Həmişə zəng vurub təbrik edirdi.

Yatmışdıq. Gecə yarı həyəcan siqnalı verdilər. Yerindən güllə kimi atıldı, üç-dörd saniyəyə şaqqa-şaraqla geyinib-silahlandı. Qapıdan çıxanda sifətində elə bir ifadə vardı, görəndə canıma üşütmə düşdü. "Allah köməyin olsun" demək istədim, ancaq sözlər tilişkə kimi boğazıma keçdi. Uzun zaman həyəcanımın buzu ərimədi. Yerin içində oturalı qaldım.

## *Komandir*

İyirmi il sonra ilk dəfə səhər işə, axşam evə gəlmək səadəti mənə nəsib olmuşdu. Həyatımın qaydaya düşməsinə sevinirdim. Ən çox da ailəmə görə. Amma uzun çəkmədi.

*Xanı*

Dörd sapyorumuzun gecə saatlarında Sarıcalının üstündə erməni pusqusuna düşüb həlak olması xəbərini səhəri gün eşitdim. Gecə həyəcan siqnalı verib bizi qaldırdılar, təmas xətti ilə üzbəüz döyüş mövqeyi seçib hardasa dörd-beş saat uzanılı qaldıq. Səs-səmir yox idi. Səhərə yaxın bölüyə qayıdanda gecə dörd şəhid verdiyimizi söylədilər. İlk ağlıma gələn komandir oldu. Onun öz övladlarını itirən qədər sarsılacağını bilirdim.

Əsgərləri övladlarından çox istəyirdi. Buna əmin idim. Bayramlarda bir həftə məzuniyyət götürür, üç gün keçməmiş geri qayıdırdı. Deyirdim, komandir, niyə belə tez gəldiniz? Deyirdi, uşaqları səngərdə qoyub evdə dincələ bilmirəm. Onun istirahət yeri səngərlər idi. Hərbi səhra paltarını heç vaxt əynindən çıxarmırdı.

Gecələr yatmırdı. Qapısına nə vaxt yaxınlaşsan, içəridən səslənirdi. Dəfələrlə hərbi hissənin ağlagəlməz yerlərində rastlaşmışdım onunla. İçimdə belə bir hiss vardı ki, eyni anda çoxlu yerdə mövcud olur. İstəyəndə gözə görünür, istəməyəndə yox. Adam onun yanında düşüncələrini də gizləyə bilmirdi. Onunla dürüst olmaqdan başqa yol yox idi.

Kazarmaya, bölüyə, səngərə elə gəlirdi, hiss eləmirdin. Birdən yanında peyda olurdu.

Əsgərlərə şəxsi cəzası: işğal olunmuş rayonların adını, işğal tarixini, coğrafi mövqeyini əzbərlədirdi.

Əsgərlərə şəxsi mükafatı: ad günündə saat bağışlayır, şəxsi heyətin gözü qarşısında təntənəylə təqdim edir, valideynləri ilə danışdırır, gəzməyə aparırdı.

Üç minə yaxın əsgərin, az qala, hamısını adbaad tanıyır, ad günlərini bilir, şəxsi problemləriylə maraqlanırdı.

Əsgərlərlə elə söhbət edirdi, ondan heç nə gizlətmirdilər. Həmişə gülə-gülə deyirdi ki, harda narahat əsgər var, yanıma göndərin, “format” eləyim. Doğrudan belə idi. Onun yanına qorxaq girən qəhrəman çıxırdı. Nəfəsi kimə dəyirdisə, cəsur döyüşçüyə çevrilirdi.

Günün istənilən saatı kimin hansı postda olduğunu əzbərdən bilirdi. Bir postdan qayğılı qalırdısa, gecə demir, gündüz demir, ora yollanır, əsgərləri danışdırır, ürək-dirək verir, bəzən zarafatlaşıb əhvalını yüksəldirdi.

Üç sualı vardı: ac deyilsən, yuxun gəlmir, üşümürsən?

Bizim kəşfiyyat bölüyünə tez-tez gəlirdi. Onun üçün samovar çayı dəmləyirdik. Arada deyirdi, Xanı, bir “Ana” segahı oxu. Sözünə bənd idim. Səsimi necə qaldırırdımsa, hamı yerində donub qalırdı. O da qüssələnir, gözlərini qıyıb uzaqdan boy göstərən dağlara baxırdı.

***Komandir***

Aləm idi Xanı! Hərdən elə şeylər danışırdı, deyirdim, bir gün səni tutacaqlar. Silah-sursatdan və hərbi qaydalardan başı çıxmayan əsgərləri, zabitləri ələ salırdı. İllah da qorxaqları. Özü qorxu nədir, bilməzdi. Günün hansı vaxtı təmas xəttini keçməyə qaldırsan, silahını götürüb qaçırdı. Elə bil, mal nobatına gedirdi. O, uzun müddət Mayor Poladovun kəşfiyyat bölüyündə xidmət etmiş, hərbi xidmət müddəti başa çatanda evə getməmişdi. Komandirinin xahişi ilə Xanıya gizir rütbəsi verib hərbi hissədə saxlamışdılar.

Boynundan ağır yara almışdı. Hər dəfə söz düşəndə gözləri parıldayırdı. Bilmirdin ağlamaq istəyir, yoxsa qəzəbindən belə görkəm alıb. Əsgər yoldaşı ona görə həyatını qurban vermişdi. Xanı həmin hadisəni mənə danışanda onun niyə belə yanıqlı oxuduğunu anladım:

“Güllə ağzımdan girib, boynumdan çıxmışdı. Huşumu itirirdim. Məni çiyninə alıb atəş altından çıxartdı. Dedim, yerə qoy, ölürəm. Endirdi, ayağım yerə dəyərdəyməz yanımıza mərmi düşdü. Özünü üstümə atdı. Bədəni deşik-deşik olmuşdu. Öldüyünü mənə demədilər. Hospitalda müalicə alıb özümə gələndə bildim...”

Mənə elə gəlirdi, Xanının səsi gümüşü rəngdədir, ona görə oxuyanda dinclik tapıram. Bəzən düşünürdüm ki, Murovda olsaydı, özfəaliyyətimiz tamamlanardı: Qırğı qarmon çalar, Ağsaqqal şeir deyər, Xanı oxuyardı.

“Sənə niyə Xanı deyirlər?” - soruşurdum.

“Uşaqlıqdan səsim yaxşı olub, Xan Şuşinskiyə oxşadıblar.” - cavab verirdi.

“Səni heç kim öz adınla tanımır.”

“Yaxşı ki, tanımır! Adamın adı ya Səyyaf olar, ya

Səyyad. Mənimki Səyyavdır. Belə də ad olar? Hansı ağılla qoyublar, bilmirəm."

"Sən əsl Səyyadsan! Buralarda düşmən ovuna çıxmısan!"

Gözləri gülürdü, bilirdi ki, doğru deyirəm.

## *Kapitan Rəşidov*

Tənbəllik eləmədən Bakıdan Ağdama yola düşdüm. Orucovla görüşüb bir şeyi dəqiqləşdirmək istəyirdim; vəzifə onu korlayıb, yoxsa yox?

Qarovuldan xəbər verən kimi qərargahın girişinəcən gəldi, uzaqdan qollarını açdı: "Rəis, xoş gəlmisən!"

O, zərrəcə dəyişməmişdi.

Mənə çay süzdü. Gözlərinin içinə baxdım. Həminki zabitəni və təmizliyi görüb gülümsündüm:

"Ağdamı almaq üçün sənə nə qədər qüvvə lazımdır?"

"Öz briqadam bəs eləyər!"

Səsindəki arxayınlıq məni onun dediklərinə səmimi-qəlbdən inandırdı. Deyirdisə, edərdi. Hələ bir az da artığını edərdi.

Briqadanın kəşfiyyat bölüyünə getdik. Dedi, sizdən, Murovdan ötrü darıxanda həmişə bu uşaqların yanına gəlirəm. Birini Səfərova oxşadıram, birini Əsədova, birini Mazanova. Amma sizin oxşarınız yoxdur. Özümü də sizin yerinizə qoyuram.

Bölüyün yanındakı boz təpənin üstünə çıxıb Ağdam tərəfə baxdı. Mən təpənin aşağısında idim. Altdan yuxarı onun duruşuna və baxışına nəzər yetirdim. Elə əzəmətli görünürdü ki! O, mənim üçün təkcə igidliyin, qoçaqlığın rəmzi deyil, həm də qələbənin qarantı idi. Milli ordu, milli zabit anlayışı yaddaşıma Orucovun ogünkü məğrur duruşu ilə yazıldı.

## *Komandir*

Qara pişik ağız atıb sağ biləyimdən bir tikə qopartdı, onu yumruqlarımla qovmaq istəyəndə bir də ağız atdı, bir tikə də sol biləyimdən qopartdı. Silahımı axtardım, tapmadım. Silahımı axtarınca çiynimdən də bir tikə qopartdı. Onacan silahı tapdım, ayağa verib tətiyi çəkdim, açılmadı. Pişik ağzını daha sərt açıb, daha cəld hərəkətlə sinəmdən bir topa ət qoparıb geri sıçradı və qaranlıqda yox oldu. Nə qədər çalışırdım, bədənimdən axan qanı saxlaya bilmirdim. Qan bir yerdən yox, dörd yerdən axırdı. Burdan tuturdum, ordan axırdı, ordan tuturdum, burdan...

Onu bu vəziyyətdə görəndə dəli oldum. Çox ağır günlər yaşamışdı, lakin bu qədər sarsıldığı olmamışdı. Üstü-başı qanın içindəydi.

"Öz əlimlə yola saldım! Öz əlimlə! Dörd meyiti birdən qoydum maşına! Onları qoruya bilmədim!" - evdə var-gəl edirdi.

"Müharibədir, hər şey ola bilər, özünü ələ al" - deyirdim

"Yox-yox! Olmaya bilərdi! Məni eşitmədilər! Mənə qulaq asmadılar! Gərək mən də onları eşitməyəydim! Silah verəydim uşaqlara! Təhlükəni hiss etmişdim! Əgər bildiyimi eləsəydim, onlar ölməyəcəkdi!"

Öz doğma balası ölsə, bu qədər sarsılmazdı. Onu sakitləşdirə bilmirdim.

Əl-üzünü yuyub, toza-qana batmış paltarlarını dəyişəndə də sayıqlayırmış kimi danışırdı. Az qalırdı havalana.

"Sürücü göndərəcəm. Hazırlaşın, gedin Sumqayıta, vəziyyət ağırdır!"

İndiyədək bizi Zabildən başqa heç kimlə heç yerə göndərməmişdi. Dediyi son sözlərdən vəziyyətin, doğrudan da, ağır olduğunu anladım. Amma getmədim. Zabilə zəng elədim ki, atasını da götürüb Xındırıstana gəlsin. Gəldilər. Düz bir həftə ondan xəbər çıxmadı.

## *Komandir*

Müharibə başlamışdı. Nəhayət, arzuladığım gün gəlmişdi. Ağdamın üstünə azadlıq yürüşümüz başlayacaqdı. Briqadanı hücuma hazır vəziyyətə gətirmişdim. Gecə silahsız pusquya düşüb şəhid olan istehkamçıların da qisasını alacaqdıq.

Fəqət korpusdan başqa söz dedilər; atəşkəs bərpa olunmuşdu! Ardınca məni mərkəzə çağırdılar. Danışıqlarından belə anladım ki, yerimi dəyişmək istəyirlər. İstefa ərizəmi yazmalıydım.

*Mayor Poladov*

İstehkamçılar gecə yarı qayıdanda pusquya düşmüşdülər. Örtülü "Zil" maşının içində on bir nəfər olublar. Ermənilər maşını atəşə tutub, sürücü qoçaq tərpənib, sükanın arxasında əyilərək maşını sürətlə sürüb aradan çıxarıb.

Orucov belə pusqulardan qorxsaydı, istehkam tikintisində birbaşa iştirak etməzdi. Elə olurdu, traktorçunu ürəkləndirmək üçün onun yanına otururdu. Əslində, briqada komandirinin həyatını bu cür təhlükəyə atması doğru deyildi. Amma o edirdi. Əminəm, istehkamçılara hücum olacağını bilsəydi, əlinə silah alıb təkbaşına onların müdafiəsinə gedərdi.

O, istehkamçıları silahlı dəstənin müşayiəti ilə aparmaq istəmişdi, korpus razılıq verməmişdi. O zaman əsgərlərin özlərinə silah vermək təklifini irəli sürmüşdü, buna da razı olmamışdılar.

Hərbi hissə komandirliyindən istefa versə də, korpusdan saxlamaq istədilər. Kəşfiyyat xidmətinə rəhbərlik təklif olunmuşdu. Razılaşmadı.

***Komandir***

Sevinc təkidlə məni ordudan aralamaq istəyirdi. Deyirdi, o qədər əziyyət çəkdin, bəs edər. Arada onu eşidib təqaüdə çıxmaq barədə düşünürdüm. Amma...

Uzaqdan Yeddixırman dağını görürdüm və geriyə addım atmağı bacarmırdım.

Hərbi hissədən ayrılanda qarovulda mənə balaca bir qutu verdilər. Açdım. İçində smartfon telefon və bir məktub vardı:

*"Əziz komandirim, sizin sayənizdə həyatın nə olduğunu anladım. Yoxsa atasının puluna güvənən avara bir adam olacaqdım. Xahiş edirəm, bu hədiyyəmi səmimiyyətlə qəbul edin. Əsgəriniz Cümşüdov."*

Güldüm. Zabit kimi mənə verilən hədiyyəni ilk dəfə qəbul etdim. Çünki geri qaytarmaq imkanım yox idi. Həm də bu, bir az başqa cür verilirdi. Arxasında heç bir təmənna yox idi. Artıq nə Cümşüdov əsgər idi, nə də mən komandir.

Dostlar yığcam bir məclis düzəltdilər. Orda kefim xeyli açıldı. Məclisdə köhnə dostum, dörd il əvvəl ordudan tərxis olunmuş Piriyev də iştirak edirdi. Xeyli yaşlanmış, ətə-qana gəlmişdi. Dedim, Piriyev, bax, indi getsən, səni səngərə buraxarlar! Qımışdı. Sonra məni qucaqlayıb qəhərləndi, dedi, bizi yetim qoyub gedirsən, camaat sənə güvənib buralarda güzəran düzəldib.

Əlimi əminliklə kürəyinə vurdum, dedim, narahat olma, hər şey yaxşı olacaq.

Xanı məclisin ən şirin yerində Poladova qayıtdı ki, komandir, heyif deyil gizir olmaq, nə yuxarı qalxırsan, nə aşağı yenirsən, zabit rütbəsinə etibar yoxdur.

“Yaxşı əəə!!!” - mənə sataşdığını görüb zarafatla təpindim ona. Yoxsa çox qabağa gedərdi. Xanının dilinə düşdünsə, çətin olar:

“Sən, oxu, Xanı! Danışmağı hamı bacarır.”

Səsini qaldırdı, ömrümün ən gözəl anlarını muncuq kimi Xanının səsinin üstünə düzdüm.

***Sevinc***

Çox təkiddən sonra onu bir həftəlik Toğanaya dincəlməyə apara bildim. Dedim, bəlkə o dağları, meşələri görər, eyni açılar. Olmadı. Əhvalı daha da pisləşdi. Heç kimlə danışmır, dərdini-ağrısını içində çəkir, fikir-xəyaldan ayrılmırdı. Mən də bir yandan düşmüşdüm üstünə, ordudan ayrılmasını istəyirdim.

Üç gün keçməmiş Toğanadan geri qayıtdıq. Anam da yanımızdaydı. Goranboy yolunda ağır qəzaya düşdük. Anamın qolu qırıldı, sürücünün diz qapağı dağıldı, Nihadın ayağını şüşə kəsdi. Nihadı bir az əvvəl qapı tərəfdən götürüb aramıza qoymuşdum, yoxsa o qəzadan sağ çıxmazdı.

Mən huşumu itirmişdim. Özümə gələn kimi onu çağırdım. Başqa heç nə gözümə gəlmədi. Hay verəndə, dedim, İlahi, sənə çox şükür. Ona heç nə olmamışdısa, hər şeyi yoluna qoyacaqdı. Özünü itirmədi. Bizi yolun kənarına çıxardı, yaralarımıza baxdı. “Qorxulu bir şey yoxdur” deyib təskinlik verdi. Arada zarafatlaşdı da:

“O boyda odun-alovun içindən çıx, gəl bu yolun ortasında öl! Allah mənə bu zülmü eləməzdi!”

Dalınca ah çəkdi. Qorxduğunu hiss etdim. Zarafata salsa da, özünə yaraşmayan ölüm onu qorxutmuşdu.

Gəlib-gedənlər maşınları saxlayıb kömək təklif edirdilər. Birdən kimsə onu tanıdı. Başımıza o qədər adam yığışdı ki, yol bağlandı. Əvvəl Goranboy xəstəxanasına, sonra Ağdama getdik. Anamla sürücünü ordan Bakıya yola saldılar. Mən getmədim. Onu tək qoyub gedə bilməzdim.

Gecə dedim, uşaqlar qorxub, sən Aqşinlə yat, mən Nihadla. Üzümə aciz-aciz baxıb dedi: “Məni özünüzdən ayırmayın.”

O an küçədə anasını itirmiş uşaq kimi göründü mənə.

Qəza Allahın bir işarəsiydi. Bizi ayıltdı elə bil. Dedim, əzizim, görürsən, dar məqamda adamın yanında ailəsi qalır, çıx ordudan, gedib həyatımızı yaşayaq, iyirmi beş il xidmət etdin, bəsdir.

"Bəs anam?" - bu kəlməni həmin vaxt söylədi və bu kəlməyə bənd imiş kimi, onu xüsusi təyinatlılara əməliyyat rəisi dəvət etdilər. Arxa cəbhədən gələn heç bir təklifi qəbul etməmişdi, bunu etdi.

Bir gün evə gələndə qoltuğunda möhürlü qovluq vardı. Sən demə, əməliyyat planı imiş. Bunu sonralar anladım.

## *Komandir*

Gümüşü işıq hardaydı, görəsən? Qarabağdan uzaqlarda da gözümə görünərdimi? Bəlkə, imkan tapıb başından şəlalə kimi ağ işıq tökülən o dağın yanın, o dağın altındakı məzarın ağuşuna qaçaydım? Bəlkə, Seyid Lazım ağanın ziyarətgahındakı nurani kişini axtaraydım? Axı niyə bu işıq hər şeydən qabaq anamın tikanlı əllərini yadıma salırdı? Bunun nə mənası vardı? Niyə o tikanların ağrısını indi öz ürəyimdə hiss edirdim?

İnsanın yaddaşı qəribədir. Hansısa şeirdə xatirələrin qəfil yada düşməsini radio dalğasına bənzətmişdilər. Doğrudan da, bəzən elə şeyləri xatırlayırsan ki, bunu yalnız istəmədən eşitdiyin hansısa səsə, musiqiyə bənzədərsən. Mən indi məchul nöqtəyə ünvanladığım bu sualların cavabını da belə qəfil, gözlənilmədən, tamam ayrı şeylər düşünərkən tapdım. 8 Mart ərəfəsi idi. Sinifdəki oğlanlar qızlara hədiyyə almaq üçün 10 manatdan pul yığırdılar. Mən heç vaxt atamdan pul istəməyə ürək eləməzdim, anamda isə pul olmurdu. Fikirli dolanır, nə edəcəyimi bilmirdim. Anam məni çağırdı, mehribanlıqla qucaqlayıb alnımdan öpdü, dedi, niyə bikefsən? Danışmaq istəmədim. Çox təkid etdi. Axırda hər şeyi açıb dedim. Güldü. Dedi, heç pula görə də adam kefini pozar? Qalxdı, düyünçələrini eşələyib bir qırmızı onluq gətirdi. Götürməyə çəkindim, dedim, atam bilər, səninlə dalaşar. Dedi, narahat olma, bu, mənim öz pulumdur, həyətdəki böyürtkənləri yığıb satmışam. Pulu sevincək aldım və qaçdım. Ömrüm boyu heç vaxt o qədər xoşbəxt olmamışdım. Həyat nədir? Ömrün içinə səpələnən xoşbəxt anlar. Deyirlər, yüz yaşlı bir kişi tənbəllik eləmədən xoşbəxt olduğu anların

hesabını aparır və bu qədər ömrün içindən bir-iki saat çıxara bilir.

Mən o an dünyanın ən xoşbəxt adamı olsam da, ömür boyu anamın qabarlı əllərindən utandım. Sanki bunun günahkarı mən idim. Mənim qayğılarım, ehtiyaclarım olmasa, anam bu qədər əziyyət çəkməzdi. Ən böyük arzularımdan biri böyüyüb anam üçün gözəl, rahat bir həyat qurmaq idi. Ancaq gücüm atəş altından çıxarıb torpağa tapşırmağa çatdı və ən dəhşətlisi, o torpağı da qoruya bilmədim.

Bədbəxtliyim o qırmızı onluğu alıb qaçan gündəki xoşbəxtliyimdən qat-qat böyük və əbədi idi. İçimdə elə bir sızıltı vardı ki, bəzən ətrafdakıların eşidəcəyindən qorxurdum.

Niyə biz istəyən olmurdu? Niyə mən iyirmi il sonra da uzaqdan gah ağaran, gah saralan, gah da bənövşəyi rəngə çalan dağlara belə həsrətlə baxırdım?

Onu son dəfə Novruz bayramından iki gün sonra gördüm. Yenə qoltuğunda möhürlü qovluq evə gəlmişdi. Bu dəfə cəsarətimi toplayıb nə olduğunu soruşdum, mənə necə çəp-çəp baxdısa, kiridim.

Bayramın səhəri günü işə tələsirdi, di gəl, maşını həyətdən çıxara bilmədi. Qarşısını kəsən "Niva" kimin idi? Hansı mərtəbədə qalırdı? Onu necə tapaydıq? Bayram gecəsinin səhəriydi, hamı yatmışdı, Allah bilir nə vaxt oyanacaqdılar. Hirsindən maşının təkərini təpikləyir, mən də eyvandan baxıb gülürdüm. Zəng vurub mənə acıqlandı, dedi, Aqşini aşağı göndər. Aqşin getdi, o da bacarmadı. Bu dəfə mən zəng vurdum ona, dedim, sizinki baba-turp məsələsidir, istəyirsən, Nihadla mən də gələk. Dinmədi. Velosiped sürməyə çıxan gənc məhəllə uşaqlarından biri dadına çatdı, maşını çıxarıb ona verdi.

Axşam evə gələndə səhərki məzhəkəni unutmamışdı:

"Sən canın, hamıya yaydın maşın söhbətini?"

Yenə gülmək tutdu məni.

"Bilirəm, məni biabır eləmisən."

Təskinlik verdim:

"Heç kimə deməmişəm."

Gileyləndi:

"Sən mənə o qədər lağ eləyirsən ki, yəqin, qocalanda atıb gedəcəksən."

"Nəyinə lağ edirəm?"

"Nə bilim, paltarıma, ləhcəmə, maşın sürməyimə..."

"Deyirəm səliqəli ol, "problem"ə "broblem" demə, maşın sürməyi öyrən. Pis eləyirəm?"

Səhəri evdən çıxanda möhürlü qovluğunu elə həvəslə

qoltuğuna vurdu ki, əsəbiləşdim. Dedim, vallah, sən belə həvəslə döyüşə gedənə oxşayırsan.

Güzgüdə saçını düzəldə-düzəldə cavab verdi:

"Döyüşə gedəndə nə olar?"

"Bilmirsən nə olar?"

"Uzağı, ölərəm, sənə də şəhid arvadı deyərlər."

Nitqim tutuldu.

Son dəfə evdən çıxdı, son dəfə həyətə düşdü və mən son dəfə pəncərədən onun arxasınca baxdım.

Xüsusi təyinatlıların harda yerləşdiyini bilməsəm də, şəhərdən uzaq olmadığını bilirdim. Günorta nahara gəlməliydi. Ən çox sevdiyi xörəyi bişirdim: kələm dolması! Ancaq gəlmədi, zəng elədi, dedi, alınmır, gələ bilməyəcəm. Sən demə, həmin vaxt ön xəttə doğru hərəkət başlayıbmış.

***Komandir***

Getdiyimiz yüksəklik Murovun sərt qayalarının tədricən əriyib düzənliyə doğru uzanan şərq yamaclarındaydı. İlk baxanda dağlardan ötrü darıxdığımı anladım və gözüm yenə gümüşü işığı axtardı. İndi o işığı təkcə mən yox, hamı hiss edirdi və hamı ona doğru can atırdı. Biz bir dəstə qartal o işığa şığıyırdıq. Qabaqda özüm gedirdim. Çünki bu dağları da, o işığı da məndən yaxşı tanıyan yox idi. Bombardman, dolu kimi yağan güllələr, səs-küy, od-alov, tüstü-his, toz-duman - heç nə bizə mane olmurdu. Hamı mənim kimi vətənin ən böyük sirrindən agah olmuşdu.

***Zabil***

Atamın təkidi ilə çıxıb onlara getdim. Dedim, yəqin, Sevinclə danışmış olar. İmkan tapan kimi öz eviylə əlaqə saxlayırdı, onlar da bizə deyirdi. Bu dəfə heç kimdən səs-səda gəlmirdi. Atam məni yatmağa qoymadı. Sübh tezdən oyatdı. Getdim. Yolda oyuncaq avtomat gördüm. Çox xoşuma gəldi. Nihad üçün aldım. Sevinc qapının gözlüyündən görüb qorxmuşdu.

### *Komandir*

İki gecəydi yatmırdım. Telefonu açmağa da vaxt tapmırdım. Nə qədər yorğun olsam da, içim-içimə sığmırdı. Biz düşmənin əfsanəyə çevirdiyi “Ohanyan səddi”ni darmadağın eləmişdik. İlk və ən əhəmiyyətli yüksəkliyi almaq üçün mən xüsusi təyinatlılardan seçilmiş dəstə ilə düşmənin arxasına keçmişdim. Bizə müqavimət göstərdikləri vaxt əsgərlərimiz yüksəkliyi götürmüşdü. Tezliklə düşmənin dərinliyinə yeriyib mühasirəni yardılar, biz döyüşə-döyüşə azad edilmiş yüksəkliyə qayıtdıq.

Döyüşün dördüncü günü, axşama yaxın imkan tapıb telefonu açdım. Sevinc düz on yeddi dəfə zəng vurmuşdu. Geri yığdım. Top səsi danışmağa imkan vermədi. Blindaja girib təkrar yığdım. Danışdıq.

Düşmən qarış-qarış, addım-addım azad etdiyimiz ən əhəmiyyətli yüksəkliyə qəfil hücuma keçdi. Say və texnika üstünlüyü onlarda olsa da, biz səngəri qoyub gedə bilməzdik.

***Sevinc***

Onunla aprelin 4-ü, Zabil əlində silah qapımızı döyən gün saat 4-5 radələrində danışdım. Bütün günü zəng etmişdim, götürməmişdi. Axşama yaxın özü zəng vurdu. Silah səslərindən nə dediyini eşitmirdim. Bir az kənara çəkilib təkrar yığdı. Dedi, yaxşıyam, amma yuxusuzam. Başqa heç nə soruşa bilmədim. Bircə kəlmə dedim:

"Səni harda axtarım?"

Cavab verdi:

"Qəzaya düşdüyümüz yerdə."

## *Komandir*

Bir göz qırpımında on-on beş atəş açılır, zülmətin bağrıyla uçuşan odlu mərmilər, az qala, havada toqquşurdu. Əvvəlcə üstümüzə gələn zirehli texnikanı, ardınca piyadaları atəşə tuturduq. Səngər düşmən tərəfdən yaxşı möhkəmləndirilməmişdi, mövqe tutmaq asan deyildi. Yenə də kürəyimizi yamaclara söykəyib müqavimət göstərirdik. Özümü Murovun başındakı səngərini axıracan tərk etməyən Cabir kimi hiss edirdim. Sinəm fəxrlə qabarırdı.

"Geri çəkilmirik!"

Əsgərlər səsimi güclə eşidirdi. Mən səsimdən və dediyim sözdən çox hərəkətlərimlə nə etmək lazım olduğunu göstərirdim. İçimlə bir komandir danışır, əlimlə bir əsgər döyüşürdü.

Ölümü lap yaxınlığımda hiss eləsəm də, atışmanın bitməsini istəmirdim. Bu günü düz iyirmi beş il gözləmişdim.

"Pulemyot!" - piyadalar hücum edəndə bu əmri verirdim və hamıdan əvvəl özüm güllə yağdırmağa başlayırdım.

"Qumbaraatan!" - tanklar görünəndə qışqırırdım. Bəzənsə, avtomatı yerə qoyub qumbaraatanı götürürdüm. Tankları tırtılından vuranda yerindəcə qalırdı.

"Qumbara!" - gözləmədiyim cinahdan həmlə olanda əlimi o istiqamətə uzadıb nişangahı göstərirdim.

Hava işıqlanırdı. Hava işıqlandıqca hədəf kimi daha aydın görünürdük. Lakin bu, düşmənin də işini çətinləşdirirdi. Demək olar, patronumuz havayı getmirdi. Vururduq, yıxılırdılar, arxadan yenə gəlirdilər. Yenə vururduq, yenə yıxılırdılar. Bir addıma on əsgər ver-

mək bahasına da olsa, səngəri ələ keçirmək istəyirdilər.

Patronumuz azalırdı.

“Kömək gələnəcən postu əldən verməyəcəyik!”

Heç nəyə baxmadan əsgərləri ürəkləndirirdim.

“Bu, bizim üçün şərəf-ləyaqət məsələsidir!”

Dodaqlarım əsirdi; həm həyəcandan, həm sevincdən.

Qumbaralar qurtardı.

Qumbaraatanlar susdu.

İri bir tank nəriltiylə dayandığımız yamaca qalxdı. Elə bil, mərmilərimizin bitdiyini anlamışdı. Yanındakı piyadaları sərrast atəşlə yerə sərdim. Tank ölən əsgərlərə məhəl qoymadan, hətta bir neçəsini altına alıb xışlayaraq irəli gəldi, onu yalnız sinəmlə saxlaya bilərdim. Səngərdən qalxıb döşümü qabağa verdim və son güllələrimi tankın üstünə yağdırdım. Tank da atəş açdı, mərmi lap yaxınlığıma düşüb partladı və sinəmə odlu qığılcımlar sancıldı.

***Xanı***

Uşaqlara dedim, gözdə-qulaqda olun, belə geniş miqyaslı döyüşlər başlaya, komandir orda olmaya? Hökmən xəbər çıxacaq. Adam bilsə köməyə ehtiyacı var, bir dəstə düzəldib gedər.

## *Komandir*

Əvvəl yandım, sonra göynədim, axırda ağrıdım. Nəfəsim sinəmə tıxanıb qaldı. Aləm yavaş-yavaş qaraldı. Müharibənin alovları söndü, səsləri kəsildi, yalnız Murova tərəf dikələn, bir az da Yeddixırmana bənzəyən, bəlkə də, Yeddixırmanın özü olan qarşı dağın başında bir ovuc işıq qaldı. O işığı görən kimi tanıdım; mənim gümüşü işığım...

## *Qırğı*

Bölüyün həyətindəki daşın üstündə oturan hərbi geyimli adama yaxınlaşdım. Üzünü çevirdi. Qaçıb əllərindən tutdum. Dedim, bilsəydim məni bu qədər gözləmisən, hospitaldan qaçıb gələrdim. Bağışla məni! Anlamamışam. Qarmonçalandan nə gözləyirsən?

Bir də baxdım, nə bölük, nə həyət, nə daş? Evdəyəm, divanda uzanıb ağlayıram. Qəfil içəri girdi. Dedim, qapı arxadan bağlıdır, içəri necə keçdin? Güldü. Məni qucaqladı. Gözümün yaşını sildi. Onu köksümə sıxıb hönkürdüm. Birdən yoxa çıxdı. Əlimi sinəmə atdım. Yaş idi. Həyat yoldaşım mətbəxdən gəldi: "Sən kiminlə danışırdın? Sinən niyə yaşdır? Aman Allah! Qapının cəftəsini indicə vurmuşdum, kim açıb belə?"

*Komandir*

Dağın başındakı gümüşü işıq yavaş-yavaş böyüyürdü. Deyəsən, mənə tərəf gəlirdi. Ürəyimin üstündəki şiddətli ağrıdan xilas olmaq üçün ona tərəf çırpınırdım. İşıq böyüyüb-böyüyüb nəhəng haləyə çevrildi. Ona doğru getmək istədim, ağırlaşmış bədənimi qaldıra bilmədim. Əlimi əlimdən, qolumu-qolumdan, ayağımı-ayağımdan sıyırıb çıxarmağa çalışdım. Bədənimdən sıyrılsam, canımı o ağrıdan qurtarardım.

***Sevinc***

O gecə yuxuda gördüm; Aqşinə öyrətdiyi kimi, mənə əl eləyib gülümsündü.

Dərman atmışdım. Ağrılarını hiss eləmədim. Adam sevdiyinin ən ağır anında necə mışıl-mışıl yata bilər? Adam necə daş olar?

Səhər küçədən uğultu eşitdim, elə bildim, küləkdir. Pəncərədən baxanda insan selinin hayqıraraq həyatimizə doluşduğunu gördüm.

***Komandir***

Dayçamız kişnədi... Fərrux meşəsindəki armudların qoxusu gəldi... Ağ çınqılın seli dayandı... Gizir Səfərov fınxırıb güldü... Qırğı gözlərini qıyıb Göyçə gölünə baxdı... Mazanovun yanağından bir gilə yaş yuvarlandı... Xanı oxudu... Aqşinin uşaqlığı anasının qucağından mənə əl elədi... Ayağımın qəlpələri son dəfə sızıldadı...

Ürəyimin üstündəki ağrıdan sıyrılıb çıxdım və yavaş-yavaş işığa qərq oldum. Əvvəlcə sinəmdəki yaralardan ağ işıq fışqırdı, sonra əlim, qolum, ayağım işığa dönüb bir-birinə qarışdı.

Yeddixırmana bənzəyən dağa tərəf uçanda zirvədə cilvələnən gümüşü işıq anamın təbəssümüylə gülümsədi.

Hardasa uzaqlarda insan seli çırpınır, dalğalanır, uğuldayır, ağuşuna aldığı üç rəngli qayığı sağa-sola yellədə-yellədə tanış bir ünvana aparırdı.

***2018***